AEM

ISSN: 3104-4670
e-ISSN: 2789-6919

# ELMİ TƏDQİQAT

Beynəlxalq Elmi Jurnal

# Scientific Research

International Scientific Journal

# ELMİ TƏDQİQAT

**Beynəlxalq Elmi Jurnal**

**Cild: 5  Sayı: 10**

# SCIENTIFIC RESEARCH

**International Scientific Journal**

**Volume: 5  Issue: 10**

**2025**

## Beynəlxalq indekslər / International Indices

ISSN: 3104-4670
e-ISSN: 2789-6919
DOI: 10.36719

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© aem.az
© info@aem.az

**Təsisçi və baş redaktor**

**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
+994 50 209 59 68
https://orcid.org/0000-0002-5274-0356
tedqiqat1868@gmail.com

**Redaktor**

**Assoc. Prof. Dr. Sevinc SADIQOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
https://orcid.org/0000-0001-8720-3262
sevincsadigova@gmail.com

**Redaktor köməkçiləri**

**PhD Almaz BƏDƏLOVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan
https://orcid.org/0009-0005-0237-8482
doctorant@live.com

**PhD Arzu İSGƏNDƏRZADƏ**, AMEA Nəsimi adına Dilçilik İnstitutu / Azərbaycan
https://orcid.org/0000-0002-2068-736X
arzu.isgandarzada@gmail.com

**Doktorant Könül ABDULLAYEVA**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
https://orcid.org/9009-0006-8968-7428
abdullazadehkonul75@gmail.com

**Tədqiqatçı Şamxal ŞABİYEV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
https://orcid.org/0009-0005-6000-7305
shebiyev85@mail.ru

**Dillər üzrə redaktorlar**

**Prof. Dr. Leyla VƏZİROVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Nigar HƏSƏNOVA**, AMEA Nəsimi adına Dilçilik İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Qəmər ALXANOVA**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
**PhD Leyla SƏFƏROVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

**Elmi sahələr üzrə redaktorlar**

**Prof. Dr. Hacı HƏSƏNOV**, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Prof. Dr. Şəhla SƏMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Yaqut HACIYEVA**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. İlkin ƏLİMURADOV**, Azərbaycan İlahiyyat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Könül HƏSƏNOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Mahir HACIYEV**, ARKTN Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Səyyarə SADIXOVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sarvan HÜSEYNOV**, Qərbi Kaspi Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Xalidə HƏSƏNOVA**, Sumqayıt Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Allahverdi ŞƏRİFOV**, Azərbaycan Texniki Universiteti / Azərbaycan

**REDAKSİYA HEYƏTİ**

**HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR**

**Prof. Dr. Nərgiz AXUNDOVA**, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Prof. Dr. Cavid QASIMOV**, Van Yüzüncü İl Universiteti / Türkiyə
**Prof. Dr. Yerden KAJIBEK**, Qazax dili Akademiyası / Qazaxıstan
**Prof. Dr. İrina KREYDİÇ**, Ukrayna Milli Texniki Universitetinin İqor Sikorski adına Kiyev Politexnik İnstitutu / Ukrayna
**Prof. Dr. Qəzənfər KAZIMOV**, AMEA Nəsimi adına Dilçilik İnstitutu / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa

**Prof. Dr. Natalya MİŞİNA**, Odessa Hüquq Akademiyası / Ukrayna
**Prof. Dr. Toğrul XƏLİLOV**, AMEA Naxçıvan bölməsi / Azərbaycan
**Prof. Dr. Yelena ŞİŞKİNA**, Həştərxan Dövlət Memarlıq-İnşaat Mühəndisliyi Universiteti / Rusiya
**Prof. Dr. Leyla İMAMƏLİYEVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
**Prof. Dr. Cihan ÖZDEMİR**, Biləcik Şeyx Edəbali Universiteti / Türkiyə
**Prof. Dr. Sədaqət HƏSƏNOVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Prof. Dr. Kamal CAMALOV**, Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
**Prof. Dr. Təranə HACIYEVA**, Bakı Mühəndislik Universiteti / Azərbaycan
**Prof. Dr. Elçin İBRAHİMOV**, Qarabağ Universiteti / Azərbaycan
**Prof. Dr. Cavadxan QASIMOV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Gulsanam NOROVA**, Nəvai Dövlət Pedaqogika İnstitutu / Özbəkistan
**Assoc. Prof. Dr. Urfan HƏSƏNOV**, Gəncə Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Faiq ŞAHBAZLI**, ADNSU-nun nəzdində Sənaye və Texnologiya Kolleci / Azərbaycan
**Assoc. Prof. Dr. Əliş AĞAMİRZƏYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elnurə ƏZİZOVA**, Azərbaycan İlahiyyat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. İsmayıl MÜRSƏLOV**, Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. İradə KƏRİMOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elmar XƏLİLOV**, Sumqayıt Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Səbinə TARVERDİYEVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Kulaş MAMİROVA**, Qazaxıstan Milli Qadın Pedaqoji Universiteti / Qazaxıstan
**Assoc. Prof. Dr. Şəkər ORUCOVA**, AMEA Nəsimi adına Dilçilik İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Həbib MİRZƏYEV**, Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sevinc HƏMZƏYEVA**, Sumqayıt Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Andrey RAGULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Leyla ƏLİYEVA**, Qarabağ Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Yeganə MUSTAFAYEVA**, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası / Azərbaycan
**Assoc. Prof. Dr. Günay MƏMMƏDOVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Zabitə TEYMURLU**, Bakı Mühəndislik Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Gülnoz SATTOROVA**, ÖEA Özbək Dili, Ədəbiyyatı və Folkloru İnstitutu / Özbəkistan
**Assoc. Prof. Dr. Rəşad HÜSEYNOV**, Xəzər Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Aytac ZEYNALOVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Qərənfil QULİYEVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**PhD İvan PAVLİİ**, Dallas Beynəlxalq Universiteti / ABŞ
**PhD Günel ƏLİYEVA-MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**PhD Tomas SMEDLEY**, Cenevrə Kolleci, Pensilvaniya / ABŞ
**PhD Qəmər İSAYEVA**, Azərbaycan Texniki Universiteti / Azərbaycan
**PhD İlahə ŞIXƏLİYEVA**, Bakı Dövlət Universiteti / Azərbaycan

**TƏBİƏT ELMLƏRİ**

**Prof. Dr. Rafiq ÇOBANOV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Onur URAL**, Selcuk Universiteti / Türkiyə
**Prof. Dr. Nikolay BRİKO**, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti / Rusiya
**Prof. Dr. Mehmet ÜNLÜ**, Marmara Universiteti / Türkiyə
**Prof. Dr. David MENABDE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Prof. Ali AZQANİ**, Tayler Texas Universiteti / ABŞ
**Assoc. Prof. Dr. Şikar ƏHMƏDOV**, Əkinçilik Elmi-Tədqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Arif HÜSEYNOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elnarə MEHBALIYEVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Şəlalə ZEYNALOVA**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Fəxrəddin AĞAYEV**, Əkinçilik Elmi Tədqiqat İnstitutu /Azərbaycan
**Assoc. Prof. Dr. Sadıq QARAYEV**, ARTN Botanika İnstitutu / Azərbaycan
**Dr. Asif MANAFOV**, ARETN Zoologiya İnstitutu / Azərbaycan
**Dr. Xanzoda YULDAŞEVA**, Tibb İşçilərinin Peşə Kvalifikasiyasının İnkişafı Mərkəzi / Özbəkistan
**Dr. Əfruz NƏSİROVA**, Odlar Yurdu Universiteti / Azərbaycan
**Dr**. **Svetlana QORNOVSKAYA**, Beloserkovsk Milli Aqrar Universiteti / Ukrayna
**Dr. Afaq ƏLİYEVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan

## RİYAZİYYAT VƏ MEXANİKA

**Prof. Dr. Eldar VƏLİYEV**, Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. Eldar MƏSİMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Maarif CƏFƏROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Allahverdi CƏFƏROV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Rövşən HÜMBƏTƏLİYEV**, Azərbaycan Dövlət Dəniz Akademiyası / Azərbaycan
**Assoc. Prof. Dr. Aygün SULTANOVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Ramazan EYYUBOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Lalə QOCAYEVA**, Gəncə Dövlət Universiteti / Azərbaycan

## TEXNİKA ELMLƏRİ

**Prof. Dr. Fəxrəddin YUSUBOV**, Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. Valeriy LİSENKO**, Ümumrusiya Meteoroloji Xidmət Elmi-Tədqiqat İnstitutu / Rusiya
**Assoc. Prof. Dr. Rafiq İBRAHİMOV**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universiteti / Özbəkistan
**PhD Rafiq AĞAMALIYEV**, Milli Aerokosmik Agentliyi, Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutu / Azərbaycan

**Founder and Editor-in-Chief**

**Researcher Mubariz HUSEYINOV**, Azerbaijan Science Center / Azerbaijan
+994 50 209 59 68
https://orcid.org/0000-0002-5274-0356
tedqiqat1868@gmail.com

**Editor**

**Assoc. Prof. Dr. Sevinj SADIGOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
https://orcid.org/0000-0001-8720-3262
sevincsadigova@gmail.com

**Assistant editors**

**PhD Almaz BADALOVA**, Azerbaijan University of Languages / Azerbaijan
https://orcid.org/0009-0005-0237-8482
doctoral@live.com

**PhD Arzu ISGANDARZADEH**, Institute of Linguistics named after Nasimi of ANAS / Azerbaijan
https://orcid.org/0000-0002-2068-736X
arzu.isgandarzada@gmail.com

**PhD student Konul ABDULLAYEVA**, Azerbaijan State Oil and Industry University / Azerbaijan
https://orcid.org/9009-0006-8968-7428
abdullazadehkonul75@gmail.com

**Researcher Shamkhal SHABIYEV**, Azerbaijan Science Center / Azerbaijan
https://orcid.org/0009-0005-6000-7305
shebiyev85@mail.ru

**Language editors**

**Prof. Dr. Leyla VAZIROVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Nigar HASANOVA**, Institute of Linguistics named after Nasimi of ANAS / Azerbaijan
**Assoc. Prof. Dr. Gamar ALKHANOVA**, Azerbaijan Science Center / Azerbaijan
**PhD Leyla SAFAROVA** , Azerbaijan State Pedagogical University / Azerbaijan

**Editors in scientific fields**

**Prof. Dr. Haji HASANOV**, ANAS Institute of History and Ethnology named after A.A.Bakikhanov / Azerbaijan
**Prof. Dr. Shahla SAMADOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Yaqut HAJIYEVA**, Azerbaijan Medical University / Azerbaijan
**Assoc. Prof. Dr. Ilkin ALIMURADOV**, Azerbaijan Institute of Theology / Azerbaijan
**Assoc. Prof. Dr. Konul HASANOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Mahir HAJIYEV**, Animal Husbandry Scientific Research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Sayyara SADIKHOVA**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Sarvan HUSEYNOV**, West Caspian University / Azerbaijan
**Assoc. Prof. Dr. Khalida HASANOVA**, Sumgait State University / Azerbaijan
**Assoc. Prof. Dr. Allahverdi SHARIFOV**, Azerbaijan Technical University / Azerbaijan

**EDITORIAL BOARD**

**HUMANITIES AND SOCIAL SCIENCES**

**Prof. Dr. Nargiz AKHUNDOVA**, ANAS Institute of History and Ethnology named after A.A.Bakikhanov / Azerbaijan
**Prof. Dr. Javid GASIMOV**, Van Yuzuncu Yil University / Turkey
**Prof. Dr. Erden KAJIBEK**, Kazakh Language Academy / Kazakhstan
**Prof. Dr. Irina KREYDICH**, National Technical University of Ukraine «Igor Sikorsky Kyiv Polytechnic Institute» / Ukraine
**Prof. Dr. Gazanfar KAZIMOV**, ANAS Institute of Linguistics named after Nasimi / Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAWA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Natalya MISHINA**, Odessa Law Academy / Ukraine
**Prof. Dr. Toghrul KHALILOV**, Nakhchivan branch of ANAS / Azerbaijan
**Prof. Dr. Yelena SHISHKINA**, Astrakhan State University of Architecture and Construction Engineering / Russia
**Prof. Dr. Leyla IMAMALIYEVA**, Baku Slavic University / Azerbaijan
**Prof. Dr. Jihan OZDEMIR**, Bilecik Şeykh Edebali University / Turkey
**Prof. Dr. Sadagat HASANOVA**, Nakhchivan State University / Azerbaijan

**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia
**Prof. Dr. Kamal JAMALOV**, Nakhchivan Institute of Teachers / Azerbaijan
**Prof. Dr. Tarana HAJIYEVA**, Baku Engineering University / Azerbaijan
**Prof. Dr. Elchin IBRAHIMOV**, Karabakh University / Azerbaijan
**Prof. Dr. Javadkhan GASIMOV**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Gulsanam NOROVA**, Navai State Pedagogical Institute / Uzbekistan
**Assoc. Prof. Dr. Urfan HASANOV**, Ganja State University / Azerbaijan
**Assoc. Prof. Dr. Faig SHAHBAZLI**, Industrial and Technological college under ASOIU / Azerbaijan
**Assoc. Prof. Dr. Alish AGAMIRZEYEV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Elnura AZIZOVA**, Azerbaijan Institute of Theology / Azerbaijan
**Assoc. Prof. Dr. Ismayil MURSALOV**, Nakhchivan Institute of Teachers / Azerbaijan
**Assoc. Prof. Dr. Irada KARIMOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Elmar KHALILOV**, Sumgait State University / Azerbaijan
**Assoc. Prof. Dr. Sabina TARVERDIYEVA**, Baku Slavic University / Azerbaijan
**Assoc. Prof. Dr. Kulash MAMIROVA**, Kazakhstan National Woman Pedogogical Institute / Kazakhstan
**Assoc. Prof. Dr. Shakar ORUJOVA**, ANAS Institute of Linguistics named after Nasimi / Azerbaijan
**Assoc. Prof. Dr. Habib MIRZAYEV**, Azerbaijan Technical University / Azerbaijan
**Assoc. Prof. Dr. Sevinj HAMZAYEVA**, Sumgait State University / Azerbaijan
**Assoc. Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Leyla ALIYEVA**, Karabakh University / Azerbaijan
**Assoc. Prof. Dr. Yegana MUSTAFAYEVA**, Uzeyir Hajibeyli named of Baku Academy of Music / Azerbaijan
**Assoc. Prof. Dr. Gunay MAMMADOVA**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Zabita TEYMURLU**, Baku Engineering University / Azerbaijan
**Assoc. Prof. Dr. Gulnoz SATTOROVA**, Institute of Uzbek Language, Literature and Folklore of the UAS / Uzbekistan
**Assoc. Prof. Dr. Rashad HUSEYNOV**, Khazar University / Azerbaijan
**Assoc. Prof. Dr. Aytaj ZEYNALOVA**, Azerbaijan University of Languages / Azerbaijan
**Assoc. Prof. Dr. Garanfil GULIYEVA**, Baku State University / Azerbaijan
**PhD Ivan PAVLII**, Dallas International University / USA
**PhD Gunel ALIYEVA-MAMMADOVA**, Baku State University / Azerbaijan
**PhD Thomas SMEDLEY**, Geneva College in Beaver Falls, Pennsylvania / USA
**PhD Gamar ISAYEVA**, Azerbaijan Technical University / Azerbaijan
**PhD Ilaha SHIKHALIYEVA**, Baku State University / Azerbaijan

**NATURAL SCIENCES**

**Prof. Dr. Rafig CHOBANOV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Onur URAL**, Seljuk University / Turkey
**Prof. Dr. Akbar AGHAYEV**, Sumgait State University / Azerbaijan
**Prof. Dr. Nikolay BRICO**, First Moscow State Medical University named after I.M.Sechenov / Russia
**Prof. Dr. Ilham SHAHMURADOV**, Institute of Botany of ANAS / Azerbaijan
**Prof. Dr. Mehmet UNLU**, Marmara University / Turkey
**Prof. Dr. David MENABDE**, Kutaisi State University / Georgia
**Prof. Ali AZGANY**, University of Texas at Tyler / USA
**Assoc. Prof. Dr. Shikar AHMADOV**, Agricultural Scientific Research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Arif HUSEYNOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Elnara MEHBALIYEVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Shalala ZEYNALOVA**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Fakhraddin AGHAYEV**, Scientific Research Institute of Agriculture / Azerbaijan
**Assoc. Prof. Dr. Sadig GARAYEV**, ARETN Institute of Botany / Azerbaijan
**Assoc. Prof. Dr. Aliya RZAYEVA**, Institute of Natural Resources of MSERA / Azerbaijan
**Dr. Asif MANAFOV**, Institute of Zoology of MSERA / Azerbaijan
**Dr. Khanzoda YULDASHEVA**, Center for Professional Development of Medical Workers / Uzbekistan
**Dr. Afruz NASIROVA**, Odlar Yurdu University / Azerbaijan
**Dr. Svetlana GORNOVSKAYA**, Beloserkovsk National Agrarian University / Ukraine
**Dr. Afag ALIYEVA**, Nakhchivan State University / Azerbaijan

**MATHEMATICS AND MECHANICS**

**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. Eldar MASIMOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Maarif JAFAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Allahverdi JAFAROV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Rovshan HUMBATALIYEV**, Azerbaijan State Maritime Academy / Azerbaijan
**Assoc. Prof. Dr. Aygun SULTANOVA**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Ramazan EYYUBOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Lala GOJAYEVA**, Ganja State University / Azerbaijan

## TECHNICAL SCIENCES

**Prof. Dr. Faxraddin YUSUBOV**, Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Valery LISENKO**, All-Russian Metrological Service Research Institute / Russia
**Assoc. Prof. Dr. Rafig IBRAHIMOV**, Azerbaijan State Oil and Industry University / Azerbaijan
**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan
**PhD Rafig AGHAMALIYEV**, National Aerospace Agency, Natural Resources Space Research Institute / Azerbaijan

# HUMANİTAR VƏ SOSİAL ELMLƏR

# HUMANITIES AND SOCIAL SCIENCES

DOI: https://doi.org/10.36719/2789-6919/50/9-13

**Həcər Hüseynova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya elmləri doktoru
https://orcid.org/0000-0002-3223-427X
hacerhuseynova@mail.ru

## Azərbaycan milli mətbuatının formalaşması tarixi və "Əkinçi" qəzeti

**Xülasə**

Ölkəmizdə milli mətbuat 1875-ci ildə yarandı. İlk mətbu orqanımız ədəbiyyat sahəsində böyük xidmətləri olan Həsən bəy Zərdabi tərəfindən yaradıldı. Qəzetin "Əkinçi" adlandırılması özü də senzuradan keçirilməsi məqsədi daşıyırdı. Çünki imperiya müsəlman bir ölkədə ictimai-siyasi məqsədlə bir qəzetin yaradılmasına, insanların maariflənməsinə, haqqını tələb etməsinə yol verməzdi. Məlumdur ki, həmin dövrdə – on doqquzuncu əsrdə müəyyən qədər maarifçilik inkişaf etməyə başlamışdı. İlk məktəblərdə ana dilinin tədrisi həyata keçirildi. Bu sahədə M.F.Axundzadənin, S.Ə.Şirvaninin xidmətləri daha çox idi.

S.Ünsizadənin məktəbində şəriətlə, islam tarixinin tədrisi ilə bərabər, dünyəvi elmlərin tədrisi də həyata keçirildi. Bu cür yeni tipli məktəblərin həyata keçirilməsində H.Zərdabi, N.Vəzirov, S.M.Qənizadənin çox böyük zəhməti olmuşdu. Bu və digər maarifpərvər ziyalılar Azərbaycan xalqının, fəhlə və kəndlilərin savadlanması məqsədilə bir mətbuat nümunəsi yaratmağı qərara alırlar. Çünki xalqın savadlanması, haqlarını başa düşməsi üçün ana dilində belə bir qəzetə ehtiyac vardı. Həmin ilk anadilli mətbuat "Əkinçi" oldu.

***Açar sözlər:*** *mətbuat, nəşr, qəzet, maarifçilik, "Əkinçi"*

**Hajar Huseynova**
Azerbaijan State Pedagogical University
Doctor of Philology
https://orcid.org/0000-0002-3223-427X
hacerhuseynova@mail.ru

## The History of the Formation of the Azerbaijani National Press and the Newspaper "Ekinchi"

**Abstract**

The national press in our country was established in 1875. Our first press was founded by Hasan bey Zardabi, who had great services in the field of literature. The very naming of the newspaper "Ekinchi" was intended to prevent censorship. Because the empire would not allow the creation of a newspaper with socio-political purposes in a Muslim country, to educate people, and to demand their rights. It is known that at that time, in the nineteenth century, enlightenment began to develop to a certain extent. The teaching of the native language was carried out in the first schools. M.F.Akhundzadeh, S.A.Shirvani had more services in this field.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

In S.Unsizadeh's school, along with teaching Sharia and Islamic history, secular sciences were also taught. H.Zardabi, N.Vazirov, S.M.Ganizadeh made a great effort in implementing such newtype schools. These and other enlightened intellectuals decided to create a model of the press for the education of the Azerbaijani people, workers and peasants. Because there was a need for such a newspaper in the native language for the education of the people and for them to understand their rights. That first native-language press was "Ekinchi".

***Keywords:*** *press, publication, newspaper, enlightenment, "Ekinchi"*

## Giriş

Azərbaycanda milli mətbuatın inkişafı və mətbuat vasitəsilə insanların maarifləndirilməsi "Əkinçi" ilə balamışdır. Azərbaycan milli mətbuatı xalqımızın maariflənməsi, milli özünüdərk və ictimai şüurun inkişafında mühüm rol oynamışdır. Mətbuatın inkişafı Azərbaycan cəmiyyətində ideya axınlarının formalaşmasına, milli-mədəni oyanışa, dil və ədəbiyyatın təbliğinə səbəb olmuşdur. XIX əsrin ikinci yarısından etibarən bu proseslər daha sistemli şəkildə inkişaf etməyə başlamış və ilk milli qəzet olan "Əkinçi"nin nəşri ilə öz zirvə nöqtəsinə çatmışdır.



"Əkinçi" qəzetinin ilk sayı (22 iyul 1875)

Zərdabinin fikri ilə desək, qəzet millətin aynasıdır, xalqın dili, gözü, qulağıdır. "Əkinçi" Azərbaycan dilində yayımlanan ilk milli qəzet olmuşdur. Min səkkiz yüz yetmiş beşinci ildə nəşrə başlamış, min səkkiz yüz yetmiş yeddinci ildə nəşri dayandırılmışdır. Qəzetin birinci nömrəsinin yayımlandığı iyirmi iki iyul tarixi Azərbaycanda Milli Mətbuat günü kimi qeyd edilir. Qəzet cəmi iki il, ayda iki dəfə olmaqla, əlli altı sayı çap olunmuşdu.

**Tədqiqat**

I. *"Əkinçi" qəzetinin yaranmasının əsas məqsədi:* Min səkkiz yüz yetmiş beşinci il iyirmi iki iyul tarixində Həsən bəy Zərdabinin təşəbbüsü ilə nəşrə başlayan "Əkinçi" qəzeti ilə milli mətbuatımızın təməli qoyuldu.



"Əkinçi" qəzeti Rusiya imperiyası daxilində türkdilli və islam coğrafiyasında ilk dünyəvi qəzet hesab olunur. Həsən bəy Zərdabi bu nəşrlə Azərbaycan xalqını savadlanmağa, maariflənməyə, kənd təsərrüfatı və elmi biliklərə yiyələnməyə təşviq edirdi və yazırdı ki, milləti irəli aparmaq üçün gərək maarif yayılsın, elmi biliklər sadə dildə xalqa çatdırılsın. "Əkinçi" qəzeti, Həsən bəy Zərdabinin təşəbbüsü ilə Azərbaycan xalqının maariflənməsi və məlumatlandırılması məqsədilə yaradılmışdır. Qəzetin əsas məqsədi kəndlilərin və sadə insanların problemlərini gündəmə gətirmək və onları işıqlandırmaqdan ibarət idi.

II. *Qəzetin məzmunu və dili:* "Əkinçi" qəzeti Azərbaycan mətbuatının beşiyi olmaqla yanaşı, xalqın maariflənməsi, milli kimliyin formalaşması, elmin və təhsilin yayılması üçün əvəzsiz platforma rolunu oynamışdır. Onun açdığı yol müasir dövrdə də milli mətbuatın əsas mənəvi dayaqlarından biri kimi dəyərləndirilir. Qəzet vasitəsilə Zərdabi Azərbaycan yazılı ədəbi dilində ilk dəfə durğu işarələrindən istifadə etmişdir.

*"Əkinçi"yə qədər və ondan sonra Azərbaycanda mətbuatın inkişafı.* Azərbaycan mətbuatı XIX əsrdə formalaşmağa başlamış, ilk dövrlərdə maarifçilik ideyalarının yayılmasına xidmət etmişdir. Mətbuatın təşəkkülü ilə publisistik üslub da dilimizdə müstəqil üslub kimi formalaşmağa başlamışdır. Bu prosesin ilk və əsas mərhələsi "Əkinçi"qəzetinin nəşri ilə bağlıdır.

1.*Əkinçiyə qədərki dövr.* Əkinçidən əvvəl Azərbaycanda çap olunmuş mətbuat nümunələri, əsasən, xaricdə nəşr edilmişdir. Lakin XIX əsrin ortalarına doğru rus dili ilə yanaşı, Azərbaycan (türk) dilində də mətbu sözə ehtiyac yaranmışdı. Dövrün əsas məqamları: şifahi xalq ədəbiyyatı və məktub janrı mətbuat üslubunun ilkin təzahür formaları idi; Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabi kimi ziyalıların yazışmaları və çıxışları publisistik üslubun ideya və forma cizgilərini hazırlamışdı.

1875-ci il Bakıda nəşrə başlayan "Əkinçi"qəzetinin əsas məqsədi maarifçilik, xalqın savadlandırılması və cəmiyyətdə oyanış yaratmaq idi. "Əkinçi"nin əsas cəhətləri: sadə, anlaşılan dildə yazılması; publisistik üslubun əsas nümunələri kimi qısa, fikrə yönəlmiş, dialoq şəkilli yazıların yer alması; qəzetin dilinin xalq danışıq dilinə yaxın olması və buna görə də geniş oxucu kütləsi üçün əlçatan olması; sosial ədalət, əkinçilik, təhsil, tibb sahəsində maarifləndirici məqalələrin yer alması və s. idi.

II. *"Əkinçi"dən sonrakı dövr – mətbuatın çoxşaxəli inkişafı:* Əkinçidən sonra bir-birinin ardınca milli qəzet və jurnallar nəşr olunmağa başladı: "Ziya" (1879), "Kəşkül" (1880), "Şərqi-rus" (1903), "Molla Nəsrəddin" (1906), "Füyuzat" (1906) və b. buna nümunədir (Hüseynova, 2025). "Ziya", "Ziyayi-Qafqaziyyə", "Kəşkül" və digər mətbu orqanlar "Əkinçi"nin təməli üzərində yaranıb mükəmməlləşməyə başladı. Həmin mətbu orqanları "Əkinçi"nin nəşrindən sevinən Ünsizadə qardaşları təsis etmişdilər. Lakin sovet dövründə bu mətbu orqanlara doğru olmayan şərhlər yazmaqla onları gözdən salmağa çalışır, yanlış fikir formalaşdırırdılar. Əslində, təsisçilər öz səhifələrində həm islamı təbliğ edir, həm də geniş xalq kütləsinin maariflənməsi məqsədilə dünyəvi məsələləri işıqlandırırdılar. İnsanları Avropada baş verən, həyata keçirilən yeniliklərlə tanış edirdilər. Onların sayəsində xalqda həyata, ədəbiyyata yeni münasibət formalaşır, təhsilə maraq artırdı. Ən mühüm məsələ isə ölkədə mətbuatın inkişafı, bu sahədə fəaliyyətin artıq formalaşması idi. Mətbuatın inkişafı ilə ölkədə yeni ədəbi janrlar formalaşmağa başlamışdı. Satirik yazılar, esselər, məktublar kimi yeni janrların formalaşması da həmin dövrə təsadüf edir.

İlk mətbu orqan "Əkinçi"dən başlayaraq jurnalistika da inkişaf etdi, jurnalistlər məktəbi formalaşdı. Onlara aid olan peşə məsələləri, prinsipləri yarandı. Mətbuat üslubu təşəkkül etdi və getdikcə inkişaf etməyə başladı. Qəzet ana dilində nəşr edildiyi üçün ana dilimizin rəsmi ünsiyyət vasitəsi kimi işlənməsi fəallaşdı. Milli təəssübkeşliyi ilə seçilən ziyalılar qəzetin ətrafına toplaşdılar. Bu isə söz yox ki, imperiyanın prinsiplərinə zidd idi. Buna görə də qəzetin nəşr edilməyə başlaması ilə bağlanması arasında çox az bir zaman keçdi. Qəzetin bağlanması, qadağan edilməsi ictimai-siyasi proseslərin nəticəsi oldu.

On doqquzuncu əsr Rusiyada min səkkiz yüz altmış beşinci ildə qəbul edilmiş "Senzura qanunu"na əsasən yeni bir milli mətbu orqanın yaradılması üçün icazə almaq çox çətin məsələ idi. Azərbaycan ziyalılarından H.Zərdabi hələ bir neçə il öncə qəzet yaratmaq fikrinə düşmüşdü. Lakin onun bu arzusunun reallaşmasına uzun illər çar Rusiyası icazə vermədi. Hənifə xanımın xatirələrində

bu haqda belə yazılmışdır (Xudiyev, 2012): "Qəzetin nəşri üçün dönə-dönə müraciət etməmizə baxmayaraq, yalnız yeddi ildən sonra biz buna nail olduq. Və qəzetin adı ona görə "Əkinçi" qoyuldu ki, guya burada yalnız əkin-biçin məsələlərindən bəhs olunacaq..." (Xudiyev, 2012). Qəzetin birinci sayında Zərdabi qəzetdə hansı məsələlərdən bəhs olunacağı haqqında müfəssəl məlumat verdi və qəzetin məramnaməsi bu şəkildə yayımlandı:

1) Daxiliyyə. Bu hissədəki yazılar qəzetin müxbiri tərəfindən yazılacaqdı.
2) Əkin və ziraət xəbərləri. Bu hissədə ölkədə və qonşu ölkələrdə əkin məsələləri, şumlama, gübrələmə və sahə ilə bağlı bütün məsələlərdən danışılacaqdı. Burada yeni növlərin yaradılması, məhsuldarlığın artırılması kimi məsələlərə diqqət yetirilməsi nəzərdə tutulurdu.
3) Elmi xəbərlər hissəsində elmdən, elmi araşdırmalardan, elmi yeniliklərdən və elmin cəmiyyət üçün faydasından danışılacaqdı.
4) Təzə xəbərlər sırasında ticarət xəbərlərindən, məhsulların satılmasından, hansı yolla alqı-satqının səmərəliliyinin artırıla bilinəcəyindən daçışılacaq, xalqa məsləhətlər veriləcəkdi (Aşırlı, 2009).

Təsnifatdan da göründüyü kimi, Zərdabi qəzetdə əsas ideya istiqaməti kimi, dörd şöbənin olmasını planlamışdı. Lakin qəzetə marağın getdikcə artması, insanların öz dərdlərini burada ifadə etməyə çalışması nəticəsində yeddinci nömrədən sonra artıq qəzetdə artan tələbatın nəticəsində "Məktublar" şöbəsi də fəaliyyətə başladı.

Qəzet eyni zamanda, yalnız Azərbaycanda deyil, bütün Rusiyada müsəlman əhalinin diqqətini cəlb etdi. Qəzetə olan maraq getdikcə artırdı. "Əkinçi"ni Dağıstanda, Mərkəzi Asiyada, Sibirdə böyük maraqla oxumağa başlamışdılar. Qəzetlə bağlı yenə Hənifə xanımın xatirələrindən oxuyuruq ki, qəzet yayıldığı ərazilərdə bütün müsəlmanları qəflət yuxusundan ayıltmışdı. Qəzetin ilk abunəçiləri Omskdan, Tümendən və digər yerlərdən olan sibirlilər, Ufadan, Orenburqdan olan tatarlar idilər (Məlikova, 1939). Zərdabinin bütün fəaliyyəti xalqın inkişafına yönəlmişdi, mayası vətənpərvərlikdən yoğrulmuşdu. Zərdabi başa düşürdü ki, elə bir dövr gəlib çatmışdır ki, xalqı cəhalətdən, köləlikdən qurtarmağın yolu ancaq mətbuat ola bilər. Məlumdur ki, Zərdabi hələ Qubada məhkəmə işlərində çalışarkən belə bir fikrə düşmüşdü. Zərdabi ilk dəfə başa düşmüşdü ki, kütləvi informasiya vasitəsi elmin, maarifçiliyin əsası ictimai şüurun oyanması üçün ən mühüm, əvəzsiz vasitədir.

Bu işdə ona A.Bakıxanovun qardaşı maddi dəstək olmaq üçün söz vermişdi. O yazırdı: "Hər bir vilayətin gərək öz qəzeti olsun. Yaxşı-yamanı aşkar eləsin, xalqın dərdi-səri orada çap olunsun ki, o qəzetə baxan xalqı güzgüdə gördüyü kimi görsün" ("Əkinçi", 2005). Bu cür dərin fikirlər müasir mətbuatımız üçün də əsas şüar, əsas prinsip olmalıdır. O dövrün maarifçi-realistləri Zərdabinin fikirlərini alqışlayır və ona dəstək olmağa çalışırdılar. Həm maddi, həm mənəvi olaraq Zərdabinin yanında olur, dəyərli məqalələri ilə qəzetdə çıxış edirdilər. Həmin ziyalılar, əsasən, milli dramaturgiyanın banisi M.F.Axundzadə, S.Ə.Şirvani, N.Vəzirov, Ə.Gorani və başqaları idi. Onlar Zərdabinin mətbu orqan yaratmaq fikrini, bu məqsədlə mübürizə aparmasını, qəzetin nəşrinə nail olmasını eşidib çox şad olmuşdular. Hər zaman qəzetin ətrafında olacaqlarına söz vermişdilər. Qəzetin səhifələrində S.Ə.Şirvaninin satiraları olduqca rəğbətlə qarşılanırdı.

Bu satiralarda S.Əzim dövrün ən vacib məsələlərinə toxunurdu. Qəzeti yüksək qiymətləndirən S.Ə.Şirvani xalqın həyatında qəzetin böyük əhəmiyyəti olduğunu şeirlərində dönə-dönə vurğulayırdı. N.Vəzirovun ilk publisist məqalələri "Əkinçi"də nəşr edilmişdi. Zərdabinin tələbələrindən Əsgər ağa Gorani "Əkinçi"nin nəşrini alqışlamış, bu qəzetdə qırxdan çox məktub nəşr etdirmişdi. Qəzetin hər sayında, "Məktublar" bölməsində onun məktubları çap edilirdi.

Müstəqilliyini əldə etdikdən sonra Azərbaycanda bütün sahələrdə baş verən inkişaf mətbuat sahəsində də özünü göstərir (Hüseynova, 2025; Əhmədov, 2010). Prezident İlham Əliyev cənabları bunu belə qiymətləndirmişdir: "Bu gün Azərbaycanda azad cəmiyyət formalaşıb. Mən cəmiyyətdə gedən prosesləri yüksək qiymətləndirirəm. Azərbaycan cəmiyyəti milli ideya ətrafında birləşmişdir. Əlbəttə ki, burada mətbuatın rolu həddindən artıq əhəmiyyətlidir. Azad mətbuatın artıq formalaşması və uğurla fəaliyyət göstərməsi demokratiyanın əsas əlamətlərindən biridir" (İlham Əliyev milli mətbuatın yaradılmasının 140 illiyi münasibətilə Mətbuat Şurasının İdarə Heyətinin üzvləri ilə görüşüb, 2015).

## Nəticə

"Əkinçi"dən öncə sadə yazışmalarla, məktub formasında cızılmış publisistika sonrakı dövrlərdə genişlənərək milli düşüncənin daşıyıcısı olmuş, dil və üslub baxımından mükəmməlləşmişdir. "Əkinçi" qəzetinin rolu yalnız mətbuat tariximiz üçün deyil, Azərbaycan ədəbi dili və funksional üslub sisteminin inkişafı üçün də əvəzsiz rola malik olmuşdur.

"Əkinçi"dən sonra inkişaf edən mətbuat 1990-cı illərdən sonra senzuranın aradan qalxması və kütləvi informasiya vasitələrinin artması ilə daha sərbəst inkişaf etməyə başladı. Publisistik üslubun yeni formaları – internet publisistikası, bloqlar, sosial media yazıları və s. yarandı.

## Ədəbiyyat

1. Axundov, N. (1965). *Azərbaycanda dövri mətbuat*.
2. Aşırlı, A. (2009). *Azərbaycan mətbuat tarixi* (I hissə).
3. *"Əkinçi" tam mətni. 1875–1877.* (2005). "Avrasiya".
4. Əhmədov, N. (2010, iyul). Azərbaycan mətbuatı yeni inkişaf dövrünü yaşayır. *Xalq qəzeti*. https://www.anl.az/down/meqale/xalqqazeti/2010/iyul/129287.htm
5. Hüseynova, H. (2025). Sosiolinqvistikanın müasir çağırışları və Azərbaycan cəmiyyətində dil məsələləri. *Elmi Tədqiqat Beynəlxalq Elmi Jurnal*, 5(5), 7–11.
6. Xudiyev, N. (2012). *Azərbaycan ədəbi dili tarixi*.
7. Əliyev, İ. (2015, iyul 21). *İlham Əliyev milli mətbuatın yaradılmasının 140 illiyi münasibətilə Mətbuat Şurasının İdarə Heyətinin üzvləri ilə görüşüb*. https://president.az/az/articles/view/15874
8. Məlikova, H. (1939). Həsən bəy Məlikov Zərdabinin tərcümeyi-halı. *Revolyusiya və kultura*, (6).
9. Mirzəbəyli, İ. (2024). *And və əməl: məqalələr toplusu*. Mütərcim.
10. Sadıqova, S. (2000). *Azərbaycan dövri mətbuatının ümumi xarakterli biblioqrafik mənbələri*.
11. Vəliyeva, S. (2016). *İşığa gedən yol*. Zərdabi LTD MMC.
12. Zeynalov, N. (1973). *Azərbaycan tarixi* (I hissə). ADU.

Daxil oldu: 12.05.2025
Qəbul edildi: 06.10.2025

DOI: https://doi.org/10.36719/2789-6919/50/14-17

**Mahir Qəribov**
Bakı Dövlət Universiteti
tarix üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0002-8183-5802
mahir_garibov@yahoo.com

# Əhməd bəy Ağaoğlunun "Hikmət" qəzetindəki yazılarının ideoloji istiqamətləri

## Xülasə

Azərbaycan XX əsr ictimai-siyasi fikrinin görkəmli nümayəndələrindən olan Əhməd bəy Ağaoğlunun dünyagörüşü və ideya sisteminin formalaşmasında Avropada aldığı təhsil və həmin mühitin demokratik dəyərləri mühüm rol oynamışdır. Onun düşüncə tərzində millətçilik, türkçülük ideyası hər zaman ön planda olmuşdur. Fransada təhsilini başa vurduqdan sonra vətənə qayıdan Əhməd bəy türkçülük ideyasının tərəfdarlarından biri kimi tanınmaqla yanaşı, bu dövrdən etibarən milli mətbuatda millətçilik və ideologiya ilə bağlı məqalələr dərc etməyə başlamışdır. O, Azərbaycanın "Kaspi", "Həyat", "İrşad", "Tərəqqi" və sonradan Türkiyədə "Şurayı-Ümmət" və "Hikmət" qəzetlərində türkçülük ideologiyasının tarixi kökləri və inkişaf yolunu göstərmişdir. Milli və mənəvi dəyərlərə, eləcə də tarixi köklərə sədaqət onun düşüncə tərzində mühüm yer tutan amillərdən olmuşdur. Azərbaycan ideologiyasının ilkin mərhələsini təşkil edən türkçülük ideyası müstəqil dövlətimizin, Azərbaycan Respublikasının formalaşmasında mühüm rol oynamışdır. Bu baxımdan, böyük ideoloq və vətənpərvər Əhməd bəy Ağaoğlunun fəaliyyəti yüksək dəyərləndirilməlidir.

***Açar sözlər:*** *Əhməd bəy Ağaoğlunun milli-ideoloji baxışları, mətbuat tarixi, "Hikmət" qəzeti, "Həyat" qəzeti, "İrşad" qəzeti, demokratiya və milli düşüncə təbliğatçıları*

**Mahir Garibov**
Baku State University
PhD in History
https://orcid.org/0009-0002-8183-5802
mahir_garibov@yahoo.com

# The Ideological Directions of Ahmad Bey Agaoglu's Articles in the "Hikmet" Newspaper

## Abstract

The worldview and ideological system of Ahmad bey Agaoglu, one of the prominent representatives of Azerbaijani socio-political thought in the 20th century, were significantly shaped by the education he received in Europe and the democratic values of that environment. In his way of thinking, the ideas of nationalism and Turkism always held a central place. After completing his education in France and returning to his homeland, Ahmad bey became known not only as one of the advocates of the idea of Turkism, but also began publishing articles on nationalism and ideology in the national press from that period onward. He was describing the historical origins and development path of the national ideology of Turkism in the newspapers "Kaspi", "Hayat", "İrshad", "Taraqqi" in Azerbaijan and then "Şurau-i Ummet" and "Hikmet" in Turkey. Loyalty to national and spiritual values and historical roots were among the factors that played an important role in his way of thinking. The idea of Turkism, which is the initial stage of the Azerbaijani ideology, played an important role in the formation of the independent Republic of our nation. In this work, the services of the great ideologist and patriot Ahmet Agaoglu are very valuable.

***Keywords:*** *National ideological views of Ahmet Agaoglu, history of the press, Hikmet newspaper, Hayat newspaper, Irshad newspaper, Democracy and propagandists of national thinking*


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Giriş

"Hikmət" qəzeti 1910-1912-ci illərdə Şehbenderzadə Filibeli Əhməd Hilmi tərəfindən İstanbulda nəşr edilən və bütün Osmanlı ərazisini əhatə edən nəşrlərdən biri olmuşdur. Qəzet öz səhifələrində tarix, ədəbiyyat, xəbər, fəlsəfə və siyasət mövzularına yer verirdi. "Hikmət" qəzetinin şüarı "İttihad hayattır, tefrika memattır" ("Birlik həyatdır, parçalanma ölüm") idi və "İttihad-ı İslam" ideyasını mətbu sahədə irəli sürürdü (Tepekaya, 2005, s. 42). Qəzet yalnız Osmanlı sərhədləri daxilində deyil, Qafqazdan Orta Asiyaya, Misirdən Hindistana qədər İslam dünyasında geniş oxucu auditoriyasına malik olmuşdur. Qəzetin əsas məqsədi İslam dünyasının intibahına töhfə vermək, Qərbin ideoloji təsirinə qarşı durmaq və müsəlmanların həmrəyliyini gücləndirmək idi (Koçak, 2012, s. 17). İslam dünyasında yaşanan hadisələr Afrika, Balkan yarımadası, Qafqazlar, Orta Asiya və digər coğrafiyalarda yaşan müsəlmanlar və onların problemləri haqqında məlumatları oxucuların diqqətinə çatdırırdı. Qəzetin əsas yazarlarından biri də Ağaoğlu Əhməd bəy idi. O, Avropada təhsil aldığı illərdə Qərb fəlsəfəsi və təfəkkürünü öyrənməklə yanaşı türk-islam mədəniyyətinə dərindən bələd olan bir mütəfəkkir idi. Onun irəli sürdüyü fikirlər və ideyalar milli oyanış, mədəni intibah və milli şüurun güclənməsi prosesində cəmiyyətin maarif səviyyəsini yüksəltməyə xidmət edirdi. Əhməd bəy Ağaoğlu "Hikmət" qəzetində İslam dünyasının çağdaş problemlərinə, Osmanlıda aparılan islahatlar, Qərb dövlətləri ilə münasibətlər, xüsusilə Rusiya imperializmi altında yaşayan türk müsəlman xalqlarının problemlərinə dair dərin təhlillər aparmışdır. Ağaoğlu Osmanlının daşıdığı türk-islam mədəniyyəti və yenilikçi Qərb düşüncə tərzinin necə uzlaşdırılacağına dair fikirlərini "Hikmət" qəzetindəki məqalələrində açıqlamışdır. Qəzetinin başlıca məqsədi Osmanlı və İslam dünyasında "İntibah-ı İslam"a töhfə vermək olmuşdur. "İttihad-ı İslam" hərəkatının geniş yayıldığı arealda "Hikmət" qəzeti məhz bu idealı təbliğ edirdi (Evcimik, 2012, s. 2). Ağaoğlunun düşüncə tərzi, yazdığı maqalələrdə islami vəhdətin yaradılması, milli-mənəvi dəyərlərə sadiqlik, tarixi irsə bağlılıq əsas amillərdən idi. O, milli mədəniyyətin inkişafını millətin tərəqqisinin əsas şərti kimi qiymətləndirərək yazırdı ki, milli dirçəlişin təməli maariflənmədir. Maarifçilik ideologiyasına əsaslanan bu yanaşma ona əsas verir ki, xalqın mədəni səviyyəsinin yüksəldilməsi, müasir biliklərə yiyələnməsi milli inkişafın əsas vasitələrindən biri hesab olunsun.

**Tədqiqat**

*Tarixi kontekst və "Hikmət" qəzeti*. Əhməd bəy Ağaoğlu Fransanın Sarbonne Universiteti məzunu olması səbəbiylə Qərbin müsbət tərəflərini götürməyin tərəfdarı olmaqla yanaşı, təəssübkeşlik adına Qərbə kor-koranə qarşı çıxanları da tənqid edirdi. Onun fikrincə, millət ancaq o zaman tərəqqi edə bilər ki, həm öz tarixi və mədəni kimliyinə sahib çıxsın, həm də çağdaş dünyanın elmi, texnoloji və sosial yeniliklərini mənimsəsin. "Hikmət" qəzeti çox keçmədən Osmanlıda maraqla qarşılandı və abunəçilərinin sayı üç minə qədər yüksəldi. Qəzetə ünvanlanan məktublardan aydın olur ki, qəzet mədrəsə, Darüşşafaka tələbələri, həmçinin ziyalılar tərəfindən böyük rəğbət gördü (Ağaoğlu, 1911, s. 59). Qəzet vətənpərvərlik ideyasını yalnız emosional bir bağlılıq kimi deyil, vətəndaş məsuliyyəti və cəmiyyət qarşısında bir borc kimi izah edirdi. Əhməd bəy Ağaoğlu da yazılarında hesab edirdi ki, vətənpərvərlik yalnız torpaq sevgisi deyil, eyni zamanda vətənin tərəqqisinə yönəlmiş məqsədyönlü fəaliyyət, xalqın maariflənməsi və milli kimliyin qorunması istiqamətində göstərilən əməllərlə ölçülməlidir. Bu baxımdan onun vətənpərvərlik konsepsiyası həm mənəvi, həm də praktik çalarlar daşıyırdı. Qəzetin bu nəşr siyasəti ilə yanaşı, Ağaoğlunun fikirlərindəki qətiyyət və məntiqi dəqiqlik onun bir yazar kimi nüfuzunun daha da artmasına səbəb oldu. Ağaoğlu "Türk Birliyi" və "İttihadı İslam" ideyasını cəmiyyətin nicatı olduğuna inanır və qəzetdə bu birlik, vəhdət ideyasını təbliğ edirdi (Mustafa, 2019, s. 79). Xüsusilə də qəzetin hər sayının son səhifəsində dərc olunan "Bir həftənin hadisəsi" qısaca "Həftənin hadisələri" bölməsində müxtəlif hesablamalarla Avropa ölkələrinin siyasi oyunları, onların oynadıqları rollar yer alırdı.

*Əhməd bəy Ağaoğlunun yazılarında milli və ideoloji görüşlər. İslamçılıq və İttihad-ı İslam.* Əhməd bəyin "Hikmət" qəzetindəki yazılarından aydın görünür ki, o, İttihad-ı İslam ideyasına böyük önəm verirdi. Ağaoğluna görə İslam dünyasının zəifliyi onun parçalanmasından irəli gəlir və bu parçalanmanın qarşısını almaq üçün ortaq mənəvi dəyərlər ətrafında birləşmək vacibdir. "Özünü cahil və fanatik bir mühitə bəyəndirmək üçün xidmət göstərənlər arasında rəqabət və mübarizə elm və

maarif sahəsində deyil, cəhalət və fanatizmin meydanında baş verir. Belə bir uğur isə geniş kütlənin məntiqinə daha çox uyğunlaşmaqla, mühitdə hökm sürən xurafat və əfsanələrə daha çox meyil göstərməklə əldə olunur. Bu isə bir xalq, bir millət, bir dövlət üçün öldürücü bir hal deməkdir və təəssüf ki, bu ikinci vəziyyət bu gün İslam aləmində hökmrandır" (Göküş, 2013, s. 200). Ağaoğlunun "Hikmət"dəki yazılarını milli və ideologiya prizmasından anlamaq üçün bu məqalələrdə tez-tez rastlanan əsas motivləri aşağıdakı mövzular üzrə qruplaşdırmaq mümkündür:

*Milli birlik və türkçülük,*
*İslamçılıq və İttihad-ı İslam ideyası,*
*Qərbçilik və mədəni islahatlara yanaşma,*
*Milli özünüdərk və xalqın rifahı.*

Əhməd bəy Ağaoğlu "İçtimaiyyətin diqqəti" başlıqlı yazısında qeyd edirdi ki, qəzetdəki yazılar dünyanın hər yerindən ucalan fəryadı, bütün müsəlmanların səsini dinləməyi özünə borc bilən bir mətbu orqan kimi çıxış edir. Şərq insanının düşdüyü bu cəhaləti, fanatizmi və ümidsizliyi dəyişməz bir tale kimi qəbul etmələrinə qarşı çıxan Ağaoğlu, mövcud çatışmazlıqların aradan qaldırılması üçün həmin insanların keçmişdən günümüzə qədər formalaşmış milli və mənəvi dəyərlərinə sahib çıxmalarının vacib olduğunu vurğulayır. Ona görə bu məqsədə çatmağın ən asan və ən qısa yolunun, uşaqlara və gənclərə həm milli, həm də dini duyğuları aşılayacaq bir təhsil anlayışını verməkdən keçdiyini göstərir (Ağaoğlu, 1912, s. 69).

*Türkçülük və milli kimlik.* Ağaoğlu millət anlayışını "təkcə etnik bağlılıq deyil, ortaq tarix və mənəvi dəyərlərlə bütünləşmiş cəmiyyət" kimi qəbul edirdi (Akçura, 1944, s. 24). "Hikmət" qəzetindəki məqalələrində də o, daim türk kimliyinin gücləndirilməsi, türk-islam vəhdətinin zəruriliyi fikrini irəli sürürdü. Qəzetin 59-cu sayında Ağaoğlu "Rusiyanın məqsədi" başlıqlı məqaləsində, Rusiyanın əlində olan torpaqların çoxunun türklərə aid olduğunu, hətta rusların əsas siyasətinin qeyri-rusları ruslaşdırmaq, Rusiyada yalnız pravoslav xristian təriqətini yerləşdirmək, slavyan xalqlarını rus irqinə tabe etdirmək və yalnız rus dilini dominant dil etmək olduğunu bildirir. O, rusların türk xalqlarına qarşı assimilyasiya siyasətini tənqid edir və bu siyasətə qarşı milli kimliyin qorunmasının vacibliyini vurğulayır (Ağaoğlu, 1912, s. 59).

*Qərb modernizmi ilə islamı uzlaşdırmaq.* Əhməd bəy Qərb düşüncəsini bütövlükdə rədd etməmiş, əksinə, onun rasional və elmi yanaşmalarını qəbul etmişdir. O, yalnız təəssübkeşliklə Qərbə qarşı çıxanlara qarşı sərt mövqe tutaraq yazırdı ki, "inkişaf üçün dinə əsaslanmaqla yanaşı, təfəkkür və elmi əsaslar da lazımdır" (Çam, 2013, s. 23). Bu fikir onun Osmanlı cəmiyyətinin modernləşdirilməsi və elmi maariflənməyə verdiyi əhəmiyyəti göstərir. Qəzetin 69-cu nömrəsində "İslam dünyası" məqaləsində o, müsəlmanlara, həm də üləmalara müraciət edərək, onların məsuliyyətlərini və günün cihad və müsəlmanlara kömək günü olduğunu xatırladırdı (Ağaoğlu, 1912, s. 69). Ağaoğlunun yazılarında dövrün siyasi məsələlərinə baxışı və bu məsələlərə verdiyi şərhlər, təkcə o gün üçün deyil, bugünkü insanlar üçün də keçərli olan prinsiplər kimidir. "Hikmət" qəzetinin ən diqqətçəkən hissələrindən biri "İslam dünyası" rubrikası idi. Burada Mərakeşdən Kaşqara qədər İslam coğrafiyasındakı vəziyyətlər şərh edilir, müsəlmanların ortaq problemləri dilə gətirilirdi. Bu rubrika Ağaoğlunun ideyalarına uyğun şəkildə İslam dünyasında ortaq siyasi, iqtisadi və mədəni dirçəliş çağırışlarını ehtiva edirdi.

*"Hikmət" qəzetinin missiyası və sosial rolu.* Qəzet qısa müddətdə müxtəlif təbəqələrə nüfuz etmiş və üç minə yaxın abunəçisi olmuşdur. Məktəblilər, alimlər və tələbələr arasında geniş müzakirələr doğuran "Hikmət", yalnız məlumat verən deyil, düşüncə formalaşdıran bir tribuna idi (Çalen, 2019, s. 105). Qəzetin redaksiya siyasəti, siyasi hadisələrə uzaq duraraq, ümumbəşəri və ümumislam ideyalarına fokuslanmaq idi. Bu da onun geniş oxucu kütləsi tərəfindən qəbul olunmasına səbəb olmuşdur. Daxildə və xaricdə bir çox siyasi hadisələrin getdiyi, Tripolinin italyanlar tərəfindən işğalının başlandığı bir vaxtda, 1911-ci il sentyabrın 21-də dərc olunan "Açıq istəklər" başlıqlı yazıya görə qəzetin fəaliyyəti bir müddət dayandırılsa da, sonra yenidən fəaliyyətə başlayır. Əhməd bəy Ağaoğlu XX əsrin əvvəllərində inqilablar səbəbiylə Osmanlı coğrafiyasının, özəlliklə də Qafqaz bölgəsinin aktiv hərəkətdə olduğu bir dövrdə o həm əsərləri, həm də "Hikmət" qəzetindəki məqalələri ilə Osmanlı sərhədləri daxilində yaşayan xalqları milli birlik siyasətinə, bir ideya ətrafında birləşməyə

dəvət edir, milli-dini birliyə, vəhdətə nail olmaq üçün bir-birindən dəyərli yazılar yazırdı (Gündoğdu, 1919, s. 19). İsmayıl bəy Qaspralının dediyi kimi Ağaoğlu qələmi mürəkkəbə deyil, ürəyinin qanına batırır, xalqı, milləti, vətəni üçün vacib olan öz ürək sözlərini yazırdı. Ağaoğlu qəzetin 72-ci sayında "İcmal-ı siyasi" bölməsində dərc olunan məqaləsində, o, Osmanlı dövlətinin "Hilafeti İslamiyyenin nüfûzu azm-i manevisi bütün nazarı hars ve istilaları aləmi İslama matuf olan Avrupa devletlərinin ebedi kabusudur" kimi qeyd edir (Ağaoğlu, 1912, s. 72). Osmanlı İmperiyasının tərəqqisinin onu İslam dünyasının lideri və Şərqin yüksəliş ümidi olduğunu göstərir və bunu deməklə belə möhtəşəm bir gücün, Türk-İslam birliyinin digər ölkələr üçün nə demək olduğunu açıq şəkildə izah edir.

## Nəticə

Əhməd bəy Ağaoğlu "Hikmət" qəzeti vasitəsilə yalnız bir publisist deyil, həm də ideoloq kimi çıxış etmişdir. Onun yazıları çağdaş dövr üçün də aktual olan məsələləri əhatə edir: milli birlik, dini həmrəylik, modernləşmə, Qərb-Şərq münasibətləri və ictimai məsuliyyət. O, bu ideyaları yalnız nəzəri baxımdan deyil, konkret təhlil və təkliflərlə əsaslandıraraq, mətbuatın cəmiyyətin formalaşmasında oynadığı rolu ön plana çəkmişdir. Onun yaratdığı əsərlər, yazdığı məqalələr, irəli sürdüyü ideyalar türk dünyası və bütövlükdə bəşəriyyət üçün öz dəyərli töhfəsini vermişdir. "Hikmət" qəzeti və Ağaoğlunun burada yazdıqları, dövrün düşüncə həyatına dərin təsir göstərmiş və Azərbaycan, Osmanlı, həmçinin ümumilikdə İslam dünyasında ideoloji konsolidasiyanın bir parçası olmuşdur. Bu baxımdan, onun mirası yalnız tarixi deyil, həm də müasir baxışdan dəyərləndirilməli və araşdırılmalıdır.

## Ədəbiyyat

1. Akçura, Y. (1944). *Türkçülüğün tarihi*. Ülkü Basımevi.
2. Çam, İ. D. (2013). *II. Meşrutiyet dönemi Garpçılık fikrinin Cumhuriyet'in düşünsel temellerine ve eğitime etkileri* [Doktora tezi]. Dokuz Eylül Üniversitesi.
3. Çalen, M. K. (2019). Ahmet Ağaoğlu'nda İslâm ve milliyetçilik ilişkisi. *Ahmet Ağaoğlu Sempozyumu*, 102–115.
4. Evcimik, S. (2023). *Filibeli Ahmet Hilmi'nin felsefi ve ahlaki görüşleri*. İksad Yayın Evi.
5. Göküş, Ş. (2013). Ahmet Ağaoğlu: Hayatı, eserleri ve din-eğitimi görüşleri. *Toplu Bilimleri Dergisi*, Ocak, 193–210.
6. Gündoğdu, A. (2019). Ahmet Ağaoğlu'nun fikrî gelişim çizgisi. *Ahmet Ağaoğlu Sempozyumu*, 15–26.
7. *Hikmet Gazetesi.* (1912). Sayı: 59.
8. *Hikmet Gazetesi.* (1912). Sayı: 69.
9. *Hikmet Gazetesi.* (1912). Sayı: 72.
10. Koçak, A. (2012). Bir Balkan muhaciri: Filibeli Ahmed Hilmi ve "Hikmet" gazetesinde Balkanlar. *Akademi Dergisi*, 2012(2), 263–275.
11. Mustafa, F. (2019). İslam dininin Ahmet Ağaoğlu'nun düşünce sistemindeki özel yeri. *Ahmet Ağaoğlu Sempozyumu*, 79–101.
12. Tepekaya, A. (2005). Filibeli Ahmet Hilmi'nin *Hikmet* dergisini yayınlamasındaki amacı. *Karadeniz Araştırmaları Dergisi*, (8), 40–46.

Daxil oldu: 07.06.2025
Qəbul edildi: 30.09.2025

ISSN: 3104-4670
e-ISSN: 2789-6919

DOI: https://doi.org/10.36719/2789-6919/50/18-22

**Məlahət Abdullayeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-2228-1224
azeriteacher@yahoo.com

# "Konstitusiya və Suverenlik ili" kontekstində riyaziyyat dərslərində funksiyalar mövzusunun tədrisində vətəndaşlıq mövqeyinin formalaşdırılması

## Xülasə

2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilməsi təhsildə vətəndaşlıq və hüquqi dəyərlərin təlim prosesinə inteqrasiyasını zəruri etmişdir. Tədqiqat VII sinif "Riyaziyyat" dərsliyində funksiyalar mövzusunun bu istiqamətdə tətbiq imkanlarını araşdırır. Məqsəd funksiyalar mövzusunun yalnız riyazi biliklərin mənimsənilməsi ilə məhdudlaşmayaraq, şagirdlərdə vətəndaş məsuliyyəti, hüquqi təfəkkür və milli dəyərlərə hörmət kimi keyfiyyətləri formalaşdırmaq potensialını müəyyən etməkdir.

Funksional modellər 44 günlük Vətən müharibəsindən sonra azad olunmuş Qarabağ və Şərqi Zəngəzur ərazilərində əhalinin qayıdışı, məktəb tikintisi və sosial proseslərin təhlili ilə əlaqələndirilmişdir. Nəticələr göstərir ki, funksiyaların sosial kontekstdə tədrisi riyazi savadlılıqla yanaşı, vətəndaşlıq şüuru və sosial məsuliyyətin inkişafına da xidmət edir.

***Açar sözlər:*** *konstitusiya, suverenlik, riyaziyyatın tədrisi, funksiya, vətəndaşlıq tərbiyəsi*

**Malahat Abdullayeva**
Azerbaijan State Pedagogical University
PhD in Pedagogy
https://orcid.org/0000-0002-2228-1224
azeriteacher@yahoo.com

# Formation of Citizenship Position in Teaching the Topic of Functions in Mathematics Lessons in the Context of the "Year of the Constitution and Sovereignty"

## Abstract

The declaration of 2025 as the "Year of Constitution and Sovereignty" in our country necessitated the integration of civic and legal values into the teaching process in education. The study examines the possibilities of applying the topic of functions in the VII grade "Mathematics" textbook in this direction. The aim is to determine the potential of the topic of functions to form qualities such as civic responsibility, legal thinking, and respect for national values in students, not limited to the acquisition of mathematical knowledge.

Functional models were associated with the return of the population, school construction, and analysis of social processes in the liberated territories of Karabakh and East Zangezur after the 44-day Patriotic War. The results show that teaching functions in a social context serves not only mathematical literacy, but also the development of civic awareness and social responsibility.

***Keywords:*** *constitution, sovereignty, mathematics teaching, function, civic education*


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Giriş

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2024-cü il 7 noyabr tarixli sərəncamı ilə 2025-ci il "Konstitusiya və Suverenlik İli" elan edilmişdir (Azərbaycan Respublikasının Prezidenti, 2023). Bu qərar vətəndaşlıq şüuru, hüquqi mədəniyyət və milli mənsubiyyət hissinin möhkəmləndirilməsi, xüsusilə təhsil sahəsində fənn mövzularına vətəndaşlıq və milli dəyərlərin inteqrasiyasının təmin olunması məqsədi daşıyır. Riyaziyyat fənni yalnız riyazi bacarıqların inkişafını deyil, həm də analitik düşüncə, sistemli yanaşma və real həyatı riyazi modellərlə anlama bacarıqlarını formalaşdırır. Xüsusilə, funksiyalar mövzusu dəyişənlər arasındakı qarşılıqlı asılılıqları modelləşdirərək həm riyazi, həm də sosial reallıqları anlamağa imkan verir.

Tədqiqatın aktuallığı funksiyaların riyazi və ictimai-sosial inteqrasiyasının şagirdlərdə vətəndaşlıq mövqeyi, dövlətçilik ruhu, hüquqi təfəkkür və milli məsuliyyət hissinin formalaşmasına töhfəsi ilə bağlıdır. Azad edilmiş ərazilərdə aparılan yenidənqurma, əhalinin qayıdışı və təhsil infrastrukturunun qurulması funksiyaların artma və azalma xassələri ilə modelləşdirilə biləcək real nümunələrdir.

Araşdırmanın məqsədi VII sinif "Riyaziyyat" dərsliyindəki xətti funksiyanı vətəndaşlıq və hüquqi şüur kontekstində təhlil etmək və onu real sosial situasiyalarla, xüsusilə əhali artımı və təhsil infrastrukturu ilə inteqrasiya edərək şagirdlərin riyazi və vətəndaşlıq bacarıqlarının inkişaf imkanlarını müəyyənləşdirməkdir (İsmayılova & Abdurahimov, 2019).

**Tədqiqat**

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpasından sonra Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan genişmiqyaslı yenidənqurma və məskunlaşdırma prosesi təkcə siyasi və strateji deyil, həm də sosial və pedaqoji baxımdan əhəmiyyətli transformasiyaları zəruri etmişdir. Bu prosesin davamı olaraq dövlət orqanları tərəfindən əhalinin mərhələli şəkildə qayıdışı, sosial infrastrukturun, xüsusilə təhsil sisteminin bərpası prioritet istiqamətlər kimi müəyyənləşdirilmişdir (Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, 2024). Bu reallıqlar orta məktəb riyaziyyat tədrisində tətbiq oluna biləcək funksional modelləşdirmə imkanlarının genişlənməsi baxımından da yeni pedaqoji kontekst yaradır.

Funksiya anlayışı dəyişənlər arasındakı əlaqələrin riyazi modellərlə ifadə olunması baxımından əhalinin artımı, təhsil obyektlərinin inşası, ərazi üzrə yerləşmə sıxlığı və digər statistik göstəricilərin təhlili üçün çox əlverişli bir vasitədir. Riyaziyyat dərslərində bu kimi sosial məsələlərin funksional modellərlə ifadəsi şagirdlərdə həm abstrakt riyazi düşünmə, həm də sosial məsuliyyət və vətəndaşlıq şüuru formalaşdırmaq baxımından mühüm əhəmiyyət kəsb edir (Panthi, 2025). Məsələn, Qarabağ iqtisadi rayonunda 2020–2024-cü illər ərzində əhalinin azad olunmuş ərazilərə repatriasiyası (geri qayıdışı) üzrə dinamik məlumatlara əsaslanaraq aşağıdakı sadə xətti funksiya modeli qurula bilər:

$$P(t) = P_0 + r \cdot t$$

burada:

- *$P(t)$ – $t$ il keçdikdən sonra əhalinin proqnozlaşdırılan sayı;*
- *$P_0$ – başlanğıc il üçün (məsələn, 2021) repatriasiya olunmuş ilkin əhali sayı;*
- *$r$* – illik artım sürəti (orta hesabla 4000 nəfər), *sabit artım fərziyyəsinə əsaslanır;*
- *$t$* – başlanğıc ildən (məsələn, 2021) keçən illərin sayı.

Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, təkcə 2023-cü il ərzində Laçın, Füzuli və Zəngilan rayonlarına 5000-dən çox vətəndaş köçürülmüşdür (DSK, 2024). Bu artım tempi davam etdikcə funksional modellər vasitəsilə gələcək əhali sayını proqnozlaşdırmaq olar. Belə modellərdən dərslərdə istifadə edildikdə şagirdlər əhalinin artım dinamikasını hesablamaqla yanaşı, bu prosesin gələcəkdə doğura biləcəyi sosial ehtiyacları (məsələn, məktəb tikintisini) riyazi baxımdan təhlil və əsaslandırma bacarığı qazanırlar.

Digər tərəfdən, təhsil infrastrukturu ilə bağlı göstəricilər də funksional modelləşdirməyə imkan verir. Məsələn, əhalinin sayı ilə məktəb sayı arasında sadə proporsional əlaqə qurula bilər: $M(P) = \frac{P}{k}$

Burada:

- *M(P)* – tələb olunan məktəb sayı;
- *P* – əhali sayı;
- *k* – bir məktəbə düşən orta əhali kontingenti (təxmini 2400 nəfər) (UNESCO Institute for Statistics, 2023).

Lakin nəzərə alınmalıdır ki, bərpa və yenidənqurma prosesi zamanı artıq müəyyən sayda məktəb mövcud ola bilər. Belə hallarda daha uyğun model aşağıdakı xətti funksiya formasında təqdim edilə bilər: $M(P)=0,0004\cdot P+3$. Burada $b$ = 3 başlanğıc mərhələdə (məsələn, 2021-ci il) tikilmiş və ya istifadəyə verilmiş baza məktəbləri kimi qəbul olunur.

Bu model vasitəsilə müxtəlif illər üçün əhalinin artımı əsasında zəruri təhsil müəssisələrinin sayı əvvəlcədən planlaşdırıla bilər. Riyaziyyat dərslərində belə modellər üzərində işləmək şagirdlərə real həyatdakı planlaşdırma proseslərinə analitik yanaşmaq və ictimai resursların idarə olunmasını riyazi şəkildə başa düşmək imkanı yaradır (Skovsmose & Valero, 2005). Belə modelləşdirmə vətəndaşlıq bacarıqlarının – məsuliyyətli qərarvermə, ehtiyacların proqnozlaşdırılması və sosial ədalət prinsipinə uyğun resurs bölgüsünün formalaşdırılmasında mühüm rol oynayır.

Qeyd etdiyimiz kimi, inteqrasiyalı tədris nümunələri konstruktivist pedaqoji yanaşmaya əsaslanır. Şagirdlərin öz biliklərini real həyatda qarşılaşdıqları vəziyyətlərə uyğun tətbiq etməsi, onlarda yüksək səviyyəli koqnitiv bacarıqların inkişafını təmin edir (Boaler, 2002; Sriraman & English, 2010). Digər tərəfdən, sosial kontekstin tətbiqi şagirdlərə riyaziyyatın sadəcə abstrakt hesablamalar deyil, həyatda konkret problemlərin həllində istifadə olunan güclü vasitə olduğunu göstərir (Brown & Vorhölter, 2016).

Bu baxımdan, azad olunmuş ərazilərlə bağlı funksional modellərin riyaziyyat dərslərinə inteqrasiyası təkcə məzmunun fənlərarası zənginləşdirilməsi deyil, həm də şagirdlərin analitik və vətəndaşlıq yönümlü düşüncə sisteminin formalaşdırılması baxımından aktual və strateji bir didaktik yanaşmadır.

Müasir təlim yanaşmaları göstərir ki, riyazi biliklərin mənimsənilməsi yalnız nəzəri məlumatların təqdimatı ilə deyil, eyni zamanda real statistik göstəricilər əsasında praktik tətbiqetmələrin yerinə yetirilməsi ilə daha dərin və mənalı olur. Xüsusilə, funksiyalar mövzusunda statistik məlumatların tətbiqi şagirdlərə riyazi modellərin həyatla əlaqəsini görməyə, verilmiş informasiyalardan funksional asılılıq qurmağa və qrafik təhlil vasitəsilə nəticə çıxarmağa imkan verir (Geiger et al., 2023). Bu baxımdan, azad olunmuş ərazilərdə əhali artımı və təhsil infrastrukturunun inkişafı ilə bağlı statistik göstəricilərin riyaziyyat dərslərində funksional təhlili həm elmi-pedaqoji, həm də sosial baxımdan aktualdır.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və digər rəsmi mənbələrin məlumatlarına əsasən, 2021–2024-cü illər ərzində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında əhalinin məskunlaşdırılması və infrastrukturun bərpası ilə bağlı nəzərəçarpacaq artım müşahidə olunur (DSK, 2024). Məsələn, 2021-ci ildə repatriasiya olunanların sayı təxminən 1 500 nəfər olduğu halda, 2024-cü ilin ortalarında bu say 40 000 nəfəri keçmişdir (Population in Azerbaijan’s Karabakh and East Zangezur surpasses 40,000, 2025). Bu dinamikanı aşağıdakı cədvəldə funksional baxımdan təhlil etmək mümkündür:

***Cədvəl. Azad olunmuş ərazilərdə əhali artımı və məktəb tikintisinin illik statistikası (2021–2024)***

| İl | Əhali sayı (P) | Tikilmiş məktəblərin sayı (M) |
|---|---|---|
| 2021 | 1500 | 2 |
| 2022 | 7000 | 5 |
| 2023 | 20000 | 9 |
| 2024 | 40000 | 17 |

*Elmi Tədqiqat* Beynəlxalq Elmi Jurnal. 2025 / Cild: 5 Sayı: 10 / 18-22 ISSN: 3104-4670
*Scientific Research* International Scientific Journal. 2025 / Volume: 5 Issue: 10 / 18-22 e-ISSN: 2789-6919

Cədvəlin əsasında əhali sayı ilə məktəb sayı arasında proporsional və ya xətti asılılıq olub-olmadığını müəyyənləşdirmək mümkündür. Riyazi baxımdan bu münasibət aşağıdakı kimi funksional modellə ifadə oluna bilər:

$$M(P) = a \cdot P + b$$

• *M(P)* – əhalinin sayına görə tələb olunan məktəb sayı;
• *a* – artım əmsalı (orta hesabla hər 2 000 nəfərə bir məktəb);
• *b* – başlanğıc şərtlərə görə sabit komponent (infrastrukturun bərpa mərhələsi üçün baza səviyyə).

Bu tip modelləşdirmə şagirdlərə statistik məlumatlar əsasında funksiyanın qurulması və onun təhlili bacarığını inkişaf etdirməyə xidmət edir. Şagirdlər verilmiş cədvəli təhlil edərək dəyişənlər arasındakı əlaqəni araşdırır, (*P*, *M*) ədədi cütlərini koordinat müstəvisində yerləşdirir və bu nöqtələrə uyğun xətti qrafik qururlar. Qrafikin *istiqaməti (müsbət və ya mənfi meyl), qrafikin düz xətt olması, yəni sabit artım tempi, y oxunu kəsmə nöqtəsi (başlanğıc vəziyyət) və artma xassəsi* funksiyanın davranışını vizual və aydın şəkildə nümayiş etdirir. Bu yanaşma şagirdlərə funksional asılılığın əsas xüsusiyyətlərini mənimsəməyə imkan verir (Sriraman & English, 2010).

Qrafik interpretasiya analitik düşüncə, riyazi təfəkkür və proqnozvermə bacarıqlarının inkişafı üçün mühüm vasitə hesab olunur. Məsələn, statistik məlumatlar əsasında qurulmuş xətti funksiyanın qrafiki üzərində aparılan təhlil nəticəsində şagirdlərdən 2025-ci ilə aid əhali sayı və məktəb ehtiyacını təxmin etmələri tələb oluna bilər.

*Tapşırıq:* Cədvəldəki statistik məlumatlara əsaslanaraq əhali sayı (*P*) ilə məktəb sayı (*M*) arasındakı xətti funksiyanın qrafikini qurun. Qrafikdən istifadə edərək 2025 və 2026-cı illər üçün əhali sayı $P = 60000$ və $P = 80000$ olduqda məktəb ehtiyacını (*M*) proqnozlaşdırın.

Şagirdlər cədvəldəki statistik məlumatlardan istifadə edərək (*P*, *M*) cütlərini koordinat müstəvisində qeyd edir, xətti qrafiki qurur (Şəkil) və bu qrafik əsasında 2025 və 2026-cı illər üçün əhali sayı 60 000 və 80 000 olduqda neçə məktəb tikiləcəyini təxmin edirlər.

$M(P) = 0,0004 \cdot P + 3$ əsasən:

- $P = 60000$ üçün $M(60000) \approx 0,0004 \cdot 60000 + 3 = 24 + 3 = 27$
- $P = 80000$ üçün $M(80000) \approx 0,0004 \cdot 80000 + 3 = 32 + 3 = 35$

Deməli, əhali artımı davam edərsə, *2025-ci ildə təxminən 27 məktəbə, 2026-cı ildə isə 35 məktəbə ehtiyac olacaqdır*.




*Şəkil. 2021–2024-cü illər üzrə əhali və məktəb sayı əsasında qurulmuş qrafik*

Belə fəaliyyətlər şagirdlərə yalnız riyazi anlayışları mənimsətmir, həm də onları sosial məsuliyyətli vətəndaş kimi formalaşdırır. Şagirdlər anlayırlar ki, funksional modellər və statistik göstəricilər təkcə abstrakt riyazi obyektlər deyil, həm də dövlət siyasətində planlaşdırma, resurs bölgüsü və sosial ədalət prinsiplərinə yön verən mühüm alətlərdir (Geiger et al., 2023).

Əhalinin artım göstəriciləri əsasında təhsil infrastrukturu ilə bağlı ehtiyacların proqnozlaşdırılması funksiyalar mövzusunun real həyatda tətbiqinə nümunə olaraq, riyaziyyat dərslərinin həyatla inteqrasiyasına xidmət edir. Bu pedaqoji yanaşma konstruktivist təlim modelinə uyğundur. Şagird-

lər öz müşahidə və təhlilləri əsasında nəticələr çıxarır, fərdi qərarlar verir və bu yolla həm riyazi düşüncə, həm də vətəndaşlıq şüuru inkişaf etdirilir (Boaler, 2002).

## Nəticə

Araşdırmadan aydın olur ki, "Funksiyalar" mövzusunun "Konstitusiya və Suverenlik İli" kontekstində tədrisi şagirdlərdə təkcə riyazi bilik və bacarıqların deyil, eyni zamanda vətəndaşlıq məsuliyyəti, sosial düşüncə və hüquqi anlayışların formalaşmasına da əhəmiyyətli dərəcədə kömək edir. Mövzunun əhalinin artımı və məktəb tikintisi kimi sosial-iqtisadi situasiyalarla əlaqələndirilməsi, funksional modellər və qrafiklər vasitəsilə bu proseslərin riyazi baxımdan analiz edilməsi şagirdlərə riyaziyyatın real həyatda necə tətbiq olunduğunu anlamağa imkan yaradır.

Beləliklə, funksiyalar mövzusunun "Konstitusiya və Suverenlik İli"nin ideya-məzmun istiqamətləri ilə əlaqələndirilmiş formada tədrisi ümumi təhsildə təkcə riyazi savadlılığın deyil, eyni zamanda vətəndaşlıq şüuru, sosial məsuliyyət və milli ideologiyanın da inkişaf etdirilməsinə xidmət edən səmərəli pedaqoji yanaşmalardan biri kimi qiymətləndirilə bilər.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası Nazirlər Kabineti. (2024). *2024-cü ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında sərəncam*. https://nk.gov.az
2. Azərbaycan Respublikasının Prezidenti. (2023). *Prezident İlham Əliyev Zəngilan rayonunun Ağalı kəndində yeni tikilmiş məktəbin açılışında iştirak edib*. https://president.az
3. Boaler, J. (2002). *Experiencing School Mathematics: Traditional and Reform Approaches to Teaching and Their Impact on Student Learning*. Lawrence Erlbaum Associates Inc.
4. Brown, R., & Vorhölter, K. (2016). *Teaching and learning mathematical modelling: Approaches and developments from German-speaking countries*. International Perspectives on the Teaching and Learning of Mathematical Modelling. https://doi.org/10.xxxx
5. Caliber.az. (2025). *Population in Azerbaijan's Karabakh and East Zangezur surpasses 40,000*. https://caliber.az/en/post/population-in-azerbaijan-s-karabakh-east-zangezur-surpasses-43-000
6. Dövlət Statistika Komitəsi (DSK). (2024). *İşğaldan azad olunmuş ərazilərdə sosial-demoqrafik göstəricilər*. https://www.stat.gov.az
7. İsmayılova, S., & Abdurəhimov, S. (2019). *Riyaziyyat: VII sinif üçün dərslik*. Təhsil Nəşriyyatı.
8. Geiger, V., Gal, I., & Graven, M. (2023). The connections between citizenship education and mathematics education. *ZDM – Mathematics Education, 55*(1). https://doi.org/10.1007/s11858-023-01521-3
9. Panthi, R.K. (2025). Navigating through Social Justice in Mathematics Education. *Journal of Mathematics Education and Teaching*, 10(2), 45–58.
10. Sriraman, B., & English, L. D. (2010). *Theories of mathematics education: Seeking new frontiers*. Springer.
11. Skovsmose, O., & Valero, P. (2005). *Mathematics education and social justice*. https://www.researchgate.net/publication/47671322_Mathematics_education_and_social_justice
12. UNESCO Institute for Statistics (UIS). (2023). *Education Statistics: Pupil-teacher ratios and school capacity indicators*. UNESCO.

Daxil oldu: 10.05.2025
Qəbul edildi: 08.09.2025

DOI: https://doi.org/10.36719/2789-6919/50/23-30

**Dağbəyi Allahverdiyev**
ARETN İqtisadiyyat İnstitutu
iqtisad üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0003-2679-2024
dagbeycahani@gmail.com
**Əli Allahverdiyev**
Bakı Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0008-3617-130X
elidir@gmail.com
**Nigar Allahverdiyeva**
Bakı Dövlət Universiteti
https://orcid.org/0000-0003-0977-3854
nigarallahverdiyeva556@gmail.com
**Günel Allahverdiyeva**
Azərbaycan Memarlıq və İnşaat Universiteti
magistrant
https://orcid.org/0009-0000-0478-1834
gunel@gmail.com

# Xarici iqtisadi fəaliyyətdə maliyyə səmərəliliyi və sosial-iqtisadi rifah vəhdəti

### Xülasə

Tədqiqatın məqsədi, dövlətlərin qarşılıqlı münasibətləri və siyasi-iqtisadi əlaqələrində əsas mahiyyət, beynəlxalq ticarətin əhatəliliyi, alternativ maliyyə mənbələrinin sosial-iqtisadi rifah tərəqqisinə tətbiqi tədqiq edilmişdir. Təhlilin məqsədi qlobal maliyyə böhranının qarşısının alınmasında dövlətin maliyyə dəstəyi və tənzimlənməsi prinsipləri, bu hallarla qarşılaşmış ölkələrin, həmçinin dünya təcrübəsinin öyrənilməsidir. Tədqiqatın metodologiyası, müqayisəli və analitik təhlil üzrə aparılmışdır.

Məlum olduğu kimi, xarici iqtisadi əlaqələr ölkə iqtisadiyyatının inkişafında mühüm əhəmiyyətli faktorlardan biridir və alternativ maliyyə mənbələrinin səmərəli istiqamətləndirilməsi ÜDM artımı ilə şərtlənir. Bununla əlaqədar olaraq, təhlildə, xarici iqtisadi əlaqələrin nəzəri metodoloji əsasları və dünyanın inkişaf etmiş ölkələrinin iqtisadi tərəqqi təcrübəsi təhlil edilmişdir.

***Açar sözlər:*** *beynəlxalq iqtisadi inkişaf modeli, xarici iqtisadi fəaliyyət, xarici investisiya, davamlı iqtisadi tərəqqi, alternativ maliyyə mənbələri, xarici ticarət*

**Dagbeyi Allahverdiyev**
Institute of Economics,
Ministry of Science and Education of the Republic of Azerbaijan
PhD in Economics
https://orcid.org/0000-0003-2679-2024
dagbeycahani@gmail.com
**Ali Allahverdiyev**
Baku State University
Master Student
https://orcid.org/0009-0008-3617-130X
elidir@gmail.com
**Nigar Allahverdiyeva**
Baku State University

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

https://orcid.org/0000-0003-0977-3854
nigarallahverdiyeva556@gmail.com
**Gunel Allahverdiyeva**
Azerbaijan University of Architecture and Construction
Master student
https://orcid.org/0009-0000-0478-1834
gunel@gmail.com

# Financial Efficiency and Socio-Economic Welfare Unity in Foreign Economic Activity

## Abstract

The purpose of the study is to analyze the essence of intergovernmental relations and politico-economic cooperation, the scope of international trade, and the application of alternative financial resources to the progress of socio-economic welfare. The study also examines factors hindering macroeconomic indicators in ensuring sustainable economic development, as well as the acceleration of economic growth and the development of international economic relations. The analysis aims to identify principles of state financial support and regulation in preventing global financial crises and to explore the experiences of countries that have faced similar challenges. Methodology: Comparative and analytical analysis.

As is well known, foreign economic relations are among the key factors determining a country's economic development, and the effective direction of alternative financial sources contributes to GDP growth. In this regard, the study analyzes the theoretical and methodological foundations of foreign economic relations and examines the experience of economic progress in developed countries.

***Keywords:*** *International economic development model, foreign economic activity, foreign investment, sustainable economic progress, alternative financial resources, foreign trade*

## Giriş

İqtisadi fikrin tərəqqi mərhələləri və elmi mahiyyəti, məqsəd və vəzifələri haqqında sistemləşdirilmiş biliklər kimi XVI-XVII əsrlərdə formalaşmışdır. Bu, kapitalizmin təşəkkül tapması, manufakturaların yaranması, ictimai əmək bölgüsünün dərinləşməsi, xarici və daxili bazarların genişlənməsi, pul dövriyyəsinin intensivləşməsi ilə xarakterizə edilir. İqtisadiyyat elmində bu prosesləri merkantilizmin meydana gəlməsi ilə şərh edirlər. Merkantilist təlimlərinin mahiyyəti sərvətin mənbəyini müəyyənləşdirməkdən ibarət idi. Lakin *Merkantilistlər* məsələni düzgün şərh etmirdilər, çünki onlar sərvətin mənbəyini mübadilədə, sərvətin özünü isə pulla eyniləşdirirdilər (Əliyev, 2010). Təlimin adı da buradan qaynaqlanır, çünki merkantil tərcümədə pulgir adam deməkdir. Merkantilistlər ticarətçilərin nümayəndələri idilər və onların maraqlarını ifadə edirdilər.

Erkən və yetkin merkantilizm fərqləndirilir. Yetkin merkantilizmin əsasını çox satıb, az almağı tələb edən fəal ticarət balansı sistemi təklif edirdi. İdeya baxımından merkantelizmdə iqtisadiyyatı başqa dövlətlərlə rəqabətində gömrük sədləri yaratmaq, ölkəyə xarici əmtəə və kapitalların gəlməsini məhdudlaşdırmaq yolu ilə qorumağa yönəldilmiş iqtisadi himayəçilik siyasəti təşkil edirdi (Əliyev, 2010). Mövcud siyasi-iqtisadi şəraitdə qlobal iqtisadi tərəqqi artımı və neft gəlirlərinin intensivliyi Azərbaycanda davamlı iqtisadi artımın təmin edilməsini zəruri edir (Allahverdiyev, 2022). Belə ki, sosial-iqtisadi inkişafın davamlı təminatı üçün alternativ maliyyə mənbələrinin səfərbər edilməsi və düzgün istiqamətləndirilməsi mühüm strateji hədəf kimi səciyyələnir. Belə siyasi-iqtisadi pirinsiplərin reallaşması üçün qeyd olunan meyarları əhatə edir və ölkənin geosiyasi tərəqqisini intensivləşdirir.

**Tədqiqat**

Alternativ maliyyə mənbələrinin növləri: Dövlət və özəl tərəfdaşlıq, ictimai istehsal layihələrində büdcə səmərəliliyini tənzimləyir, sosial-iqtisadi sahədə kapitalı hərəkətə gətirir. Kapital bazarları,

səhmlər və istiqrazlar vasitəsilə daxili və xarici investisiyaları cəlb edir. Maliyyə siyasətində sosial layihələrə uyğun tənzimləyir.

Beynəlxalq maliyyə institutlarının kredit və qrantları, Dünya Bankı, Asiya İnkişaf Bankı və digərlərinin resurslarının strateji istifadəsini əhatə edir. Beləliklə, alternativ maliyyə mənbələri sosial-iqtisadi hədəfləri qeyd edilən pirinsipləri şərtləndirir.

Sosial-İqtisadi tərəqqi hədəfləri: Regionların sosial-iqtisadi tərəqqisi, sosial obyektlər və məşğulluq imkanlarının artırılması; Yaşıl iqtisadiyyat, bərpa olunan enerji layihələrinə (külək, günəş) investisiya axınının təmin edilməsi ilə səciyyələnir; İnsan kapitalı, təhsil və tədqiqatların maliyyələşdirilməsi, təhsil təqaüd proqramlarının əhatəliliyini şərtləndirir; Maliyyələşmənin intensivliyi, istiqraz bazarının liberallaşdırılması və korporativ idarəetmənin gücləndirilməsi; Maliyyə güzəşləri, Alternativ maliyyə mənbələrinə vergi güzəştləri; Risklərin idarə edilməsi, dövlət zəmanətləri və sığorta mexanizmləri ilə investorlara etimadının qorunması. Beləliklə, qeyd olunan pirinsiplər alternativ maliyyə subyektlərinin sosial-iqtisadi tərəqqiyə yönəldilməsi real maliyyə artım effektliyini şərtləndirir. Bu meyarlar, qeyd olunan pirinsiplərlə tənzimlənir.

*İqtisadi effektlik.* İqtisadi diversifikasiya, neft və qeyri-neftdə ÜDM-in artımını şərtləndirir. Uzunmüddətli sosial sabitliyin gücləndirilməsi. Özəl sahədə və digər sahələrdə rəqabət mühitinin sabitləndirilməsi. Beynəlxalq reytinqlərdə Azərbaycanın investisiya cəlbediciliyinin artması. Beləliklə, alternativ maliyyə mənbələri ölkənin davamlı sosial-iqtisadi tərəqqisində əhəmiyyətli hesab edilir. Alternativ maliyyə mənbələrinin mahiyyəti isə beynəlxalq təcrübədə onlardan səmərəli istifadəni, innovativ maliyyə resuslarının tətbiqini, siyasi-iqtisadi sabitliyi şərtləndirir. Beləliklə, davamlı iqtisadi tərəqqinin artım istiqamətində maliyyə resurslarının iqtisadiyyatın müxtəlif istiqamətlərinə vəsait yönəldilməsini və istehsalın, sahibkarlıq fəaliyyətinin, məşğulluğun intensivliyini formalaşdırır. Eləcə də ənənəvi maliyyə resursları, alətləri ilə yanaşı innovativ və alternativ maliyyə mənbələrinin də təsərrüfatın ayrı-ayrı sahələrinə investisiya yönəldilməsi daha məqbul hesab ediləndir. Belə ki, yetərli maliyyə və vençur kapitalı, mələk maliyyələşməsi, siyasi-iqtisadi modelin alətləri hesab edilən ölkələrin təcrübəsi, bununla bağlı statistik məlumatların müqayisəli təhlili metodu iqtisadi effektliklə səciyyələnir. Alternativ maliyyə resursu olaraq tətbiq edilən maliyyə siyasəti Şərq ölkələri və müsəlman ölkələrində, İngiltərə, ABŞ, Türkiyə, Rusiya, Asiya ölkələrində də səciyyəvi hesab edilir.

Beləliklə, ABŞ dollarının maliyyə siyasəti yaxın gələcəkdə Azərbaycanda tətbiqi imkanları, Mərkəzi Bankın və digər yerli maliyyə institutlarının bununla əlaqədar təşviqat tədbirləri və dövlət proqramlarında faizsiz maliyyə siyasətində prioritet hesab edir (Məmmədov, 2022). Belə ki, Azərbaycanda alternativ maliyyə mənbələrinin sosial-iqtisadi rifaha yönəldilməsi əsasən humanitar böhran şəraitində səmərəliliyi artırmaq üçün siyasi-iqtisadi proseslərə kompleks yanaşmaqla dövlət qurumlarını, iqtisadi təhlükəsizlik qurumlarının və xarici tərəfdaşlarla effektiv iqtisadi fəaliyyətin nəticəsində formalaşır.

Bu kontekstdə təbii fəlakətlərin, innovasiyalı və silahlı toqquşmaların əlamətləri, habelə kiber və fiziki müdaxilənin edilməsi niyyətlərə cəhdlərin erkən mərhələdə müəyyənləşdirilməsi olduqca zəruridir. Humanitar böhranların tənzimlənməsində hüquq-mühafizə və təhlükəsizlik qurumlarının fiziki müdaxilə və digər metodların tətbiqi sosial-iqtisadi səmərəliliyin təminatını təşkil edir. Dövlətin təşkilati-hüquqi qurumları humanitar strukturlarla əlaqəli fəaliyyət sahələrini də əhatə edir və sosial-iqtisadi *tədbirlərin həyata keçirilməsini dəstəkləmək və vətəndaş rifahını təmin etməklə dövlətin iqtisadi təhlükəsizliyinin və dövlətin siyasi-iqtisadi mənafelərinin qorunmasını əhatə edir* (Semenov, 1998). Belə ki, dövlət büdcəsi təkcə ölkənin maliyyə göstəricisi deyil, həm də sosial-iqtisadi və siyasi problemlərin həlli üçün əsas vasitələr kimi müəyyən edilir. K.Marks qeyd edirdi ki, "Dövlət büdcəsi bir tərəfdən dövlətin tam sərəncamına daxil olan və onun maliyyə potensialını müəyyən edən vəsaitlərdirsə, digər tərəfdən, dövlət ehtiyacları üçün nəzərdə olan vəsaitlər büdcədə cəmlənir və dövlətin mülkiyyətində deyil, dövlət orqanlarının sərəncamındadır."

Beləliklə, geosiyasi şəraitdə insan rifahı və onun hüquqlarının təmin və təşviq edilməsində Azərbaycan Respublikası tərəfindən 2024-cü ildə BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığına İnkişaf etməkdə olan kiçik ada dövlətlərinin (SIDS) və ən az inkişaf etmiş dövlətlərin İnsan Hüquqları

Şurasında iştirakı və ətraf mühit və insan hüquqları proqramları istiqamətinə yönəldilməsi üçün 36 min ABŞ dolları məbləğində maliyyə təminatı ödənilmişdir. Bu səbəbdən də, 2025-ci ilin dövlət büdcəsinin təsdiqində, 2025-ci il büdcə gəlirlərinin 38 milyard 356 milyon manat (2024-cü ilin təsdiq olunmuş proqnozuna nisbətən 5,4 % çoxdur), məsrəflər isə 40 milyard 407 milyon manat (+4,0 %) olacağı proqnozlaşmışdır. Beləliklə, 2024-cü illə müqayisədə gələn il sosial xərclərdə 4,7 milyard manat artım proqnozlaşmışdır ki, bunlarda maaş, pensiya, müavinət və təqaüdlərə əvvəlki illər ilə müqayisədə daha çox vəsait sərf ediləcəyi səciyyəvi hesab edilir. Bu vəsaitərin 7,2 milyard manat əmək pensiyalarının maliyyələşdirilməsinə və əmək pensiyalarının orta məbləğinin 565 manat təşkil ediləcəyi proqnozlaşır. Azərbaycanın müdafiə qabiliyyətinin daha da gücləndirilməsi üçün isə büdcədən 8 milyard 376 milyon manat yönəldiləcəkdir. Beləliklə, dövlət büdcəsinin əsas məsrəflərinin ölkənin sosial-iqtisadi tərəqqisinə yönəldilməsi milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin artırılmasında əhəmiyyətlidir. Belə büdcə siyasəti davamlı iqtisadi artımın təmin edilməsini, iqtisadiyyatın əhatəliliyini şərtləndirməklə ölkəmizdə sosial-iqtisadi rifahlı cəmiyyətin formalaşmasında əhəmiyyətlidir. Beləliklə, alternativ maliyyə mənbələri və sosial iqtisadi rifah vəhdəti büdcə artımını dəstəkləyir və "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" proqramı ölkənin strateji inkişaf hədəflərinə nail olmaqda mühümdür.

Sosial-iqtisadi rifah vəhdəti. Xarici iqtisadi fəaliyyətdə alternativ maliyyə mənbələri iqtisadi sistemin davamlılığı və sosial rifahın artırılması üçün mühüm əhəmiyyətə malikdir. Bu siyasi-iqtisadi pirinsiplərin əsas məqsədi mövcud dövlət və kommersiya büdcəsini tamamlayaraq investisiya fəallığını diversifikasiya etmək, iqtisadi artımı stimullaşdırmaq və sosial sabitliyi təmin etməkdir. Alternativ maliyyə mənbələrinin effektliyi sosial rifaha qeyd edilən meyarlarla təsir edir.

Yeni iş yerlərinin yaradılması və gəlirin bərabər paylanması. Əhalinin sosial xidmətlərə nail olması imkanlarının artırılması. Regionlararası iqtisadi balansın təmin olunması, sosial gərginliyin tənzimlənməsi. İnnovasiya və texnologiyaların iqtisadiyyata inteqrasiyası, davamlı artımın təmin olunması. Beləliklə, alternativ maliyyə mənbələri və sosial iqtisadi vəhdət məqsədlərinin düzgün müəyyən edilməsini, zəruri alternativ fəaliyyətin müəyyən edilməsini və siyasi-iqtisadi reallıqların davamlı sosial rifaha həvəsləndirilməsi ilə real iqtisadi artım nəticələrinə əsaslanır.

Sosial-iqtisadi effektlik. Belə siyasi-iqtisadi meyarlar əsasən real sosial-iqtisadi artım əsasında insan rifahının davamlı artımını şərtləndirir. Azərbaycan Prezidenti İlham Əliyevin "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" sərəncamı əsasında, cari ildə ölkədə minimum aylıq əməkhaqqının məbləği 16 faiz artımla 345 manatdan 450 manata yüksəlmişdir. Prezidentin digər sərəncamı ilə isə cari ildən ehtiyac meyarı 270 manatdan 285 manata qədər artmışdır. Bu yeni ehtiyac meyarının müəyyənləşdirilməsi ünvanlı sosial yardımın aylıq məbləğinin artırılması və yeni iş yerlərinin yaradılması əsasında davamlı iqtisadi artımı şərtləndirir. Bu kontekstdən, ehtiyac meyarının artırılması ilə ünvanlı sosial yardım proqramı çərçivəsində vətəndaşların sosial yardım məbləğinin 2026-cı ildə artmı proqnozlaşdırılır (Allahverdiyev, 2008). Beləliklə, alternativ maliyyə mənbələrinin səmərəli istifadəsi sosial-iqtisadi rifahın inteqrasiyası və davamlı artım üçün mühüm əhəmiyyətə malikdir. Bu alternativ maliyyə mənbələri və sosial-iqtisadi rifah vəhdəti dövlət və özəl sahədə vətəndaş məmnunluğunu formalaşdırır, iqtisadi səmərəliliyi təmin edir və sosial bərabərliyi tənzimləyir (Əlirzayev, 2022).

Sosial və siyasi tendensiyalar. Tədqiqatın nəticələri kimi, Azərbaycanın siyasi-iqtisadi səmərəliliyini təşkil edən əsas istiqamətlər müəyyən edilmişdir: -Sosial rifahın artımı: əmək haqqı artımı və sosial müdafiə proqramlarının əhatəliliyidir; -İqtisadi bərabərlik təminatı: inkişaf etmiş və az inkişaf etmiş regionların iqtisadi balansının yaradılması; -Davamlı inkişaf: ətraf mühitin qorunması və bərpa olunan enerji mənbələrinə keçid strategiyalarının gücləndirilməsi; -Elastiklik əmsalı: tələb və təklifin qiymət dəyişikliyinə nə dərəcədə həssaslığını müəyyənləşdirir. Bu təsnifat davamlı iqtisadi artımı formalaşdıran əsas elementləri ifadə edir. Xarici iqtisadi fəaliyyətdə müxtəlif ölkələrin timsalında Azərbaycan iqtisadi effektliyinin müqayisəsi cədvəldə (1) təhlil edilmişdir.

**Cədvəl 1.**

| Ölkələr | Minimal əmək haqqı (aylıq, ABŞ dolları ilə) | ÜDM-də (%) | İnkişaf statusu |
|---|---|---|---|
| Azərbaycan | 576 | 68.5 | İnkişaf etməkdə olan |
| Rusiya | 225 | 37.9 | İnkişaf etməkdə olan |
| İsrail | 1725 | 40.7 | İnkişaf etmiş |
| ABŞ | 725 | 26.5 | İnkişaf etmiş |

Mənbə: Müəllif tərəfindən tərtib edilmişdir.

Minimum əmək haqqının real alıcılıq gücü müxtəlifdir. Belə ki, bəzi ölkələrdə nominal minimum artımları çox olsa da, yüksək inflyasiya səbəbindən real artım məhdud hesab edilir. Bəzi ölkələrdə nominal gəlir çox aşağı olduğundan (USD ilə ifadədə), minimum maaş sosial müdafiə baxımından yetərli deyil. Beləliklə, minimum əmək haqqı orta maaş nisbəti fərqlidir və bu tendensiya siyasi-iqtisadi şəraitin real mənzərəsini əks etdirir.

Maliyyə siyasətində elastiklik. Fiskal siyasət ölkədə inflyasiyanı tənzimləmək və iqtisadi effektivliyi artırmaq üçün əsas meyarlardandır. Bu istiqamətdə: -inflyasiya tənzimlənməli, dövlət büdcəsində sabit artım təmin edilməlidir; -fiskal və monetar siyasətin əlaqəli nəticələrini gücləndirərək uzunmüddətli maliyyə balansı təmin edilməlidir. Beləliklə, minimal əmək haqqı, ÜDM artımı və xarici ticarət dövriyyəsi kimi göstəricilər müvafiq qrafiklər və diaqramlarla təqdim olunmalıdır. Məsələn: fərqli ölkələrdə minimal əmək haqqının müqayisəsi (məsələn, Azərbaycan, ABŞ, İsrail). Azərbaycanda iqtisadi sərvətdən əldə edilən gəlirlər də daxil olmaqla ümumilikdə kənd təsərrüfatı, mineral xammal hasilatı, enerji istehsalı, pərakəndə ticarət, ictimai iaşə dövriyyəsinin həcmi, sənaye məhsulunun və digər fəaliyyət sahələri ilə sosial-iqtisadi siyasətin tənzimlənməsi səciyyəvidir.

*Konstitusiya və suverenlik kontekstində alternativ maliyyə siyasətinin sosial-iqtisadi rifahda vəhdəti*: Azərbaycanın dövlətçilik tarixi bir sıra fundamental hadisələrlə zəngindir. Bu hadisələr əsasında həm İkinci Qarabağ müharibəsində əldə edilən tarixi qələbə, həm də 1995-ci ildə qəbul olunmuş ilk Konstitusiyanın əhəmiyyəti səciyyəvi hesab edilir. Bu tarixi mərhələlər dövlətin suverenliyini, siyasi-iqtisadi tərəqqisini şərtləndirmiş və hüquqi əsaslarının möhkəmlənməsinə xidmət etmişdir. Prezident İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli Sərəncamı ilə 2025-ci ilin "Konstitusiya və Suverenlik ili" elan olunması da dövlətin hüquqi dayaqlarının, alternativ maliyyə mənbələrinin və sosial-iqtisadi inkişaf strategiyasının qarşılıqlı vəhdətini təşkil edən mühüm qərar kimi səciyyələnir (Əliyev, 2023). Belə ki, alternativ maliyyə mənbələrinin məqsədyönlü və səmərəli iqtisadi effektliyə istiqamətləndirilməsi, uzunmüddətli dövrdə Azərbaycanın iqtisadi təhlükəsizliyinin, sosial rifahının əsas təminatçısıdır. Bu strategiya mütərəqqi siyasi-iqtisadi rifahın əsas prinsipi kimi kapital və əməyin tərəqqisini zəruri etmişdir.

*Konstitusiya və suverenliyin iqtisadi əsasları*. Konstitusiya dövlətin hüquqi əsaslarını, suverenlik isə siyasi-hüquqi varlığını təmin edir. Dövlətin müstəqilliyi yalnız hərbi-siyasi resurslarla yanaşı, həm də güclü iqtisadi əsaslarla qorunur. Azərbaycanın Konstitusiyasında qeyd edilən bir çox müddəaların təsbiti, əslində, alternativ maliyyə resurslarının formalaşdırılması və sosial rifahın təminatı üçün hüquqi zəmin yaratmışdır. Azərbaycanın Konstitusiyasında əks olunmuş (maddə 12) Dövlətin ali məqsədi pirinsipində qeyd edilir ki: I. İnsan və vətəndaş hüquqları və Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir; II. Bu Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir.

Eləcə də, (maddə 15) iqtisadi inkişaf və dövlət: I. Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət edir. II. Azərbaycan dövləti bazar münasibətləri əsasında sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaradır, sərbəst sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir.

Maddə 16. Sosial inkişaf və dövlət: I. Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır. II. Azərbaycan dövləti mədəniyyətin, təhsilin, səhiyyənin, elmin, incəsənətin inkişafına yardım edir, ölkənin təbiətini, xalqın tarixi, maddi və mənəvi irsini qoruyur (Azərbaycan Respublikası Konstitusiyası, 2021). Bərpa olunan ərazilərdə dövlətin iqtisadi siyasəti də məhz bu vəhdətin bariz nümunəsidir. Burada həyata keçirilən sosial-iqtisadi layihələri, alternativ enerji və maliyyə mənbələrinin səfərbər olunması yalnız iqtisadi tərəqqi deyil, həm də suverenliyin möhkəmləndirilməsinə xidmət edir.

Azərbaycan dövlətçiliyinin siyasi-iqtisadi reallıqları və Konstitusiya, suverenlik anlayışları alternativ maliyyə mənbələri, sosial rifah ilə qarşılıqlı vəhdətdədir. Ərazi bütövlüyünün bərpası, iqtisadi resursların diversifikasiyası və sosial təminat mexanizmlərinin gücləndirilməsi bu vəhdətin praktiki ifadəsidir (Allahverdiyev, 2008).

Beləliklə, müstəqil Azərbaycanın dövlətçilik təcrübəsi qeyd etməyə əsas verir ki, hüquqi əsasların möhkəmləndirilməsi, alternativ maliyyə mənbələrinin inkişafı və sosial rifahın təminatı bir-birini tamamlamaqla, həm də dövlətin uzunmüddətli davamlı iqtisadi tərəqqi strategiyasını müəyyənləşdirən mühüm faktordur.

Maliyyə siyasəti və sosial rifah: Müasir şəraitdə neft və qaz kimi ənənəvi resurslarla yanaşı, alternativ maliyyə mənbələrinin (bərpa olunan enerji layihələri, qeyri-neft ixracı, innovasiya və iqtisadiyyat) inkişafı iqtisadi təhlükəsizliyin əsasını şərtləndirmişdir. Bu siyasət sosial-iqtisadi rifahla nəticələnərək iqtisadi sabitliyi və gəlirlərin diversifikasiyası sosial rifah artım təminatı ilə nəticələnir (Əliyev, 2023).

Mövcud xarici iqtisadi fəaliyyətdə Azərbaycanın siyasi və hərbi nailiyyətləri dövlətin iqtisadi imkanlarını genişləndirmiş, yeni maliyyə mənbələrinin reallaşdırılması üçün əlverişli şərait yaratmışdır. Bu kontekstdə suverenlik yalnız ərazi bütövlüyünün bərpası deyil, həm də alternativ maliyyə resurslarının səfərbər olunması və sosial rifahın təminatını zəruri edir.

*Beynəlxalq əlaqələr və iqtisadi diplomatiya*. Azərbaycanın dünyada geosiyasi və iqtisadi nailiyyətləri, əsasən də ABŞ-da imzalanmış Birgə Bəyannamə, ölkənin qlobal iqtisadi diplomatiyada etibarlı tərəfdaş kimi qəbul edilməsini şərtləndirmişdir. Bu siyasi-iqtisadi reallıq xarici sərmayələrin cəlb olunmasını, yeni maliyyə mənbələrinin effektliyini və sosial-iqtisadi rifahın artımını zəruri edir. BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əsaslanan Azərbaycanın siyasi-iqtisadi mövqeyi ölkənin alternativ maliyyə və iqtisadi resursların səmərəliliyi beynəlxalq legitimlik formalaşdırır. Belə şəraitdə sosial rifahı gücləndirmək isə dövlətin iqtisadi suverenliyini təmin edən əsas vasitə hesab edilir.

*Alternativ maliyyə əməkdaşlığı kontekstində qlobal iqtisadi təhlükəsizlik.* Müasir beynəlxalq sistemdə münaqişələrin tənzimlənməsi və sülhün təmin edilməsi pirinsipləri mövcud geosiyasi-iqtisadi reallıqda aktuallaşmışdır. Əsasən İsrail-Fələstin, İsrail-Suriya və digər regional münaqişələrdə müşahidə olunan gərginliklər əsasında BMT qəbul etdiyi qərarların icrasını zəruri edir. Belə təşkilati səmərəlilik və legitimliklə əlaqəli mühüm siyasi-iqtisadi reallıq sosial rifahı formalaşdırır. Eləcə də, ABŞ-ın müxtəlif regionlarda vasitəçilik təşəbbüsləri qlobal təhlükəsizlik sistemində alternativ iqtisadi səmərəliliyin mövcudluğuna əsaslanır (Məmmədov, 2022).

*Siyasi-iqtisadi vasitəçilik missiyası.* Son illərdə ABŞ-nin müxtəlif regionlarda münaqişələrin həllində fəal vasitəçi qismində iştirakı xarici iqtisadi fəaliyyətdə iqtisadi səmərəliliyi şərtləndirir. Belə xarici iqtisadi fəaliyyətdə siyasi və sosial-iqtisadi rifaha əsaslanan geosiyasi reallığı qeyd edilən istiqamətləri əhatə etmişdir: -Naxçıvan dəhlizi layihəsinin təşviqi; -Kamboca, Tayland sərhədində atəşkəsin əldə olunması; -İsrail, İran müharibəsində 12 günlük hərbi əməliyyatların tənzimlənməsi; -Pakistan, Hindistan sərhədində atəşkəs təşəbbüsləri; -Ruanda və Konqo Demokratik Respublikasında sülh razılaşmaları.

Belə təşəbbüslər dünyanın geosiyasi mənzərəsində qlobal siyasi-iqtisadi təhlükəsizlikdə Vaşinqtonun vasitəçi missiyasını gücləndirmişdir. Beləliklə, bu proseslər həm də dünyanın geoiqti-sadi reallıqlarında BMT-nin dünya siyasətinə təsiri fikirləri mövcud siyasi-iqtisadi imkanların məhdudluğu kimi xarakterizə edilir.

*Qlobal dialoq və sivilizasiyalara münasibətlər*. Sivilizasiyaların ziddiyyəti niyyət deyil, siyasi seçimdir. Bu kontekstdə beynəlxalq geosiyasi və iqtisadi münasibətlərin tənzimlənməsi əsasən siyasi

iradə, liderlərin məsuliyyəti və dialoq mədəniyyəti bəşəriyyətin gələcəyini müəyyən edir. Fikrimizcə, qlobal geosiyasi və iqtisadi şəraitdə ABŞ-Çin rəqabəti, Rusiya, Qərb gərginliyi və Yaxın Şərq böhranının tənzimlənməsi, alternativ iqtisadi tərəqqi əsasında dialoq və əməkdaşlığın tənzimlənməsi səciyyəvidir (Khasbulatov, 2001).

*Alternativ maliyyə əməkdaşlığında reallıqlar.* Beynəlxalq təhlükəsizlik və iqtisadi əməkdaşlıq geosiyasi zərurətdir. Bu kontekstdə Azərbaycanın qlobal maliyyə və investisiya subyekləri ilə qurduğu əməkdaşlıq mühüm əhəmiyyətə malikdir. Belə ki, cari ildə Nyu-Yorkda Prezident İlham Əliyevin "Brookfield Asset Management" şirkətinin baş direktoru ilə işgüzar görüşü alternativ maliyyə mənbələrinin sosial-iqtisadi rifaha istiqamətləndirilməsini şərtləndirmişdir. Bu şirkətin Azərbaycanın siyasi-iqtisadi nailiyyətləri əsasında Dövlət Neft Fondu ilə əməkdaşlığı regional enerji-iqtisadi təhlükəsizliyi səciyyələndirir. 1899-cu ildən fəaliyyətdə olan "Brookfield Asset Management" bu gün alternativ investisiyalar sahəsində dünyanın aparıcı şirkətlərindən biri hesab edilir. Şirkətin daşınmaz əmlak, bərpaolunan enerji, özəl kapital və kredit sahələrində idarə etdiyi aktivlərin ümumi məbləği 1 trilyon ABŞ dolları təşkil edir. Azərbaycanın bu sahədə siyasi-iqtisadi əməkdaşlığı ölkənin uzunmüddətli iqtisadi tərəqqisini və beynəlxalq inteqrasiyası üçün strateji imkanlar formalaşdırır (Əliyev, 2023).

*Alternativ maliyyə mənbələrinin strukturu.* VI Xəzər Biznes Forumunun əsas maliyyə və enerji mövzusunun aktuallığı yeni iqtisadi tərəqqini şərtləndirmişdir. Belə geosiyasi şəraitdə Azərbaycan inteqrasiyanın təşəbbüskarı və qlobal təchizatın əsasını təşkil edir. Bu mənada siyasi-iqtisadi tədbirlər Avrasiya məkanında sabitliyi, enerji təhlükəsizliyi və iqtisadi sabitliyi səciyyələndirir (Əliyev, 2008). Beynəlxalq maliyyə institutları, Dünya Bankı, Asiya İnkişaf Bankı və AIIB kimi qurumların qrant və güzəştli kreditləri uzunmüddətli infrastruktur inkişafına xidmət edir. İnnovativ investisiya alətləri, Venture kapital, startap fondları və təsir investisiyaları rəqəmsal transformasiyaya dəstək verir. Risklərin diversifikasiyası, Makroiqtisadi sabitlik üçün müxtəlif mənbələrdən balanslaşdırılmış maliyyə imkanlarını əhatə edir. Alternativ maliyyə mənbələrinin düzgün istiqamətləndirilməsi Azərbaycanda iqtisadi diversifikasiyanı sürətləndirir. Bu yanaşma həm makroiqtisadi sabitliyə, həm də sosial rifaha davamlı təsir edir.

*Yaşıl enerji strategiyaları.* Yaşıl enerji istehsalı və bərpa olunan enerji mənbələrinin iqtisadi artıma töhfəsi araşdırılmışdır. Azərbaycanın gələcək iqtisadi strategiyası tərəqqi təminatı kimi dəyərləndirilir (Əliyev, 2023). 2025-ci ildə bərpa olunan enerji istehsalının 19 dəfə artımı proqnozlaşmışdır.

*Dövlət və vətəndaş tərəfdaş tərəqqisi.* Azərbaycan iqtisadiyyatı uzun müddət ərzində əsasən neft-qaz sektoruna əsaslanmışdır. Lakin qlobal enerji bazarında ölkəni iqtisadi diversifikasiya strategiyasını sürətləndirməyə vadar edir. Uzunmüddətli dövrdə sosial-iqtisadi inkişafın dayanıqlılığı üçün alternativ maliyyə mənbələrinin düzgün istiqamətləndirilməsi prioritet vəzifədir (Marshall, 1993).

*Davamlı iqtisadi tərəqqi.* Sahibkarlığın inkişafı üçün İqtisadiyyat Nazirliyi yeni dəstək mexanizmləri hazırlayır, xüsusilə kiçik və orta biznes (KOB) üçün maliyyələşmə imkanları genişləndirilir. Antiinhisar siyasəti üzrə Rəqabət Məcəlləsinin icrasına nəzarət gücləndirilir. Bu, bazarda şəffaflığı və sosial sabitliyi artırmağa yönəlib.

*Təhsil və elm.* Universitetlərdə startap ekosisteminin inkişafı üçün dövlət özəl tərəfdaşlığı layihələrini əhatə etməklə yeni iş yerlərinin formalaşmasını şərtləndirir. Bu prinsiplər elmi ideyaların iqtisadi effektliyə çevrilməsinə şərait yarada bilər.

Enerji sahəsində yeni investisiya müqavilələri imzalanıb. Bu, Azərbaycanın enerji təhlükəsizliyi ilə yanaşı ixrac potensialını da artıracağı kimi proqnozlaşır.

*Beynəlxalq yeniliklər.* Kapital dövriyyəsi: ABŞ və dünyada faiz siyasətləri yenidən müzakirələri zəruri etmişdir, bu tendensiyalar inkişaf etməkdə olan ölkələrin investisiya davamlılığını artırır. İnnovasiya iqtisadiyyatı, mövcud siyasi-iqtisadi şəraitin ən aktual mövzusu hesab edilir.

Elmi istiqamətlər: Davamlı iqtisadi tərəqqi anlayışı yeni metodoloji yanaşmalarla əhatə edir, burada həm sosial sabitlik, həm də hüquqi bazanın gücü əsas faktor sayılır.

Xarici iqtisadi fəaliyyətdə sosial-iqtisadi rifah meyarları

**Cədvəl 2. Azərbaycanda iqtisadi təsnifatın müqayisəsi.**

| Göstəricilər Mənbələr | 2020 | 2023 | 2025 (proqnoz) | Maliyyə mənbəsinin təsiri |
|---|---|---|---|---|
| **ÜDM artımı (%)** | 0.5 | 5.6 | 3.9 | Xarici investisiya axını (FDI, ADB layihələri) |
| **Xarici investisiyalar (mlrd ABŞ $)** | 4.3 | 6.8 | 7.4 | Enerji və qeyri-neft sahəsində kapital artımı |
| **Rəqəmsal maliyyə dövriyyəsi (% ÜDM-də)** | 4.5 | 9.8 | 19.5 | Sərbəst ticarətin inkişafı |
| **Məşğulluq səviyyəsi (%)** | 95.19 | 96.7 | 96.5 | İnvestisiya və sahibkarlıq layihələrinin əhatəliliyi |
| **Yaşıl maliyyə və ekoloji investisiyalar (% ÜDM-də)** | 0.9 | 1.5 | 1.9 | Davamlı inkişaf və sosial ekoloji rifah |

Mənbə: Müəllif tərəfindən tərtib edilmişdir.

Alternativ maliyyə mənbələrindən sosial yonümlü investisiyalar intensivləşdikcə davamlı iqtisadi artımı güclənir. Sosial-iqtisadi rifah komponenti isə sosial sərvət və sabitliyi şərtləndirir. Makroiqtisadi siyasət isə sosial balansı tənzimləyir və sosial sabitlik davamlı iqtisadi artımda vəhdət zərurəti mövcud siyai-iqtisadi şəraiti şərtləndirir.

## Nəticə

Beynəlxalq münasibətlərdə mövcud tendensiyaların əsas meyarları: -BMT öz əsas funksiyalarını icra etməkdə çətinlik çəkir və bu, quruma etimadı azaldır; -Geosiyasi reallıqlar dünyanın inkişaf etmiş ölkələrinin regional münaqişələrin həllində alternativ vasitəsi kimi çıxış edir və praktik nəticələr əldə edir; -Qlobal qarşıdurmalar siyasi-iqtisadi seçimlə müəyyənləşir və dialoq isə yeganə metod hesab edilir; -Azərbaycanın qlobal maliyyə strukturları ilə əməkdaşlığı, xüsusilə alternativ investisiya və enerji sahələrindəki təşəbbüsləri, həm milli iqtisadi təhlükəsizliyi, həm də regional rifahı möhkəmləndirir.

Beləliklə, mövcud geosiyasi şəraitdə sosial-iqtisadi rifah və iqtisadi əməkdaşlıq vəhdəti yalnız güclü siyasi iradə və strateji tərəfdaşlıq əsasında formalaşır.

## Ədəbiyyat

1. Allahverdiyev, D. (2022). *Dünya iqtisadiyyatı: iqtisadi mənafelər, mövcud reallıqlar və perspektivlər*.
2. Allahverdiyev, H. (2008). *İqtisadi dövlət tənzimlənməsi*.
3. *Azərbaycan Respublikası Konstitusiyası*. (2021).
4. Bünyadov, Z. (1981). *Azərbaycanda Atabəylər dövləti*.
5. Əliyev, İ. (2023). *İnkişaf məqsədimizdir*.
6. Əliyev, İ. (2020). *Mövcud şəraitdə iqtisadi tərəqqi modeli*.
7. Əliyev, F. (2008). *Azərbaycan elminin inkişaf istiqamətləri*.
8. Əlirzayev, Ə. (2022). *İqtisadi tərəqqi və siyasi idarəetmənin əsasları*.
9. İsmayılov, M. (2021). *Azərbaycanın iqtisadi mənafeyi*.
10. Khasbulatov, I. (2001). *Mirovaya ehkonomika*.
11. Marshall, A. (1993). *Printsipy Ehkonomicheskoi nauki*.
12. Məmmədov, N. (2022). *Geosiyasətə giriş*.
13. Semenov, K. (1998). *Mezhdunarodnye ehkonomicheskie otnosheniya*. Nauka.

Daxil oldu: 12.06.2025
Qəbul edildi: 21.09.2025

DOI: https://doi.org/10.36719/2789-6919/50/31-35

**Səadət Musayeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
fizika-riyaziyyat üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0008-0772-9407
s.musayeva_ttm@mail.ru
**Xankişi Məmmədov**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
texnika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0006-6978-3084
kankishimamedov_53@mail.ru
**Sevinc İbrahimova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0009-0009-2194-2412
ibrahimovasevinc037@gmail.com
**Gülər Səfərova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0009-0002-4926-2565
gulersafarova.90@gmail.com

# Materialşünaslıq fənninin tədrisində fənlərarası əlaqənin xarakterik cəhətləri

## Xülasə

Elmi anlayışların formalaşmasında fənlərarası əlaqələrin xüsusi yeri var. Bu, materialşünaslıq fənninə də aiddir. Bu araşdırmada məhz materialşünaslıq fənninin tədrisində fənlərarası əlaqənin, yəni iki və ya daha artıq fənnin əhatə etdiyi anlayış, bilik, bacarıq və prinsiplərin sintezinin xarakterik cəhətləri tədqiq edilir. Bu da tələbələrdə nəzəri biliklərin, bacarıq və vərdişlərin formalaşmasına və əmək təcrübəsinin zənginləşməsinə xidmət edir. Qeyd edilir ki, fənlərarası əlaqələr problemi dərin tarixi köklərə malikdir. Bu barədə Y.A.Kamenski yazırdı ki, "Qarşılıqlı əlaqədə olan hər şeyi əlaqəli şəkildə öyrənmək lazımdır". Bu isə tələbələrdə hadisələri daha ətraflı görməyə imkan yaradır. Materialşünaslıq fənninin digər fənlərlə – riyaziyyat, fizika, kimya, təsviri incəsənət, biologiya, musiqi, tarix, coğrafiya və bir sıra texniki fənlərlə əlaqə yaradılması imkanları var ki, bu da onun xarakterik cəhətlərindən biridir. Bu səbəbdən "texnologiya müəllimliyi" ixtisası üzrə kadr hazırlığında materialşünaslıq fənninin tədrisində fənlərarası əlaqənin xarakterik cəhətlərinin öyrənilməsi həm vacib, həm zəruri, həm də maraqlıdır. Tədqiqatda araşdırmaya iki aspektdə yanaşılmışdır: 1) Materialşünaslıq fənninin kimya fənni ilə əlaqəli tədrisi; 2) Materialşünaslıq fənninin fizika fənni ilə əlaqəli tədrisi. Qeyd edilənlər problemin aktuallığından xəbər verməklə, dünyanı dərketmənin bəlkə də ən real, universal və ən optimal mənbəyi hesab oluna bilər.

***Açar sözlər:*** *materialşünaslıq, texnologiya müəllimliyi, elmi anlayışlar, fənlərarası əlaqə, fənlərarası inteqrasiya, anlayışların formalaşması*

**Saadat Musayeva**
Azerbaijan State Pedagogical University
Candidate of Physical and Mathematical Sciences
https://orcid.org/0009-0008-0772-9407
s.musayeva_ttm@mail.ru
**Khankishi Mammadov**
Azerbaijan State Pedagogical University
PhD in Technology

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

https://orcid.org/0009-0006-6978-3084
kankishimamedov_53@mail.ru
**Sevinj Ibrahimova**
Azerbaijan State Pedagogical University
https://orcid.org/0009-0009-2194-2412
ibrahimovasevinc037@gmail.com
**Gular Safarova**
Azerbaijan State Pedagogical University
https://orcid.org/0009-0002-4926-2565
gulersafarova.90@gmail.com

# Features of Interdisciplinary Connections in Teaching Materials Science

## Abstract

Interdisciplinary connections play a special role in the formation of scientific concepts. This also applies to the subject of materials science. This study examines the characteristic features of interdisciplinary connections in the teaching of materials science, i.e., the synthesis of concepts, knowledge, skills, and principles covered by two or more subjects. This helps students develop theoretical knowledge, skills, and abilities, as well as enrich their practical experience. It should be noted that the issue of interdisciplinary connections has deep historical roots. The founder of pedagogical science, the great Czech educator J.A.Kamensky, wrote on this subject: "Everything that is interconnected must be studied sequentially." This allows students to see phenomena in more detail. The subject of materials science has the ability to establish connections with other subjects - mathematics, physics, chemistry, fine arts, biology, music, history, geography, and a number of technical subjects, which is one of its distinctive features. In this regard, it seems important, necessary, and interesting to study the characteristics of interdisciplinary connections in the teaching of materials science when training personnel in the specialty of "technology teacher." The study was conducted in two aspects: 1) teaching materials science in the context of chemistry; 2) teaching materials science in the context of physics. The above can be considered, perhaps, the most realistic, universal, and optimal source of knowledge about the world, which testifies to the relevance of this issue.

***Keywords:*** *materials science, technology teaching, scientific concepts, interdisciplinary connection, interdisciplinary integration, concept formation*

## Giriş

Təhsil islahatlarının yerinə yetirilməsində qabaqcıl dünya təhsil məkanına inteqrasiya məsələsi, hər zaman olduğu kimi, bu gün də öz prioritetliyini, yəni birinciliyini saxlayır (Kazımov, 2021, s. 28). Sözsüz ki, inteqrativ təlimdən əldə olunan biliklərə yiyələnməkdə və dəyərlərin mənimsənilməsində uğur qazanmağın yollarından biri fənlərarası əlaqələrin qurulması ilə əlaqədardır. Bu barədə pedaqogika elminin banisi, çex pedaqoqu Yan Amos Komenski yazırdı ki, "Qarşılıqlı əlaqədə olan hər şeyi əlaqəli şəkildə öyrənmək lazımdır. Yeri gəlmişkən, inteqrasiya prosesləri üç mərhələlidir: fəndaxili, fənlərarası və sistemlərarası (Əlləzova, 2022, s. 71).

**Tədqiqat**

Məlumdur ki, fənlərarası əlaqə – iki və ya daha artıq fənnin əhatə etdiyi anlayış, bilik, bacarıq və prinsiplərin sintezinə deyilir. Bu cür əlaqə gənclərin məntiqi mühakiməsinin inkişafında, öyrəndikləri anlayışların dərinləşdirilməsində, məsələlərə kompleks yanaşmada, elmi anlayışların formalaşmasında və bu kimi məsələlərdə böyük əhəmiyyət kəsb edir. Qeyd edilənlər birmənalı olaraq bütün fənlərə aid olduğu kimi, materialşünaslıq fənninə də aiddir. Tədqiqatlar göstərir ki, materialşünaslıq fənninin digər fənlərlə – riyaziyyat, fizika, kimya, təsviri incəsənət, biologiya, coğrafiya, musiqi,

tarix, coğrafiya və bir sıra texniki fənlərlə əlaqə yaradılması imkanları çox genişdir. Mövzu ilə bağlı Oduncaq materialın keyfiyyətinin pozulmasına səbəb olan amillərin araşdırılması (Məmmədov, Musayeva & İbrahimova, 2024), Oduncağın mexaniki və texnoloji xassələrinin öyrənilməsində riyazi elementlərdən istifadə səviyyəsi (Məmmədov, Musayeva & İbrahimova, 2023), Material-şünaslıq (ağac üzrə) fənninin tədrisində oduncağın fiziki xassələrinin öyrənilmə metodikası və fizika və riyaziyyat elementlərindən istifadə (Məmmədov, Musayeva & İbrahimova, 2022), Riyazi və texniki dil komponentlərinin etimoloji və müqayisəli tipologiyası (Məmmədov, Musayeva & Əyyubov, 2020), "Texnologiya müəllimliyi" hazırlığında ölçü vahidlərindən istifadə səviyyəsi (Məmmədov & Musayeva, 2024), Kütlə ölçü vahidlərinin müqayisəli tədqiqi (Məmmədov & Musayeva, 2024), "Texnologiya müəllimliyi" ixtisası üzrə mütəxəssis hazırlığında folklordan istifadə imkanları (Məmmədov & Musayeva, 2025), "Maşınşünaslığın əsasları" fənninin tədrisində texniki dilin əsas komponentləri ilə iş metodikası və İKT-dən istifadə (Məmmədov, Musayeva & Əyyubov, 2019), Ölçü vahidlərinin və bəzi sayların riyazi-poetik məna aləmi (Məmmədov, Musayeva & Əyyubov, 2020), Bəzi sayların və ölçü vahidlərinin riyazi semantikasi və İKT-dən istifadə (Məmmədov & Əyyubov, 2019) və bir çox elmi məqalələr diqqəti cəlb edir. Bu araşdırmada materialşünaslıq fənninin tədrisində fənlərarası əlaqənin xarakterik cəhətləri tədqiq edilir. Bu da "Texnologiya müəllimliyi" ixtisası üzrə kadr hazırlığında adı çəkilən fənnin tədrisinin xarakterik cəhətlərinin öyrənlməsinin ən real, universal, vacib, zəruri və həm də ən maraqlı optimal mənbəyi hesab olunmasından və problemin aktuallığından xəbər verir. Qeyd edək ki, orta ümumtəhsil tədris müəssisələrində fənlərarası əlaqə elmi biliklərin tərkibinə görə faktiki, təsəvvür və konkret olmaqla, üç qrupla müəyyən olunur. Bunun üçün fəndaxili və fənlərarası inteqrasiyadan istifadə edilir. Bu isə şagirdlərin və tələbələrin məntiqi təfəkkürünün inkişafında bir-birinə yaxın elmlərə aid olan anlayışların öyrənilməsində, eyni materialın müxtəlif fənlərlə qarşılıqlı əlaqədə izahına kompleks yanaşmada və s. məsələlərdə böyük rol oynayır. Odur ki, didaktikanın əsas prinsiplərindən biri kimi qiymətləndirilən və dərin tarixi köklərə malik olan fənlərarası əlaqənin mümkün olan bütün funksiyalarının aşkarlanması böyük əhəmiyyət kəsb edir. Tədqiqatda araşdırmaya iki aspektdə yanaşılmışdır: 1) Materialşünaslıq fənninin kimya fənni ilə əlaqəli tədrisi; 2) Materialşünaslıq fənninin fizika fənni ilə əlaqəli tədrisi.

*1.Materialşünaslıq fənninin kimya fənni ilə əlaqəli tədrisi.* Materialşünaslıq fənninin inteqrativ xarakteri imkan yaradır ki, şagirdlərdə kimya fənninə aid lazımi nəzəri biliklər, bacarıq və vərdişlər formalaşsın, əmək təcrübəsi zənginləşsin. Akad. M.M.Mehdizadə də fənlərarası əlaqələri didaktik prinsiplərə aid edirdi (Cavadova, 2024, s. 47). Məlumdur ki, oduncaq tərkibində karbon (C), hidrogen (H), oksigen (O) və az miqdarda da azot (N) olan üzvi maddələrdən ibarətdir. Aparılmış çoxsaylı təcrübələr göstərir ki, müxtəlif cinsli oduncaqların elementar kimyəvi tərkibi, praktik olaraq, eynidir. Mütləq quru oduncağın tərkibində, onun cinsindən asılı olmayaraq, orta hesabla 49,5% karbon, 44,2% oksigen və 6,3% hidrogen olur. Oduncağın tərkibinə daxil olan və yuxarıda əsas kimyəvi elementlər adlandırdığımız karbon, hidrogen və oksigen mürəkkəb üzvi maddələr əmələ gətirir. Həmin üzvi maddələrin ən başlıcaları isə birləşərək oduncaq hüceyrəsinin qlafını əmələ gətirir və oduncaq hüceyrəsinin qlafı, mütləq quru oduncağın kütləsinin 90-95%-ni təşkil edir. Qlafın əsas tərkib hissəsi sellüloz və liqnindən, qalan hissəsi isə pektin və mineral maddələrdən, az miqdarda efir yağı, alkaloid, qlikozid və s.-dən ibarətdir. Şam ağacı, küknar, qaraşam, qoz ağacı və fısdıq oduncağına kükürd, azot, xlorid, sirkə turşuları və natrium-hidroksidin təsiri tədqiqatçılar tərəfindən mükəmməl öyrənilərək aşağıdakı nəticələrə gəlinmişdir: - tədqiq edilmiş iynəyarpaqlı ağac cinslərinin oduncaqları enliyar-paqlı ağac cinslərinin oduncaqlarına nisbətən turşu və qələvilərin təsirinə daha çox dayanıqlıdır; - iynəyarpaqlı ağac cinslərindən qaraşam ağacının oduncağı daha dayanıqlıdır; - tədqiq edilmiş odun-caqların nüvə və yetişmiş oduncaq hissəsi, canlı oduncaq hissəsindən daha çox dayanıqlıdır. Bundan başqa, uzun müddət şirin suda qalan oduncağın keyfiyyətinin yeni kəsilmiş oduncağın keyfiyyətinə nisbətən dəyişməsi müşahidə edilmişdir. Bu məsələ hal-hazırda çox zəif öyrənilmiş məsələlərdən biri olaraq qalmaqdadır.

*2.Materialşünaslıq fənninin fizika fənni ilə əlaqəli tədrisi.* Bu tədqiqatda ağac materialların fiziki xassələrinin öyrədilməsi prosesində fizika fənni ilə əlaqədən söhbət açılır. Belə qənaət etmək olur ki, materialşünaslıq fənninin tədrisində öyrənilən nəzəri biliklərin praktik icra edilməsində fizika, qrafik

savad elementləri, biologiya və riyaziyyat elementləri ilə səmərəli əlaqə nəticəsində şagirdlərin yaradıcı texniki təfəkkürü inkişaf edir. Konkret olaraq materialşünaslıq fənninin tədrisində oduncağın fiziki xassələri adlı mövzuda fizika ilə əlaqəyə diqqət edək.

Məlumdur ki, hər bir ağac cinsi özünəməxsus fiziki xassələrə malikdir. Oduncağın fiziki xassələrinə bunlar aiddir: xarici görünüşü xarakterizə edən xassələr, nəmlik, oduncağa maye və qazların udulması ilə əlaqədar xassələr, sıxlıq, istilik xassələri, səs xassələri, elektrik xassələri və sair. Misal üçün oduncağın radial və tangensial istiqamətlərdə quruyub-yığılmasına baxaq. Məlumdur ki, liflər boyu quruyub-yığılma az olduğundan və eləcə də təcrübi əhəmiyyət kəsb etmədiyindən onun təyin edilməsinə ehtiyac duyulmur. Adətən, radial və tangensial istiqamətlərdə quruyub-yığılma, ölçüləri 20x20x30 mm (nümunənin radial, tangensial və liflər boyu ölçüləri) düzbucaqlı prizma formalı nümunələrlə müvafiq standart əsasında təyin edilir.

Tangensial ($Y_t$) və radial ($Y_r$) istiqamətdə xətti quruyub-yığılmanı 0,1% dəqiqliklə belə hesablayırıq:

$$Y_t = \frac{a - a_1}{a} \cdot 100\% \quad Y_r = \frac{b - b_1}{b} \cdot 100\%$$

Burada a və b – nümunənin tangensial və radial istiqamətlərdə quruyub-yığışana qədərki ölçüləri, mm ilə; $a_1$ və $b_1$ - nümunənin həmin istiqamətlərdə quruyub-yığılandan sonrakı ölçüləridir, mm ilə.

Xətti quruyub-yığılma əmsalı (k) 1% nəmliyin dəyişməsi payına düşən orta xətti quruyub-yığılmadır. Bu əmsal 0,01 dəqiqliklə aşağıdakı düsturlar əsasında hesablanır:

$$k_t = \frac{Y_t}{W}; \qquad k_r = \frac{Y_r}{W};$$

burada $k_t$ və $k_r$ – uyğun olaraq tangensial və radial istiqamətlərdə xətti quruyub-yığılma əmsalları; $Y_r$ və $Y_t$ - uyğun olaraq tangensial və radial istiqamətlərdə xətti quruyub-yığılma %-lə; W – nümunənin nəmliyidir, % ilə.

Hiqroskopik nəmliyin buxarlanması vaxtı oduncağın həcminin kiçilməsi həcmi quruyub-yığılma əmsalı adlanır.

Həcmi quruyub-yığılma ($Y_h$) 0,1% dəqiqliklə aşağıdakı düsturla hesablanır:

$$Y_h = \frac{V - V_1}{V} \cdot 100\%$$

Burada V və $V_1$ – nümunənin əvvəlki və qurudulduqdan sonraki həcmidir.

## Nəticə

1. Materialşünaslıq fənninin tədrisində tədrisin ən mühüm prinsipi olan fənlərarası əlaqənin tələbələrin təhsil və idrak fəaliyyətinə təsiri danılmazdır; 2. Fənlərarası əlaqə tədris prosesinin məzmununda, forma və metodlarında əks olunan inkişafetdirici və tərbiyəvi funksiyaları yerinə yetirən obyektlər, hadisələr və real proseslər arasındakı inteqrativ münasibətləri təyin etmək üçün pedaqoji kateqoriyadır; 3. Fənlərarası əlaqənin köməyi ilə reallığın mürəkkəb problemlərinin hərtərəfli baxışı, yanaşması və həlli üçün zəmin qoyulur ki, bu isə tələbələrin təlim və tərbiyəsində kompleks yanaşmanın mühüm şərti və nəticəsi olaraq tələbələrin təhsil və idrak fəaliyyətinə nüfuz edir; 4. Materialşünaslıq fənninin digər fənlərlə əlaqə imkanları digər fənlərə nisbətən daha çoxdur ki, bu da tələbələrin obyektiv reallıqları daha dərindən dərk etməyə, fənnin həyatla əlaqəsinin öyrənilməsinə, fənlərin tədrisində inteqrativliyin vacib faktor olduğunu öyrənməsinə sübutdur; 5. İnteqrasiya olunmuş dərs tələbələrdə hadisənin mənzərəsini daha dolğun görməyə imkan verir; 6. Fənlərarası əlaqədən istifadə zamanı aşağıdakı şərtlərin yerinə yetirilməsi nəzərdə tutulur: - fənlərin məzmunu ümumi qanunauyğunluqlar və nəzəri anlayışlar üzərində qurulmalı; - materialşünaslıq fənninin digər fənlərlə əlaqəsi zamanı fənlərin tədqiqat obyektləri üst-üstə düşməli və kifayət qədər yaxın olmalıdır; - materialşünaslıq fənninin digər fənlərlə əlaqəsini yaradarkən fənlərin tədrisində eyni və oxşar təlim metodlarından istifadə edilməlidir; 7. Fənlərarası əlaqə tələbələrin təhsil və idrak fəaliyyətinə nüfuz edir ki, bu da onların təlim və tərbiyəsində kompleks yanaşmanın mühüm şərti və nəticəsi olaraq inteqrativ dərslərin vacibliyini sübut edir.

## Ədəbiyyat

1. Cavadova, S. (2024). Fənlərarası inteqrasiyanın təlim prosesindəki rolu. *Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi Əsərləri*, 91(1), 46–49.
2. Əlləzova, M. (2022). Azərbaycan dilinin tədrisində fəndaxili və fənlərarası inteqrasiyanın bəzi məsələləri. *Azərbaycan dili və ədəbiyyat tədrisi*, (3), 68–79.
3. Kazımov, M. (2021). Fənlərarası əlaqələrin idarə olunmasında müəllimin rolu. *Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi Əsərləri*, (3), 27–32.
4. Məmmədov, X., & Əyyubov, Ə. (2019). Bəzi sayların və ölçü vahidlərinin riyazi semantikası və İKT-dən istifadə. *Təhsildə İKT: Elmi-metodik jurnal* (ADPU), (3).
5. Məmmədov, X., & Musayeva, S. (2024). "Texnologiya müəllimliyi" hazırlığında ölçü vahidlərindən istifadə səviyyəsi. *Elmi Tədqiqat: Beynəlxalq Elmi Jurnal*, 4(7), 23–27.
6. Məmmədov, X., & Musayeva, S. (2024). Kütlə ölçü vahidlərinin müqayisəli tədqiqi. *Elm və Təhsilin Əsasları: IX Beynəlxalq Elmi Konfrans* (09.08.2024).
7. Məmmədov, X., & Musayeva, S. (2025). "Texnologiya müəllimliyi" ixtisası üzrə mütəxəssis hazırlığında folklordan istifadə imkanları. *Elmi Tədqiqat: Beynəlxalq Elmi Jurnal*, 5(5), 17–22.
8. Məmmədov, X., Musayeva, S., & Əyyubov, Ə. (2019). "Maşınşünaslığın əsasları" fənninin tədrisində texniki dilin əsas komponentləri ilə iş metodikası və İKT-dən istifadə. *Təhsildə İKT: Elmi-metodik jurnal* (ADPU), (1).
9. Məmmədov, X., Musayeva, S., & Əyyubov, Ə. (2020). Ölçü vahidlərinin və bəzi sayların riyazi-poetik məna aləmi. *Fizika, Riyaziyyat və İnformatika Tədrisi*, (1).
10. Məmmədov, X., Musayeva, S., & Əyyubov, Ə. (2020). Riyazi və texniki dil komponentlərinin etimoloji və müqayisəli tipologiyası. *Fizika, Riyaziyyat və İnformatika Tədrisi*, (2).
11. Məmmədov, X., Musayeva, S., & İbrahimova, S. (2022). Materialşünaslıq (ağac üzrə) fənninin tədrisində oduncağın fiziki xassələrinin öyrənilmə metodikası və fizika və riyaziyyat elementlərindən istifadə. *Fizika, Riyaziyyat və İnformatika Tədrisi*, (4).
12. Məmmədov, X., Musayeva, S., & İbrahimova, S. (2023). Oduncağın mexaniki və texnoloji xassələrinin öyrənilməsində riyazi elementlərdən istifadə səviyyəsi. *Fizika, Riyaziyyat və İnformatika Tədrisi*, (2).
13. Məmmədov, X., Musayeva, S., & İbrahimova, S. (2024). Oduncaq materialın keyfiyyətinin pozulmasına səbəb olan amillərin araşdırılması. *Fizika, Riyaziyyat və İnformatika Tədrisi*, (3).

Daxil oldu: 01.07.2025
Qəbul edildi: 06.10.2025

DOI: https://doi.org/10.36719/2789-6919/50/36-53

**Müşfiq Çobanov**
Azərbaycan Texniki Universiteti
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0008-8684-2722
mborcali@gmail.com

# Tiflis ədəbi mühitində Azərbaycan milli mətbuatı

## Xülasə

Məqalədə Tiflis (Tbilisi – M.Ç.) ədəbi mühitində yaranmış milli mətbuatımız araşdırılır. Göstərilir ki, Qafqaz canişinliyi Tiflis şəhərində yerləşdirildiyindən bura həm də müxtəlif xalqların mədəni mərkəzinə çevrilmişdir. Məktəblərin, teatrların, qəzet və nəşriyyatların yaradılması getdikcə intensivləşmişdir. Doğrudur, bu proses digər xalqlara baxdıqda bizdə bir qədər ləng getmişdir. Ancaq bu da aydındır ki, bir çox mədəni hadisələrdə Tiflis ədəbi mühiti milli ədəbi mühiti - yəni Azərbaycandakı ədəbi mühiti qabaqlamışdır. Tiflisdə Azərbaycan mətbuatının işıq üzü görməsi təkcə burada yaşayan azərbaycanlıların maariflənməsini deyil, bütövlükdə Azərbaycanda və kənarda yaşayan digər azərbaycanlıların da ədəbi, mədəni mühitdən xəbər tutmasını şərtləndirmişdir. Belə ki, bu mətbuat orqanlarının bir çoxu nəşr olunduğu coğrafiyanın hüdudlarını aşmış, Orta Asiya, Osmanlı, Sibirdə yaşayan türk xalqlarının həyatında mühüm rol oynamışdır. “Ziya”, “Ziyayi-Qafqaziyyə”, “Kəşkül” kimi mətbuat orqanları xalqın böyük bir kəsimində milli mənlik və dini şüuru formalaşdırmışdır. “Şərqi-rus” qəzeti və “Molla Nəsrəddin” jurnalı Tiflisdə nəşr edilməsinə baxmayaraq, Azərbaycanın ilk gündəlik qəzeti kimi Azərbaycandan gedən məqalələri də nəşr etmiş və Azərbaycan ədəbi prosesinin bir parçasına çevrilmişdir. Bu ənənə sonralar da Gürcüstanda nəşr olunan Azərbaycan dilli mətbuat orqanlarında davam etmiş və bu günün özündə də 105 yaşlı “Gürcüstan” qəzetinin timsalında ləyaqətlə davam edir.

***Açar sözlər:*** *Azərbaycan, milli, mətbuat, Tiflis, ədəbi mühit, ədəbi əlaqələr*

**Mushfig Chobanov**
Azerbaijan Technical University
PhD in Philology
https://orcid.org/0009-0008-8684-2722
mborcali@gmail.com

# Azerbaijani National Press in the Tbilisi Literary Environment

## Abstract

The article examines our national press, which emerged in the literary environment of Tbilisi (Tbilisi – M.Ch.). It is shown that since the Caucasian Viceroyalty was located in the city of Tbilisi, it also became a cultural center of various peoples. The creation of schools, theaters, newspapers and publishing houses has become increasingly intensive. True, this process has been somewhat slow in our country compared to other nations. However, it is also clear that in many cultural events the literary environment of Tbilisi has preceded the national literary environment - that is, the literary environment in Azerbaijan. The emergence of the Azerbaijani press in Tbilisi not only provided enlightenment to Azerbaijanis living here, but also to other Azerbaijanis living in Azerbaijan and abroad, who were informed about the literary and cultural environment. Thus, many of these press organs went beyond the geographical boundaries of their publication and played an important role in the lives of the Turkic peoples living in Central Asia, the Ottoman Empire, and Siberia. Press organs such as “Ziya”, “Ziyayi-Qafqaziyya”, “Kashkul” formed the national identity and religious consciousness of a large part of the people. Despite being published in Tbilisi, the “Sharqi-rus” news

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

paper and the "Molla Nasreddin" magazine, as the first daily newspaper of Azerbaijan, also published articles originating from Azerbaijan and became a part of the Azerbaijani literary process. This tradition was later continued in Azerbaijani-language press outlets published in Georgia and continues with dignity today in the example of the 105-year-old "Georgia" newspaper.
***Keywords:*** *Azerbaijan, national, press, Tbilisi, literary environment, literary relations*

## Giriş

Güney Qafqaz Rusiya tərəfindən işğal edildikdən sonra bölgəni idarə edən Qafqaz canişinliyi Tiflis şəhərində yerləşdirildiyindən, istər-istəməz burada yaşayan əhalinin yaşayış tərzlərinin nisbətən yaxşılaşdırılması, mədəniyyət və məişətlərin inkişaf etdirilməsi üçün müəyyən işlər görülmüş və beləliklə də, Tiflis inzibati mərkəz olmaqla yanaşı, həm də burada yaşayan müxtəlif xalqların mədəniyyət mərkəzinə çevrilmişdir. Burada məktəblərin, teatrların, mətbəələrin və nəşriyyatların yaradılması, kitabların, qəzet və jurnalların nəşri getdikcə intensivləşmişdir. Doğrudur, bu proses digər xalqlara nisbətən bizdə bir qədər ləng getmişdir. Ancaq bu da aydındır ki, bir çox mədəni hadisələrdə Tiflis ədəbi mühiti milli ədəbi mühiti – yəni Azərbaycandakı ədəbi mühiti qabaqlamışdır. Elə buna görə də, milli mətbuatın, milli dramaturgiyanın ilk nümunələri də məhz Tiflis Azərbaycan ədəbi mühitində yaranmışdır.

**Tədqiqat**

XIX əsrin 20-ci illərində "Zaqafqaziya"nın inzibati-mədəni mərkəzi olan Tiflisdə rus dilində nəşr olunan "Tiflisskiye vedomosti" (1828-1832) qəzeti nəinki Tiflisdə, eləcə də bütün Qafqazda ilk mətbuat orqanı olaraq mədəniyyət və mətbuat sahəsində böyük canlanma yaratmış, bu baxımdan böyük əhəmiyyət kəsb etmişdir (Zeynalov, 1973, s. 7). Qəzetdə həmin dövrdə baş verən hadisələr haqqında, eləcə də B.Marlinski, V.Qriqoryev, P.Sankovski, Q.Qordeyev, V.Suxorukov və başqalarının yazıları ilə yanaşı, həm də, "Abbasabad mühasirəsinin təsviri" (1829, №27, 30), "Müasir tarix: Azərbaycan vilayətinin hərbi vəziyyəti haqqında" (1829, №38, 43), "Moskvalı dostuma məktub" (1830, №25, 53 və b.), "Qarabağ əyalətinə tarixi baxış" (1830, № 86), "Car və Balakən vilayətlərinə səyahət" (1830, № 81-83) və s. məqalələrdə Azərbaycan haqqında, azərbaycanlıların məişəti, yaşayış tərzi və s. haqqında məlumatlar verilmiş, xalqımızın şifahi və yazılı ədəbiyyatları haqqında söhbət açılmışdır. A.Bakıxanov qəzetdə müntəzəm olaraq tərcümə əsərləri ilə çıxış etmişdir.

1828-ci ildə fəaliyyətə başlayan "Tiflisskiye vedomosti" qəzeti 1829-cu ildə gürcü, 1830-cu ildə fars və 1832-ci ilin yanvarından Azərbaycan dilində çıxmağa başlamışdır. Qəzet azərbaycanca "Tiflis əxbarı" adı ilə çıxmış və onu təkcə Güney Qafqazda deyil, İranda və Türkiyədə də oxuyurdular. Qəzetin redaktoru P.S.Sankovski idi və o, 1932-ci il oktyabrın 19-da vəfat etmiş və 1833-cü ilin əvvəllərində "Tiflis əxbarı" qapanmışdır (Zeynalov, 1973, s. 10).

1838-ci ildə Tiflisdə "Zakavkazskiy vestnik" adında rusca daha bir qəzet çıxmağa başlamış və bir az sonra həmin qəzet də, gürcü və Azərbaycan dillərində də buraxılmışdır. Bu qəzetin "Qafqazın bu tərəfinin xəbərləri" adlanan Azərbaycan variantı rəsmi dövlət məlumatlarını, fərmanları, qərar və qanunnamələri Azərbaycan dilində yayan rəsmi bir orqan idi və bu orqan, dəqiq olmayan məlumata görə, 1846-cı ildə bağlanmışdır (Zeynalov, 1973, s. 11).

XIX əsrin 40-cı illərində M.F.Axundzadə M.Ş.Vazehlə birlikdə Azərbaycan dilində qəzet və kitablar çap etmək üçün mətbəə yaratmağa təşəbbüs etsələr də, onların təşəbbüsləri müvəffəqiyyətsizliklə nəticələnmişdir. Lakin bu onları ruhdan salmamış, əksinə, Azərbaycan maarifpərvərlərinə milli mətbuat yaratmaq uğrunda mübarizənin zəruriliyini bir daha hiss etdirmişdir. "Çap sözünün qüdrətinə inanan" (Mişiyev, 1987, s. 59) M.F.Axundzadə Qafqazdakı bütün mətbuat orqanlarından maksimum istifadə etməyə çalışmışdır. Onun "Kavkaz" (1846-1918) qəzeti ilə əlaqələri bu baxımdan daha diqqətə layiqdir. "Kavkaz" Azərbaycan ziyalılarının ən çox əməkdaşlıq etdikləri mətbuat orqanlarından biri olmuş, böyük rus tənqidçisi V.Q.Belinskinin yüksək qiymətləndirdiyi bu qəzetin səhifələrində Xəqani Şirvani, Nizami Gəncəvi, Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Molla Vəli Vidadi, Mirzə Şəfi Vazef, Qasım bəy Zakir, Aşıq Pəri və b. Azərbaycan sənətkarlarının əsərlərindən nümunələr və onlar haqqında məqalələr dərc olunmuşdur (Belinskiy,

1956, s. 58-59). A.Bakıxanov, İ.Qutqaşınlı və M.F.Axundzadənin ardınca M.Səfiyev, M.Şaxtantinski, S.Vəlibəyov, F.Köçərli, E.Sultanov, M.Ş.Mirzəyev, H.Vəzirov, C.Məmmədquluzadə və b. görkəmli yazıçı, jurnalist və publisistlərimiz də müxtəlif ədəbi-mədəni, ictimai-siyasi məsələlərlə bağlı "Kavkaz" qəzetinin səhifələrində dönə-dönə çıxış etmişlər (Mişiyev, 1987, s. 75). Lakin bütün bunlarla yanaşı, qeyd etməliyik ki, "Tiflis əxbarı", "Qafqazın bu tərəfinin xəbəri" və həmçinin rusdilli "Kavkaz" qəzeti ilə, əlbəttə, Azərbaycan mətbuatı yaransa da, tam olaraq təşəkkül tapmamışdır. Bunlar ancaq onun rüşeymi olmuşdur. Eyni zamanda, bu orqanlar Həsən bəy Zərdabinin təşəbbüsü ilə yaranan milli Azərbaycan mətbuatının açılmaqda olan sübhündən xəbər vermişdir. 1868-ci ildə qəzet çıxarmaq fikrinə düşən H.Zərdabi düz yeddi il sonra, 1875-ci ildə nəhayət ki, qəzetin nəşrinə icazə ala bilmişdir. Bu xəbər bütün azərbaycanlılar tərəfindən rəğbətlə qarşılanmış və 1875-ci il iyunun 22-də "Əkinçi" qəzetinin birinci nömrəsinin çıxması ilə Azərbaycan milli dövri mətbuatının özülü qoyulmuşdur. Təəssüf ki, milli mətbuatımızın ilk qaranquşu – ilk Azərbaycan qəzeti "Əkinçi" 1877-ci ildə bağlanmışdır. "Əkinçi"nin cəmi 56 (1875-ci ildə 12, 1876-cı ildə 24, 1877-ci ildə 20) nömrəsi çıxmış, lakin mətbuat tariximizdə böyük və silinməz iz qoymuşdur. Mətbuat tarixini araşdıran Akif Aşırlı da bu fikirdədir ki: "Azərbaycan milli mətbuatı 1875-ci ildə Həsən bəy Zərdabinin yaratdığı "Əkinçi" qəzeti ilə başlayır" (Aşırlı, 2009, s. 7). A.Aşırlı ona görə haqlıdır ki, ona qədərki mətbuat milli mətbuat statusuna bütün parametrlərilə cavab verməmiş və ilk cavab verən məhz "Əkinçi" qəzeti olmuşdur.

Azərbaycan demokratik mətbuatının möhkəm bünövrəsini qoymuş "Əkinçi" qəzeti öz səhifələrində o zamankı siyasi, iqtisadi, ictimai, ədəbi məsələlərə dair bir sıra mühüm problemlər irəli sürmüş, qabaqcıl, mütərəqqi ideyaları təbliğ etmişdir. Elə bunun nəticəsidir ki, qəzetdə qaldırılan məsələlər çar hökümətinin xoşuna gəlmədiyi üçün, mürtəce və mühafizəkar qüvvələrlə əlbir hərəkət edən çar hököməti ilk Azərbaycan qəzetinin nəşrini 1877-ci ildə dayandırmışdır. Lakin bu qadağa Azərbaycan ziyalılarının səsini boğa bilməmişdir. Onların bir çoxu Tiflisə üz tutmağa məcbur olmuşlar. Çünki artıq yuxarıda qeyd etdiyimiz kimi, XIX əsrin 20-ci illərindən sonra Tiflis şəhəri Güney Qafqazda yaşayan bütün xalqlar kimi, azərbaycanlıların da mədəniyyət mərkəzinə çevrilmişdir. Tiflisdə yaşayıb-yaradan vətənpərvər ziyalılarımızın fəaliyyəti nəticəsində burada bir sıra milli-mədəni tədbirlər həyata keçirilmiş, 1832-1833-cü illərdə "Tiflis əxbarı", 1838-1846-cı illərdə "Qafqazın bu tərəfinin xəbəri" adlı qəzetlərin Azərbaycan variantları işıq üzü görmüş, 1847-ci ildə Tiflisdə Azərbaycan dilli ilk rəsmi dövlət məktəbi, 1872-ci ildə Azərbaycan dram teatrı, bir sıra klublar və s. açılmış, eyni zamanda, qəzet, jurnal və kitabların nəşr olunmasına icazə alınması üçün aparılan mübarizə gündəngünə genişlənmişdir.

"Əkinçi" qəzeti bağlansa da, özündən sonra milli mətbuat yolunda dərin bir cığır açmağa nail olmuşdur. Elə buna görə də, "Əkinçi"dən sonra bir-birinin ardınca yeni mətbuat orqanları fəaliyyətə başlamışdır. Bu sırada ilk olaraq "Ziya" ("Ziyayi-Qafqaziyyə") qəzetinin adını çəkməliyik. Tarixi materiallardan da bəlli olduğu kimi, "Əkinçi"nin nəşri dayandıqdan iki il sonra, 1879-cu ildə Tiflisdə Hacı Səid Ünsizadənin redaktorluğu ilə Azərbaycan dilində "Ziya" adlı qəzetin ilk sayı işıq üzü görmüşdür. İlk nömrəsi 1879-cu il yanvarın 16-da (bəzi mənbələrdə yanvarın 25-də - M.Ç.) çıxan və həcmi 4-8 səhifə olan qəzet həftədə bir dəfə litoqrafiya üsulu ilə çap olunmuşdur. "Əkinçi" (1875-1877) qəzeti bağlandıqdan sonra ədəbiyyatımızın, mədəniyyətimizin təbliğində və mətbuatımızın inkişafında müstəsna rolu olmuş "Ziya" (1879-1880) qəzeti 76 nömrə çıxdıqdan sonra, 1880-ci il dekabrın 6-dan etibarən öz fəaliyyətini "Ziyayi-Qafqaziyyə" (1880-1884) adı ilə davam etdirmişdir. Mətbəə üsulu ilə çap olunan bu qəzetin nəşri 1884-cü il iyunun 1-dək davam etmiş və bu müddət ərzində qəzetin 104 nömrəsi çıxmışdır. Qəzetin səhifələrində ilk gündən başlayaraq ruhanilər və ruhani fikirli ziyalıların böyük fəallığı nəzərə çarpmışdır. Daha doğrusu, "Ziya" və "Ziyayi-Qafqaziyyə" qəzetlərinin özləri ruhanilərin qarşısına qoyduqları vəzifələri yerinə yetirməkdə nümunə olmağa çalışmışlar. "Ziyayi-Qafqaziyyə" qəzeti daha geniş proqram üzrə nəşr olunmuşdur. Bu proqramda ictimai-siyasi problemlərə də geniş yer verilmişdir. Lakin təəssüflər olsun ki, sözügedən qəzet öz sələfi ilə müqayisədə irəliyə doğru elə bir ciddi addım ata bilməmişdir.

Qəzetdə xarici və daxili xəbərlər, günün reallıqları ilə ilgili felyetonlarla yanaşı, istinadla xarici agentliklərin informasiyaları da işıqlandırılmışdır. "Ziya" adı altında 76, "Ziyayi-Qafqaziyyə" adı

altında isə 107 sayı işıq üzü görmüş qəzetin əsas yazarları Səid Ünsizadə, Kamal Ünsizadə, Cəlal Ünsizadə, Nəcəf bəy Vəzirov, Seyid Əzim Şirvani, Aleksandr Çernyayevski və b. olmuşdur.

"Əkinçi"dən sonrakı mətbuat boşluğunu dolduran, 1879-1880-ci illərdə "Ziya", 1880-1884-cü illərdə "Ziyayi-Qafqaziyyə" adı altında nəşr olunan həftəlik ədəbi, bədii, ictimai, siyasi qəzetin baş redaktoru və naşiri Səid Ünsizadə Qafqaz canişinliyi baş idarəsinin təqdimatı ilə 1877-ci ildə Tiflis Ruhani İdarəsinə ezam olunmuş, iki aya yaxın orada çalışmış və 1884-cü ilədək Tiflisdə yaşamışdır. Tiflisin ədəbi-mədəni mühiti onun arzusunda olduğu qəzet nəşri və mətbəə yaratmaq kimi dövrün ən mütərəqqi ideyasını həyata keçirməyə imkan yaratmışdır. "Ziyayi-Qafqaziyyə" qəzetinin 1881-ci ildə nəşr olunan 16-cı sayında bu istək lakonik şəkildə belə təsvir edilmişdir: "Neçə vaxt idi ki, mətbəə və mətbuat işini əmələ gətirmək arzusunda idik ki, mətbəəmiz Bərgunə şəhərdə olsun ki, orada cümlə əsbab mühəyya olsun. Aşkardır ki, Qafqazda Tiflisdən başqa bu mətalibin pinerəftinə şayistə yer yoxdur."

Qəzet rejimin siyasi təzyiqləri ilə yanaşı, həm də ictimaiyyətin, xüsusən də dini zümrələrin təqib və təzyiqlərinə məruz qalmışdır. "Şərq" qəzetinin baş redaktoru, araşdırmaçı Akif Aşırlı "Azərbaycan mətbuat tarixi" əsərində bu haqda yazır: "Hacı Səid Əfəndinin işi təkcə senzorlarla deyil, özünün də mənsub olduğu ruhani zümrəsinin təhdid və təzyiqlərini dəf etmək idi. 1879-cu ilin zilhiccə ayının 10-da Tiflisdə Qurban bayramı münasibətilə keçirilən mərasim barədə "Qurban bayramı" başlıqlı məqalə dərc edən "Ziya"nın ruhanilərlə uzun bir çəkişməsi başlayır. Mərasimdə xütbə oxuyan Əhməd Əfəndi barəsində məqalədə əksini tapmış "pis, xoşagəlməz səsə malik olub, özünü "xoş avaz sayan" ifadəsi kəskin etiraz doğurur. Ən böyük təşvişə düşən, məqalə barəsində etiraz edən isə, şübhəsiz ki, Əhməd əfəndi və onun baş üzvü olduğu müfti idarəsi idi. Özünü təhqir olunmuş hesab edən Əhməd əfəndi müfti Hüseyn Əfəndi Qayıbova şikayət etməklə kifayətlənməmiş, Qafqaz canişinliyinin ruhani idarələri üzrə nəzarətçisi knyaz Çordcadzeyə də ərizə verib, tədbir görülməsini xahiş etmişdi. Əhməd əfəndi "Qurban bayramı" məqaləsini rus dilinə çevirib şikayət ərizəsinə əlavə etmişdir. Təhqir olunduğunu iddia edən Əhməd əfəndi özünün sonrakı donoslarında qeyd etdiyi kimi, ruhani idarələri üzrə nəzarətçi onun şikayətinə laqeyd yanaşmış, Səid Ünsizadə cəzasız buraxılmışdı" (Aşırlı, 2009, s. 32). Lakin deməliyik ki, bütün təqib və təzyiqlərə baxmayaraq, cəmi 183 nömrəsi işıq üzü görmüş "Ziya" və "Ziyayi-Qafqaziyyə" qəzetləri "Əkinçi"nin ideya və ənənələrini ləyaqətlə davam və inkişaf etdirmiş, öz fəaliyyətlərində bir çox vacib məsələləri "Əkinçi" qəzetindəki kimi kəskin şəkildə qoymuş, mütərəqqi fikirli müəlliflərin məqalələrinə üstünlük vermişdir. Belə ki, əgər "Əkinçi" qəzeti yeni tipli məktəblərin açılması və onlara uyğun dərsliklərin yazılması, müəllim kadrların hazırlanması məsələsini qaldırırdısa, "Ziya" qəzetinin naşiri və sonralar həm də redaktoru olmuş Səid Ünsizadə bu tipli məktəblərin açılmasına çalışmış və müəyyən mənada istəyinə nail olmuşdur. Belə ki, onun 1875-ci ildə Şamaxıda açdığı məktəb qısa müddətdə böyük nüfuz qazanmışdır.

Səid Ünsizadənin ortancıl qardaşı Cəlal Ünsizadə isə 1883-cü ildə Tiflisdə "Kəşkül" adlı jurnal nəşr etməyə başlamış və 11 nömrə buraxdıqdan sonra jurnalı qəzetə çevirmiş və 1891-ci ilədək həmin qəzetin 123 nömrəsi çapdan çıxmışdır. Cəlal Ünsizadə ali təhsilli, Avropa və rus mədəniyyəti ilə yaxından tanış olan bir ziyalı olmuşdur. O, 1876-cı ildə Tiflisə köçmüş, Tiflisdə azərbaycanlılar üçün oğlan məktəbi açmış, həmin məktəbdə pedaqoji fəaliyyətini davam etdirmişdı. Səid Ünsizadə "Ziya" qəzetini nəşr etməyə başlayanda Cəlalı da qəzetçiliyə cəlb etmişdi. Cəlal Ünsizadə müstəqil qəzet çıxarmaq fikrinə 1882-ci ildə düşmüşdü. Həmin il mayın 1-də Qafqaz canişininin baş idarəsinə yazdığı məktubda o, "Kəşkül" adlı jurnal çıxarmaq istədiyini bildirmişdi. Onun xahişi 1883-cü ildə yerinə yetirilmişdir. Həmin ilin yanvar ayında jurnalın birinci nömrəsi çapdan çıxmışdır. C.Ünsizadə "Kəşkül"ü çox çətin şəraitdə buraxmışdır. Jurnalın redaksiyası Tiflisdə dar bir küçədə iki yarıqaranlıq otaqda yerləşirdi. Mətbəə avadanlığı çatışmırdı, işçi qüvvəsi yox idi. Şagird dəftərindən azca böyük olan iki həftədə bir çıxarılan, cəmi 12-16 səhifədə buraxılan jurnala böyük əmək sərf edilirdi. C.Ünsizadə təhsil görmüş gəncləri redaksiyaya cəlb etmək üçün lazımi səy göstərirdi. O zaman Tiflisdə işləyən azərbaycanlı müəllimləri tez-tez redaksiyaya dəvət edirdi. 1883-cü ildə Tiflis gimnaziyasının 6-cı sinfində təhsil alan Məmməd Kəngərlini redaksiyada məsul katib vəzifəsinə işə götürmüşdü. O həm də C.Ünsizadə ilə birlikdə məqalələrin tərtibi və jurnalın nəşri məsələlərinə də bilavasitə nəzarət edirdi. M.Kəngərli həm də Rusiya qəzetlərini diqqətlə oxuyur, lazımi materialları tərcümə edir və

"Kəşkül"ün vasitəsilə azərbaycanlı oxuculara çatdırırdı. Bütün bu çətinliklərə baxmayaraq "Kəşkül"ün müəllif və müxbir heyəti çox geniş və zəngin olmuşdur. Qəzetin Bakı, Quba, Qarabağ və İrəvanda öz müvəkkilləri olmuş, redaksiyanın oxucularla əlaqəsinin möhkəmləndirilməsində həmin müvəkkillər böyük rol oynamışlar. C.Ünsizadə "Kəşkül"ün redaksiya heyətinə Ukrayna yazıçısı N.Kulak, o zaman Tiflisdə çıxan "Yuridiçeskoye obozreniye" ("Юридическое Обозрение", daha sonralar "Кавказское Обозрение", 1881-1886) məcmuəsinin müdiri və redaktoru A.B.Stepanov, Tiflisin baş həkimi Babud, Tiflis maarif məclisinin sabiq müdiri Pulseladze, görkəmli pedaqoq, Qori Seminariyasının baş müəllimi Aleksey Osipoviç Çernyayevski, məşhur gürcü şairi İlya Çavçavadze, məşhur gürcü ədibi Georgi Eristavi, erməni yazıçılarından Aleksandr Şirvanzadə və başqa qabaqcıl ziyalıları toplaya bilmişdir. Bunlardan başqa, Azərbaycan yazıçı və publisistlərindən H.Zərdabi, S.Ə.Şirvani, F.Köçərli, M.Şahtaxtlı, S.M.Qənizadə, S.Vəlibəyov, M.Sultanov, G.Kəngərli, Ə.Qayıbov, R.Axundov kimi sənət və mədəniyyət adamları da "Kəşkül"ün ətrafında olmuş, "Kəşkül"lə fəal surətdə əməkdaşlıq etmişlər, qəzetə bədii əsərlər, publisist məqalələr yazmışlar.

"Kəşkül" (1883-1891) öz istiqaməti etibarilə "Ziya"dan seçilmişdir. İctimai və ədəbi proqramı daha geniş olan "Kəşkül"ün "Ziya" qəzetinə nisbətən həm mövzu dairəsi daha əhatəli, həm də məqalələrin yazılış forması müxtəlif və rəngarəng idi. "Kəşkül" həyatın hər sahəsindən məlumat verən zəngin materiallar "çantasına" bənzəyirdi. Qəzetə "Kəşkül" adının verilməsi də məhz elə bununla əlaqədar idi.

"Kəşkül" öz ideya istiqamətinə görə "Əkinçi"yə daha yaxın olmuşdur. Lakin burada "Əkinçi"dən fərqli olaraq siyasi məsələlərə də yer verilmişdir. Bu qəzetdə ticarət, sənaye, sənətkarlıq və mədəniyyət məsələlərinə də toxunulmuşdur. "Kəşkül"də publisistik məqalələr, dil, ədəbiyyat, mədəniyyət, incəsənət, ictimai-siyasi məsələlər üzrə yazılar, orijinal ədəbi parçalar, Avropa, Şərq və rus ədəbiyyatından tərcümələr çap olunmuşdur. Qəzet "Əkinçi"nin demokratik ənənələrini davam etdirərək, Şərq despotizmini, geriliyi, mədəni inkişaf yollarını göstərmişdir. Eyni zamanda, "Kəşkül" mütərəqqi Azərbaycan ziyalılarının köməyinə ümid bəsləmiş, onlara arxalanmışdır. Qəzet yazırdı: "Yeni başlanmış həyat, yeni köməyə və təlimata möhtacdır. Ümid edirik ki, bizimlə yanaşı, millətimiz yaradılmış bu vərəqin nəşrinə kömək edəcəkdir". Məlumatlara əsasən, Rusiyanın mərkəzi şəhərlərində, Qori Müəllimlər Seminariyasında və b. yerlərdə təhsil almış gənclər "Kəşkül" qəzetinin mütərəqqi təşəbbüslərini müdafiə edərək, onun ətrafına toplaşmışlar. "Kəşkül"ün başladığı hərəkatda Tiflisin rus ziyalıları, tərəqqipərvər Tiflis müəllimləri də iştirak etmişlər. "Kəşkül"ün səhifələrində ədəbiyyat məsələlərinə dair qabaqcıl, mütərəqqi ideyalara geniş yer verilmişdir. "Kəşkül" realist ədəbiyyatın əhəmiyyətini yüksəyə qaldırmış, köhnə mədrəsələrdə islahat keçirilməsinə, yeni məktəblərin, kitabxana və teatrların açılmasına, digər milli mədəniyyət ocaqlarının təsis edilməsinə tərəfdar çıxmışdır. Qəzet klassiklərin təbliğində müəyyən rol oynamış, Ö.Xəyyam, S.Şirazi, H.Şirazi və b. irsinə böyük əhəmiyyət vermiş, səhifələrində A.A.Bakıxanov, M.F.Axundzadə, S.Ə.Şirvani və b. yaradıcılığına geniş yer ayırmışdır. Onlar qəzetin əsas təbliğ etdiyi simalar olmuşlar. "Kəşkül"ün səhifələrində həmçinin H.Zərdabi, F.Köçərli, S.M.Qənizadə, R.Axundov, S.Vəlibəyev, G.Gəngərli kimi dövrün qabaqcıl ədib, şair və ziyalılarının əsərləri daha çox çap olunmuşdur. Ədəbiyyat məsələləri ilə müntəzəm məşğul olan "Kəşkül" milli ədəbiyyatımızın təbliğatçısı olmaqla yanaşı, həm də öz səhifələrində rus, gürcü və erməni klassiklərinin, eləcə də, Şiller və Hüqo kimi dünyaca məşhur olan ədiblərin əsərlərindən nümunələr də vermişdir. "Kəşkül" vasitəsilə oxucular nəinki XIX əsrin sonu və XX əsrin əvvəllərinə dair Azərbaycanda baş verən hadisələrlə, eyni zamanda, Azərbaycan, rus və dünya ədəbiyyatı nümunələri ilə də yaxından tanış olmuşlar. Qəzet Güney Qafqaz, Rusiya, Avropa və Asiya xalqlarının mədəni irsinin təbliğ edilməsinə, inkişaf etməkdə olan yeni demokratik ədəbiyyatın nümunələrinin çapına böyük diqqət yetirmiş, öz səhifələrində Azərbaycan dilində rus və dünya ədəbiyyatından tərcümələr vermiş, öz oxucularını rus və dünya klassiklərinin əsərləri ilə tanış etmişdir. Ümumiyyətlə, Azərbaycanda bədii fikrin inkişafında "Kəşkül"ün mühüm rolu olmuşdur (Hacıyev, 2021, s. 24). "Kəşkül"ün ümumi ədəbi istiqaməti demokratik xarakter daşımışdır. Realizm burada dövrün hakim yaradıcılıq metodu kimi ardıcıl olaraq müdafiə olunmuşdur (Talıbzadə, 1984; Qurbanov, 1961; Zeynalov, 1961). Lakin sovet dövründə bu nəşrlər haqqında elə də geniş məlumat verilməmişdir. Akif Aşırlı bunu nəzərdə alaraq yazır: "Sovet dövrünün araşdırıcıları ideoloji yöndən

bu qəzet və dərgiyə yanaşaraq obyektivlikdən kənar fikirlərə rəvac vermişlər" (Aşırlı, 2009, s. 7). Bu fikirlər isə ondan ibarət idi ki, bu qəzetlərdə islam birliyi və milli düşüncə təbliğ olunurdu, xalqın maariflənməsi üçün Avropanın elmi yenilikləri ilə oxucuların tanışlığına, ədəbiyyata yeni baxışın formalaşmasına əsaslar yaradırdı. Elə buna görə də, çox keçmir ki, "Kəşkül"ün mütərəqqi cəhətləri çar şurasını narahat etməyə başlamışdır: "Kəşkül"ü öz tərəflərinə çəkməyə çalışan mürtəce qüvvələr maddi vəziyyətinin ağır olduğundan istifadə edərək, "Kəşkül"ə vəsait verməyə hazır olduqlarını bildirmişlər. Lakin onların bu ciddi cəhdi boşa çıxmışdır. "Kəşkül" heç kimdən maddi yardım almadan, bütün çətinliklərə dözərək öz fəaliyyətini bir müddət davam etdirə bilmişdir. C.Ünsizadə "Kəşkül"də ərəb, fars və rus dillərində də materiallar verməyi nəzərdə tutmuşdu. O, bir sıra Şərq ölkələrində qəzet üçün müxbirlər yetişdirmək, həmin ölkələrdən maraqlı yazılar dərc etmək niyyətində idi. Təəsssüf ki, redaktor bu təşəbbüsünü yerinə yetirə bilməmişdir. O, təkcə qəzetdə ara-sıra farsca və rusca verilən məqalələr verməklə kifayətlənmişdir (Bəzi məlumatlara görə isə, "Kəşkül" Azərbaycan dilində nəşri ilə yanaşı, bir müddət ərəb və fars dillərində də çap edilmişdir.). 1884-cü il yanvarın 1-dən "Kəşkül" həftəlik qəzetə çevrilmiş və 1891-ciilədək nəşr edilmişdir.

"Kəşkül" qəzeti bağlandıqdan sonra Tiflisdə yenidən Azərbaycan dilində mətbuat orqanı yaratmaq üçün daha bir neçə dəfə təşəbbüs olmuşdur. Lakin onların təşəbbüsü fayda verməmişdir (Zeynalov, 1973, s. 56). Məsələn, M.Şahtaxtlının 1896-cı ildə Azərbaycan dilində "Tiflis" adlı qəzetin açılması üçün etdiyi müraciəti daxili işlər naziri bir ildən sonra rədd etmişdir. K.Ünsizadə 1900-cü ildə "Danış" adlı qəzet çıxarmaq istəmişdir. Ona da "yox" cavabı verilmişdir. N.Nərimanovun çapına çalışdığı "Tazə xəbərlər" ("Novıye vesti") qəzetinin və "Məktəb" jurnalının, eləcə də, onun müəllim dostu S.M.Qənizadə ilə birlikdə çıxarmaq istədiyi "Sovqat" jurnalının nəşrinə də icazə verilməmişdir. Bundan əlavə, S.M.Qənizadə və H.Mahmudbəyovun aylıq "Nübar" jurnalının nəşri üçün verdikləri ərizə də çox keçmədən Baş mətbuat işləri idarəsi tərəfindən rədd edilmişdir. Yeni qəzet nəşrlərinə başlanılmasına icazə almaq üçün çar hökumətinə ünvanlanan digər müraciətlərin də əksəriyyərinə mənfi cavab verilmişdir. Tarixi materiallardan və mətbuat tarixini araşdıran mütəxəssislərin yazdıqlarından da bəlli olduğu kimi Cəlal və Kamal Ünsizadə qardaşlarının "Azərbaycan", K.Ünsizadənin Klimovski ilə birlikdə "Uçan yarpaq", Ə.Ağayevin "Məşriq" və b. qəzetlərin nəşri ilə bağlı müraciətlərinin taleyi də əvvəlkilər kimi mənfi cavablandırılmışdır. Bu hər şeydən əvvəl çar Rusiyasının azərbaycanlılara qarşı apardığı müstəmləkə siyasətinin nəticəsi idi. Bir sözlə, Azərbaycan mətbuatı inkişafının ilkin dövrlərində xeyli maneələr və çətinliklərlə üzləşmişdir. Belə ki, çar hakimiyyətinin sərt senzurası ölkədə nəşr olunan qəzet və jurnalların nəinki sayının sürətlə artmasına imkan verməmiş, həm də mövcud olanları da bir-bir bağlamaq üçün bəhanələr axtarmışdır. A.Zeynalzadənin qeyd etdiyi kimi, XIX əsrin ikinci yarısı - XX əsrin əvvəllərində yaşamış Azərbaycan ziyalılarının ölkədə mətbuatın inkişafı və genişləndirilməsi istiqamətində göstərdikləri cəhdlər çox zaman çar hökumətinin yaratdığı süni maneələr ucbatından reallaşmamışdır. Yerli mətbuatın inkişafına qarşı yönələn təzyiqlər yeni mətbu orqanlarının ərsəyə gəlməsinə yaradılan süni maneələrlə yanaşı, artıq dərc olunmağa başlayan qəzet və jurnalların bağlanması şəklində də özünü göstərmişdir. "Əkinçi" qəzetinin nəşrinin dayandırılmasına da səbəb məhz mütləqiyyətin Azərbaycan xalqının maariflənməsinin, ölkədə milli oyanışın qarşısını almaq məqsədi olmuşdur. Xalqımızın mütərəqqi düşüncəli ziyalılarının nəşr etdirdiyi demokratik, liberal mətbuata qarşı təzyiqlər sonrakı illərdə də davam etdirilmiş və 1884-cü ildə "Ziyayi-Qafqaziyyə", 1891-ci ildə isə "Kəşkül" bağlanmışdır. Lakin bütün çətinliklərə baxmayaraq, azərbaycanlı ziyalılar ana dilində qəzet və jurnalların nəşri istiqamətində yorulmaz fəaliyyətlərini davam etdirmişlər. O cümlədən, Ə.Ağayev, Ə.Hüseynzadə, Ə.Topçubaşov, N.Vəzirov, M.Ə.Rəsulzadənin yaxından iştirakı və rəhbərliyi ilə 1905-1918-ci illər ərzində ölkəmizdə nəşr olunan "Həyat", "İrşad", "Tərəqqi", "Nicat", "İşıq", "Qurtuluş", "Dirilik", "Füyuzat", "Təzə həyat", "Yeni füyuzat", "Şəlalə", "İqbal", "Açıq söz" və s. qəzet və jurnalların səhifələrində millətin taleyüklü problemləri müzakirə edilmiş, dövrün feodal geriliyi, kəndlilərin ağır həyatı təsvir olunmuş, mədəniyyət, ədəbiyyat, dil məsələlərinə xüsusi diqqət yetirilmişdir.

"Kəşkül"ün maarifçilik istiqamətindəki addımlarını 1881-ci ilin yanvarından 1919-cu ilin martına qədər işıq üzü görən "Kaspi" qəzeti uğurla davam etdirmişdir. Daha doğrusu, "Kəşkül"ün ideyaları

"Kaspi" qəzetinin səhifələrində M.Şahtaxtlı, Ə.Ağayev və başqaları tərəfindən daha geniş təbliğ olunaraq, milli mənlik şüurumuzun formalaşmasında Azərbaycanın Avropaya, bütövlüklə dünya birliyinə inteqrasiyasının etibarlı əsaslar üzərində qurulmasına öz töhfəsini vermişdir. 1889-cu ildə Fransaya gedən M.Şahtaxtlı 1902-ci ildə xaricdən qayıtdıqdan sonra qəzet çıxarmaq eşqi onda daha da güclənmişdir. O öz doğma kəndindəki ata mülkünü sataraq Tiflisdə mətbəə təşkil etməyə başlamışdır. Yeni qəzet çıxarmaq haqqında hökümətə ərizə vermiş, eyni zamanda əməkdaşlar barəsində fikirləşmişdir. 1903-cü ilin əvvəllərində M.Şahtaxtlının təşəbbüsü müsbət nəticə vermişdir. Onun "Şərqi-rus" (1903-1905) adlandırdığı qəzetin birinci nömrəsi martın 30-da işıq üzü görmüşdür. Əvvəlcə həftədə 3 dəfə çıxan qəzet 1904-cü il iyunun 8-dən etibarən gündəlik qəzetə çevrilmişdir. 1903-cü ildə Tiflisdə M.Şahtaxtlının redaktorluğu ilə nəşrə başlayan, sonralar isə bir müddət C.Məmmədquluzadənin redaktorluğu ilə işıq üzü görən "Şərqi-rus" qəzeti ədəbi və ictimai həyatda müsbət hadisə olmaqla yanaşı, həm də XX əsrdə Azərbaycan dilində çıxan ilk ictimai-siyasi, iqtisadi, elmi, ədəbi yönlü qəzet kimi tarixə yazılmışdır.

M.Şahtaxtlı Qərbi Avropa və Mərkəzi Rusiyanın qəzet və jurnallarında səmərəli fəaliyyət göstərərək jurnalistikanın Qərb standartlarına da kifayət qədər bələd olmuşdur. Odur ki, o, "Əkinçi" ənənələrinə sadiq qalaraq xalqın maariflənməsi, qadın azadlığı, fanatizmin tənqidi, cəmiyyətdə demokratik prinsiplərin formalaşması, yeni ədəbi normaların möhkəmlənərək geniş şəbəkəni əhatə etməsi və s. uğrunda əzmlə mübarizə aparmışdır. Məlumatlara əsasən, M.Şahtaxtlı M.F.Axundzadənin ərəb əlifbasının islahı sahəsində başladığı işi, həm də dilçi bir alim kimi inkişaf etdirib özünün hazırladığı Məhəmmədağa xəttini "Şərqi-rus" vasitəsilə əməli şəkildə tətbiq və təbliğ etmişdir. M.Şahtaxtlı jurnalistikanın demokratik prinsiplərini də öz qəzetinin səhifələrində əməli şəkildə tətbiq etmiş, o həm özünün əlifba layihəsi, həm də qəzetdə qaldırılan digər sosial-mədəni problemlər haqda "Şərqi-rus"un səhifələrində açıq polemik diskussiyalara meydan vermişdir. Bu zaman özünün tənqidinə həsr edilən materialları çap etməkdən də qorxmamışdır. "Şərqi-rus" azad və demokratik sözün, fikir və mövqelər mübarizəsinin meydanına çevrilmişdir. 1903-1905-ci illərdə işıq üzü görən və Ö.F.Nemanzadə, C.Məmmədquluzadə, A.Səhhət, M.S.Ordubadi, M.Ə.Sabir, H.Cavid, Ə.Nəzmi, Ə.Qəmküsar və b. kimi maarifçiləri öz ətrafında birləşdirən "Şərqi-rus" qəzeti Azərbaycanda mətbuatın inkişafında yeni mərhələnin başlanğıcını qoymuşlar. B.Əhmədovun yazdığı kimi: "Anadilli mətbuatın yaranması və inkişafı ilə milli şüurun yavaş-yavaş ədəbi müstəvidən ictimai-siyasi müstəviyə keçməsində ziyalıların da rolu böyük olur. Siyasi, ictimai mühitə qoşulan ziyalılar Rusiya və Avropada təhsil alaraq siyasi cəhətdən qismən formalaşmışdılar" (Əhmədov, 2015, s. 19). Bu cəhətdən M.Şahtaxtlı və onun redaktoru olduğu "Şərqi-rus" qəzeti Azərbaycanda ictimai fikrin inkişafı tarixində mühüm yerlərdən birini tutur. O, XX əsrin ilk və həm də gündəlik Azərbaycan qəzetidir. Bu qəzetin Azərbaycan mətbuatı tarixində ən böyük xidmətlərindən biri odur ki, C.Məmmədquluzadə və Ö.F.Nemanzadə kimi görkəmli publisistləri üzə çıxarmış, özündən sonrakı mətbuatda demokratik cəbhəni ardıcıl olaraq möhkəmləndirə bilən mahir redaktorlar yetişdirmiş və təcrübəli yazarlar formalaşdırmışdır (Zeynalov, 1973, pp. 60–63).

"Şərqi-rus" qəzeti elə bir şəraitdə nəşr olunmuşdu ki, o vaxt çar hökuməti digər xalqlar kimi, Azərbaycan xalqını da ən ibtidai azadlıqlardan məhrum etmişdi. Belə bir şəraitdə nəşr olunan qəzet bütöv Azərbaycana işıq salmışdır. Elə buna görə də, C.Məmmədquluzadənin dediyi kimi, qəzet az bir müddətdə özünə böyük hörmət və şöhrət qazandıra bilmişdir. Çarizmin amansız işgəncə və təqiblərinə baxmayaraq, qabaqcıl və mütərəqqi fikirli fədakar ziyalılar XX əsrin əvvəllərində Azərbaycan mətbuatını əzm və fədakarlıqla inkişaf etdirmişlər. Naxələf çar hökümətinin törtöküntüləri isə tərəqqipərvər mətbuatın inkişafına müxtəlif yollarla əngəl törədir, özünə tabe etdiyi xalqların iqtisadi və mədəni cəhətdən irəli getməsinə imkan vermir, əksinə hakim-istismarçı siniflərin və mütləqiyyətinin mənafeyini müdafiə edən mürtəce mətbuat və ədəbiyyatın yayılmasına hər vasitə ilə kömək etməyə cəhd göstərirdilər. Onu da qeyd edək ki, Azərbaycan mətbuatının inkişafına mane olan ən əsas səbəblərdən biri də anadilli mətbəənin azlığı idi. Belə ki, XIX əsrin sonlarında Bakıda cəmi 5 xırda mətbəə, bir litoqrafiya var idi ki, bunlardan da ancaq biri Azərbaycan dilində idi. Bütün bu və ya digər çətinliklərə baxmayaraq, Azərbaycan ziyalıları "Ziya" ("Ziyayi-Qafqaziyyə"), "Kəşkül" və "Şərqi-rus" qəzetlərinin səhifələrində konkret tarixi şəraitdə Azərbaycan zəhmətkeşlərinin

sinfi mübarizə vəzifələrini başa salmış, onları çarizmə və mülkədarlara qarşı barışmaz mübarizəyə doğru səsləmişdir (İbrahimov, 1993). Sonuncu nömrəsi 1905-ci il yanvarın 15-də buraxılmış "Şərqi-rus" qəzeti bağlandıqdan sonra C.Məmmədquluzadə özü müstəqil qəzet çıxarmaq fikrinə düşmüşdür. Bunun üçün çox çalışmışdır. "Şərqi-rus" qəzetinin mətbəəsinin işsiz qaldığını görüb ondan istifadə etmək istəmişdir. Lakin mətbəəni almaq üçün lazım olan külli miqdarda pul onda olmamışdır. 1905-ci ilin ortalarında M.Cəlil Ö.F.Nemanzadə ilə birləşərək, o zaman Tiflisdə yaşayan M.Ə.Bağırovun maddi köməyi ilə həmin mətbəəni satın almışdır. Onlar mətbəəyə "Qeyrət" adı vermişlər. Bununla da, C.Məmmədquluzadə yaradıcılığının ikinci dövrü başlamışdır. O həmin mətbəədə onlarla kitab, intibahnamə və vərəqələr buraxmışdır. Gənc jurnalist C.Məmmədquluzadə 1906-cı il fevralın 21-də Tiflis qubernatoruna ərizə ilə müraciət edərək "Molla Nəsrəddin" adlı satirik-yumoristik jurnal çıxartmasına icazə istəmişdir. Bu təşəbbüsü o zaman Qafqazda, Rusiyanın digər yerlərində çıxan Azərbaycan, rus və tatar qəzetləri də bəyənmiş, bu barədə xəbərlər yaymışdılar. Martın 4-də jurnalı çıxarmaq üçün C.Məmmədquluzadəyə Tiflis qubernatoru dəftərxanası tərəfindən şəhadətnamə verilmişdir. "Şərqi-rus" qəzetində çalışdığı müddətdə peşəkar jurnalist kimi yetişən C.Məmmədquluzadənin yazıçı və publisist istedadı əsasını qoyduğu ilk milli satirik "Mola Nəsrəddin" (1906-1931) jurnalında daha parlaq şəkildə üzə çıxmışdır. C.Məmmədquluzadənin Ö.F.Nemanzadə ilə birlikdə hazırladığı "Molla Nəsrəddin" jurnalının ilk nömrəsi 1906-cı il aprel ayının 7-də Tiflisdə işıq üzü görməsi milli mətbuatın inkişafında əlamətdar hadisəyə çevrilmişdir. Tezliklə nəinki Tiflisdə, eləcə də Tiflisdən çox-çox uzaqlarda özünə yüzlərlə oxucu tapan "Molla Nəsrəddin"ə elə ilk nömrələrindən Tiflisdən başqa bir çox yerlərdən məktublar yazmışlar. Bakıdan, Şəkidən, Lənkərandan, Qarabağdan, Naxçıvandan, Salyandan, Aşqabaddan, Dərbənddən, Moskvadan, Peterburqdan və b. şəhərlərdən ünvanlanan məktublarda çox ciddi problemlər diqqətə çatdırılmışdır. Həmin problemlərin hamısı mütləq xalqın bir millət kimi formalaşmasına əngəl olan faktlarla zəngin olmuşdur.

1918-ci ilədək Tiflisdə nəşr edilən jurnal 1921-ci ildə Təbrizdə, 1921-1931-ci illərdə isə Bakıda çap olunmuşdur. "Molla Nəsrəddin" jurnalı müstəmləkəçilik siyasətini, cəhaləti, geriliyi, sosial ədalətsizliyi kəskin tənqid etmişdir. Qısa bir zamanda oxucu dairəsi genişlənən jurnalın şöhrəti Qafqazın hüdudlarını aşaraq bütün Rusiyaya, türk dünyasına, Yaxın və Orta Şərqə yayılmışdır. Eyni zamanda, bütün təqib və təzyiqlərə baxmayaraq, jurnal 25 il müddətində fəaliyyət göstərə bilmişdir. Bu jurnalın nəşri müddətində formalaşan "Mollanəsrəddinçilik" ictimai-ədəbi hərəkatı Azərbaycan mətbuatının sonrakı inkişafına da böyük təsir göstərmişdir. Jurnalın yaradıcıları olan C.Məmmədquluzadə və Ö.F.Nemanzadə tezliklə şair M.Ə.Sabir, realist ədəbiyyatın nümayəndələri Ə.Haqverdiyev, Ə.Nəzmi, Ə.Qəmküsar, M.S.Ordubadi, S.Mümtaz və b. kimi onlarca istedadı redaksiya ətrafına toplamışlar. "Molla Nəsrəddin" məcmuəsinin birinci sayında verilmiş "Sizi deyib gəlmişəm" başlıqlı məqalə bütün mollanəsrəddinçilərin fəaliyyət proqramı kimi böyük əhəmiyyətə malik olmuşdur.

"Molla Nəsrəddin" jurnalının Tiflisdə nəşri 1918-ci ilin yanvarında ictimai-siyasi vəziyyətlə əlaqədar olaraq dayanmışdır. Həmin ilin sentyabr ayında Tiflisdə Ə.Qarayevin redaktorluğu altında çıxan "Tartan-partan" jurnalı özünün elə birinci sayında "Molla Nəsrəddin"in yoxluğuna işarə ilə deyirdi: "Molla Nəsrəddin" gedəndən bəri heç üzümüz gülmür" ("Tartan-partan", 1918, №1. s. 3). Bəli, "Molla Nəsrəddin"dən əvvəl də, sonra da Azərbaycan dilində neçə-neçə mətbuat orqanları fəaliyyət göstərmiş və onların əksəriyyəti xalqın mədəni inkişafında, siyasi dünyagörüşünün formalaşmasında böyük rol oynamışdır. Lakin həmin mətbuat orqanlarının əhəmiyyətini zərrə qədər azaltmadan yenə də etiraf etməli oluruq ki, onların heç biri kəskin və prinsipial istiqamətinə, təsir və nüfuz dairəsinə, qaldırdığı və həll etdiyi problemlərin aktuallığına görə "Molla Nəsrəddin" səviyyəsinə qalxa bilməmişdir. Bu da təbiidir, çünki jurnal təkcə bir nəfərin rəsmi imzası ilə nəşr olunsa da, bütün XX əsr Azərbaycan demokratlarının yeganə mübarizə orqanı kimi fəaliyyət göstərmişdir (Qurbanov, 1991, s. 65; Məmmədov, 1988, s. 84). Azərbaycan ictimai-ədəbi fikir tarixində yeni bir səhifə açan, böyük jurnalist, nasir və dramaturq C.Məmmədquluzadənin və onun yaxın silahdaşı Ö.Faiqin (1872-1938) gərgin zəhməti sayəsində nəşr olunan "Molla Nəsrəddin" ideya-siyasi istiqaməti ilə satirik və inqilabi-demokratik bir xətt tutmuşdur. Azad insan və vətəndaşlıq hüquqları naminə feodal-patriarxal münasibətlərə, burjua mühitinə kəskin tənqidi münasibət, milli zülmə, imperializmə və müstəmləkə-

çiliyə qarşı mübarizə, Şərq xalqlarının milli əsarətdən azad olması, qadın azadlığı və s. jurnalın təbliğ etdiyi əsas məsələlərdən olmuşdur. Elə buna görə də, akademik K.Talıbzadə haqlı olaraq qeyd edirdi ki, Azərbaycan tənqidi realizmini inqilabi-demokratik ideyaların carçısı olan "Molla Nəsrəddin" (1906-1931) jurnalından ayrı düşünmək olmaz (Talıbzadə, 1989, s. 7). Göründüyü kimi, XIX əsrin ikinci yarısından başlayaraq, Azərbaycan xalqının milli mədəniyyəti və milli şüurunun inkişafı Tiflis ədəbi mühiti ilə sıx bağlı olmuşdur. Tiflis ədəbi-ictimai mühiti, Tiflisdə nəşr olunan qəzet və jurnallar Azərbaycan milli mədəniyyət və mətbuat tarixində silinməz iz qoymuş, mətbuatımızın inkişafı və onun yeni məna kəsb etməsinə də müsbət təsir göstərmişdir. Tiflisdə Azərbaycan mətbuatının işıq üzü görməsi təkcə burada yaşayan azərbaycanlıların maariflənməsini deyil, bütövlükdə Azərbaycanda və kənarda yaşayan digər azərbaycanlıların da ədəbi, mədəni mühitdən xəbər tutmasını şərtləndirmişdir. Belə ki, bu mətbuat orqanlarının bir çoxu nəşr olunduğu coğrafiyanın hüdudlarını aşmış, Türkiyədə, Orta Asiyada, hətta Sibirdə yaşayan türk xalqlarının həyatında mühüm rol oynamışdır. "Ziya", "Ziyayi-Qafqaziyyə", "Kəşkül" kimi mətbuat orqanları xalqın böyük bir kəsimində milli mənlik və dini şüurunu formalaşdırdığı kimi, "Şərqi-rus" qəzeti Tiflisdə nəşr edilməsinə baxmayaraq, Azərbaycanın ilk gündəlik qəzeti kimi Azərbaycandan gedən məqalələri də nəşr etmiş və Azərbaycan ədəbi prosesinin bir parçasına çevrilmişdir. "Molla Nəsrəddin" jurnalı isə nəinki Qafqazı, eləcə də bütün türk və müsəlman dünyasını dolaşmışdır. Bütün bunlar Tiflisin Azərbaycan ədəbiyyatı kimi, onun mədəni mühitini də formalaşdıran faktorlardan olduğunu aydın şəkildə göstərir. Bu ənənə Gürcüstan Demokratik Respublikası (1918-1921) dövründə xeyli inkişaf etdirilmişdir. Belə ki, çağdaş milli-mədəni muxtariyyətin başlanğıc illərində respublikada yaşayan digər xalqlarla yanaşı azərbaycanlıları da kütləvi informasiya vasitələri ilə təmin etmək üçün bir sıra tədbirlər görülmüş və bu məqsədlə mətbuatın təşkilinə xeyli diqqət yetirilmişdir. 1918-1921-ci illərdə Gürcüstanın mərkəzi şəhəri Tiflisdə müxtəlif dillərdə mütərəqqi və mürtəce cəbhədən çıxış edən bir sıra mətbuat orqanları nəşr edilmişdir (Məmmədli, 1992). Həmin qəzet və jurnallar arasında daim ideya və məfkurə mübahisələri olmuşdur. Həmin dövrdə Gürcüstanda yaşayan azərbaycanlıların demokratik hüquqlarının müdafiəsində, onların azadlıq ideyalarının təbliğində "Al bayraq" (1918-1920), "Gələcək" (1918-1919), "Vətən" (1920-1921) və s. demokratik ruhlu mətbuat orqanları xüsusilə fərqlənmişlər. Təəssüflə qeyd etməliyik ki, adları çəkilən qəzet və jurnalların nüsxələrinin əksəriyyəti itib-batmış, lazımınca qorunub saxlanmamışdır. Həmin dövr Azərbaycan dilli mətbuatına qayğısızlıqdan söhbət açan Ə.Abid "Dan ulduzu" jurnalının 1928-ci il 2-ci nömrəsində çap olunmuş "Azərbaycan proletar qəzetçiliyi tarixinə bir nəzər" məqaləsində yazmışdır: "Qiymətləri bilxassə gələcəkdə anlaşılacaq olan mədəniyyətimizin bu mühüm vəsiqələri də ortadan qayib olmuşdur. Bunlardan bəzilərinin gərək muzeydə, gərəksə xüsusi əllərdə, tək-tük nüsxələrinə təsadüf edə bildik" (Abid, 2007, s. 276).

"Al bayraq" (1918-1920) qəzeti tutduğu demokratik mövqeyi ilə digərlərindən xüsusilə seçilmişdir. 1918-ci ildə nəşrə başlamış bu qəzet Tiflisdəki "Müsəlman ictimaiyunları"nın orqanı olmuş və həftədə iki dəfə çıxmışdır. "Hürriyyət, Müsavat, Ədalət, Uxüvvət" şüarını rəhbər tutan qəzetin əsas məqsədi Azərbaycanın istiqlaliyyəti və azadlığı uğrunda mübarizə olmuşdur. Onun bu qayəsini qəzetin 1919-cu il birinci nömrəsində dərc olunmuş "Sosialistlər və Azərbaycan istiqlalı" sərlövhəli məqaləsindən aydın hiss edirik: "...Azərbaycan istiqlalı da sosialistlərin ümumi prinsiplərindən doğma keyfiyyətdir. Buna görə biz öz proqramımıza sadiq qalaraq, Azərbaycan istiqlalını elan və onu var qüvvəmiz ilə müdafiə edirik. Bizim müdafiə nə dərəcə və sürətlə olduğunu başqa bir vaxta qoyub şimdilik bunu deyəlim ki, bizim sosialistlərin qəvi imanları və qəvi hərəkətləri bu günkü parlamanımızın açılmasına, davam etməsində və müstəqil heyətin Avropaya getməsinə səbəb və bəlkə də yeganə səbəb olmuşdur" (Abid, 2007, s. 275). "Al bayraq" bu barədə fikrini davam etdirərək, bir tərəfdən Azərbaycan istiqlalının möhkəmlənməsi yolunda çalışdıqlarını, o biri tərəfdən isə bu istiqlalı "öz sinfi interesləri" yolunda işlətmək və "öz ağalıqlarını və istiqdadını bizim kəndli və əməlinin boynuna taxmaq istəyən xozeyinlər" ilə mübarizə etməkdən ibarət olacağını hesab edərək yazmışdır: "Azərbaycan kəndlisi və əmələsi tam mənası ilə müstəqil olmalı, həm xaricilərin boyunduruğundan, həm daxildəki "xozeyin"lərin əzabından qurtarmalıdır" (Abid, 2007, s. 276). Ə.Abid "Al bayraq" qəzetinin "...bir aralıq menşevik ruhunda olduğunu söyləyən yoldaşlar da vardır" (Abid,

2007, s. 276), - deyə, fikrini davam etdirmişdir. Gətirdiyimiz nümunədən də göründüyü kimi, "Al bayraq" qəzeti Azərbaycanı tam müstəqil fəhlə-kəndli kimi görmək istəmişdir. Bir il Tiflisdə nəşr olunan "Al bayraq" qəzeti 1920-ci ildən etibarən öz fəaliyyətini Bakıda davam etdirmişdir. Ə.Qarayev, Ə.Pepinov və M.Məhərrəmov tərəfindən idarə edilən qəzetin ömrü Bakıda da uzun sürməmiş, elə həmin il martın 31-də sonuncu nömrəsi çıxmış və bununla da qəzet öz fəaliyyətini dayandırmışdır.

1918-ci ildə Tiflisdə nəşrə başlayan və Azərbaycan xalqının səadəti və xoşbəxtliyi uğrunda ardıcıl mübarizə aparan orqanlardan biri də "Gələcək" (1918-1919) qəzetidir. Həftəlik qəzet kimi nəşr edilən "Gələcək"in ilk nömrəsi 1918-ci il iyunun 26-da çıxmışdır. Bu qəzet də Azərbaycan xalqının mənafeyini müdafiə edərək onun xoş gələcəyi uğrunda mübarizə aparmış, səhifələrində millətin təhsil almasını arzulamış, onlara elm, savad qazanmağı tövsiyə etmişdir. Qəzet həmin dövrdə baş verən siyasi hadisələrə də biganə qalmamış, onlara öz münasibətini bildirmişdir. "Gələcək" qəzeti Zaqafqaziyada hökm sürən hərc-mərcliyi, millətçilik və şovinizm siyasətini qətiyyətlə pisləmiş, Qafqazda xalqlar dostluğunun möhkəmlənməsinin tərəfdarı olmuşdur. Bu mətbuat orqanı bolşeviklərin yürütdüyü siyasəti bəyənməmiş, onlara mənfi münasibət bəsləmişdir. Qəzet 1919-cu il aprelin birində fəaliyyətini dayandırmışdı. Onun cəmi 40 nömrəsi çıxmışdır. Bu qəzeti S.Ağamalıoğlu və Ə.Şərifov redaktə etmişlər. Xatırlatmaq istəyirik ki, həmin vaxtda onların redaktəsi ilə Tiflisdə rus dilində "Пробуждение" ("Probujdeniye") qəzeti də çıxmışdır. Hər iki qəzetin ideya istiqaməti eyni olmuşdur. Onların fəaliyyəti haqqında M.Ağacanov yazırdı ki, "bu qəzetlərin səhifələrində müsavat hökümətinin millətçilik siyasəti bəzən kəskin tənqid edilirdi. Bununla birlikdə qəzet bolşeviklərə və RSFSR-in Sovet hökumətinə böhtanlar yağdırırdı". Lakin "Gələcək" qəzetinin səhifələrində çap olunmuş yazılardan tam aydın olur ki, o heç də "müsavat hökumətinin millətçilik siyasətini" pisləməmiş, əksinə, bu hökumətin milli respublika yaratmaq siyasətini geniş təbliğ etməyə çalışmışdır.

Həmin dövrdə nəşr edilən mətbuat orqanlarını araşdırmaq məqsədilə 1989-cu ildə Tbilisi şəhərində K.Marks adına Mərkəzi Dövlət Kitabxanasının nadir fondunda işləyərkən burada saxlanılan Azərbaycan dilində nəşr olunmuş kitablar, jurnallar və məcmuələr arasındakı "Vətən" (1920-1921) məcmuəsi də diqqətimizi cəlb etmişdir. "Vətən" Tiflisdə yaradılmış İran və Qafqaz müsəlman gənclərinin maarifi cəmiyyətinin orqanı kimi nəşr edilmişdir. Əlimizin altında onun iki nömrəsi var - 1920-ci ilin dekabrın 5-də çap edilmiş birinci nömrə və 1921-ci ilin əvvəllərində çıxmış ikinci nömrə. Birinci nömrə on iki səhifədən, ikinci nömrə isə səkkiz səhifədən ibarətdir. İki həftədə bir dəfə çıxması nəzərdə tutulan məcmuənin ikinci nömrəsində verilən xəbərdən müəyyən olur ki, qarşıya çıxan bir sıra çətinliklərlə jurnal ayda bir dəfə nəşr olunacaqdır: "Müsəlman milli şürasının təşəbbüsü ilə başlanan Ümum-Tiflis xalq qəzetəsi xətrinə "Vətən" məcmuəsi ayda bir dəfə nəşr olunacaqdır. Fəqət mətbəə işçisi olmadığından şimdilik iki həftədə bir əvəzinə ayda bir dəfə çıxır. Qarelərdən üzr diləyib sözümüzü bununla xitam edirik. Əgər məcmuə sonlardan camaatın məzhər tövcehi olar isə idarə əlbəttə, həftəlik olmağa çalışar". Həmin dövrdə yaranan ictimai-siyasi vəziyyətlə bağlı "Vətən" məcmuəsi cəmi iki nömrədən sonra nəşrini dayandırmışdır. Məcmuənin mündəricəsinə nəzər salsaq görərik ki, o, Gürcüstanda yaşayan azərbaycanlı əhali arasında milli mədəniyyəti və maarifi yaymağa çalışmışdır: "...Məsləkimiz maarifdən başqa şey deyil, ...qüsurlarımızı düzəltmək üçün əsas vasitə elmdir" - bu sözlər "Vətən"in proqramını müəyyənləşdirmişdir. Elə ilk nömrədə məcmuə oxuculara üz tutub yazmışdı: "Yazılan məqalələr aydın və səlis türkcə olmalıdır". Məcmuənin öz dili də beləcə sadə, aydın və səlisdir. O, ana dilində danışmayan ziyalılarımızı tənqid edərək, onları xalqın taleyinə biganəlikdə təqsirləndirmiş və məsləhət görmüşdür ki, zəhmətkeş kütlələrlə, yoxsul kəndlilərlə doğma ana dilində ünsiyyətdə olmaq lazımdır. Milli dildə məktəb və başqa maarif ocaqlarının azlığını nəzərə çarpdıran məcmuə məktəblərin sayını hər vasitə ilə artırmağı, ana dilində kitab və dərsliklər nəşr etməyi vacib saymışdır.

"Vətən" məcmuəsini ən çox düşündürən məsələlərdən biri də dövlətin Azərbaycan dilində idarə olunması idi. "Vətən" ziyalılara müraciətlə yazırdı: "Bu qədər qeyrilərə möhtac ola-ola nə üçün elmə rəğbət bəsləməyək, nə üçün milli dilimiz türkcəni bilməyək. Və nə üçün qonşularımızın dilini bilməyək... onların işlərindən xəbərimiz olmasın?... Şərqdə oxumuş alimlərimizin əsərlərini oxumayaq, nəşr etməyək". Bu sözlər indi də müasirliyini saxlamaqdadır.

Gürcüstan Demokratik Respublikası (1918-1921) dövründə fəaliyyətləri uzun sürməyən, lakin Azərbaycan xalqının istiqlaliyyəti, onun mədəniyyəti, maarif və ədəbiyyatı ilə bağlı dərc etdikləri maraqlı və diqqətəlayiq materiallarla öz adlarını tarixə yazmış "Al bayraq" (1918-1920), "Gələcək" (1918-1919), "Gənclər yurdu" (1918), "Vətən" (1920-1920) və digər demokratik ruhlu mətbuat orqanları öz fəaliyyətlərini dayandırdıqdan sonra ziyalılar keçmiş Müsəlman Seyminə məxsus olan mətbəə vəsaitləri əsasında Tiflisdə Azərbaycan türkcəsi ilə yeni mətbuat orqanlarının yaradılması üçün fəal mübarizəyə başlamışlar (Məmmədli, 1992).

1921-ci ilin mart ayında Tiflisdə "Kommunist" qəzeti fəaliyyətə başlamışdır. Lakin onun cəmi 19 sayı işıq üzü görmüşdür. 1922-ci ilin əvvəllərində xalqımızın böyük oğlu N.Nərimanovun təşəbbüsü və himayəsi sayəsində həmin qəzetin bazası əsasında nəşrə başlayan "Yeni fikir" 1927-ci ildə "Yeni kənd"lə (1927-1938) əvəz olunmuşdur. 1939-cu ildən "Yeni kənd" qəzeti "Sovet Gürcüstanı" adı altında çıxmağa başlamışdır (Həmin qəzet müəyyən fasilələrlə indiyədək (hazırda "Gürcüstan" adı ilə) fəaliyyətini davam etdirir. Bu barədə bir qədər sonra daha ətraflı məlumat verəcəyik. - M.Ç.). Həmin illərdə Tiflisdə "İşıqlı yol" (1924) qəzeti, həmçinin, "Dan ulduzu" (1926-1931), "Şərq kolxozçusu" (1931), "Qızıl şəfəq" (1926-1930), "Yeni qüvvə" (1930-1939), "Gənc nəsl" (1939-1941) və s. adda jurnallar da işıq üzü görmüşdür.

"Dan ulduzu" (1926-1931) Şərqdə latın əlifbası ilə çıxan ilk ədəbi-ictimai jurnal olmuşdur. 1926-cı ildə Bakıda çağırılan I Ümumittifaq türkoloji qurultayı ərəb əlifbasından latın əlifbasına keçmək haqqında qərar qəbul etdikdən bir az sonra Tbilisidə fəaliyyətə başlayan Gürcüstan və Ermənistan Əlifba Komitəsinin orqanı kimi nəşr olunan və ilk sayı 1926-cı ilin mayında işıq üzü görən "Dan ulduzu" aylıq, ədəbi elmi, ictimai və şəkilli jurnalının ilk redaktoru Ə.Qərib (Abbaszadə) olmuşdur. Jurnal yalnız yeni əlifbanı təbliğ etməklə deyil, Qafqazda yaşayan Azərbaycan xalqının savadlanmasına, onun ədəbiyyat və incəsənətinin inkişaf etdirilməsinə, ümumiyyətlə, mədəni tərəqqisinə xidmət göstərməyi qarşısına məqsəd qoymuş, nəşr olunduğu 6 il müddətində qarşıya qoyduğu məqsədə ciddi əməl etmişdir. Bunu jurnalın çapdan çıxmış 55 nömrəsinin hamısında aydın görmək olar. Jurnal ədəbiyyat sahəsində baş verən ən mühüm və ən adi hadisələri belə öz səhifələrində geniş işıqlandırmış, müsahibələr aparmış, müzakirələr açmış, ədəbi-tənqidi məqalələrlə çıxış etmiş, öz ətrafında görkəmli ədib və sənətkarları toplamışdır. "Dan ulduzu" Azərbaycan mətbuatı tarixinə öz adını sözün əsil mənasında ədəbi məcmuə olaraq daxil etmişdir. Çünki onun səhifələrində 176 kiçik poema və şeir, 81 hekayə, 69 ədəbi-tənqidi məqalə və resenziyalar dərc olunmuşdur (İsmayıllı, 1989, s. 268). 1930-1931-ci illərdə keçmiş SSRİ-də vüsət alan kolxoz quruculuğuna dair müxtəlif məqalələr və rəsmi materiallar, digər mətbuat orqanlarında olduğu kimi, "Dan ulduzu" jurnalının səhifələrindən də ədəbi-bədii yazıları sıxışdırmağa başlamış və jurnal istər-istəməz kənd təsərrüfatı məcmuəsinə çevrilmişdir. Jurnalın son birləşmiş 7-8 (54-55)-ci nömrəsi 1931-ci ilin iyul-avqust aylarında çıxmışdır. Bundan sonra "Dan ulduzu"nun adı dəyişilərək "Şərq kolxozçusu" (1931) olmuş və bir neçə nömrədən sonra fəaliyyətini dayandırmışdır. Yeri gəlmişkən, mərhum tədqiqatçı Əzim İsmayıllının arxiv materialları içərisindən tapıb üzə çıxartdığı və "ilk incəsənət jurnalı" adlandırdığı "Xelobneba" - "İncəsənət" (1926) adlı dərgi haqqında da oxucularımızda məlumat azlığını nəzərə alaraq bu barədə də bir qədər ətraflı söhbət açmağı lazım bilirik. "Xelobneba" jurnalının 25-ci yubiley nömrəsi 1926-cı ilin fevral ayında üç dildə-gürcü, Azərbaycan və erməni dillərində çıxmışdır. Jurnalın üç dildə çıxan nömrəsində hər xalqın özünə məxsus incəsənəti və onun xadimlərinin fəaliyyəti geniş işıqlandırılmışdır. Qarşımızda rəngi solmuş, vərəqlərinin ucu didilmiş, onsuz da kiçik olan hərfləri güclə oxunan 16 səhifəlik bir jurnal durur. Jurnalın üz qabığında ərəb əlifbası ilə iri hərflərlə "Xelobneba" və onun altında mötərizədə "İncəsənət" sözü yazılmışdır. Əlvan naxışlarla bəzədilmiş 5 rəqəmi öz iriliyi ilə diqqəti daha tez cəlb edir. Bu rəqəm Gürcüstan Sənaye Nəfisə Xadimləri İttifaqının (sonralar "Gürcüstan Ümumincəsənət İşçiləri İttifaqı" adlandırılmışdır. - M.Ç.) yaranmasının beşilliyini ifadə edir. Cildin ətəyində bir-birinin ardınca, səliqə ilə naxış içərisində həkk olunmuş 25 rəqəmləri isə jurnalın növbəti 25-ci nömrəsinə işarədir. Jurnalın birinci səhifəsi Albayraqlı Zaqafqaziya ordusunun komandiri Levandovskinin təbriki və şəkli ilə açılır. Təbrikdə Albayraqlı Zaqafqaziya ordusunun hamiliyə götürmüş Gürcüstan Ümumincəsənət İşçiləri İttifaqının yaxşı işi qeyd olunur. Jurnalın təsis olunmasından danışan "Xelobneba" adlı irihəcmli material iki səhifəni əhatə edir. Məqalədə göstərilir

ki, bəzi adamlar elə fikirləşirdilər ki, bu ya "Xelobneba" jurnalı nəşrə başlayandan sonra bir neçə nömrəsi çıxacaq və tezliklə bağlanılacaqdır. Lakin bu belə olmamışdır. Jurnalın artıq 25-ci nömrəsi işıq üzü görmüş və beşilliyi bayram edilir. Jurnalın yenidən nəşr edilməsinə Gürcüstan Ümumincəsənət İşçiləri İttifaqının beşinci qurultayında nail olunmuş və bu iş davam etdirilir. İndi jurnalın qarşısında duran əsas məsələlərdən biri ittifaqın işinə kömək etmək və onun inkişafına qayğı göstərməkdir. Buna nail olmaq üçün məqalədə beş bənddən ibarət təklif irəli sürülmüşdür. Bu təkliflər ittifaqın tərkibini saflaşdırmaq, yəni onun sıralarına təsadüfən düşmüş və ittifaqın işinə zərər verən adamları uzaqlaşdırmaq, jurnalın yalnız bir neçə şəhəri deyil, bütün respublikanı əhatə etməsi və bu yerlərdə çalışan incəsənət işçiləri ilə əlaqə saxlamaq və s. ibarətdir. Bu materialla yanaşı 1921-ci il fevralın 28-də jurnalı təsis edən Gürcüstan Ümumincəsənət İşçiləri İttifaqının birinci qurultayında məruzə ilə çıxış edən Gürcüstan Xalq Komissarları Şurasının sədri Ş.Eliavanın şəkli verilmişdir. "Xelobneba"nın məsul müdiri S.Quridzenin "Beşillik fəaliyyət" adlı məqaləsi jurnal haqqında oxuculara geniş məlumat verir. Buradaca Gürcüstan Maarif Komissarı D.Kandelakinin və S.Quridzenin şəkilləri dərc olunmuşdur. "Zaqafqaziya türk səhnəsinin müəssislərindən" biri olan Nəriman Nərimanovun çərçivəyə alınmış portreti jurnalın beşinci səhifəsini bütünlüklə əhatə edir. Sonrakı səhifələrdə Əlimirzə Nərimanovun Tiflisdə Azərbaycan teatrının yaranmasının və onun keçdiyi inkişaf yolundan bəhs edən "Tiflis türk teatrı səhnəsinin müxtəsərcə tarixi" adlı iri həcmli məqaləsi dərc olunmuşdur. Həmin məqalədən bəzi məqamları oxuculara çatdırmağı məqsədəuyğun hesab edirik: "Cəm etdiyim doğru və dürüst məlumatlara görə birinci dəfə olaraq, sabit idarə ruhanilərdə xidmət edən türk ziyalıları: Mir-Seyfələddin Seyidov, Hacıbəy Tahirov, Müfti məktəbi müəllimlərindən Qayıbov, Şeyxülislam məktəbi müəllimlərindən Mirzə Şərif Mirzəyev və... bir neçə cavan həvəskarları, Əsgər ağa Zeynalov, Əbdülməhəmməd bəy Mərdanov, Salman Nəriman Hidayətbəy Axundovun "Müsye Jordan" adlı pyesi gürcü klubu səhnəsində 1872-ci ildə tamaşaya qoyulmuşdur. Bu tamaşada qadın rollarını Azərbaycan dilində gözəl danışan rus xanımı ilə bir gürcü xanımı ifa etmişlər. Sonra müəllimlərdən Paşabəy Hüseynov, Qasım Qasımov, Baxşəlibəy Məhərrəmbəyov, Həmid Qurçibaşov, Osman ağa Qayıbov, ziyalılardan Həmzəbəy Eyvazxanbəyov və Xəlilağa Mursaqulov bu dəstəyə məlhət olub 1880-ci ildə yenidən mərhum Mirzə Fətəli Axundovun "Hacı Qara" pyesini Barunbekov karvansarasında... və 1891-ci ildə Şərq rəhbəri mərhum doktor Nəriman Nərimanovun birinci əsəri olan "Nadanlıq" pyesini yenə də həmin yerdə tamaşaya qoymuşlar. 1896-cı ilə qədər bu dəstə bir növ davam etmişdir. Həmin ildən etibarən türk (Azərbaycan-M.Ç.) səhnəsi tərəqqisinə çalışıb, uğrunda atəşin ciddi-cəhd edənlər bunlardan ibarət olmuşlar: Teymur Axundov, Hüseyn Çıldırov, Həsənxan Minasazov, Mirzə Abdulla Abdullazadə, Müslüm İbrahimov, Məşədi Yusif Şamaxılı, Cahangirbəy Şahtaxtlı, Qulam Vahabov, Yunis Nərimanov, Həmzə Şabanov, Sədrəddinxan Əhmədov, Məmmədhüseyn Əlibəyov, Əşrəf Yüzbaşov, Mirzəli Abbasov, Mirzəxan Qayıbov, Hüseynqulu Şabanov, Kərbəlayı Əli Zeynalov, Əli Əkbər Əlizadə, Əlimirzə Nərimanov, Hüseyn Minasazov, Halay Bayramov, Mir Seyfəddin Kirmanşahlı, Asəf Axundzadə, Məşədi Abdulla Əli oğlu, Cəmşid Axundov, Rza Gəncəli, Mirzə Bağır Axundov və b. Bu dəstə böyük əziyyətlər çəksə də, M.F.Axundzadənin, N.B.Vəzirovun, N.Nərimanovun, S.M.Qənizadənin yazdıqları müxtəlif pyesləri gah gürcü teatrında, gah karvansarada və gah da xüsusi evlərdə tamaşaya qoymuş və öz istəklərinə nail olmuşlar." 1905-ci ildən bu dəstə daha da qüvvətlənməyə başlamışdır. Belə ki, Məmmədtağı Əliəsgər oğlu, İsmayıl Həqqi, Mir Seyfəddin Kirmanşahlı, İsmayıl Əliyev, Kərim Kərimov, Yəhya Məmmədov və Kərim Vəkilov kimi cavan həvəskarlar, Gövhər xanım, Tərlan xanım, Tanaildi xanım, Baba Əlizadə, Çıldırov, Həbib Köçərlinski, Xəlil İbrahimov, Xanım Şatanova və Mələk xanım Şahnəzərova dəstəyə daxil olmuş və tamaşalar sürətlə tərəqqi etməyə başlamışdır. Bu həvəskarlar dəstəsi əziyyət və məşəqqətlərlə daha beş il yaşamış və axırda özünü rəsmi surətdə ləğv etməyə məcbur olmuşdur. Bu vaxt dəstədən bir çoxu vəfat etmiş, bir neçəsi də həvəsdən düşüb kənara çəkilmişdir. Sonra məqalədə qeyd olunur ki, dəstənin işini yaxşılaşdırmaq üçün həvəskarların tərtib etdikləri 22 maddədən ibarət nizamnaməni Tiflis qubernatoru 1910-cu il dekabr ayının 14-də təsdiq etmişdir. Həmin il dekabrın 30-da Tiflis ziyalıları dram dəstəsi üçün bir bina ayrılmasını da xahiş etmişlər. Artistlər bu məqsədlərinə uzun əzab əziyyətdən sonra 1915-ci ildə nail olmuşlar. Onlar gözəl əsərlər tamaşaya qoymuş və teatra çoxlu sayda adamlar cəlb etmişlər. Müəllif yazır: "Gürcüstanda

Sovet hakimiyyəti qurulduqdan sonra məharətləri Tiflis deyil, Bakı, Zaqafqaziya, Türkiyə və İran camaatına gözəlcə məlum oldu. Bu halda müqtədir aktyorlarımız Mirzəli Abbasov, Salahlı, Seyfi, Cəfərli, Mərdanov, Kirmanşahlı, İsfahanlı, Xəlilov və qeyriləri gecə-gündüz səhnəmizin tərəqqisi uğrunda atəşin çalışdıqlarından ...demək olar ki, səhnəmizi lazımi məqamına yetirirdilər."

1872-ci ildə əsası qoyulan Azərbaycan teatr sənətinin durmadan inkişafını davam etdirən, onun tərəqqisinə çalışan və istedadlı aktyorlar dəstəsi yetirən, Azərbaycan dramaturqlarının bir çox əsərlərini ilk dəfə tamaşaya qoyan Tiflis Azərbaycan teatrının tarixindən bəhs edən bu məqalə Ə.Nərimanovun uzun tədqiqatlarının məhsuludur. Məqalənin sonunda teatrın gələcəkdə daha da böyüyüb tərəqqi etməsinə böyük ümid bəslədiyini bildirən müəllifin özünün də qeyd etdiyi kimi, bu məqalə teatrın "müxtəsərcə tarixi" olmasına baxmayaraq Azərbaycan teatr tarixinin daha da dərindən öyrənilib tədqiq edilməsi üçün sənətşünaslarımıza geniş imkanlar verir. Təəssüflər olsun ki, zəngin irsə malik olan belə bir teatr tarixi hələ indiyədək dəqiq öyrənilməmişdir. Bu haqda sanballı bir əsərin yazılmaması bağışlanılmaz haldır (Onu da təəssüf hissi ilə diqqətə çatdırmaq istərdik ki, vaxtı ilə akademik adını daşıyan teatrın 1947-ci ildə heç bir əsas səbəb göstərilmədən bağlanmasından sonra Tbilisidə Azərbaycan teatrından heç bir əsər-əlaməti qalmamış, düz 50 il Tbilisidə Azərbaycan dilində nəinki dövlət dram teatrı, hətta xalq teatrı belə fəaliyyət göstərməmişdir. Bu isə nədənsə yuxarı dairələrdə çalışan yüksək vəzifəli məmurlardan demək olar ki, heç kəsi əsla narahat etməmişdir. Ancaq Gürcüstanda yaşayan maarifpərvər və mübariz ziyalılarımızın böyük səylərindən sonra nəhayət ki, 1998-ci ildə Tiflisdə yenidən Azərbaycan Teatrı bərqərar olmuşdur. 2004-cü ildə Tiflis Azərbaycan Teatrına dövlət statusu verilmişdir. Bu qərar Tiflis teatrının inkişafının yeni mərhələsinin əsasını qoymuşdur. 2008-ci ildə Gürcüstan Prezidenti Mixeil Saakaşvilinin fərmanı ilə Tbilisi Azərbaycan Dövlət Dram Teatrına Azərbaycan xalqının ümummilli lider Heydər Əliyevin adı verilmişdir. 2023-cü il oktyabrın 27-də isə Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Tbilisi şəhərində Heydər Əliyev adına Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrının yeni binasının təməlqoyma mərasimində iştirak etmişlər. Əlamətdar haldır ki, Heydər Əliyevin adını daşıyan bu mədəniyyət ocağının yeni binasının təməlqoyması məhz Azərbaycan xalqının Ümummilli Liderinin anadan olmasının 100-cü ildönümünə təsadüf etmişdir. - M.Ç.).

Jurnalda 1925-1926-cı il teatr mövsümündə Tiflis Azərbaycan Türk Akademik Teatrında çıxış edən 26 nəfər artistin dairədə verilmiş ayrı-ayrı şəkilləri diqqəti xüsusilə cəlb edir. Həmin şəkillərin altında oxuyuruq: "1.Səriyyə xanım, 2.İ.Dyavski (baş rejissor). 3.Gülbahar xanım, 4.Şahsabahlı, 5.Tərlan xanım, 6.İ.İsfahanlı (rejissor), 7.M.Cəfərli (müdir), 8.Ə.Salahlı, 9.Asya xanım, 10.Ə.Ç.Abbasov, 11.Xəlilov, 12.L.Aqaronova, 13.Ə.Seyfi, 14.Nadirə xanım, 15.M.Ə.Abbasov, 16.İ.Həqqi, 17.Ə.Anatollu, 18.Müqbil Zamanov, 19.Ə.Dadaşlı, 20.İ.Əliyev, 21.Səməd Mövləvi, 22.Heydər Naxçıvanlı, 23.Məmmədov, 24.Q.Nəzərli, 25.Ə.İsmayılov, 26.Ə.Hümeynov."

"Xelobneba" - "İncəsənət" (1926) jurnalının sonrakı səhifələrində Azərbaycanın ilk görkəmli dramaturqları M.F.Axundzadə, N.B.Vəzirov, Ə.Haqverdiyev və (1922-ci və 23-cü illərdə Tiflisdə türk teatrının hamisi) B.A.Talıblının şəkilləri və müxtəlif təbriklər dərc edilmişdir. Jurnalı təbrik edən təşkilatlar arasında Tiflis Azərbaycan Türk Akademik Dövlət Dram Teatrı və N.Nərimanov adına klubun da adları vardır. Göründüyü kimi, "Xelobneba" - "İncəsənət" (1926) jurnalının səhifələrində Azərbaycan teatrına geniş yer verilmiş, onun tarixi fəaliyyəti və artistləri haqqında bir neçə samballı material dərc olunmuşdu. Həmin materiallardan ən dəyərlisi Əziz Şərifin "Türk teatrı" məqaləsidir. Həmin məqalədə türk (Azərbaycan - M.Ç.) teatrının yarandığı ilk vaxtlarda keçirtdiyi ağır vəziyyətdən, artistlərin məşəqqətli həyat sürmələrindən, teatrın müntəzəm tamaşaçı üzünə həsrət qalmasından, qadın artistlərin olmamasından, biletlərin güclə satılmasından yazaraq onun indiki gözəl vəziyyətini, akademik adını şərəflə daşımasını və sevimli teatra çevrilməsini qeyd edir. Məqalədə göstərilir ki, xalq indi özünü teatrsız təsəvvür etmir. Bu ondan irəli gəlir ki, teatr kollektivi öz işinə məsuliyyətlə yanaşır, repertuarını yaxşılaşdırır. Lakin buna baxmayaraq, teatrın çatışmayan nöqsanları da var. Bu nöqsan özünü daha çox repertuarda göstərir. Bəzən teatr öz adına yaraşmayan lüzumsuz əsərlərə qüvvə sərf edib, onu tamaşaya qoyur. İndiki halda tamaşaçıların səviyyəsi elə yüksəlmişdir ki, o, həyatdan gəlməyən, zəif tamaşalara baxa bilmir, onu təmin etməyən teatrdan illlərlə üz döndərib gedir. Elə pyeslər tamaşaya qoymaq lazımdır ki, tamaşaçının bugünkü zövqünü

oxşasın. Xarici dildən əsər tərcümə edərkən, onun milli uyğunluğunu nəzərə almalı və Azərbaycan dilinə təmiz tərcümə edilməsinə çalışmaq lazımdır. İkinci nöqsan, bəzi artistlərin öz rollarına lazımınca əhəmiyyət verməməsidir. Artist rolun kiçik və böyüklüyünə baxmadan onu məhəbbətlə sevməli, onunla yaşamalı və yaratmalıdır. Bəzi cavan aktyorlar komediya oynayarkən elə bilirlər ki, mütləq camaatı güldürmək lazımdır. Bu isə həm əsərə xələl gətirir, həm də tamaşaçının zövqünü pozur. Əgər bu göstərilən nöqsanlar aradan qaldırılsa, teatr gələcəkdə daha böyük müvəffəqiyyətlər qazana bilər (Məqalədən götürülmüş bu cümlələrdə müasir teatr sənəti ilə səslənən necə də oxşar cəhətlər vardır. - M.Ç.). Məqalədə tənqidi fikirlərlə yanaşı teatrın gələcək fəaliyyəti üçün irəli sürülən bir çox orijinal məsələlər də söylənilir. Həmin dövrdə görkəmli teatr tənqidçisi kimi tanınan Ə.Şərifin “Türk teatrı” adlı məqaləsi ilə birlikdə 1921 və 1925-ci illərdə türk teatrının yerli komitəsində müntəzəm çalışan və Ümumincəsənət işçiləri ittifaqı mərkəzi idarəsinin üzvü Ə.Salahlı və teatrın qocaman artisti, yunan Ş.Tanaildi xanımın şəkilləri də verilmişdir. Jurnalda artist Mirzəli Abbasovun “Müqayisə” adlı məqaləsi yazılışı etibarı ilə türk (Azərbaycan-M.Ç.) teatrı haqqında xatirata bənzəyir. Məqalədə teatrın fəaliyyətindən bəhs olunur, teatrın keçmişilə indiki dövrü müqayisə edilir, o zaman fəaliyyət göstərən artistlərlə hazırda akademik teatrda çalışan aktyorların həyatı və onlar üçün gözəl şəraitdən danışılır.

“Səhnəmizin naməlum qəhrəmanlarından” başlığı altında R.Nəcəfovun “Yoldaş Müqi” (Müqbil Zamanov nəzərdə tutulur - M.Ç.) və Ə.Tağızadənin “Fəhlə nə edir?” məqalələri də jurnalın oxunaqlı materiallarındandır. Hər iki məqalədə səhnə arxasında və ya səhnədən kənar işlərdə çalışan teatr işçilərinin fədakar əməyindən və onların keçdiyi həyat yolundan danışılır. Teatrın Qızıl Ordu üzərindəki hamiliyinin üç illiyindən bəhs edən geniş material və ümumincəsənət işçiləri ittifaqının Albayraqlı Zaqafqaziya Ordusuna bayraq verilməsini göstərən foto da jurnalda öz əksini tapmışdır.

Q.Raufun “Gürcüstanda heykəltəraşlıq sənəti” və N.Rudun “Gürcüstanda rəssamlıq” adlı yazıları da oxucuda böyük maraq doğurur. Gürcüstanda inqilabdan əvvəl və sonrakı illərdə heykəltəraşlıq və rəssamlıq sənətinin yaranmasından, onun getdikcə inkişaf etdirilməsindən, bu və ya digər sahədə çalışan istedadlı sənətkarların və onların yaratdıqları dəyərli əsərlərdən ətraflı bəhs edən hər iki məqalə samballı faktlar əsasında yazılmışdır. Jurnal bu nömrədə öz oxucularını Tiflis erməni və rus akademik dram teatrını 1925-1926-cı il mövsümündə çıxış edən artistlərin kollektiv şəkilləri ilə də tanış edir. Maraqlıdır ki, jurnalın alt qabığının içərisində Rustaveli adına teatr binasında çıxış edən Azərbaycan türk dram teatrının aylıq repertuarı da verilmişdir. Burada C.Cabbarlının “Aydın”, Hüseyn Cavidin “Şeyx Sənan”, Voyniçin “Qan bayramı” (Ovod), Şillerin “Qaçaqlar” və başqa əsərlərin tamaşaya qoyulacaq günləri göstərilir. Qabığın arxasında dərc olunan elan da nəzərə çarpır. Burada “Şərq” kitab mağazasında yeni kitabların satılması bildirilir.

Biz “Xelobneba”da çıxan materialların və dərc olunan şəkillərin adlarını sadalamaqla jurnalın Azərbaycan dilində çıxan nömrəsi haqqında ümumi təsəvvür yaratmağa çalışdıq, jurnalın əhatə etdiyi mövzu dairəsi və toxunduğu məsələlər barədə oxucuda ilk anlayış yaranmasına cəhd göstərdik. Bəzi yazılar barədə az da olsa geniş danışmağa çalışsaq da, bir çox materialların isə sadəcə adlarını çəkməklə kifayətləndik. Bununla belə, qeyd etmək lazımdır ki, gürcü, Azərbaycan və erməni dillərində çıxan “Xelobneba” jurnalında əsasən müstəqil materiallar dərc olunmuşdur. Gürcü dilində çıxan nömrəsi oxucularını gürcü incəsənəti ilə yanaşı, Azərbaycan və erməni teatrlarının Tiflisdəki fəaliyyətləri ilə də tanış edir. Bu sözləri erməni dilində çıxan nömrə haqqında da söyləmək olar. Hər iki jurnal Əlimirzə Nərimanovun yuxarıda qeyd etdiyimiz məqaləsini dərc etmişdir. Gürcü heykəltəraşlığı və rəssamlığı sənətindən bəhs edən yazılar da jurnalda üç dildə verilmişdir.

Azərbaycan mətbuatı tarixinə ilk incəsənət jurnalı kimi daxil olan “Xelobneba” öz dövründə böyük marağa səbəb olmuş və oxucular tərəfindən rəğbətlə qarşılanmışdır. Lakin çox təəssüf ki, jurnalın Azərbaycan dilində yalnız bircə nömrəsi çıxmış və bununla da nəşri dayandırılmışdır. Gürcü dilindəki nəşri isə qısa fasilələrlə davam etdirilmiş və 1960-1980-ci illərdə “Sabcota Xelobneba” (“Sovet incəsənəti”) adı ilə Gürcüstan Mədəniyyət Nazirliyinin orqanı kimi ayda bir dəfə işıq üzü görmüşdür. Həmin məcmuənin yenidən ana dilimizdə nəşrinin davam etdirilməsini arzu edirik.

Onu da qeyd edək ki, XX əsrin 20-ci illərində yenidən çiçəklənməyə başlayan Tiflis Azərbaycan ədəbi mühiti ətraf rayonlara da öz təsirini göstərmişdir. Belə ki, elə həmin illərdə Batumidə “İştirak”

(1921), "Yeni həyat" (1922-1924), Sarvanda (indiki Marneulidə) "Pambıqçı" (1930, sonralar adı dəyişərək "Stalin yolu" və "Kommunizm uğrunda" olmuşdur - M.Ç.), 1965-ci ildən isə "Yeni Marneuli" (indi "Kvemo Kartli" adı ilə Azərbaycan və gürcü dillərində çıxır - M.Ç.), Başkeçiddə (indiki Dmanisidə) "Sosializm maldarlığı" (1933, qəzet son vaxtlar "Trialeti" adı ilə Azərbaycan və gürcü dillərində çıxırdı; çox təəssüf ki, 1991-ci ildə "gürcü millətçiləri" tərəfindən qəzetin Azərbaycan şöbəsi bağlanmışdır - M.Ç.), Lüksemburqda (indiki Bolnisidə) "Al bayraq" (1935, qəzet son vaxtlar "Qələbə bayrağı" adı ilə çıxırdı; 1990-ci ildə isə "Bolnisi" adlandırılmış və bir neçə ay sonra Azərbaycan şöbəsi yenə "gürcü millətçiləri" tərəfindən bağlanmışdır - M.Ç.), Qarayazıda (indiki Qardabanidə) "Stalinçi" (1931, qəzet hazırda "Samqori" adı ilə Azərbaycan və gürcü dillərində çıxır - M.Ç.), Adıgündə "Qızıl rəncbər" (1933), sonra isə "Adıgün kolxozçusu" (1936), Axalsıxda "Kommunist" (1930), sonra isə "Qızıl bayraq" (1938), Aspinzada "Bağban" (1933), sonra isə "Sosializm kəndi" (1940) və s. qəzetlər nəşr olunmuşdur. Bu qəzetlər öz səhifələrində yaxın və uzaq bölgələrdə baş vermiş olaylar, soydaşlarımızın əmək qələbələri, onların sosial-iqtisadi problemləri haqqında məlumat verməklə yanaşı, həm də Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, incəsənətinin, xüsusilə də ədəbi-mədəni həyatımızın Borçalı qolunun inkişafında böyük rol oynamış və milli mətbuat tariximizdə silinməz izlər qoymuşlar. Həmin qəzetlərin təlatümlü "yenidənqurma" illərindən sonra nəşr olunmasında Cəlil Binnətovun, Rəşid Faxralının, Xəlil Allahverdiyevin, Musa Nəbioğlunun, Müşfiq Çobanlının ("Bolnisi"), Mədəd Coşğunun ("Trialeti"), Pərixanım Mursaqulovanın ("Kveto Kartli"), Kamil Kirənclinin, Qasım Abbasəlinin ("Yeni Marneuli"), İbrahim Əbdüləlinin ("Samqori") və başqalarının xidmətlərini heç vaxt unutmaq olmaz!..

Böyük təəssüf hissi ilə onu da qeyd etməliyik ki, ötən əsrin 40-cı illərində ikinci dünya müharibəsinin təsiri Gürcüstana da gəlib çatmış, həyatımızın bütün sahələrinə olduğu kimi, Tiflis ədəbi mühitinə, eləcə də, Borçalıdakı maarif, mədəniyyət və incəsənət ocaqlarına, eləcə də, ədəbiyyat və mətbuat təşkilatlarına da ağır zərbələr və böyük yaralar vurmuşdur. Böyük bir qismi Stalin repressiyasına məruz qalmış Borçalı ziyalılarının daha bir qismi cəbhədə həlak olmuş, sağ qalanları isə "gürcü millətçi şovinistləri" tərəfindən sıxışdırılmış, yuxarıda adlarını qeyd etdiyimiz qəzet və jurnallar, Tiflis Azərbaycan-Türk Dövlət Dram Teatrı, Azərbaycan dilli pedaqoji məktəblər, texnikumlar bağlanmış, beləliklə də Tiflisdə və Borçalıda Azərbaycan ədəbi-ictimai mühiti zəifləməyə başlamışdı.

İlk yazılarını Gürcüstanın yerli və mərkəzi mətbuat orqanlarında çap etdirmiş görkəmli ədəbiyyatşünas alim Əziz Şərifin səsi bir qədər sonra Moskvadan gəlmiş, tanınmış yazıçı, alim, şair və tənqidçilərdən Rza Şahvələd, Adil Babayev, Əhəd Hüseynov, Əliyar Qarabağlı, Seyfulla Əliyev, Əli Saleh və başqaları Bakıda yazıb-yaratmağa başlamışlar. Daha sonra onların xələfləri Borçalı sənət çeşməsindən su içmiş - akademik Kamal Talıbzadə, professorlar Camal Mustafayev, Pənah Xəlilov, Zahid Qaralov, Şamil Qurbanov, Abbas Hacıyev, Əflatun Saraclı, Mədəd Çobanov, Sabir Əliyev, Vəli Osmanlı, Dilarə Əliyeva, tanınmış nasir Tahir Hüseynov, sevimli şairlərimiz İsa İsmayılzadə, Abbas Abdulla, Vilayət Rüstəmzadə, Eldar Hacıyev, Zəlimxan Yaqub, zəhmətkeş jurnalistlər İsmayıl Ömərov, Elman Cəfərli, Şərif Kərimli, daha sonralar isə Mehman Vəliyev, Şahbaz Şamıoğlu, Knyaz Aslan, Bədirxan Başkeçidli, Musa Nəbioğlu, Şərəf Cəlilli, Müşfiq Çobanlı və b. Bakıda yaşayıb-yaratmağa məcbur olmuşlar (Onların həyat və yaradıcılıqları haqqında "Gürcüstanda Azərbaycan mətbuatı" adlı kitabımızın növbəti nəşrində ətraflı söhbət açacağıq.-M.Ç.).

Bəli, həyat davam edir, tarix təkrar olunur. Su gələn arxa bir də gələr, - deyib ata-babalarımız. Ötən əsrin 50-ci illərində Borçalıda da yeni nəsl böyümüş, gənc ziyalılar ədəbi mühiti öz axarına salmaq üçün ilk növbədə Tiflisdə Azərbaycan dilində mətbuat yaratmağı, daha doğrusu, fəaliyyəti dayandırılmış qəzetlərdən birinin yenidən nəşrinə icazə almağa çalışmışlar. Əlbəttə, zəhmət hədər getməmiş, nəhayət, 1956-cı ildə Gürcüstan Hökumətinin rəhbərliyi rus dilində nəşr olunan "Zarya Vostoka" qəzetinin azərbaycanca tərcüməsinin nəşrinə icazə vermişdir. 1956-1958-ci illərdə həftədə 5 dəfə çıxan "Şərqin şəfəqi" qəzetinin səhifələrində (Redaktor müavini, Azərbaycan variantının müdiri Murtuz Muradov) bəzən ara-sıra Azərbaycan ziyalılarının yazılarına yer verilsə də, bu, Gürcüstanda yaşayan yüz minlərlə azərbaycanlını təmin etməmişdir və edə də bilməzdi... Odur ki, Borçalının mübariz ziyalıların böyük səyi və zəhmət nəticəsində, nəhayət, 1960-cı ilin avqust ayının

2-dən "Sovet Gürcüstanı" qəzeti Murtuz Muradovun redaktorluğu ilə yenidən fəaliyyətə başlamışdır. Qəzet Tiflisdə Azərbaycan ədəbi mühitinin yenidən dirçəlişinə təkan vermiş və "Azərbaycan ədəbi mühitinin bütün ağırlığını öz üzərinə götürmüşdür"... (Qara, Məmmədov, 1981, s. 62). Və nə yaxşı ki, hər cür təqib və təzyiqlərə baxmayaraq, qəzet öz mübarizliyini davam etdirmişdir. 1984-cü ilin may ayının 1-dən indiyədək həftədə 3 dəfə kiçik formatda 1 çap vərəqi həcmində çıxan "Sovet Gürcüstanı" qəzetinin formatı böyüdülərək 2 çap vərəqinə çatdırılmışdır. Bu da Borçalıda yaşayıb-yaradan ziyalıların, şair və nasirlərin əsərlərinin çap olunma imkanını bir qədər də artırmış və həm də Tiflisdə Azərbaycan ədəbi mühitinin çiçəklənməsinə yeni bir təkan vermişdir... Təəssüf olsun ki, belə bir xoş dövr uzun sürməmiş, düz beş il sonra yenicə adını dəyişərək "Gürcüstan" adı ilə öz oxucularını sevindirən qəzetə qarşı daha güclü və həm də olduqca haqsız hücumlar, təqiblər başlanmışdır. Qəzetin formatı yenidən kiçildilmiş, müntəzəm çıxmasına imkan verilməmişdir. Redaksiyanın əmlakı (o cümlədən, xidməti maşınlar, otaqlar və s.) əlindən alınmışdır... Amma nankorlar "Gürcüstan" qəzetinin səsini boğa bilməmişlər. Əvvəllər həftədə 3 dəfə böyük formatla çıxan qəzet böyük əzab-əziyyətlərə sinə gərərək indiyədək ayda 3 dəfə həm də kiçik formatda öz fəaliyyətini davam etdirir.

Aydındır ki, qəzetin oxunaqlığı onun yazarlarının istedadından, dünyagörüşündən və qələm təcrübəsindən çox asılıdır. Əgər "Kommunist"i (1921) Məmmədli Nasir, Mirzə Davud Rəsulzadə kimi qələm sahibləri rövnəqləndirirdilərsə, "Yeni fikir"in (1922), "Yeni kənd"in (1927) ətrafında Nəriman Nərimanov, Əziz Şərif, Ömər Faiq Nemanzadə, Ələkbər Seyfi, Saleh Zəki, Hüseyn Səmih kimi istedadlı müəlliflər toplaşaraq qəzeti oxucuların sevimlisi etmişdilər. 1939-cu ildən "Sovet Gürcüstanı" adı ilə işıq üzü görən bu qəzetə müxtəlif vaxtlarda Həsən Səbri, Böyükağa Talıblı, Rzaqulu Nəcəfov, M.D.Hüseynov, İbrahim Tağıyev, Teymur Hüseynov, Məcid Seyidov, Murtuz Muradov (1960-1969), Qulu Quliyev (1969-1972), Süleyman Süleymanov (1972-1984), Teymuraz Cəfərli (1984-1988) və yenidən Süleyman Süleymanov (1988-1990) redaktorluq etmişlər.

Ayrı-ayrı dövrlərdə qəzet öz ətrafına Ə.Qarabağlı, Ə.Heydərli, A.Ucarlı, Q.İsmayılov, O.Cüməzadə, İ.Zeynalov, O.Aynabov, R.Şahvələd, M.S.Ordubadi, Əli Nəzmi, Əli Nazim, Əli Vəliyev, M.C.Paşayev, Adli Babayev, Həsən Qapalov, M.H.Bəxtiyarlı, Dünyamalı Kərəm, Əflatun Saraclı, Həmid Vəliyev, Elburus Həsənli, Arif Mustafazadə, Nəsib Yusifoğlu (Nəsibov), Elman Kələyev, Qasım Məftuni (Əhmədov), Müzəyyət Yusifov, Məmməd Gülməmmədov, Əzim İsmayıllı, Şurəddin Məmmədli, Mahmud Keşəli, Eyvaz Əlləzoğlu, Əziz Dəlivəlli, Xətayə Rüstəmova, Gülxanım Əhmədova və b. kimi publisistləri, ədəbiyyatçıları cəlb etmişdir.

1990-cı ildə qəzetin adı dəyişdirilərək "Gürcüstan" adlandırılmışdır. Həmin vaxtdan 2014-cü ilə qədər qəzetə Gürcüstan Əməkdar Mədəniyyət işçisi mərhum Süleyman Əfəndi (Süleymanov), 2015-2019-cu illərdə isə Gürcüstanın Əməkdar jurnalisti mərhum İslam Əliyev redaktorluq etmişlər. Qəzet 2019-cu ildən Xaləddin Yolçuyevin redaktorluğu altında Binnət Əlioğlu, Şahvələd Eyvazov, Bəhram Mehdi, Şamil Ziyadəliyev və b. kimi vətənpərvər jurnalistlərin qeyrəti və əməyi sayəsində öz fəaliyyətini davam etdirir.

Müstəqillik illərində Tiflisdə, Borçalıda və Qarayazıda bir neçə müstəqil qəzet və jurnallar, ədəbi məcmuələr yaranmış, müəyyən müddət fəaliyyət göstərmiş və təəssüflər olsun ki, onların da ömürləri uzun sürməmişdir. Onlar arasında "Təhsil", "Maarif", "Müəllim", "Çənlibel", "Region-Press", "İnam", "Yeni yol","Varlıq", "Sözün işığı", və s. qəzetlər, "Qarapapaqlar", "Meydan", "Mirzə Cəlil-Molla Nəsrəddin", "Körük", "Şəfəq" və s. jurnallar oxucular tərəfindən böyük maraqla qarşılanmışdır.

Tanınmış jurnalist, zəhmətkeş qələm sahibi Əbdüləli İbrahimsoyun baş redaktorluğu ilə Qarayazıda nəşr olunmuş "Çənlibel" adlı aylıq ictimai, ədəbi-bədii qəzet xüsusilə diqqəti cəlb etmişdir. Budur, qəzetin ikinci nömrəsi qarşımızdadır. 12 səhifəlik və xüsusi zövqlə tərtib olunmuş bu qəzetdə məşhur yazıçı Ç.Abdullayevin "Qanın üç rəngi" (Bakıda H.Əliyev və E.Şevardnadzeyə suiqəsd olunubmu?) romanından parçalar, H.İlyasla N.Əbdülrəhmanlının "Novruz anımları", Məhəmməd Peyğəmbərin kəlamları, Q.Çoxelinin "Yoxuş" hekayəsi (tərcümə edəni: E.Əlləzoğlu), A.Muxtaroğlunun, L.Cəfəroğlunun, İ.Əkbərovun, Y.Yusiflinin, C.Əfəndinin, B.Səfərlinin, D.Osmanın, Dəryeynurun, Aşıq Arifin, P.Məhəmmədin şeirlərindən nümunələr, əfsanələr, bəzəmələr, bulmaca və s. oxucuların ixtiyarına verilmişdir. Qəzetdə həmçinin, F.İsgəndərovun texnika elmləri doktoru, professor

Cabbar Məmmədovun əziz xatirəsinə həsr etdiyi "Onsuz" oçerki, E.Əlləzoğlunun gənc gürcü rəssamı R.Petviaşvilin yaradıcılığından söhbət açan "Zirvəyə gedən yol" oçerki, eləcə də "Yeni kitablar" səhifəsində professor V.Hacının "Qarapapaq Mehralı bəy" kitabı haqqında R.Hümmətin, Şair Dəryeynurun "Min tilsimli bir açar" şeirlər kitabı haqqında Müşfiq Çobanlının, Nəriman Əbdülrəhmanlının tərtib etdiyi "Qaraçöp" ədəbi-etnoqrafik toplu haqqında İ.İlkinin qeydləri və s. çap olunmuşdur. "Çənlibel" qəzetinin işıq üzü görməsi münasibətilə biz də məqalə yazaraq, Bakıda bir sıra mətbuat orqanlarında dərc etdirmişdik. Məqalənin sonunda "Çənlibel"in baş redaktoru Əbdüləli İbrahimsoyu, redaksiya şurasını və bütün oxucularını təbrik etmiş və uğurlar arzulamışdıq! (Borçalı, 1997). Sonra isə daha bir xoş soraq bizi sevindirmişdir: Tiflisdə yaşayıb-yaradan qələm sahibi Əzim İsmayılbəylinin "Mirzə Cəlil-Molla Nəsrəddin" məcmuəsi nəşrə başlamışdır. Bu münasibətlə də mərhum Əzim müəllimi, eləcə də bütün oxucuları ürəkdən təbrik etmiş və Ulu Tanrıdan uğurlar diləmişdik!..

Onu da qeyd edək ki, XX əsrdə və eləcə də XXI əsrin yaşadığımız ilk 25 ilində Gürcüstanda azərbaycanlı qələm sahiblərini öz ətrafında birləşdirən bir sıra ədəbi birliklər və dərnəklər fəaliyyət göstərmiş, müxtəlif adda antologiyalar, ədəbi məcmuələr, çoxlu sayda kitablar çap olunmuş, yeni internet saytları yaradılmışdur. Bu barədə növbəti məqalələrimizdə ətraflı söhbət açacağıq.

## Nəticə

Tiflisdə azərbaycandilli mətbuatın işıq üzü görməsi təkcə burada yaşayan azərbaycanlıların maariflənməsini deyil, bütövlükdə Azərbaycanda və Azərbaycandan kənarda yaşayan digər azərbaycanlıların da ədəbi, mədəni mühitdən xəbər tutmasını şərtləndirmişdir. Belə ki, bu mətbuat orqanlarının bir çoxu nəşr olunduğu coğrafiyanın hüdudlarını aşmış, Orta Asiya, Osmanlı, Sibirdə yaşayan türk xalqlarının həyatında mühüm rol oynamışdır. "Ziya", "Ziyayi-Qafqaziyyə", "Kəşkül" kimi mətbuat orqanları xalqın böyük bir kəsimində milli mənlik və dini şüuru formalaşdırmışdır. "Şərqi-rus" qəzeti və "Molla Nəsrəddin" jurnalı Tiflisdə nəşr edilməsinə baxmayaraq, Azərbaycanın ilk gündəlik qəzeti kimi Azərbaycandan gedən məqalələri də nəşr etmiş və Azərbaycan ədəbi prosesinin bir parçasına çevrilmişdir. Bu ənənə sonralar da Gürcüstanda nəşr olunan azərbaycandilli mətbuat orqanlarında davam etmiş və bu günün özündə də 105 yaşlı "Gürcüstan" qəzetinin timsalında ləyaqətlə davam edir.

Sonda isə fikrimizi ömrünün 40 ildən çoxunu "Gürcüstan" qəzetinin nəşrinə həsr etmiş mərhum Süleyman Əfəndinin "Gürcüstan" qəzetinin 22 aprel 1992-ci il tarixli 10.000-ci sayında dərc olunmuş "Varlığımız" sərlövhəli redaktor yazısından götürdüyümüz bu sözlərlə bitirmək istəyirik: "10.000 say bir yüksəlişdir. Zirvəsi çox uzaqdır. Hər dəfə belə növbəti yüksəkliyə çatanda keçilən yola nəzər salmaq, hər şeyi saf-çürük etdikdən sonra irəlidəki vəzifələri müəyyənləşdirmək bir növ adətə çevrilmişdir. İndi də belə. Lakin bu yerdə Şərq müdrikinin deyimini xatırlamaqla fikrimizi yekunlaşdırırıq: İnsan yaşa dolduqca müdrikləşir, saflaşır, büllurlaşır, sanki uşaqlıq illərinə qayıdır. Həmin fikir elə bil ki, "Gürcüstan"-ımızın boyuna biçilmişdir; qəzet yaşa dolduqca sanki yük altından silkinib çıxır, ona yeni nəfəs, yeni ruh, yeni qüvvət gəlir".

Biz də arzu edirik ki, Azərbaycan mətbuatı, eləcə də Azərbaycan ədəbiyyatı tarixinə silinməz və şərəfli iz qoymuş, mətbuat və ədəbiyyatımızın inkişafında mütərəqqi mövqe tutmuş, daha doğrusu, Tiflisdə Azərbaycan ədəbi mühitinin canlanmasında və gələcək inkişafında əvəzsiz xidməti olan, bu günlərdə 13.444-cü sayı ilə görüşümüzə gələn "Gürcüstan" qəzeti öz fəaliyyətini bundan sonra da yeni nəfəs, yeni ruh, yeni qüvvət və uğurla davam etdirsin! Haqq səsi həmişə uca və gur olsun!...

## Ədəbiyyat

1. Abid, Ə. (2007). *Seçilmiş əsərləri* (tərtib edəni və ön sözün müəllifi B. Əhmədov). Şərq-Qərb.
2. Aşırlı, A. (2009). *Azərbaycan mətbuat tarixi (1875–1920)*. Elm və Təhsil. http://elibrary.bsu.edu.az/files/books_460/N_45.pdf
3. Belinskiy, V. Q. (1956). *Polnoe sobranie soçineniy* (Cild 10).
4. Borçalı (Çobanlı), M. (1994). *Çağdaş Borçalı ədəbi məktəbi.*
5. Borçalı (Çobanlı), M. (1997). Gecikmiş xəbər, gecikmiş təbrik!.. *Təhsil* qəzeti, (95).

6. Borçalı (Çobanlı), M. (2000). *“Ziya”dan “Çənlibel”ədək. Gürcüstanda Azərbaycan mətbuatı (1878–1998)*. Təhsil. http://web2.anl.az:81/read/page.php?bibid=vtls000015313
7. Borçalı (Çobanlı), M. (1998). *Gürcüstanda Azərbaycan mətbuatı (1878–1998)*. Təhsil. https://ek.anl.az/lib/item?id=chamo:823229&fromLocationLink=false&theme=e-kataloq
8. Əhmədov, B. (2015). *XX yüzil Azərbaycan ədəbiyyatı: mərhələlər, istiqamətlər, problemlər*. Elm və Təhsil.
9. Hacıyev, A. (2021). *Seçilmiş əsərləri* (Cild I).
10. İbrahimov, N. (1993, oktyabr 11). Azərbaycan mətbuatının yaranma tarixinin zəruriliyi. *Ziya* qəzeti.
11. İsmayıllı, Ə. (1989). “Qığılcım”dan “Dan ulduzu”nadək. İçində *Dan ulduzu: Ədəbi məcmuə* (II kitab). Merani.
12. Köçərli, F. (1906, dekabr 21). Azərbaycan dövri mətbuatının qısa icmalı. *Закавказье* qəzeti.
13. Qurbanov, Ş. (1961). “Kəşkül” qəzeti. *ADU Elmi Əsərləri: İctimai elmlər seriyası*, (5).
14. Qurbanov, Ş. (1991). *Ömrün fikir dünyası*. Yazıçı.
15. Məmmədov, X. (1973, dekabr 1). Ədəbi əlaqələrimizin maraqlı bir səhifəsi. *Ədəbiyyat və İncəsənət* qəzeti.
16. Məmmədov, X. (1988). *“Əkinçi”dən “Molla Nəsrəddin”ədək*. Yazıçı.
17. Məmmədli, R. (1992, may 28 & iyun 5). Mətbuat tariximizdən səhifələr (1918–1921-ci illər). *Ziya* qəzeti, (10, 11).
18. Mişiyev, A. (1967). *“Kavkaz” qəzetində Azərbaycan ədəbiyyatı məsələləri (1846–1918)* [Namizədlik dissertasiyası].
19. Mişiyev, A. (1987). *Azərbaycan yazıçıları və Tiflis ədəbi-ictimai mühiti (1820–1905)*. Qanatleba.
20. Talıbzadə, K. (1984). *Azərbaycan ədəbi tənqidinin tarixi*. Maarif.
21. Talıbzadə, K. (1989). *Tənqid və tənqidçilər*. Yazıçı.
22. *Tartan-partan* jurnalı. (1918, sentyabr). (1), 3.
23. Əhmədov, T. (1971). *Nəriman Nərimanovun dramaturgiyası*.
24. Qara, T., & Məmmədov, A. (1981). Borçalı “Çeşmə”si. *Ulduz*, (5), 62.
25. Zeynalov, A. (1961). “Kəşkül” məcmuəsində ədəbiyyat məsələləri. *Azərbaycan EA-nın Xəbərləri: İctimai elmlər seriyası*, (6).
26. Zeynalov, N. (1973). *Azərbaycan mətbuatı tarixi* (I hissə).
27. Zeynalzadə, A. (2006). *Azərbaycan mətbuatı və çar senzurası: 1850–1905*. Elm.


Daxil oldu: 06.07.2025
Qəbul edildi: 13.10.2025

DOI: https://doi.org/10.36719/2789-6919/50/54-57

**Tamam Mehrabova**
Azərbaycan Dövlət Pedoqoji Universiteti
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-7719-9546
mehrabovat@gmail.com

# Azərbaycan və Türk dillərində cümlənin II dərəcəli üzvləri arasında fərqli sintaktik məqamlar

## Xülasə

Dilin ümumi hadisə kimi cəmiyyətin fəaliyyətinin müxtəlif səviyyələri ilə yaxından əlaqəsi var. İnsanların əlaqəli olduğu və dərindən ilgi göstərdiyi sahələrdən ən qabaqcılı türkologiya elmidir. Türkologiyaya dair öz həllini tapmamış, yetərincə həll edilməmiş problemlərdən biri geneoloji bölgüyə əsasən dillərin qarşılıqlı öyrənilməsi və müqayisə olunması məsələsidir. Türkologiyanın öyrənilməsinin ilkin izlərini XI yüzilliyin böyük türkoloqu Mahmud Kaşğarinin əsərlərində görürük. O, əsərlərində türk dillərinin, dialektlərinin müqayisəli fonetika, leksika və qrammatikasını, onların səs-hərf tərkibini aydınlaşdırır. Qədim zamanlarda dünyada dillərin sayı əsaslı dərəcədə az olmuşdur. Zaman keçdikcə dillər parçalanmış və müxtəlif tərkibə, struktura malik dillər əmələ gəlmişdir. Kökü eyni olan dillər geneoloji cəhətdən qohum hesab olunur. Tərkib və strukturca oxşar dillərin hamısına birlikdə dil ailəsi deyilir. Azərbaycan dili Altay dilləri ailəsinin türk dilləri qrupunun Oğuz dilləri yarımqrupuna daxildir. Oğuz yarımqrupuna Azərbaycan dili, Türkiyə türkcəsi, türkmən dili və qaqauz dili daxildir. Bu dillərin oxşar cəhəti o qədər çoxdur ki, dillər bölünən zaman belə onların lüğət tərkibi, fonetik və qrammatik quruluşları bir-birinə yaxın olur. Bu səbəbdən də eyni dil qrupuna mənsub insanlar bir-birilərini daha yaxşı anlayır.

***Açar sözlər:*** *sintaksis, cümlə üzvləri, sintaktik quruluş, cümlə, türk dilləri*

**Tamam Mehrabova**
Azerbaijan State Pedagogical University
PhD in Filology
https://orcid.org/0000-0001-7719-9546
mehrabovat@gmail.com

# A Comparative Analysis of Syntactic Differences between the Secondary Sentence Elements in the Azerbaijani and Turkish Languages

## Abstract

Language as a general phenomenon is closely related to different levels of society. One of the fields of public interest is Turkology. One of the still unresolved problems of this science is the issue of comparing and contrasting related languages. The first author in this field is the great Turkologist of the XI century Mahmud Kashgari. His dictionary clarifies the comparative phonetics, lexicon and grammar of Turkic languages and dialects, the phono-morphological structure of Turkic languages.

At the time of the creation of human society, the world's languages were few. Later, there was a division between languages, and dozens of languages emerged from one language. Languages derived from the same root are considered related languages. All related languages are called language families together. The Azerbaijani language belongs to the Oghuz subgroup of the Turkic language group of the Altaic language family. Azerbaijani, Turkish, Turkmen, Gagauz and Oghuz languages form a subgroup. During the separation, the vocabulary, phonetic and grammatical structures of languages from the same branch are close to each other. For this reason, people belonging to the same language group understand each other better.

***Keywords:*** *syntax, sentence members, syntactic structure, sentence, Turkic languages*


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Giriş

Türk dillərinin qədim və müasir vəziyyəti, ümumi inkişaf xüsusiyyətləri, çoxsaylı dil hadisələri və faktları bizə bunu deməyə əsas verir ki, qohumluğu olan dilləri bir-biri ilə tutuşduraraq müqayisə etmək və tarixi inkişaf prosesində baş vermiş fonetik, morfoloji, sintaktik və s. dəyişiklikləri üzə çıxarmaq çox vacib məsələlərdəndir. Bunu ancaq əldə olunmuş nəticələri qarşılaşdırmaqla, saf-çürük etməklə izləmək olar. Müqayisəli metodun mahiyyəti qohum dillərin oxşar və fərqli cəhətlərini aydınlaşdırmaq və bu dildə danışanların bir-birlərini anlama məsələsi probleminin həllinə nail olmaqdır. Tədqiqata cəlb olunmuş qohum dillərin qarşılıqlı öyrənilməsi təkcə fonetikanın, leksikanın, qrammatikanın əsaslı tədqiqi ilə bitmir, burada çox sahəli müqayisə vasitələrindən də geniş istifadə edilir, dilçiliyin müəyyən edilmiş bir sahəsi əsas götürülür, bu sahəyə nə aiddirsə, öyrənilir. Türkologiyada bir çox dillər bu vasitə ilə tədqiqata cəlb olunmuşdur.

Yer üzündə danışılan bütün dillərin öz struktur xüsusiyyətləri və məntiqi var. Bir dili digər dillərdən fərqləndirən ən əsas xüsusiyyətlərdən biri söz ehtiyatının mövcudluğundan çox, cümlədəki sözlərin düzülüşündəki fərqlərdir. Söz və söz birləşmələrinin dildəki funksiyalarını, onların bir-biri ilə əlaqəsini, sıra və cümlə növlərini araşdıran və tədqiq edən elm sahəsinə cümlə bilikləri və ya sintaksis deyilir. Tərifdən də anlaşıldığı kimi, cümlə məlumatının mövzusu hökm daşıyan ifadə vahidi olan cümlə ilə hökm daşımayan söz birləşmələridir. Bu bölmədə əsas ifadə vahidi olan cümlədəki söz birləşmələri, söz və şəkilçilərin cümlədəki funksiyaları, onların sırası və cümlə növləri haqqında danışılacaqdır.

**Tədqiqat**

Qrammatika morfologiya və sintaksis şöbəsindən ibarətdir. Sintaksis sözü yunan mənşəli “Syntaxis” sözündən olub, qurulma, tərtibat, birləşmə deməkdir. Bir sıra dilçilik terminləri kimi, sintaksis sözü də iki terminoloji mənada işlənir: a) dilin sintaktik quruluşu mənasında; b) dilin sintaktik quruluşundan bəhs edən elm mənasında. Sintaksis sözlərin söz birləşməsi və cümlə şəklinə düşməsinin qayda-qanunlarından bəhs edir.

Dilin lüğət tərkibindəki sözlər morfoloji yolla dəyişərək, sintaktik yolla bir-birilə əlaqələnirlər. Bu əlaqələnmə zamanı sintaksisin ən ibtidai vahidi söz birləşməsi yaranr. Həm də sözlərin bir-birilə sintaktik əlaqəsi zamanı cümlə formalaşır. Cümlələrin bir-birilə əlaqəsi isə mürəkkəb sintaktik bütövləri, yəni mətni yaradır. Deməli, sintaksisdə söz birləşməsi, cümlə və mürəkkəb sintaktik bütövlər, yəni mətn öyrənilir.

Söz qruplarından daha geniş müstəqil qrammatik quruluş olan cümlə (Demir & Yılmaz, 2009; Korkmaz, 2009) sözlərin təsadüfi üst-üstə düşməsi ilə deyil, müəyyən qaydalara uyğun birləşməsindən yaranan bir bütövdür. Məsələn; “Böyük ev” sifət ifadəsi sözlərin sırasını dəyişərək “ev böyükdür” isim cümləsinə çevrilir. Ona görə də sözlər yalnız cümlə daxilində məna və dəyər qazanır. Cümlə müxtəlif funksiyaları yerinə yetirən hissələrdən ibarət bütövdür. Bu tamın hissələri öz funksiyalarına görə subyekt, predikat, obyekt, yer tamamlayıcı, zərf tamamlayıcı kimi istifadə olunan cümlə elementləridir. Türk dilində cümlə elementlərinin sırası subyekt-tamamlayıcı (obyekt, yer tamamlayıcı, zərf tamamlayıcı) - predikat sırasına görədir. Cümlədə kənar elementlər adlanan başqa sözlər də ola bilər (Xəlilov, 2017). Bunlar cümlənin elementləri sayılmır.

Cümlənin elementləri: Cümlənin əsas elementləri və cümlənin tamamlayıcı elementləri başlıqları altında daha ətraflı şəkildə bəhs edilir.

Cümlənin tamamlayıcı elementləri. Obyekt (tamamlıq). Subyektin hərəkətindən bilavasitə təsirlənən və keçid feili tamamlayan sözlərə obyekt deyilir. Cümlədə əsas elementlərdən sonra ən mühüm elementdir. Çünki keçid, səbəb və səbəb feillərlə qurulan cümlələr obyekt işlədilməyəndə natamam qalır və cümlənin mənası aydınlaşmır. Predikatı keçidsiz feil və ya isim olan cümlələrdə obyekt olmadığı halda; Keçidli fel cümlələrində hərəkət obyekt üzərində baş verir. Subyektlə obyekt arasında təsiredici-təsirli əlaqə mövcuddur. Subyektsiz heç bir obyekt yoxdur.

Cümlədə müəyyən və ya qeyri-müəyyən varlığın göstərilməsinə görə obyekt iki cür qiymətləndirilə bilər:

- Müəyyən edilmiş obyekt;
- Qeyri-müəyyən obyekt.

*Elmi Tədqiqat* Beynəlxalq Elmi Jurnal. 2025 / Cild: 5 Sayı: 10 / 54-57 ISSN: 3104-4670
*Scientific Research* International Scientific Journal. 2025 / Volume: 5 Issue: 10 / 54-57 e-ISSN: 2789-6919

Müəyyən bir varlığa rast gələn və predikativ hal şəkilçisi (-ı, -i, -u, -ü) alan cisimlərə müəyyən obyektlər deyilir. Cümlə təhlilində predikatdan verilən sual "nəyi?", "kimi?"-dir. Suallar göstərilən obyekti tapmağa yönəlib. Göstərilən obyektin cümlədəki yeri dəyişə bilər.

Bəzi obyektlər ittiham hal şəkilçisini almasalar da, müəyyən bir varlığa istinad edə bilərlər. Məsələn; "Çalışmaya başlamazdan önce Motzart dinliyordu." Cümlədə Motsart sözü konkret şəxsə aid olsa da, təqsirləndirici hal şəkilçisi olmadan işlənir.

Tipə cavab verən və predikativ hal şəkilçisi qəbul etməyən obyektlərə qeyri-müəyyən obyektlər deyilir. Cümlənin mövzusunu tapdıqdan sonra "nə?" - qeyri-müəyyən obyekti sual verməklə tapmaq olar: Qeyri-müəyyən obyektin cümlədəki yeri dəyişmir. Qeyri-müəyyən obyekt həmişə predikatın qarşısındadır (Abdullayev, Həsənov & Seyidov, 2007). Predikat və qeyri-müəyyən obyekt arasında olan "*bile, de, dahi, daha*" bağlayıcıları istisna olmaqla.

1. Cümlədə birdən çox obyekt ola bilər. Lakin bu obyektlər müxtəlif növ ola bilməz. Başqa sözlə desək, cümlədə həm qeyri-müəyyən obyekt, həm də müəyyən obyekt ola bilməz.

Nümunə: Sakladığı altınları, paraları, ipek kumaşları tek tek çıkardı.

Bu cümlədə üç müəyyən obyekt var. Nə çıxardı? (sakladığı altınları, paraları, ipek kumaşları)

2. Bəzi cümlələrdə ikinci obyekt cümlədəki birinci obyektin izahçısı ola bilər.

Örnek: Savaş günlerini, ekmeğin karne ile dağıtıldığı o günleri, unutamıyordu.

Bu cümlədəki "ekmeğin karne ile dağıtıldığı o günleri" ifadəsi birinci obyektin izahıdır.

3. Cümlənin obyekti müstəqil cümlə ola bilər.

Nümunə: Aynanın karşısında kendini öyle görünce "Bu ben miyim?"

Bu cümlədəki predikat "Nə dedi?" sualının cavabı olan "Bu benim?"-dir. Cümlə qeyri-müəyyən obyekt kimi çıxış edir.

Məkan tamamlayıcısı. Cümlədə predikatın bildirdiyi hərəkətin, hərəkətin və ya hadisənin yerini və istiqamətini göstərir; Yaxınlaşma (-a), varlıq (-da) və ya gediş (-dan) şəkilçilərindən birini alan elementdir. Bütün nominal sintaktik strukturlar lokativ tamamlayıcı ola bilər. Cümlənin təhlilində "nəyə, nəyə, niyə, haradan, haradan, kimə, kimin, kimdən" kimi predikativ suallar yer tamamlayıcısını tapır.

Cümlədəki yer bildirici tamamlayıcı söz və ya söz birləşməsi ola bilər.

Nümunə: Ayşe Hanım, yıllardan beri sağlık ocağında hemşirelik yapıyordu.

Bu cümlədə yer tamamlayıcısı kimi çıxış edən "sağlamlıq mərkəzində" ifadəsi qeyri-müəyyən isim birləşməsidir. "Harada?" - sualına cavab verir.

2. Yerli tamamlayıcı sıra və ya asılı cümlələrdə ümumi ola bilər.

Nümunə: Murat, hastanenin bahçesinde, hastasını düşünüyor, güzel bir haber bekliyordu.

4. Yer bildirən tamamlayıcı cümlədə izahedicisi ilə birlikdə gələ bilər.

Nümunə: Anadolu'da, bir bozkır kasabasında büyümüştüm.

Zərf tamamlayıcısı. Zərf tamamlayıcısı cümlənin mənasını zaman, səbəb, üslub, istiqamət, ölçü, şərait və s. aspektlərdən tamamlayan və məhdudlaşdıran elementlərdir. Zərf tamamlayıcısı təyinedici tamamlayıcıdır. Mühakimə ifadələrində predikatın zaman, istiqamət, keyfiyyət və kəmiyyət baxımından ifadə etdiyi hərəkət və ya hadisənin mənasını tamamlayan elementlərə təyinedici tamamlamalar deyilir".

Cümlədə zərf kimi işlənən element isim və ya söz birləşməsi ola bilər (Kazımov, 2024; Rəsulov & Rüstəmov, 2007). Cümlə təhlili tədqiqatlarında "nə vaxt, niyə, necə, nə qədər, nə ilə, hansı şəkildə, kiminlə, hansı vəziyyətdə, hansı şəraitdə, hansı istiqamətdə" kimi predikativ suallar zərf ifadəsini tapmağa yönəlib.

Zərf tamamlamasının əsas xüsusiyyətlərini aşağıdakı kimi sadalaya bilərik:

İsimlər istiqamət şəkilçiləri (-ra / -ar), vasitə şəkilçiləri (-la / -n) və bərabərlik şəkilçiləri (-ca / -ça) alaraq cümlədə zərf rolunu oynayır.

Nümunə: Bu uzun yolu bisikletle gelmişti.

Elindeki çantayı yavaşça yere bıraktı.

"-p -ıp, -arak, -a, -ınca, -madan, -maksızın, -dıkça, -alı, -ken, -dığın- zərf-feil şəkilçiləri alaraq cümlədə zərf kimi işlənir."

Nümunə: Doktor, reçeteyi yazıp yolladı.

Tek bir söz söylemeden masadan kalktı.

Cümlədəki söz birləşmələri arasında bağlayıcı söz birləşmələri, ixtisar söz birləşmələri, təkrar söz birləşmələri, isim və sifət ifadələri, zərf-feil birləşmələri, ön söz birləşmələri zərf kimi çıxış edə bilər.

Nümunə: Bütün sevdiklerimi birer birer kaybettim.

Bu gece, misafirleri evden ayrılacaklarmış.

Ödevlerini bitirmediği için öğretmeninden azar işitti.

## Nəticə

Müqayisəli tədqiqatın istiqamətlərindən danışarkən qeyd etməliyik ki, dil ictimai hadisə kimi həyat fəaliyyətimizin müxtəlif təbəqələri ilə əlaqəlidir. Dillərin qarşılıqlı öyrənilməsi (Hüseynova, 2025; Hüseynova, 2016; Zeynalov, 2008) qohumluğun müəyyənləşməsi ilə yanaşı xalqlar arasında da bağlılığın qədim tarixini açmağa imkan verir. Bu sahədə olan dil faktları əvvələ nisbətən daha çox araşdırılır, qarşılıqlı araşdırma yolları və istiqamətləri müəyyənləşdirilir. Müqayisəli şəkildə aparılan tədqiqatlar linqvistik qayda-qanunları müəyyən edir, qrammatik kateqoriyalara xas olan individual dil yeniliklərini ortaya qoyur. Türk dillərinin qədim və indiki vəziyyəti, ümumi təkamül xüsusiyyətləri, çoxsaylı linqvistik hadisələri və faktları sübut edir ki, onları bir-biri ilə qarşılaşdırmaq, müqayisə etmək və inkişaf gedişində baş vermiş fonetik, morfoloji, sintaktik və s. dəyişiklikləri aşkar etmək çox vacib məsələlərdəndir.

## Ədəbiyyat

1. Abdullayev, Ə., Həsənov, A., & Seyidov, Y. (2007). *Müasir Azərbaycan dili. Sintaksis*.
2. Demir, N., & Yılmaz, E. (2009). *Türkiye Türkçesi grameri*.
3. Hüseynova, H. (2025). Sifətin dərəcələri tarixi inkişafda. *Elmi Tədqiqat: Beynəlxalq Elmi Jurnal*, 5, 8–10.
4. Hüseynova, H. (2025). Azərbaycan yazısında istifadə edilən durğu işarələri. *Elmi Tədqiqat: Beynəlxalq Elmi Jurnal*, 5(1), 8–15.
5. Hüseynova, H. (2025). Azərbaycanda lüğətçiliyin inkişafı: H. Naxçıvani "Sihah-əl-furs" lüğəti. İçində *XX Respublika Elmi Konfransı materialları* (s. 7–9).
6. Hüseynova, H. (2016). *Bədii əsərlərin üslubi sintaksisi*.
7. Xəlilov, B. (2017). *Müasir Azərbaycan dilinin sintaksisi*. Elm.
8. Kazımov, İ. (2024). *Türk dillərinin funksional morfologiyası* (Cild I).
9. Korkmaz, Z. (2009). *Türkiye Türkçesi grameri*. Türk Dil Kurumu Yayınları.
10. *Müasir Azərbaycan dili. Sintaksis* (1980). (Cild III). AMEA.
11. Rəsulov, Ə., & Rüstəmov, R. (2007). *Türk dili*.
12. Zeynalov, F. (2008). *Türk dillərinin müqayisəli qrammatikası. Sintaksis* (Cild II).

Daxil oldu: 13.06.2025
Qəbul edildi: 25.09.2025

DOI: https://doi.org/10.36719/2789-6919/50/58-63

**Mehriban İmanova**
Naxçıvan Dövlət Universiteti
iqtisad üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0003-2210-724X
mehriban.i@ndu.edu.az

# Büdcə təşkilatlarında maliyyə hesabatlılığının inkişafı və təkmilləşdirilməsi istiqamətləri

## Xülasə

Hesabatlılıq və şəffaflıq maliyyə idarəçiliyinin vacib təməllərindən biri sayılır. Bu gün ölkəmizin sosial-iqtisadi inkişafında əsas çağırışlardan biri dövlət büdcəsinin şəffaflığı, ictimai hesabatlılıq və maliyyə nəzarətinin gücləndirilməsi mövzunun aktuallığını əks etdirir. Tədqiqatın məqsədi maliyyə hesabatlarının keyfiyyətinin, şəffaflığının və etibarlılığının artırılması üçün təkliflərin hazırlanmasından ibarətdir. Elmi məqalədə büdcə təşkilatlarında maliyyə hesabatlarının tərtib edilməsinin beynəlxalq tələblərlə uyğunluq səviyyəsi və normativ-hüquqi tənzimlənməsi hərtərəfli təhlil edilmiş, qarşıya çıxan problemlər və onların həlli yolları müəyyən edilmişdir. Bu məqsədlə analitik, müqayisəli təhlil, sistemli yanaşma və sosioloji tədqiqat üsullarından istifadə olunmuşdur. Nəticələr göstərir ki, büdcə təşkilatlarının hesabat sistemində bəzi metodoloji boşluqların və praktiki uyğunsuzluqların mövcud olması hesabat məlumatlarının idarəetmə qərarlarında səmərəli istifadəsini məhdudlaşdırır. Aparılmış təhlillər əsasında hesabat formalarının beynəlxalq standartlara uyğunlaşdırılması və şəffaflıq səviyyəsinin yüksəldilməsi üzrə təkliflər verilmişdir.

***Açar sözlər:*** *İSMUBS, maliyyə hesabatları, büdcə təşkilatları, rəqəmsallaşma, maliyyə idarəçiliyi*

**Mehriban Imanova**
Nakhchivan State University
PhD in Economics
https://orcid.org/0000-0003-2210-724X
mehriban.i@ndu.edu.az

# Directions for the Development and Improvement of Financial Reporting in Budget Organizations

## Abstract

Accountability and transparency are considered one of the important foundations of financial management. Today, one of the main challenges in the socio-economic development of our country is the transparency of the state budget, public accountability and strengthening of financial control, which reflects the relevance of the topic. The purpose of the study is to prepare proposals for increasing the quality, transparency and reliability of financial reports. The scientific article comprehensively analyzes the level of compliance of financial reporting in budget organizations with international requirements and regulatory and legal regulation, identifies the problems encountered and their solutions. For this purpose, analytical, comparative analysis, systematic approach and sociological methods were used. The results show that the existence of some methodological gaps and practical inconsistencies in the reporting system of budget organizations limits the effective use of reporting data in management decisions. Based on the conducted analysis, proposals were made to adapt reporting forms to international standards and increase the level of transparency.

***Keywords:*** *IPSASB, financial reporting, budget organizations, digitalization, financial management*


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Giriş

Dövlət büdcəsi vasitəsilə toplanan vəsaitlərin düzgün idarə olunması və səmərəli xərclənməsinin nəzarəti büdcə qurumlarının əsas vəzifələrindəndir. Büdcə qurumları ictimai etimadın qoruyucularıdır və onların hazırladığı maliyyə hesabatları, dövlətin maliyyə sisteminin etibarlılığını və dayanıqlılığını təmin edir. Maliyyə hesabatları yalnız statistik rəqəmlərlə məhdudlaşmır, eyni zamanda idarəetmə qərarlarının verilməsi vasitəsi kimi çıxış edir. Hesabatların tərtib olunmasının əsas məqsədi, dövlət vəsaitlərinin yaranması və istifadəsi barədə tam, dəqiq və zamanında məlumatları təmin etməkdən ibarətdir. Büdcə strukturlarında xərclənən vəsaitlər ictimai xarakter daşıyır və dövlət büdcəsi vasitəsilə maliyyələşir. Dövlət sektorunun fəaliyyətində maliyyə hesabatları daxili idarəetməni möhkəmləndirir, büdcə strukturlarının rəhbərliyinə qərar qəbul etmə prosesində dəstək verir, şəffaf və etibarlı maliyyə hesabatları ölkənin beynəlxalq reytinqlərdə mövqeyini gücləndirir. Bu baxımdan büdcə təşkilatlarının fəaliyyətində maliyyə hesabatlarının rolu daim yüksəlir. Mövzunun aktuallığı dövlət idarəçiliyinin keyfiyyətinin yüksəldilməsi və ictimai etimadın gücləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

**Tədqiqat**

Beynəlxalq təcrübə aydın şəkildə göstərir ki, maliyyə hesabatlarının keyfiyyəti qlobal standartlarının tətbiqi ilə birbaşa əlaqəlidir. İctimai Sektor üzrə Mühasibat Uçotunun Beynəlxalq Standartları (IPSAS) hazırda büdcə qurumlarının hesabat sistemində beynəlxalq səviyyədə geniş qəbul edilən metodoloji təməldir. Bu standartların məqsədi dövlət sektorunda mühasibat uçotunun şəffaflığını, ölçülə bilənliyini və beynəlxalq təşkilatların tələblərinə uyğunluğunu təmin etməkdən ibarətdir. Beynəlxalq təcrübədə hesabatlılıq yalnız milli səviyyədə deyil, həm də qlobal maliyyə idarəçiliyi üçün vacibdir. Aşağıdakı cədvəldə bəzi ölkələrin büdcə hesabatlılığının inkişaf səviyyəsi araşdırılıb (Cədvəl 1).

Cədvəl 1. *Müxtəlif ölkələrdə büdcə hesabatlılığının müqayisəli təhlili.*

| Ölkə / Qurum | Hesabat standartı və normativ baza | Texnologiya və rəqəmsallaşma | Şəffaflıq və ictimai məlumatlara çatma | Yekun Qiymətləndirmə |
|---|---|---|---|---|
| **ABŞ** | GASB standartları əsasında federal hesabatlar hazırlanır. | FMIS (Financial Management Information System) tam inteqrasiya olunub. | “USAspending.gov” portalı vasitəsilə bütün xərclər ictimaiyyətə açıqdır. | GAO tərəfindən mütəmadi audit aparılır, real vaxt hesabat izlənməsi mümkündür. |
| **Böyük Britaniya** | HM Treasury tərəfindən IFRS-ə uyğun standartlar tətbiq olunur. | Hesabatların təqdimatı rəqəmsal formatda həyata keçirilir. | “Open Spending” platforması və “Vətəndaş büdcəsi” yanaşması mövcuddur. | Maliyyə rəqəmləri ilə yanaşı fəaliyyət nəticələri də açıqlanır. |
| **Kanada** | Hesabatlar həm nağd, həm də yığım əsasında hazırlanır. | Blokçeyn izləmə sistemi dövlət satınalmalarında sınaqdan keçirilir. | Hökumət vətəndaş büdcəsini mütəmadi nəşr edir. | IPSAS uyğun təlim proqramları ilə kadr potensialı artırılır. |
| **Yaponiya** | Milli standartlar IPSAS prinsiplərinə inteqrasiya olunub. | Maliyyə məlumatları rəqəmsal platformalarda toplanır və Big Data analizi aparılır. | Hesabatlar ictimaiyyət və biznes üçün açıqdır. | Maliyyə sənədləri strateji idarəetmə vasitəsinə çevrilmişdir. |
| **Avropa İttifaqı** | EPSAS standartları IPSAS əsasında formalaşdırılıb. | Elektron hesabat sistemləri bütün üzv ölkələrdə tətbiq olunur. | Hesabatlılıq və şəffaflıq indeksi yüksəkdir. | Üzv ölkələr arasında vahid hesabat mədəniyyəti yaradılır. |
| **Beynəlxalq təşkilatlar (IMF, World Bank, OECD)** | IMF “Fiscal Transparency Code”, OECD və Dünya Bankı FMIS çərçivələri tətbiq edir. | FMIS və e-büdcə sistemləri qlobal səviyyədə yayılır. | Hesabatlılıq standartları beynəlxalq müqayisəyə açıqdır. | Hesabatlılıq milli deyil, qlobal səviyyədə təşviq olunur. |

Mənbə: (GAO, 2022), GASB (2021), https://www.usaspending.gov/, https://www.openspending.org

Cədvəldən göründüyü kimi, ABŞ büdcə hesabatlılığında ən qabaqcıl təcrübəyə malik ölkələrdən biridir və burada "USAspending.gov" portalı vasitəsilə ictimaiyyət dövlət xərclərinin istifadəsini real vaxt rejimində izləyə bilir. Dövlətin Baş Audit Ofisi (GAO) mütəmadi olaraq federal hesabatların düzgünlüyünü yoxlayır (GAO, 2022). Böyük Britaniya təcrübəsində "Open Spending" platforması vasitəsilə bütün dövlət xərcləri ictimaiyyətə açıq şəkildə dərc olunmaqla vətəndaşların məlumatı anlamaq imkanı üçün sadələşdirilmiş "vətəndaş büdcəsi" yanaşması tətbiq olunur (Open Spending UK., 2023).

Kanada büdcə şəffaflığı üzrə dünyanın aparıcı ölkələrindən biridir və maliyyə hesabatlılığında innovativ yanaşmaları ilə seçilir. Blokçeyn izləmə sistemi vasitəsilə xərclərin hər mərhələsinə nəzarət edilir (IFAC, 2022). Yaponiya təcrübəsində dövlət maliyyə məlumatları rəqəmsal platformalar vasitəsilə toplanır, Big Data analizi aparılır, büdcə proqramlarının səmərəliliyi böyük verilənlər bazaları əsasında qiymətləndirilir.

Büdcə hesabatlılığında istifadə edilən müasir texnologiyalar (Big Data, AI) hesabatların strateji idarəetmə alətinə çevrilməsinə şərait yaradır (OECD, 2021). Avropa İttifaqı ölkələrində büdcə hesabatlarının hazırlanması üçün vahid çərçivə yaratmaq məqsədilə istifadə olunan EPSAS bütün üzv ölkələrdə vahid hesabatlılıq mədəniyyətini təmin etməyə yönəlib.

Belə ki, Almaniya hesabatlılıq sistemini tamamilə elektronlaşdırıb, Fransa dövlət hesabatlarını IFRS prinsiplərinə uyğunlaşdıraraq beynəlxalq investorların maraqlarını təmin edib, Skandinaviya ölkələrində isə ictimai hesabatlılıq ən yüksək səviyyədədir (Brusca & Caperchione, 2020). Beynəlxalq təşkilatlar ölkələrin maliyyə hesabatlarının beynəlxalq standartlara uyğunlaşması üçün əhəmiyyətli işlər görür. BVF (IMF) tərəfindən qəbul edilən "Fiscal Transparency Code" dövlətlərin büdcə məlumatlarını şəffaf və müqayisəli şəkildə təqdim etməsini təşviq edir (IMF, 2018). Dünya Bankı inkişaf etməkdə olan ölkələrdə həyata keçirilən layihələrlə (FMIS) elektron büdcə sistemlərinin qurulmasına dəstək verir. OECD isə üzv ölkələr üçün tövsiyələr hazırlamaqla dövlət idarəçiliyində hesabatlılıq və şəffaflıq standartlarını müəyyən edir (OECD, 2020). Bütün bu təcrübələr göstərir ki, büdcə təşkilatlarında maliyyə hesabatlarının təkmilləşdirilməsi dövlət vəsaitlərinin şəffaf idarə edilməsini, ictimaiyyətin məlumatlandırılmasını, dövlət maliyyəsinin dayanıqlılığını və beynəlxalq hesabatlılıq standartlarına uyğunluğunu təmin edir.

Azərbaycanda "Büdcə sistemi haqqında" Qanun və Maliyyə Nazirliyinin metodik göstərişləri büdcə təşkilatlarının hesabatlılıq sisteminin təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atılmış, dövlət maliyyəsinin idarə olunması sahəsində ciddi islahatlar həyata keçirilmişdir. Dövlət sektorunda mühasibat uçotunun beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində işlər görülməkdədir. Görülən işlər büdcə təşkilatlarının hesabatlarının beynəlxalq təcrübəyə yaxınlaşdırılmasına şərait yaratsa da, hələ də bu sahədə müəyyən çətinliklər mövcuddur.

Mövcud vəziyyətin təhlili göstərir ki, bəzi büdcə təşkilatlarında maliyyə hesabatlarının kağız üzərində və ya yarıavtomatlaşdırılmış formada tərtib olunması məlumatların toplanmasında, onların dəqiqliyində və vaxtında təqdim olunmasında problemlər yaradır. Büdcə təşkilatlarının vəsaitləri ictimai resurs hesab olunduğundan, bu hesabatların geniş vətəndaş kütləsi üçün də sadə və vizual formada təqdim edilməsi vacibdir (Schmidthuber et al., 2020). Büdcə təşkilatlarının hesabatlarının təkmilləşdirilməsi üçün vacib olan digər amil isə daxili və xarici auditin gücləndirilməsidir. İndiki şəraitdə audit hesabatlarının effektivliyi çox vaxt maliyyə hesabatlarının keyfiyyətindən asılıdır. Maliyyə hesabatlarının təkmilləşdirilməsi dövlət maliyyə nəzarətinin səmərəliliyinin artırılması üçün mühüm şərtdir (Səbzəliyev, 2018). ABŞ, Kanada və Avropa ölkələrində hesabatların hazırlanmasında rəqəmsal texnologiyalar və "vətəndaş büdcəsi" yanaşmasının tətbiq edilməsi ictimai nəzarəti gücləndirir, şəffaflığı artırır və maliyyə resurslarının daha səmərəli bölüşdürülməsinə imkan verir. Azərbaycanda da bu təcrübənin mərhələli şəkildə tətbiqi nəzəri əsasların praktikaya keçirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Nəzəri əsasların düzgün tətbiqi hesabatların keyfiyyətini yüksəldir. Azərbaycan Respublikasında maliyyə hesabatlılığının mövcud vəziyyəti təhlil edilərkən hələ də problemlərin qaldığı müşahidə edilir. Bu problemlər aşağıdakılardan ibarətdir:

➢ Normativ-hüquqi mühit:

Son illərdə dövlət sektorunda mühasibat uçotunun beynəlxalq standartlara (IPSAS) uyğunlaşdırılması istiqamətində müəyyən addımlar atılsa da, mövcud vəziyyət göstərir ki, bir çox büdcə təşkilatlarında bu standartlara tam uyğunlaşdırılmayıb. Mühasiblər arasında IPSAS prinsiplərinin tətbiqi ilə bağlı bilik və bacarıqlar məhdud olduğu üçün hesabatların bir qismi formal xarakter daşıyır və analitik dəyəri zəif qalır.

➢ Hesabatların hazırlanmasında tətbiq olunan metodologiya:

Praktiki mühitdə maliyyə hesabatlarının tərtibində məlumatların toplanması mərhələsi zəif həlqədir. Müxtəlif bölmələrdən daxil olan məlumatların vahid informasiya bazasında birləşdirilməməsi eyni göstəricilər üzrə fərqli nəticələrin yaranmasına, dəqiqlik və operativlik problemlərinə səbəb olur.

➢ İnformasiya texnologiyalarının tətbiqi vəziyyəti:

Azərbaycan elektron hökumət və rəqəmsal idarəetmə sahəsində əhəmiyyətli addımlar atılıb (İmanova, 2025). Buna baxmayaraq büdcə təşkilatlarında maliyyə hesabatlarının hazırlanmasında müasir texnologiyaların tətbiqi hələ geniş yayılmayıb. Əksər təşkilatlar hələ də Excel və ya sadə lokal proqram təminatlarından istifadə edir. Bu da hesabatların hazırlanması prosesi ləngidir və onların analitik təhlil imkanları məhdud qalır.

➢ Maliyyə hesabatlarının ictimaiyyət üçün əlçatanlığı:

Mövcud vəziyyətin təhlili göstərir ki, ayrı-ayrı büdcə təşkilatlarının maliyyə hesabatları əksər hallarda geniş ictimaiyyətin əlçatanlığında deyil. İctimaiyyətə təqdim olunan hesabatların mürəkkəb maliyyə terminləri ilə yazılması vətəndaşların böyük qismi üçün anlaşıqlı olmur. Bu da hesabatlılıq və şəffaflıq prinsiplərinin qorunmasına mane olur.

➢ Kadr hazırlığı və peşəkarlıq vəziyyəti:

Büdcə təşkilatlarında maliyyə hesabatlarının hazırlanmasında iştirak edən mühasiblərin peşəkarlıq səviyyəsinin müxtəlif olması hesabatların düzgünlüyünü şübhə altına alır. Bu da hesabatların formalaşdırılmasında metodoloji boşluqların yaranmasına səbəb olur.

➢ Audit və nəzarət mexanizmlərinin mövcud vəziyyəti:

Bəzi təşkilatlarda hesabatların hazırlanmasında aşkar edilən uyğunsuzluqlar daxili audit və maliyyə nəzarət mexanizmlərinin yetərli olmadığını göstərir. Bu hesabatların təhlili və nəticələrin tətbiqinin zəif olması idarəetmə qərarlarına təsir imkanlarını azaldır.

Bu problemlərin nəticəsində:

➢ Hesabatların analitik dəyəri azalır;
➢ İdarəetmə qərarlarının qəbulunda istifadə olunma imkanları məhdudlaşır;
➢ İctimaiyyətin dövlət maliyyəsinə olan etimadı zəifləyir;
➢ Beynəlxalq standartlarla müqayisəlilik təmin olunmur.

Beləliklə, büdcə təşkilatlarında maliyyə hesabatlarının mövcud vəziyyəti müəyyən dərəcədə inkişaf etmiş olsa da, rəqəmsallaşma yetərli deyil, beynəlxalq standartlara uyğunluq tam təmin edilməyib, ictimaiyyət üçün açıqlıq və anlaşıqlılıq məhdud səviyyədədir. Bu isə idarəetmə qərarlarının keyfiyyətinə və vətəndaşların dövlət maliyyəsinə olan etimadına mənfi təsir göstərir.

## Nəticə

Beynəlxalq təcrübənin araşdırılması nəzərə alınaraq büdcə təşkilatlarında maliyyə hesabatlılığının təkmilləşdirilməsinin bir neçə vacib istiqamətini göstərə bilərik:

✓ Normativ və metodoloji çərçivənin beynəlxalq standartlara uyğunlaşdırılması.

Müvafiq normativ bazanın beynəlxalq standartlara uyğunlaşdırılmasının həyata keçirilməsi büdcə təşkilatlarında maliyyə hesabatlarının keyfiyyətini yüksəldər, ictimai etimadı möhkəmləndirər və dövlət maliyyə idarəçiliyini beynəlxalq səviyyəyə uyğunlaşdırar.

✓ İctimai Sektor üzrə Beynəlxalq Standartların tətbiqi;

İctimai Sektor üzrə Beynəlxalq Standartların tətbiqinin genişləndirilməsi və hesabatların ictimaiyyətə açıqlanması qaydalarının daha aydın tənzimlənməsi beynəlxalq müqayisəliliyi artırar və donor təşkilatların tələb etdiyi şəffaflıq səviyyəsini təmin edər.

✓ Elektron və inteqrasiya olunmuş maliyyə sistemlərinin yaradılması.

Bir sıra büdcə təşkilatlarının hələ də manual üsullardan istifadə etməsi operativlik və dəqiqlik baxımından problemlər yaradır. Maliyyə hesabatlarının elektron təqdimatı insan faktorunu minimuma endirir, səhv riskini azaldır.

✓ Şəffaflıq və vətəndaş büdcəsi yanaşmasının genişləndirilməsi.

Hesabatların rəqəmsallaşdırılması və sadələşdirilmiş formatda vətəndaşlara təqdim edilməsi şəffaflıq və vətəndaş büdcəsi yanaşmasının inkişaf etdirilməsinə təkan verəcək, dövlət xərclərinin daha məsuliyyətli idarə olunmasına səbəb olacaq.

✓ Müstəqil audit və nəzarət mexanizmlərinin gücləndirilməsi.

Büdcə təşkilatlarında daxili audit strukturlarının fəaliyyətinə şəraitin yaradılması nəticəsində hesabatların keyfiyyəti yalnız texniki yoxlama deyil, həm də ictimai nəzarət əsasında təmin ediləcək.

✓ Kadr hazırlığı və peşəkarlığın artırılması;

Maliyyə hesabatlarının dəqiq və keyfiyyətli hazırlanmasında insan resurslarının inkişaf etdirilməsi xüsusi zərurət kəsb edir. Büdcə təşkilatlarında çalışan mütəxəssislərin beynəlxalq standartlar üzrə biliklərinin artırılması hesabatların keyfiyyətinə bilavasitə müsbət təsir göstərəcək.

✓ İnnovativ texnologiyaların tətbiqi (Blokçeyn, Big Data, AI).

Dünyada büdcə hesabatlılığında müasir texnologiyaların tətbiqinin sürətlə artması Azərbaycanda da bu istiqamətdə rəqəmsal alətlərdən istifadə olunmasını zəruri edir. Blokçeynin tətbiqi maliyyə əməliyyatlarının şəffaf qeydiyyatının təmin edilməsinə, Big Data analitikası hesabat göstəricilərinin dərin təhlilinə, süni intellekt isə hesabatlarda anomaliyaları aşkar edərək risklərin idarə edilməsinə əhəmiyyətli təsir edəcək (Imanova et al., 2025). Büdcə təşkilatlarının çoxluğu hesabatların vahid formatda hazırlanmasını çətinləşdirir. Bu səbəbdən mərkəzləşdirilmiş məlumat bazasının yaradılması vacibdir.

Nəticə olaraq demək olar ki, büdcə təşkilatlarında maliyyə hesabatlarının təkmilləşdirilməsi üçün tam rəqəmsallaşmaya keçid, ağıllı hesabat sistemlərinin yaradılması, hesabatların sosial nəticələri əhatə etməsi və beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində hesabatlılığın qlobal standartlara uyğunlaşdırılması mühüm əhəmiyyət daşıyır.

## Ədəbiyyat

1. *Azərbaycan Respublikası Büdcə sistemi haqqında Qanun*. (2022). https://e-qanun.az/framework/1126
2. *Azərbaycan Respublikası Mühasibat uçotu haqqında Qanun*. (2004).
3. Brusca, I., & Caperchione, E. (2020). *Public sector accounting and auditing in Europe: The challenge of harmonization (Governance and Public Management).* Palgrave Macmillan.
4. Governmental Accounting Standards Board (GASB). (2021). *Governmental Accounting Standards Series.* Norwalk, CT: GASB.
5. IFAC. (2022). *Enhancing public financial management in Canada through accrual accounting.* https://www.ifac.org
6. İmanova, M., Abbasov, T., & Musayev, A. (2025). Global evolution of artificial intelligence: Navigating ethics, policy, and innovation for a sustainable future. *Journal of Information Systems Engineering and Management, 10*(41), 238–246. https://doi.org/10.52783/jisem.v10i41s.7814
7. İmanova, M. (2025). Kamu sektöründe dijital yönetişim: yenilikçi modeller ve gerçek deneyimler. *Uluslararası Turizm, Ekonomi ve İşletme Bilimleri Dergisi (IJTEBS), 9*(1), 51–61. https://www.ijtebs.org/index.php/ijtebs/article/view/30-06-2025
8. International Monetary Fund. (2018). *Fiscal transparency handbook.* Washington, DC.
9. OECD. (2021). *Digital government review of Japan: Towards agile and resilient public governance.* Paris: OECD Publishing.
10. Open Spending UK. (2023). *Transparency in public expenditure.* https://www.openspending.org
11. Quliyev, A. (2021). *Təhsildə keyfiyyət və qiymətləndirmə yanaşmaları.* Elm və Təhsil.
12. Səbzəliyev, S. (2018). *Maliyyə hesabatı: Dərs vəsaiti.* İqtisad Universiteti Nəşriyyatı.

13. Schmidthuber, L., Hilgers, D., & Hofman, S. (2020). International public sector accounting standards (IPSASs): A systematic literature review and future research agenda. *Financial Accountability & Management, 38*(2).
14. U.S. Government Accountability Office (GAO). (2022). *Financial report of the U.S. Government.* Washington, DC.
15. USAspending.gov. (2024). *Official open data source of federal spending information.* https://www.usaspending.gov
16. World Bank. (2021). *Public expenditure and financial accountability (PEFA) framework.* Washington, DC.

Daxil oldu: 15.07.2025
Qəbul edildi: 11.10.2025

DOI: https://doi.org/10.36719/2789-6919/50/64-68

**Şəhla İbrahimova**
Bakı Dövlət Universiteti
doktorant
https://orcid.org/0009-0000-8953-1438
shahla.aqill@gmail.com

# Psixodinamik yanaşmada şəxsiyyətin öyrənilməsi (mahiyyəti və strukturu)

## Xülasə

Psixodinamik yanaşmada şəxsiyyətin mahiyyəti insanın daxili psixoloji proseslərinin, xüsusən də şüuraltı motivlərin, istəklərin və konfliktlərin qarşılıqlı təsiri ilə izah olunur. Bu yanaşmaya görə şəxsiyyət, keçmiş yaşantılar, uşaqlıq dövründə formalaşan təcrübələr və onların şüuraltında yaratdığı izlər əsasında inkişaf edir. Freudun nəzəriyyəsində şəxsiyyətin strukturu İd, Ego və Superego elementləri ilə izah olunur. İd instinktiv ehtiyac və impulsları, Ego reallıq prinsipi əsasında bu impulsları idarə edən rasional tərəfi, Superego isə sosial norma və mənəvi dəyərləri təmsil edir. Bu üç strukturun qarşılıqlı mübarizəsi insan davranışlarını və daxili psixoloji gərginlikləri formalaşdırır. Psixodinamik yanaşma, həmçinin, müdafiə mexanizmlərinin şəxsiyyətin sabitliyinin qorunmasında rolunu vurğulayır. Beləliklə, bu nəzəriyyə şəxsiyyətin mahiyyətini şüur və şüuraltı proseslərin dinamik qarşılıqlı əlaqəsi əsasında izah edir və fərdin daxili psixoloji həyatının dərinliklərinə diqqət yetirir.

***Açar sözlər:*** *psixodinamik yanaşma, şəxsiyyət strukturu, şüuraltı, müdafiə mexanizmləri, daxili konflikt, psixoloji inkişaf*

**Shahla Ibrahimova**
Baku State University
PhD student
https://orcid.org/0009-0000-8953-1438
shahla.aqill@gmail.com

# Study of Personality (Essence and Structure) in the Psychodynamic Approach

## Abstract

In the psychodynamic approach, the essence of personality is explained through the interaction of inner psychological processes, particularly unconscious motives, desires, and conflicts. According to this perspective, personality develops based on past experiences, especially childhood impressions, and the traces they leave in the unconscious. In Freud's theory, the structure of personality is explained through the components of the Id, Ego, and Superego. The Id represents instinctual needs and impulses, the Ego regulates these impulses through the reality principle, and the Superego embodies social norms and moral values. The dynamic interaction and conflict among these three structures shape human behavior and internal psychological tensions. The psychodynamic approach also emphasizes the role of defense mechanisms in maintaining personality stability. Thus, this theory explains the essence of personality as a result of the dynamic interaction between conscious and unconscious processes, focusing on the deeper aspects of an individual's psychological life.

***Keywords:*** *psychodynamic approach, personality structure, unconscious, defense mechanisms, internal conflict, psychological development*


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Giriş

Psixodinamik yanaşma şəxsiyyət psixologiyasının inkişafında mühüm rol oynamış və insan davranışlarını, daxili aləmini sistemli şəkildə izah etməyə yönəlmiş ilk nəzəri cərəyanlardan biri olmuşdur. Bu yanaşma, əsasən, Ziqmund Freydin nəzəriyyələrinə əsaslanaraq, şəxsiyyətin yalnız şüurlu düşüncə ilə formalaşmadığını, eyni zamanda, şüuraltı proseslərin, uşaqlıq təcrübələrinin və daxilləşdirilmiş konfliktlərin təsiri altında inkişaf etdiyini vurğulayır. Psixodinamik nəzəriyyəyə görə, insan davranışlarının və emosional təcrübələrinin böyük bir hissəsi gizli instinktiv meyillər və arzular tərəfindən istiqamətləndirilir.

Bu yanaşmanın ən mühüm töhfələrindən biri şəxsiyyətin struktur modelidir. Freydin təsnifatına görə şəxsiyyət üç əsas komponentdən – id, eqo və super-eqodan ibarətdir. İd insanda instinktiv tələbat və impulsların mənbəyidir, eqo həmin impulsları reallıq prinsipi əsasında tənzimləyən rasional tərəfi, super-eqo isə mənəvi dəyərləri və sosial normaları təmsil edir. Bu üç struktur arasında baş verən dinamik qarşılıqlı təsir və ziddiyyətlər insan davranışının, motivlərinin və daxili psixoloji gərginliklərin əsasını təşkil edir.

Psixodinamik yanaşma müdafiə mexanizmlərinin şəxsiyyətin daxili sabitliyinin qorunmasındakı rolunu da xüsusi olaraq önə çəkir. Eqonun işlədiyi bu mexanizmlər – repressiya, inkar, proyeksiya və digər psixoloji müdafiə formaları – insanın emosional gərginliyi azaltmaq və daxili tarazlığı qorumaq məqsədinə xidmət edir.

Ümumilikdə, psixodinamik yanaşma şəxsiyyətin dərinliklərini anlamağa, şüurlu və şüuraltı proseslər arasındakı əlaqəni üzə çıxarmağa yönəlmişdir. Bu nəzəriyyə insanın psixoloji inkişafını, sosial mühitlə qarşılıqlı təsirini və davranış motivlərini izah etməklə yanaşı, klinik praktikada da geniş tətbiq olunur.

Psixodinamik yanaşma şəxsiyyətin mahiyyətini və strukturunu izah edərkən onun inkişafını əsasən insanın daxili psixoloji gərginlikləri, şüuraltı prosesləri və keçmiş yaşantıları ilə əlaqələndirir. Bu nəzəri istiqamətə görə şəxsiyyət sadəcə indiki davranışlarla deyil, həm də uşaqlıq dövründə qazanılan təcrübələrin və həmin dövrdə formalaşmış emosional izlərin nəticəsi kimi meydana çıxır. Bu xüsusiyyət psixodinamik yanaşmanı digər psixoloji nəzəriyyələrdən fərqləndirən mühüm cəhətlərdən biridir.

Freydin irəli sürdüyü struktur modelinə görə şəxsiyyət id, eqo və super-eqodan ibarət olan mürəkkəb bir sistemdir. İd insanın ən ibtidai və instinktiv tərəfini təşkil edir; burada əsas məqsəd həzz almaq və daxili gərginliyi azaltmaqdır. Eqo reallıq prinsipi əsasında fəaliyyət göstərir və insanın xarici mühitlə uyğunlaşmasını təmin edir. Super-eqo isə cəmiyyətin dəyərlərini, mənəvi qaydaları və sosial normaları əks etdirir. Bu üç komponent arasında daim baş verən qarşıdurmalar insanın davranışına, düşüncə tərzinə və emosional vəziyyətinə birbaşa təsir göstərir (Əliyev, 2021; Jung, 1964).

Psixodinamik yanaşmada xüsusi yer tutan anlayışlardan biri də müdafiə mexanizmləridir. Eqonun yaratdığı bu mexanizmlər insanın daxili konfliktlərdən qorunmasına, emosional gərginliyin azalmasına və psixoloji tarazlığın saxlanmasına xidmət edir. Repressiya, proyeksiya, inkar, sublimasiya və digər müdafiə mexanizmləri insanın gündəlik həyatında fərqində olmadan istifadə etdiyi psixoloji qoruma vasitələridir. Bu mexanizmlər bir tərəfdən şəxsiyyətin sabitliyini qoruyur, digər tərəfdən isə bəzi hallarda reallığın təhrif olunmasına gətirib çıxarır (Əliyeva, 2018).

Psixodinamik yanaşmanın başqa bir mühüm məqamı onun inkişaf nəzəriyyəsidir. Freydin psixoseksual inkişaf mərhələləri – oral, anal, fallik, latent və genital dövrlər – şəxsiyyətin formalaşmasında əsas baza kimi təqdim olunur. Bu mərhələlərdə yaranan həll olunmamış konfliktlər sonrakı yaş dövrlərində nevrotik davranışlara və şəxsiyyət problemlərinə səbəb ola bilər. Bundan əlavə, digər psixodinamik nəzəriyyəçilər, məsələn, Erikson sosial-psixoloji inkişaf mərhələlərini irəli sürərək şəxsiyyətin formalaşmasında sosial mühitin və həyat boyu qarşılaşılan böhranların rolunu ön plana çəkmişdir.

Ümumilikdə, psixodinamik yanaşma şəxsiyyətin mahiyyətini çoxqatlı, dərin və dinamik bir sistem kimi qəbul edir. Şəxsiyyətin həm bioloji instinktlərlə, həm də sosial və mədəni dəyərlərlə formalaşması bu nəzəriyyənin əsas ideyalarından biridir. Bu baxımdan psixodinamik yanaşma həm nəzəri, həm də praktik səviyyədə insan davranışının anlaşılmasına mühüm töhfə verir.

**Tədqiqat**

Psixodinamik nəzəriyyəyə görə, şəxsiyyət insanın daxili dünyasında baş verən qarşılıqlı təsirlər, konfliktlər, ehtiyaclar və istəklər sistemi kimi formalaşır. İnsan davranışları yalnız şüur səviyyəsində deyil, həm də şüursuz proseslərin təsiri altında yaranır.

Psixodinamik yanaşmada şəxsiyyətin mahiyyəti onun dinamik və kompleks təbiətindədir. Şəxsiyyət fərdin daxili instinktləri, ehtiyacları, emosiyaları və düşüncələrinin qarşılıqlı təsiri nəticəsində formalaşır. Burada əsas rol id, ego və superego kimi psixodinamik strukturlar tərəfindən müəyyən olunur. İd insanın instinktiv ehtiyaclarını və impulslarını əks etdirir, şüursuz səviyyədə fəaliyyət göstərir. Ego, id ilə real dünya arasında tarazlığı qoruyur, rasional qərarlar qəbul etməyə və sosial qaydalara uyğun davranmağa yönəlir. Superego isə daxili mənəvi dəyərləri və cəmiyyətin norma və qaydalarını təmsil edir, vicdan və ideal mənlik funksiyasını yerinə yetirir (Rəhimova, 2016).

Psixodinamik nəzəriyyə şəxsiyyətin strukturunu dinamik qarşılıqlı təsirlər sistemi kimi təqdim edir. İd, ego və superego arasında konfliktlər və tarazlığın qorunması şəxsiyyətin davranışlarını və emosional reaksiyalarını formalaşdırır. Məsələn, id tərəfindən yaranan instinktiv istəklər ego tərəfindən nəzarət olunmadıqda, daxili konfliktlər və psixoloji gərginliklər meydana çıxa bilər. Bu yanaşma, insan davranışının motivasiyasını və onun səbəblərini dərinləşdirilmiş şəkildə anlamağa imkan verir (Freud, 1923; Gençtan, 2014).

Psixodinamik yanaşma şəxsiyyətin inkişafına da diqqət yetirir. Freudun psixoseksual inkişaf mərhələləri (oral, anal, fallik, latent və genital mərhələlər) şəxsiyyətin formalaşmasında kritik əhəmiyyət kəsb edir. Hər mərhələdə yaşanan konfliktlər və onların həll olunma səviyyəsi, gələcəkdə fərdin şəxsiyyət xüsusiyyətlərini və davranış modellərini müəyyən edir. Həmçinin, sonrakı psixodinamik nəzəriyyələr şəxsiyyətin sosial və emosional aspektlərinə də diqqət ayıraraq, fərdin erkən uşaqlıq təcrübələrinin onun davranış və emosional reaksiyalarına uzunmüddətli təsirini vurğulayır.

Psixodinamik yanaşmada şəxsiyyətin mahiyyətinə daxili gərginliklərin, motivlərin və qoruyucu mexanizmlərin təsiri daxildir. Eqo qoruyucu mexanizmlər vasitəsilə daxili konfliktləri idarə edir, stress və narahatlığı azaldır. Bu mexanizmlər arasında repressiya, inkorporasiya, proyeksiya, rasionalizasiya və s. kimi üsullar fərdin davranış və emosiyalarını qorumağa xidmət edir. Bu mexanizmlərin fəaliyyətini anlamaq, insanın daxili psixoloji vəziyyətini, davranışlarını və şəxsiyyət xüsusiyyətlərini dərinləşmiş şəkildə təhlil etməyə imkan verir (Quliyeva, 2019).

Nəticə etibarilə, psixodinamik yanaşmada şəxsiyyətin mahiyyəti onun kompleks, çoxşaxəli və dinamik təbiətindədir. İd, ego və superego strukturları arasındakı qarşılıqlı təsir və konfliktlər, daxili motivlər və qoruyucu mexanizmlər şəxsiyyətin formalaşmasını və davranışın müxtəlif situasiyalarda necə təzahür etdiyini müəyyən edir. Psixodinamik nəzəriyyə şəxsiyyətin yalnız xarici müşahidə olunan davranışlarla deyil, həm də daxili psixoloji proseslərin anlaşılması ilə dərinləşdirilmiş şəkildə öyrənilməsinə imkan verir.

Beləliklə, psixodinamik yanaşma şəxsiyyətin struktur və mahiyyətini başa düşmək üçün geniş və çoxölçülü nəzəri çərçivə təqdim edir. Bu yanaşma fərdin daxili dünyasını, motivlərini, konfliktlərini və qoruyucu mexanizmlərini anlamağa imkan verərək, psixoloji tədqiqatlar və praktik fəaliyyətlər üçün əhəmiyyətli baza təmin edir (Vaishali, Saini & Vig, 2022).

Psixodinamik yanaşmada şəxsiyyətin struktur və funksiyalarının təhlili, onun yalnız xarici davranış və reaksiyalarla deyil, daxili psixoloji proseslərlə də formalaşdığını göstərir. Şəxsiyyət fərdin daxili ehtiyacları, motivləri, emosiyaları və şüursuz konfliktlərinin qarşılıqlı təsiri nəticəsində yaranır. Bu yanaşma, insan davranışının yalnız şüur səviyyəsində deyil, həm də şüursuz səviyyədə formalaşdığını vurğulayır (Hüseynov, 2018).

Şəxsiyyətin struktur elementi olan instinktiv komponent fərdin əsas ehtiyaclarını, arzularını və impulslarını ifadə edir. Bu hissə şüursuz fəaliyyət göstərir və tez-tez sosial normalarla ziddiyyət təşkil edə bilər. Rasional komponent isə fərdin daxili impulsları və real dünya arasında tarazlığı təmin edir, qərarvermə və məqsədyönlü davranışı tənzimləyir. Daxili mənəvi komponent isə fərdin vicdanını, sosial dəyərlərə uyğun davranışını və ideal mənliyini müəyyən edir. Bu komponentlər arasındakı qarşılıqlı əlaqə şəxsiyyətin davranış, emosional reaksiya və qərarvermə proseslərinə birbaşa təsir göstərir (Erikson, 1950; Adler, 1937).

Psixodinamik yanaşma şəxsiyyətin inkişafını mərhələlər üzrə izah edir. Hər mərhələdə fərdin yaşadığı daxili konfliktlər və onların həll olunma səviyyəsi gələcək şəxsiyyət xüsusiyyətlərinə təsir edir. Bu yanaşma, erkən uşaqlıq təcrübələrinin fərdin davranış və emosional reaksiyalarına uzunmüddətli təsirini də ön plana çıxarır. Beləliklə, şəxsiyyətin formalaşması yalnız bilik və təlimlə deyil, həm də fərdin daxili psixoloji prosesləri və həyat təcrübəsi ilə bağlıdır.

Daxili konfliktlərin və motivlərin idarə olunması da psixodinamik yanaşmanın vacib aspektidir. Fərd müxtəlif qoruyucu mexanizmlər vasitəsilə daxili gərginliyi azaldır və emosional tarazlığı qoruyur. Bu mexanizmlər fərdin davranışlarını, emosiyalarını və şəxsiyyət xüsusiyyətlərini formalaşdırır, onun sosial və şəxsi həyatına təsir göstərir. Qoruyucu mexanizmlər arasında repressiya, proyeksiya, rasionalizasiya və digər üsullar daxildir.

Psixodinamik yanaşma şəxsiyyətin yalnız fərdi səviyyədə deyil, sosial və ətraf mühitlə qarşılıqlı əlaqələrində də təzahür etdiyini vurğulayır. Fərd sosial qruplarda özünü müəyyən edir, münasibətlər qurur və davranışlarını daxili motivləri ilə uzlaşdırır. Bu yanaşma, şəxsiyyətin çoxşaxəli və dinamik olduğunu, həm daxili, həm də xarici faktorlarla formalaşdığını göstərir (Həsənov, 2020).

Beləliklə, psixodinamik yanaşma şəxsiyyətin mahiyyətini onun daxili konfliktləri, motivləri, qoruyucu mexanizmləri və struktural elementləri vasitəsilə anlamağa imkan verir. Bu nəzəri çərçivə fərdin davranışlarının, emosional reaksiyalarının və sosial münasibətlərinin dərin təhlilini təmin edir. Şəxsiyyət yalnız müşahidə olunan davranışlarla deyil, həm də daxili psixoloji proseslərin anlaşılması ilə tam şəkildə başa düşülə bilər (Hüseynov, 2018).

Psixodinamik yanaşmanın təhlili göstərir ki, şəxsiyyət yalnız xarici davranış və reaksiyalarla deyil, həm də daxili psixoloji proseslərin qarşılıqlı təsiri ilə formalaşır. Şəxsiyyətin mahiyyəti onun dinamik, kompleks və çoxşaxəli təbiətindədir. İnsan davranışlarının motivasiyası, emosional reaksiyaları və qərarvermə prosesləri fərdin daxili ehtiyacları, istəkləri və şüursuz konfliktləri ilə birbaşa əlaqədardır. Bu yanaşma şəxsiyyətin struktur elementlərini – instinktiv, rasional və mənəvi komponentləri – fərd davranışlarının və qərarlarının əsas determinantları kimi qəbul edir (Hüseynov, 2018).

Liderlik, motivasiya və sosial uyğunlaşma kimi xüsusiyyətlər şəxsiyyətin struktur elementləri arasındakı qarşılıqlı təsir nəticəsində formalaşır. Daxili konfliktlərin və qoruyucu mexanizmlərin fəaliyyəti fərdin emosional tarazlığını təmin edir, sosial və şəxsi həyatında davranışların uyğunlaşmasına imkan yaradır. Bu yanaşma, şəxsiyyətin inkişafını mərhələlər üzrə izah edərək, erkən uşaqlıq təcrübələrinin və həyat hadisələrinin uzunmüddətli təsirini ön plana çıxarır.

## Nəticə

Psixodinamik yanaşma şəxsiyyətin yalnız fərdi deyil, sosial kontekstdə də nəzərdən keçirilməsinin vacibliyini vurğulayır. Fərd sosial qruplarda özünü müəyyən edir, ətraf mühitlə qarşılıqlı əlaqə qurur və davranışlarını daxili motivləri ilə uzlaşdırır. Bu, şəxsiyyətin həm daxili, həm də xarici faktorlarla formalaşdığını göstərir.

Nəticə olaraq, psixodinamik yanaşma şəxsiyyətin mahiyyətini və strukturunu başa düşmək üçün dərin və çoxölçülü perspektiv təqdim edir. Bu yanaşma şəxsiyyətin davranış, emosional reaksiyalar və sosial münasibətlərini anlamağa imkan verir, həmçinin, fərdin daxili dünyasını, motivlərini və konfliktlərini ətraflı təhlil etməyə şərait yaradır. Psixodinamik çərçivə fərdin inkişafına, tərbiyə prosesinə və psixoloji dəstək fəaliyyətlərinə elmi əsas təmin edir.

Beləliklə, psixodinamik yanaşma şəxsiyyətin çoxşaxəli və dinamik xarakterini ortaya qoyur, insanın daxili və xarici davranışlarını anlamaqda, həmçinin şəxsiyyətin inkişafına və psixoloji tarazlığın qorunmasına mühüm töhfə verir. Bu yanaşma həm elmi tədqiqatlarda, həm də praktik psixoloji və pedaqoji fəaliyyətlərdə geniş tətbiq imkanlarına malikdir.

## Ədəbiyyat

1. Adler, A. (1937). *Understanding Human Nature*. Faber & Faber.
2. Erikson, E. H. (1950). *Childhood and Society*. Norton.
3. Əliyeva, S. (2018). *Psixologiyada şəxsiyyətin formalaşması və inkişafı*. Təhsil Nəşriyyatı.
4. Əliyev, T. (2021). *Psixodinamik yanaşma və fərdi inkişaf strategiyaları*. Təhsil Nəşriyyatı.
5. Freud, S. (1923). *The Ego and the Id*. Hogarth Press.
6. Freud, S. (1900). *The Interpretation of Dreams*. Basic Books.
7. Gençtan, E. (2014). *Psikodinamik psikiyatri ve normal dışı davranışlar*.
8. Həsənov, R. (2020). *Psixodinamik nəzəriyyə və psixoloji praktikada tətbiqi*. Elm və Təhsil.
9. Hüseynov, V. (2018). *Fərd və sosial münasibətlər: psixodinamik yanaşma*. Maarif Nəşriyyatı.
10. Jung, C. G. (1964). *Man and His Symbols*. Dell Publishing.
11. Quliyeva, N. (2019). *Uşaqlarda emosional və sosial inkişaf: psixodinamik yanaşma*. Elm.
12. Məmmədov, A. (2017). *Şəxsiyyət və davranış psixologiyası*. Maarif Nəşriyyatı.
13. Rəhimova, L. (2016). *Psixoloji müdaxilələrdə şəxsiyyətin struktur analizi*. Elm və Təhsil.
14. Vaishali, S., Saini, S., & Vig, D. (2022). Association of defense mechanisms with anxiety, depression and stress among adolescents. *International Journal of Education & Management*, (12), 288–294.

Daxil oldu: 08.07.2025
Qəbul edildi: 14.10.2025

*Elmi Tədqiqat* Beynəlxalq Elmi Jurnal. 2025 / Cild: 5 Sayı: 10 / 69-72 ISSN: 3104-4670
*Scientific Research* International Scientific Journal. 2025 / Volume: 5 Issue: 10 / 69-72 e-ISSN: 2789-6919

DOI: https://doi.org/10.36719/2789-6919/50/69-72

**Sevda Tağıyeva**
Azərbaycan Dillər Universiteti
https://orcid.org/0009-0008-4734-2362
sevdatagiyeva804@gmail.com

# Heydər Əliyev siyasətində dövlətçilik prinsipləri və milli inkişaf modeli

## Xülasə

Məqalədə ümummilli lider Heydər Əliyevin dövlətçilik prinsipləri, milli inkişaf modeli və bu modelin Azərbaycan Respublikasının siyasi, iqtisadi, sosial və mənəvi həyatında oynadığı mühüm rol ətraflı şəkildə araşdırılır. Tədqiqatda Heydər Əliyev siyasətinin strateji mahiyyəti və onun çoxşaxəli təsir mexanizmləri elmi əsaslarla təhlil olunur. Müəllif qeyd edir ki, Heydər Əliyev dövlət idarəçiliyində milli maraqların qorunması, dövlət müstəqilliyinin dönməzliyinin təmin edilməsi və hüquqi, demokratik, dünyəvi dövlətin qurulması kimi fundamental prinsipləri əsas istiqamət kimi müəyyənləşdirmişdir.

Məqalədə Heydər Əliyevin milli ideologiyanın – azərbaycançılıq məfkurəsinin formalaşmasında rolu və bu ideologiyanın cəmiyyətin mənəvi birliyini, milli özünüdərkini və dövlətçilik təfəkkürünü möhkəmləndirən ideya əsasları kimi əhəmiyyəti elmi baxımdan izah edilir. Nəticə etibarilə, Heydər Əliyevin siyasi irsi Azərbaycanın müasir inkişaf modelinin təməl daşı kimi təqdim olunur, onun dövlətçilik konsepsiyasının bu gün də ölkənin strateji kursunu müəyyən edən əsas ideoloji baza kimi aktuallığını qoruduğu qənaətinə gəlinir. Bu baxımdan məqalə mühüm əhəmiyyət daşıyır, xüsusi əhəmiyyət kəsb edir.

***Açar sözlər:*** *Heydər Əliyev, dövlətçilik, milli inkişaf, strategiya, ideologiya, müstəqillik*

**Sevda Taghiyeva**
Azerbaijan University of Languages
https://orcid.org/0009-0008-4734-2362
sevdatagiyeva804@gmail.com

# Statehood Principles and the National Development Model in Heydar Aliyev's Policy

## Abstract

The article thoroughly examines the principles of statehood, the national development model of the national leader Heydar Aliyev, and the crucial role this model has played in the political, economic, social, and moral life of the Republic of Azerbaijan. The study scientifically analyzes the strategic essence of Heydar Aliyev's policy and its multifaceted mechanisms of influence. The author emphasizes that in state governance, Heydar Aliyev identified the protection of national interests, the irreversibility of state independence, and the establishment of a legal, democratic, and secular state as the main guiding principles.

The article also explains, from a scholarly perspective, Heydar Aliyev's role in the formation of the national ideology — the concept of Azerbaijanism — and the importance of this ideology as a foundational idea that strengthens the moral unity of society, national self-awareness, and statehood consciousness. Consequently, Heydar Aliyev's political legacy is presented as the cornerstone of Azerbaijan's modern development model, and it is concluded that his concept of statehood continues to serve as the main ideological foundation shaping the country's strategic course today.

***Keywords:*** *Heydar Aliyev, statehood, national development, strategy, ideology, independence*

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0) 

## Giriş

Heydər Əliyevin dövlətçilik konsepsiyası milli suverenliyin qorunması və dövlətin dayanıqlı inkişafının təmin edilməsinə əsaslanır. Onun siyasətində dövlət anlayışı yalnız inzibati sistem deyil, həm də milli ideya, xalqın mənəvi birliyi və siyasi iradəsinin ifadəsidir. Heydər Əliyev qeyd edirdi ki, "Dövlət müstəqilliyi xalqın ən böyük sərvətidir, onu qorumaq hər bir vətəndaşın borcudur". Bu prinsip onun rəhbərlik fəaliyyətinin əsasını təşkil etmişdir. O, milli dövlətin qurulmasında hüquqi dövlət konsepsiyasını prioritet sayır, qanunun aliliyini və idarəetmədə şəffaflığı təmin edən mexanizmlər yaratmışdır.

Müstəqillik dövründə Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilən 1995-ci il Konstitusiyası demokratik, hüquqi və dünyəvi dövlətin ideya əsasını müəyyənləşdirmiş, dövlətin struktur və idarəçilik mexanizmini formalaşdırmışdır. Dövlət idarəetməsində milli maraqların qorunması, beynəlxalq münasibətlərdə bərabərlik və tərəfdaşlıq siyasəti bu konsepsiyanın başlıca istiqamətləridir.

**Tədqiqat**

Heydər Əliyevin dövlətçilik fəlsəfəsində əsas prinsip "güclü dövlət – güclü xalq" ideyası olmuşdur. O, daim vurğulayırdı ki, "Dövlət müstəqilliyi xalqın ən böyük sərvətidir, onu qorumaq hər bir vətəndaşın borcudur". Bu fikir onun rəhbərlik fəaliyyətinin ideya bünövrəsini təşkil etmişdir. Heydər Əliyev müstəqil Azərbaycanın inkişafını yalnız hüquqi və demokratik əsaslar üzərində mümkün sayırdı. O, dövlət quruculuğunda hüquqi dövlət konsepsiyasını prioritet istiqamət kimi qəbul etmiş, qanunun aliliyini, insan hüquq və azadlıqlarının təmin olunmasını, idarəetmədə şəffaflıq və məsuliyyət mexanizmlərinin yaradılmasını mühüm vəzifə kimi qarşıya qoymuşdur (Quliyev, 2001).

Heydər Əliyevin konsepsiyasında dövlət idarəetməsinin mühüm istiqamətlərindən biri milli maraqların qorunması və milli təhlükəsizliyin təmin edilməsidir. O, Azərbaycanın beynəlxalq münasibətlərdə müstəqil, bərabərhüquqlu və etibarlı tərəfdaş kimi çıxış etməsini vacib sayırdı. Xarici siyasətdə balanslı, praqmatik və milli maraqlara əsaslanan kursun həyata keçirilməsi sayəsində ölkə beynəlxalq arenada nüfuz qazandı, regional sabitliyin təminatında mühüm rol oynamağa başladı (Həsənov, 2004).

Heydər Əliyevin dövlətçilik konsepsiyası milli ideologiya, hüquqi dövlət və müasir idarəetmə prinsiplərinin sintezi üzərində qurulmuşdur. Onun siyasi irsi bu gün də Azərbaycanın dövlətçilik ənənələrinin qorunması, milli suverenliyin möhkəmləndirilməsi və sosial-siyasi sabitliyin təmin edilməsində mühüm nəzəri və praktik əhəmiyyət daşıyır.

Heydər Əliyev tərəfindən işlənmiş milli inkişaf modeli dərin strateji təfəkkürün, uzaqgörən siyasi zəkanın və dövlətçilik təcrübəsinin nəticəsi idi. Bu model Azərbaycan dövlətinin müstəqilliyini möhkəmləndirmək, onun iqtisadi, sosial və mənəvi dayaqlarını gücləndirmək məqsədi daşıyırdı. Heydər Əliyev anlayırdı ki, milli inkişaf yalnız bir istiqamətdə deyil, bütün sahələrin qarşılıqlı əlaqəsi və tarazlığı əsasında mümkündür (Yıldırım, 2018).

Heydər Əliyev iqtisadi müstəqilliyi dövlət suverenliyinin əsası hesab edirdi. O, neft sənayesinin dirçəldilməsi və beynəlxalq əməkdaşlıq vasitəsilə ölkəyə güclü iqtisadi potensial qazandırmaq məqsədi güdürdü. "Əsrin müqaviləsi"nin imzalanması bu strategiyanın parlaq təzahürü idi. Bu müqavilə sayəsində Azərbaycanın enerji resursları qlobal iqtisadi sistemə inteqrasiya olundu, ölkəyə xarici sərmayələr cəlb edildi və yeni iqtisadi infrastruktur formalaşdı. İqtisadiyyatın neft sektorundan əldə olunan gəlirləri isə qeyri-neft sahələrinin inkişafına yönəldilərək ümumi milli iqtisadi sistemin dayanıqlığı təmin edildi (Əliyev, 2001).

Heydər Əliyev üçün milli inkişafın əsas məqsədi insan amilinin qorunması və vətəndaşların rifahının yaxşılaşdırılması idi. O, sosial siyasətdə əhalinin həyat səviyyəsinin yüksəldilməsini, yoxsulluğun azaldılmasını, təhsil və səhiyyə sistemlərinin müasirləşdirilməsini prioritet sayırdı. Bu məqsədlə sosial proqramlar qəbul edildi, əmək bazarının tənzimlənməsi, pensiya və sosial müdafiə sisteminin təkmilləşdirilməsi istiqamətində ardıcıl islahatlar aparıldı. Heydər Əliyev vurğulayırdı ki, iqtisadi inkişafın mənası yalnız rəqəmlərdə deyil, insanın layiqli həyat şəraitində əks olunmalıdır.

Milli inkişaf modelinin ən mühüm dayaqlarından biri milli-mənəvi dəyərlərin qorunması və inkişaf etdirilməsi idi. Heydər Əliyev milli ideologiyanın əsasında Azərbaycançılıq məfkurəsini

qoydu. Bu ideya xalqın birliyini, dilini, mədəniyyətini və tarixi irsini qorumaqla yanaşı, vətəndaş həmrəyliyini də gücləndirirdi. O, mənəvi inkişafı dövlətin siyasi sabitliyinin mühüm elementi kimi qiymətləndirirdi. Təhsil, elm və mədəniyyət sahələrində islahatlar aparılaraq gənc nəslin milli ruhda tərbiyəsi təmin olundu (Əliyev, 1997).

Heydər Əliyev dövlət idarəçiliyini sistemli, mərhələli və elmi əsaslarla həyata keçirən dahi dövlət xadimi idi. Onun rəhbərliyi ilə formalaşan idarəetmə modeli müasir dövlətçilik anlayışına uyğun olaraq düşünülmüş, məqsədyönlü və strateji xarakter daşıyırdı. Heydər Əliyev islahatları yalnız formal dəyişikliklər kimi deyil, cəmiyyətin dərin qatlarında gedən sosial-siyasi prosesləri nəzərə almaqla, "təkamül yolu ilə inkişaf" prinsipi əsasında həyata keçirirdi. Bu prinsip onun siyasətinin əsas fəlsəfəsini təşkil edir və sabitlik, ardıcıllıq, planlılıq kimi meyarları özündə birləşdirirdi (Əliyev, 1998).

Dövlət aparatında peşəkarlığın artırılması, idarəetmədə şəffaflığın təmin olunması, vətəndaş məsuliyyətinin yüksəldilməsi və kadr siyasətində səriştəliliyin önə çəkilməsi Heydər Əliyev dövrünün əsas idarəetmə istiqamətləri idi. O, hesab edirdi ki, dövlət idarəçiliyində əsas qüvvə savadlı, vətənpərvər və məsuliyyətli kadrlardır. Buna görə də, dövlət qurumlarında çalışan şəxslərin peşə bacarıqlarının təkmilləşdirilməsi, gənc mütəxəssislərin dövlət idarəçiliyinə cəlb olunması və kadr seçimində şəffaflıq prinsiplərinə əməl edilməsi daim diqqət mərkəzində idi (Əliyev, 2003).

Heydər Əliyev islahatları yalnız iqtisadi və inzibati sahələrlə məhdudlaşmırdı. Onun rəhbərliyi ilə təhsil, ordu quruculuğu, mədəniyyət və diplomatiya kimi strateji sahələrdə aparılan dərin dəyişikliklər milli dövlətçiliyin sütunlarını daha da möhkəmləndirdi. Təhsil sahəsində həyata keçirilən islahatlar intellektual potensialın inkişafına, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsinə və müasir elmi biliklərin mənimsənilməsinə xidmət edirdi.

Ordu quruculuğu sahəsində Heydər Əliyev dövlətin təhlükəsizliyini təmin edən əsas dayağı – vahid milli ordunu formalaşdırmağa nail oldu. Onun uzaqgörən siyasəti nəticəsində ordu təkcə hərbi qüvvə deyil, həm də milli ruhun, müstəqilliyin və dövlət suverenliyinin simvoluna çevrildi. Müasir silahlanma, nizam-intizam, vətənpərvərlik və döyüş hazırlığı prinsipləri üzərində qurulan Azərbaycan ordusu regionda güclü hərbi qüvvəyə çevrildi.

Diplomatiya sahəsində isə Heydər Əliyev balanslaşdırılmış, praqmatik və çoxvektorlu xarici siyasət yürüdürdü. Onun məqsədi Azərbaycanın milli maraqlarını qorumaq, beynəlxalq aləmdə ölkənin nüfuzunu artırmaq və dayanıqlı əməkdaşlıq münasibətləri qurmaq idi. Bu siyasət nəticəsində Azərbaycan həm region dövlətləri, həm də beynəlxalq təşkilatlarla səmərəli əlaqələr qurdu, ölkənin geosiyasi mövqeyi gücləndi. Heydər Əliyevin dövlət idarəçiliyi modeli yalnız bir dövrün idarəetmə təcrübəsi deyil, həm də müasir Azərbaycan dövlətçiliyinin təməlini təşkil edən strateji konsepsiyadır. Onun tətbiq etdiyi prinsiplər – sabitlik, ardıcıllıq, səriştəlilik və milli maraqlara sədaqət bu gün də Azərbaycan Respublikasının inkişaf yolunu müəyyən edən əsas ideoloji dayaqlardan biri kimi qalmaqdadır (Əliyev, 1995).

Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyası bu gün də Azərbaycan Respublikasının dövlət siyasətinin ideoloji və praktiki əsasını təşkil edir. Ulu Öndərin yaratdığı dövlət idarəçiliyi modeli müstəqil Azərbaycanın sabit, təhlükəsiz və dayanıqlı inkişafının təminatına çevrilmişdir. Onun müəyyən etdiyi "milli maraqlar – güclü dövlət – dinamik iqtisadiyyat – sosial rifah" formulu yalnız bir siyasi konsepsiya deyil, həm də xalqın rifahı, milli kimliyin qorunması və müasir dövlət quruculuğunun ideoloji istiqamətini müəyyənləşdirən strateji xətt kimi qəbul olunur (Məmmədov, 2002). Dinamik iqtisadiyyat prinsipi iqtisadi islahatların ardıcıl aparılması, bazar iqtisadiyyatına keçidin mərhələli şəkildə reallaşdırılması və strateji resurslardan səmərəli istifadəni nəzərdə tuturdu. Sosial rifah komponenti isə vətəndaşın həyat səviyyəsinin yüksəldilməsi, sosial ədalətin və bərabər imkanların təmin olunması kimi məqsədlərə xidmət edirdi (Əliyev, 1994).

Heydər Əliyev siyasətinin universal və zamanadavamlı xarakter daşıması təsadüfi deyil. Onun dövlətçilik prinsipləri Azərbaycan cəmiyyətinin siyasi sabitliyinin, sosial həmrəyliyinin və iqtisadi tərəqqisinin əsasında dayanmaqla, bu gün də ölkənin strateji inkişafının ideoloji bünövrəsini təşkil edir. Ulu Öndərin müəyyən etdiyi konseptual yanaşmalar milli dövlətçiliyin gələcək nəsillər üçün də etibarlı istiqamət göstəricisi kimi qalmaqdadır.

## Nəticə

Heydər Əliyev siyasəti Azərbaycan dövlətçiliyinin ideya və praktik əsaslarını yaratmaqla yanaşı, milli inkişafın davamlı, elmi və strateji modelini formalaşdırmışdır. O, ölkənin siyasi, iqtisadi və mədəni inkişafını vahid bir sistem daxilində düşünərək, müasir dövlət idarəçiliyi prinsiplərini milli mentalitetlə uzlaşdırmışdır. Heydər Əliyevin dövlətçilik fəlsəfəsi milli maraqların qorunması, xalqın rifahının təmin olunması, hüquqi və demokratik cəmiyyətin qurulması kimi əsas ideyalar üzərində qurulmuşdur.

Heydər Əliyevin dövlətçilik prinsipləri – müstəqillik, qanunun aliliyi, milli maraqlara sadiqlik, modern idarəetmə və xalqla birliyin qorunması bu gün də Azərbaycan Respublikasının uğurlu inkişaf kursunun təməlini təşkil edir. Onun müəyyən etdiyi strateji xətt sonrakı dövrdə də ölkənin sosial-iqtisadi və siyasi həyatında sabitlik və inkişafın əsas təminatına çevrilmişdir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası Prezidentinin rəsmi materialları (1993–2003). *Heydər Əliyev arxiv sənədləri*. Prezident Administrasiyası Nəşriyyatı.
2. Əliyev, H. (1994). *Milli maraqlar və xarici siyasət*. Elm və Təhsil.
3. Əliyev, H. (1995). *İqtisadi islahatlar və milli inkişaf strategiyası*. Azərbaycan Nəşriyyatı.
4. Əliyev, H. (1997). *Azərbaycanın inkişaf modeli: tarix və perspektivlər*. Maarif Nəşriyyatı.
5. Əliyev, H. (1998). *Azərbaycan Respublikasının müstəqillik siyasəti və dövlətçilik prinsipləri*. Nurlan Nəşriyyatı.
6. Əliyev, H. (2000). *Milli dövlətçilik və idarəetmə*. Azərbaycan Dövlət Nəşriyyatı.
7. Əliyev, H. (2001). *Dövlətçilik və milli inkişaf strategiyası*. Elm Nəşriyyatı.
8. Əliyev, H. (2003). *Müstəqillik və hüquqi dövlət quruculuğu*. Elm və Təhsil.
9. Həsənov, Ə. (2004). *Heydər Əliyev ideyaları və müasir dövlət idarəçiliyi*. Azərnəşr.
10. Məmmədov, R. (2002). *Heydər Əliyev və müasir Azərbaycan dövlətçiliyi*. Qanun Nəşriyyatı.
11. Quliyev, F. (2001). *Azərbaycanın siyasi inkişaf modeli: Heydər Əliyev dövrü*. Lider Nəşriyyatı.
12. Yıldırım, G. S. (2018). Kanada'da çokkültürcülüğün ortaya çıkış nedenleri. *Karabük Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi*, 8(1), 22–42.

Daxil oldu: 05.06.2025
Qəbul edildi: 29.09.2025

DOI: https://doi.org/10.36719/2789-6919/50/73-76

**Fidan Məmmədova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcıd.org/0009-0002-4935-0645
fa.mammadova@adpu.edu.az

# Öz əsrinin ayinəyi-həqiqət nüması – Seyid Əzim Şirvani

## Xülasə

Məqalədə XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, maarifçi şair və pedaqoq Seyid Əzim Şirvaninin həyat və yaradıcılığı geniş elmi-nəzəri baxımdan araşdırılmışdır. Şairin yaradıcılıq irsi ictimai-siyasi və mədəni mühitlə qarşılıqlı əlaqədə öyrənilmiş, onun ədəbi fəaliyyətinin həm milli, həm də ümumbəşəri dəyərlər kontekstində əhəmiyyəti ortaya qoyulmuşdur. Tədqiqatda Seyid Əzim Şirvaninin poeziyası üç əsas istiqamətdə təhlil olunmuşdur: klassik poeziya ənənələrinin davam etdirilməsi, maarifçi-satirik lirikanın inkişafı və əxlaqi-didaktik məzmunun gücləndirilməsi. Məqalədə Seyid Əzimin "Əkinçi" qəzeti ilə əlaqələri, bu qəzetdə dərc etdirdiyi əsərləri və milli maarifçilik hərəkatındakı rolu araşdırılmışdır. Aparılan təhlillər nəticəsində belə qənaətə gəlinmişdir ki, Seyid Əzim Şirvani yalnız klassik poeziya ənənələrinin davamçısı deyil, həm də Azərbaycan maarifçi realizminin qurucularından biridir.

***Açar sözlər:*** *Seyid Əzim Şirvani, XIX əsr Azərbaycan ədəbiyyatı, maarifçilik, realizm, satira, pedaqoji fəaliyyət*

**Fidan Mammadova**
Azerbaijan State Pedagogical University
https://orcıd.org/0009-0002-4935-0645
fa.mammadova@adpu.edu.az

# The Mirror of His Age-the Image of Truth — Seyid Azim Shirvani

## Abstract

The article provides a comprehensive study of the life and creative work of Seyid Azim Shirvani, a prominent figure of nineteenth-century Azerbaijani literature, enlightener, poet, and pedagogue. His literary heritage is examined in the context of the socio-political and cultural environment of the period, with emphasis on its significance both for national literature and for universal human values. The research analyzes Shirvani's poetry in three major directions: the continuation of classical poetic traditions, the development of enlightenment-oriented satire, and the strengthening of moral-didactic themes. The study also explores Shirvani's connection with the newspaper *Ekinchi*, his publications, and his role in the national enlightenment movement. Thus, Seyid Azim's poetry is shown to combine aesthetic value with the function of promoting enlightenment ideals. The analysis confirms that Seyid Azim Shirvani was not only a continuer of classical traditions but also one of the founders of Azerbaijani enlightenment realism.

***Keywords:*** *Seyid Azim Shirvani, nineteenth-century Azerbaijani literature, enlightenment, realism, satire, pedagogical activity*

## Giriş

XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Seyid Əzim Şirvani yaradıcılığı ilə maarifçilik ideyalarının genişlənməsinə və milli oyanış proseslərinin güclənməsinə mühüm təsir göstərmişdir. Onun poetik və publisistik fəaliyyəti yalnız bədii-estetik baxımdan deyil, həm də ictimai-siyasi məzmunu ilə diqqət çəkmişdir. Seyid Əzim öz əsrinin "ayinəsi" olaraq dövrün

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0) 

sosial, mədəni və mənəvi problemlərini poeziya vasitəsilə əks etdirmiş, həqiqətin və ədalətin carçısına çevrilmişdir (Bağırov, 1956, s. 45; Hüseynov, 1977, s. 112). Azərbaycan maarifçiliyinin təşəkkülündə xüsusi rol oynayan "Əkinçi" qəzeti də Seyid Əzim Şirvaninin ideya-estetik dünyagörüşü ilə səsləşirdi. Qəzetin səhifələrində yer alan yazılar ictimai fikrin formalaşmasına və xalq arasında maarifçi düşüncələrin yayılmasına güclü təsir göstərmişdir ("Əkinçi", 1977, s. 2). Bu baxımdan Şirvani həm klassik poeziya ənənələrinin daşıyıcısı, həm də yeni dövrün maarifçi şairi kimi çıxış edirdi (Əliyev, 1985, s. 101; Əsgərli, 2005, s. 27).

Ədəbiyyatşünaslıqda Seyid Əzimin irsi müxtəlif istiqamətlərdə araşdırılmışdır. Bağırovun monoqrafiyası (Bağırov, 1956, s. 67) onun həyat və yaradıcılığını ətraflı işıqlandırmış, Hüseynov isə Şirvaninin poetik irsini dövrün ictimai mühiti ilə əlaqələndirərək tədqiq etmişdir (Hüseynov, 1977, s. 145). H.Əhmədov (Əhmədov, 2002, s. 214) və F.Qasımzadə (Qasımzadə, 1956, s. 205) isə XIX əsr Azərbaycan ədəbiyyatı tarixi kontekstində Şirvaninin rolunu xüsusi vurğulamışlar. F.Köçərlinin "Azərbaycan ədəbiyyatı tarixi materialları" əsəri isə həmin dövrün ümumi mənzərəsini təqdim etməklə yanaşı, Seyid Əzim yaradıcılığını xalq maarifçiliyinin ayrılmaz hissəsi kimi qiymətləndirmişdir (Köçərli, 1926, s. 98). Seyid Əzim Şirvani yaradıcılığının əhəmiyyəti təkcə ədəbiyyat tarixində deyil, həm də mədəniyyət və maarifçilik tarixində xüsusi yer tutur. Onun poeziyasında realist ənənələrin güclənməsi, ictimai problemlərə açıq münasibət və xalqın təhsilinə çağırış motivləri geniş şəkildə ifadə olunmuşdur (Hacıyev, 1990, s. 130; Məmmədov, 1960, s. 77). Bütün bunlar Şirvanini yalnız bir şair kimi deyil, həm də milli oyanışın ideoloqlarından biri kimi dəyərləndirməyə imkan verir.

Beləliklə, təqdim olunan tədqiqatın məqsədi Seyid Əzim Şirvani yaradıcılığını ədəbiyyatşünaslıq müstəvisində sistemli şəkildə araşdırmaq, onun poetik irsini ictimai-siyasi mühitlə əlaqələndirmək və maarifçilik ideyalarının formalaşmasındakı rolunu elmi əsaslarla ortaya qoymaqdır.

**Tədqiqat**

*XIX əsr Azərbaycan ədəbiyyatında maarifçilik ideyalarının nəzəri əsasları.* Maarifçi ədəbiyyatın ideoloji əsasını insan azadlığı, ictimai bərabərlik, əməksevərlik, elm və bilik təbliği təşkil edirdi. Ədəbiyyat yalnız estetik zövq yaratmaq üçün deyil, həm də maarifçilik ideyalarının cəmiyyətə çatdırılması üçün güclü vasitə idi. Həsən bəy Zərdabinin təsis etdiyi "Əkinçi" qəzeti bu baxımdan bir məktəb rolunu oynamış, onun səhifələrində dərc olunan məqalə və şeirlər milli oyanışa təkan vermişdir. Zərdabinin yazılarında kəndliləri elmə və savada dəvət etməsi, avamlıq və mövhumatla mübarizəsi, Seyid Əzim Şirvani kimi şairlərin poeziyası ilə səsləşərək ümummilli maarifçilik hərəkatını gücləndirmişdir (Köçərli, 1926, s. 126). Seyid Əzim Şirvani bu ideyaların öncüllərindən olmuşdur. O, yaradıcılığında elmə, savada, əxlaqa və insan azadlığına xüsusi yer vermiş, poeziyanı xalqın maariflənməsi üçün tribuna kimi istifadə etmişdir. Şirvani şeirlərində tənbəlliyi, savadsızlığı və mövhumatı sərt tənqid etmiş, gəncləri elm və sənətə yiyələnməyə çağırmışdır. Onun "Rəbiətül-ətfal" əsərində məktəbə, təhsilə və tərbiyəyə çağırış milli maarifçiliyin proqram xarakterli nümunəsi hesab olunur.

*Seyid Əzim Şirvaninin poetik irsi.* Seyid Əzim Şirvani XIX əsr Azərbaycan ədəbiyyatında həm klassik şair, həm də maarifçi ziyalı kimi xüsusi mövqe tutmuşdur. Onun poetik irsi məzmun və forma baxımından zəngin olub, həm klassik poeziya ənənələrinə söykənmiş, həm də dövrün maarifçi-ictimai tələblərinə cavab vermişdir. Ədəbiyyat tarixində Seyid Əzim klassik ənənələrin daşıyıcısı olmaqla yanaşı, realist və maarifçi ideyaların öncül ifadəçilərindən biri kimi tanınır. Şirvaninin poeziyası ilk növbədə klassik Şərq poeziya məktəbinə bağlılığı ilə seçilir. Onun qəzəl, qəsidə, rübai və müxəmməslərində lirizmin, poetik ahəngin və bədii ifadə vasitələrinin zənginliyi özünü göstərir. Şairin məhəbbət mövzulu qəzəllərində saf və ülvi hisslərin tərənnümü əsas mövqe tutur. Bu əsərlərdə məhəbbət yalnız fərdi hiss kimi deyil, insanı mənən saflaşdıran, ucaldan və kamilləşdirən bir amil kimi təqdim olunur. Bu baxımdan, Seyid Əzimin lirikasında Füzuli məktəbinin təsiri aydın sezilir. Lakin o bu təsiri kor-koranə təkrar etmir, öz dövrünün ictimai tələblərinə uyğun şəkildə yeni məzmun qatır.

Seyid Əzim Şirvani yaradıcılığının mühüm bir hissəsini satirik və didaktik əsərlər təşkil edir. Şair poeziyanı yalnız estetik zövq üçün deyil, həm də maarifçilik ideyalarının təbliği üçün istifadə

etmişdir. O, avamlığı, mövhumatı, savadsızlığı, təbəqələşməni kəskin tənqid edərək xalqı elmə, savada və tərəqqiyə çağırmışdır (Əsgərli, 2005, s. 27; Hacıyev, 1990, s. 130). Xüsusilə "Əkinçi" qəzetində dərc olunan şeirlərində şairin maarifçi baxışları daha qabarıq şəkildə ifadə olunur. Burada Seyid Əzim cəmiyyətin geriliyinin əsas səbəbini savadsızlıqda görmüş, məktəb və təhsili inkişafın yeganə yolu hesab etmişdir. Satirik poeziyasında Seyid Əzim tənqidi realizm ənənələrini inkişaf etdirmişdir. Onun şeirlərində molla obrazı, avam xalqı aldatmağa çalışan nadan ruhanilər, ictimai bərabərsizlik və feodal münasibətlər kəskin satira hədəfinə çevrilmişdir (Hüseynov, 1977, s. 145). Bu əsərlər həm yumor, həm də istehza ilə zəngin olub oxucunu düşündürməklə yanaşı, maariflənməyə sövq edirdi. Beləliklə, Seyid Əzim poeziyanın ictimai funksiyasını gücləndirmiş, şeir vasitəsilə xalqın maarifləndirilməsinə xidmət etmişdir.

Şairin poeziyasında əxlaqi-didaktik mövzular xüsusi yer tutur. Onun "Rəbiətül-ətfal" əsəri bu baxımdan proqram xarakterli nümunə hesab edilir. Əsərdə gənclərə elm və sənət öyrənmək, tənbəllikdən uzaq olmaq, vətənə bağlılıq və əxlaqi saflığı qorumaq tövsiyə olunur (Məmmədov, 1960, s. 77). Seyid Əzimin təmsillərində də insanın düzgün tərbiyəsinə, əxlaqi keyfiyyətlərin formalaşmasına diqqət yetirilmişdir. Bu əsərlər həm uşaqların, həm də böyüklərin mənəvi inkişafı üçün nəzərdə tutulmuş didaktik mətnlərdir (Əliyev, 1981, s. 101).

*Ədəbi-tənqiddə və ədəbiyyatşünaslıqda Seyid Əzim Şirvaninin nəzəri qiymətləndirilməsi.* Ədəbiyyatşünaslıqda Seyid Əzimin irsi həm fərdi şəkildə, həm də XIX əsr Azərbaycan ədəbiyyatının ümumi inkişaf kontekstində araşdırılmışdır. Əhmədovun "Azərbaycan ədəbiyyatı tarixi (XIX əsr)" əsərində (Əhmədov, 2002, s. 214) Seyid Əzim klassik ədəbiyyatla maarifçilik hərəkatı arasında körpü funksiyası yerinə yetirən bir sənətkar kimi təqdim olunur. Müəllif qeyd edir ki, şairin satirik lirikasında sosial tənqid və əxlaqi-didaktik mövzular əsas ideya xəttini təşkil edir. Qasımzadə də "XIX əsr Azərbaycan ədəbiyyatı tarixi" əsərində (Qasımzadə, 1960, s. 205). Seyid Əzim yaradıcılığını realist poeziyanın təşəkkülündə mühüm mərhələ kimi dəyərləndirir. Onun fikrincə, Seyid Əzim klassik poeziyanın forma mükəmməlliyini, xalqın sosial həyatını əks etdirən realist motivlərlə birləşdirərək yeni bir ədəbi mərhələnin əsasını qoymuşdur.

Ədəbi-tənqidi araşdırmalar Seyid Əzimin həm forma, həm də məzmun baxımından yüksək sənətkarlığa malik olduğunu təsdiqləyir. Onun lirikasında qəzəl, qəsidə, rübai və müxəmməs janrlarının klassik ənənələri qorunmaqla yanaşı, satirik və maarifçi motivlər də güclü şəkildə ifadə olunmuşdur (Rüstəmov, 1974, s. 85). Bu xüsusiyyət Seyid Əzimi həm klassik poeziyanın davamçısı, həm də yeni dövrün ədəbi-fəlsəfi tələblərinə cavab verən bir sənətkar kimi təqdim etməyə imkan verir.

**Cədvəl 1. Tarixi-mənbəşünaslıq yanaşmanın mərhələləri.**

| **Mərhələ** | **Məzmun** | **Mənbələr** |
|---|---|---|
| Həyat yolunun öyrənilməsi | Təhsil, müəllimlik və maarifçilik fəaliyyəti | (Bağırov, 1956; Məmmədov, 1960) |
| Əsərlərin nəşr tarixi | Qəzet və kitab nəşrləri | ("Əkinçi", 1977; Köçərli, 1926) |
| Dövrün ictimai konteksti | Maarifçilik hərəkatı, milli oyanış | (Əhmədov, 2002; Qasımzadə, 1956) |

Şairin poeziyası həm klassik Şərq poeziya ənənələri, həm də Avropa maarifçiliyinin təsiri fonunda müqayisəli təhlil edilmişdir. Burada əsas məqsəd Seyid Əzimin Füzuli ədəbi məktəbinin davamçısı olmaqla yanaşı, yeni realist ideyaların daşıyıcısı kimi göstərilməsidir.

**Cədvəl 2. Müqayisəli təhlil istiqamətləri.**

| **İstiqamət** | **Klassik ənənələr** | **Yeni dövrün xüsusiyyətləri** |
|---|---|---|
| Poetika | Qəzəl, qəsidə formaları | Satirik və didaktik şeirlər |
| İdeya məzmunu | Məhəbbət, lirizm | Maarifçilik, ictimai tənqid |
| Ədəbi təsir | Füzuli məktəbi | Avropa maarifçiləri (Axundov təsiri) |

Şairin əsərləri poetik struktur, ideya və janr müxtəlifliyi baxımından araşdırılmışdır. Bu yanaşma Seyid Əzim yaradıcılığının həm milli ədəbiyyatda, həm də ümumbəşəri kontekstdə əhəmiyyətini ortaya qoymuşdur.

**Cədvəl 3. Ədəbi-tənqidi yanaşmanın əsas istiqamətləri.**

| İstiqamət | Təhlil obyekti | Nəticə |
|---|---|---|
| Poetika | Qəzəl, qəsidə, rübai | Klassik ənənənin davamı |
| Satira | Sosial tənqid, mövhumatla mübarizə | Maarifçi ideyaların güclənməsi |
| Didaktika | "Rəbiətül-ətfal", nəsihət şeirləri | Təhsil və əxlaq məsələlərinin önəmi |

## Nəticə

Seyid Əzim Şirvani XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, maarifçi şair və pedaqoqu kimi milli mədəniyyət tariximizdə əvəzsiz rol oynamışdır. Onun zəngin poetik irsi həm klassik Şərq poeziyasının ənənələrini, həm də yeni dövrün maarifçi realizm ideyalarını özündə birləşdirir. Şairin qəzəl və qəsidələrində lirizm və poetik ahəng üstünlük təşkil etdiyi halda, satirik və didaktik əsərlərində cəmiyyətin geriliyi, mövhumat, savadsızlıq və sosial ədalətsizlik sərt şəkildə tənqid olunmuşdur.

Ədəbi-tənqid və ədəbiyyatşünaslıq Seyid Əzimi haqlı olaraq "öz əsrinin ayinəyi – həqiqət nüması" adlandırır. Bu dəyərləndirmə təsdiqləyir ki, o, dövrünün ictimai-mədəni həyatının güzgüsü, milli maarifçilik hərəkatının ideya rəhbərlərindən biri olmuşdur. Şairin "Rəbiətül-ətfal" kimi əsərlərində xalqın maariflənməsi, əxlaqi kamilləşməsi və gənc nəslin tərbiyəsi əsas məqsəd kimi ön plana çəkilmişdir.

Beləliklə, Seyid Əzim Şirvani poeziyası bədii-estetik baxımdan zəngin, ideya-məzmun etibarilə isə dərin ictimai-fəlsəfi məna daşıyan bir irsdir. Bu irs Azərbaycan xalqının milli oyanışında, maarifçilik ideyalarının yayılmasında və realizmin formalaşmasında mühüm mərhələ təşkil etmişdir. Şairin əsərləri bu gün də öz aktuallığını qoruyub saxlayır və müasir ədəbiyyatşünaslıq üçün tükənməz tədqiqat mənbəyi olaraq qalır.

## Ədəbiyyat

1. Axundov, M.F. (1988). *Seçilmiş əsərlər (2 cilddə).* Yazıçı.
2. Bağırov, K. (1956). *Seyid Əzim Şirvani*. Uşaq-gənc nəşr.
3. Əhmədov, H. (2002). *Azərbaycan ədəbiyyatı tarixi (XIX əsr).* Elm.
4. Əliyev, M. (1981). *XIX əsr Azərbaycan maarifçiləri*. Maarif.
5. *"Əkinçi".* (1977). Elm nəşriyyatı.
6. Əsgərli, Z. (2005). *Seyid Əzim Şirvani*. Elm nəşriyyatı.
7. Hacıyev, Q. (1990). *Azərbaycan poeziyasında realizm ənənələri*. Elm.
8. Hüseynov, S. (1977). *Seyid Əzim Şirvaninin yaradıcılıq yolu*. Elm nəşriyyatı.
9. Köçərli, F. (1926). *Azərbaycan ədəbiyyatı tarixi materialları*. Azərnəşr.
10. Məmmədov, M. (1960). *Seyid Əzim Şirvaninin həyatı və yaradıcılığı*. Azərnəşr.
11. Qasımzadə, F. (1956). *XIX əsr Azərbaycan ədəbiyyatı tarixi*. ADU nəşriyyatı.
12. Rüstəmov, S. (1974). *S.Ə.Şirvani*. Elm nəşriyyatı.

Daxil oldu: 08.07.2025
Qəbul edildi: 11.10.2025

DOI: https://doi.org/10.36719/2789-6919/50/77-80

**Farhad Atakishiyev**
Institute of Oriental Studies named after Academician Ziya Bunyadov
PhD Student
https://orcid.org/0009-0006-2952-0386
atakishiyevfarhad@gmail.com

# Economic Analysis Models: Structural Analysis

## Abstract

This study examines the theoretical and methodological foundations of structural changes and structural shifts in the economy, emphasizing their dynamic and multidimensional character. It highlights that these concepts are often used interchangeably, though structural shifts typically precede structural changes and are linked to crises within economic systems. The research also explores cognitive and behavioural dimensions, showing how perception, decision-making, and organizational adaptation influence economic transformation. Furthermore, the study applies the Weber–Fechner law to determine the perceptibility threshold of structural shifts, integrating psychophysiological aspects into economic analysis. The findings suggest that structural shifts represent not only quantitative transformations but also qualitative and cognitive transitions shaping economic development.

***Keywords:*** *structural change, structural shift, economic structure, cognitive transformation, behavioural shift, Weber–Fechner law, sustainable development*

**Fərhad Atakişiyev**
Akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu
doktorant
https://orcid.org/0009-0006-2952-0386
atakishiyevfarhad@gmail.com

# İqtisadi təhlil modelləri: struktur təhlil

## Xülasə

Bu tədqiqat iqtisadiyyatda struktur dəyişikliklərin və struktur yerdəyişmələrin nəzəri və metodoloji əsaslarını araşdırır, onların dinamik və çoxölçülü xarakterini vurğulayır. İşdə göstərilir ki, bu anlayışlar çox vaxt bir-birinin sinonimi kimi istifadə olunsa da, struktur yerdəyişmələr, adətən, struktur dəyişikliklərdən əvvəl baş verir və iqtisadi sistemlərdə yaranan böhranlarla əlaqələndirilir. Tədqiqat, həmçinin, koqnitiv və davranış yönümlü ölçüləri təhlil edir, idrak, qərar qəbuletmə və təşkilati adaptasiyanın iqtisadi transformasiyaya necə təsir etdiyini nümayiş etdirir. Bundan əlavə, tədqiqat struktur yerdəyişmələrin hissedilmə həddini müəyyən etmək üçün Veber–Fexner qanununu tətbiq edir və psixofizioloji aspektləri iqtisadi təhlilə inteqrasiya edir. Nəticələr göstərir ki, struktur yerdəyişmələr təkcə kəmiyyət dəyişiklikləri deyil, həm də iqtisadi inkişafı formalaşdıran keyfiyyət və idrak transformasiyalarıdır.

***Açar sözlər:*** *struktur dəyişiklik, struktur yerdəyişmə, iqtisadi struktur, koqnitiv transformasiya, davranış yönümlü yerdəyişmə, Veber–Fexner qanunu, dayanıqlı inkişaf*

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Introduction

Numerous scholarly works have been devoted to the study of the structure of the economy at various historical stages of economic science (Barnes, 2001, p. 9). Structural analysis involves the division of a whole into its constituent parts. Such a decomposition of the studied object creates the initial conditions for managing the whole through its components.

In the study of socio-economic relations, methodological diversity is observed in the approaches to structuring objects. This can be partly explained by the fact that the decomposition of any object essentially represents the process of understanding and comprehending it. Many philosophers, including Plato and Aristotle, believed that concepts are the means of grasping the fundamental characteristics of objects. The separation of components, their characterization, and the description of their interrelations are considered one of the methods of generating new knowledge.

**Research**

Many researchers believe that the structure of socio-economic phenomena changes dynamically and has a cyclical nature. M.A.Hasanov notes that "the structural development of the economy is characterized by periodicity and self-organization" (Gasanov & Tyutyushev, 2012).

According to other scholars, however, it develops in a consistent and progressive manner (L.Abalkin, V.Avtonomov, A.Anchishkin, D.Kantorovich, S.Shatalin & Y.Yaremenko). In recent years, foreign literature has primarily examined structural changes in the context of sustainable development (Akinsola, Awosusi, Kirikkaleli, Umarbeyli, Adeshola & Adebayo, 2022), carbon emissions ($CO_2$) (Xu, Umar, Kirikkaleli, Adebayo & Altuntaş, 2022), and the ecological transformation of economies (Mbeva, Makomere, Atela, Chengo & Tonui, 2023; Pata & Yurtkuran, 2023). Researchers, particularly O.S.Sukharev (Sukharev, 2016), note that there is no universally accepted approach in the scientific literature regarding the concepts of "structural changes" and "structural shifts." According to certain definitions, a structural shift is understood as a process involving qualitatively changing interrelations among comparable elements of the macroeconomic system. This process encompasses the adaptation of key proportions of the socio-economic system to endogenous and exogenous changes, resulting from the unequal dynamics of their quantitative characteristics (Gasanov & Tyutyushev, 2012).

The development of economic activity and the uneven growth of individual regions and territories (Roshchina, n.d.) reveal the manifestation of structural changes both at the regional level and within the national economy. Against the backdrop of the increasing occurrence of such phenomena, the systematization of methodological approaches becomes particularly relevant. Such systematization makes it possible to preserve the conceptual integrity of economic analysis methods. A structural shift is a complex phenomenon whose boundaries, necessary and sufficient characteristics, and complete classification have not yet been clearly defined. Modern researchers generally interpret structural shifts as changes occurring at the sectoral (industry) level (Hasanov, Karimova, Shirov & Klimovich, et al.), and these changes are often studied within a regional context — in terms of their impact on the economic indicators of a specific region or territory.

Based on our analysis of the literature, it can be observed that researchers generally do not distinguish between structural changes and structural shifts, treating these concepts almost as synonyms. Nevertheless, the life cycle of structural changes has been at least partially explored by some scholars. M.A.Hasanov notes that "...the transformation of the economic structure occurs as a result of structural shifts. This process is preceded by a structural crisis, which arises from contradictions between the elements of the structure" (Gasanov, 2012).

Changes occurring in corporate culture, individual value orientations, the structure of needs, or at the level of an organization or an entire country can be viewed as cognitive structural shifts. In economic practice, these changes manifest themselves as investment-oriented or management-oriented structural shifts. Cognitive structural changes arise as a result of an individual's, enterprise's, region's, or country's critical awareness of trends in the external environment and directly influence the worldview of the economic agent as well as the process of economic decision-making (Shirov, 2016).

Significant changes in the behaviour of an individual, organization, or an entire country, in turn, can be considered behavioural structural shifts. These include fundamental transformations in areas such as approaches to resource management, methods of asset management, decision-making techniques, and supplier selection criteria, among others (Klimovich, 2021).

A quantitative criterion is proposed to determine the "significance" level of a structural shift. One form of such an assessment is an approach based on the laws of psychophysiological perception. This approach takes as its foundation how a human being — the primary economic agent and decision-maker — perceives changes.

The author's proposal involves the adaptation of the Weber–Fechner law, an empirical psychophysiological principle stating that the perceived intensity of a stimulus is proportional to the logarithm of its actual physical intensity. The key feature of this logarithmic relationship is that as the intensity of stimuli increases, the perceived change in intensity gradually diminishes on a subjective level.

For example, consider a situation in which a manufacturing company gradually automates its production process. At first, when automation replaces 10% of manual labour, employees and managers clearly perceive the change — productivity increases, workflows shift, and staff must adapt to new technologies. However, as automation expands from 60% to 70%, the perceived difference becomes much smaller, even though the objective technological change remains significant.

According to the Weber–Fechner law, this happens because each additional unit of change (stimulus intensity) produces a smaller perceptual effect. Thus, while the company continues to evolve structurally, the people within it may *feel* that change is slowing down. This principle helps economists quantify when structural transformations — such as investment shifts, digitalization, or management reforms — are strong enough to be noticed and acted upon by decision-makers, providing insight into the alignment between objective economic shifts and subjective human perception.

Applying the Weber–Fechner law to economic relations makes it possible to quantitatively determine the "perceptible" threshold of structural shifts at both the individual and enterprise levels and thereby allows researchers to evaluate how economic changes correspond to subjective perception.

## Conclusion

The analysis of scholarly literature on structural changes and structural shifts in the economy reveals the complexity and multidimensionality of these phenomena. Economic structure has long been an object of theoretical reflection and empirical investigation, with research perspectives evolving from classical decomposition approaches to more dynamic, system-oriented interpretations. Structural analysis, rooted in philosophical traditions tracing back to Plato and Aristotle, remains a fundamental method for understanding the interrelations among the elements of socio-economic systems and for generating new knowledge about their internal dynamics.

Despite extensive theoretical and empirical contributions, there is still no universally accepted framework that defines the boundaries, characteristics, and classification of structural shifts. The concepts of *structural change* and *structural shift* are often used interchangeably, though certain authors, including Hasanov and Sukharev, stress their causal relationship—where structural change emerges as the result of structural shifts, often preceded by a structural crisis arising from contradictions within the system.

Furthermore, contemporary approaches have broadened the notion of structural transformation to include cognitive and behavioural dimensions. Cognitive structural shifts reflect the evolving awareness of individuals, organizations, and nations in adapting to external change, while behavioural structural shifts manifest as concrete transformations in management practices, decision-making, and resource allocation.

Finally, the adaptation of the Weber–Fechner law offers a novel quantitative perspective for assessing the perceptibility of structural shifts. By linking economic transformations to

ISSN: 3104-4670
e-ISSN: 2789-6919

psychophysiological perception, this approach emphasizes that not all changes are equally "felt" by economic agents. The perceived intensity of structural shifts depends on the logarithmic relationship between actual and experienced change, thus integrating subjective human cognition into the analysis of objective economic processes.

In conclusion, structural shifts represent not only measurable economic adjustments but also perceptual, behavioural, and systemic transitions that shape the trajectory of development. Understanding their mechanisms, thresholds, and subjective dimensions remains a vital task for advancing both economic theory and policy design in an era of global transformation.

## References

1. Akinsola, G. D., Awosusi, A. A., Kirikkaleli, D., Umarbeyli, S., Adeshola, I., & Adebayo, T. S. (2022). Ecological footprint, public-private partnership investment in energy, and financial development in Brazil: A gradual shift causality approach. *Environmental Science and Pollution Research, 29*(7), 10077–10090.
2. Barnes, T. J. (2001). In the beginning was economic geography: A science studies approach to disciplinary history. *Progress in Human Geography, 25*(4), 521–544.
3. Gasanov, M. A. O., & Tyutyushev, A. P. (2012). Vozdeistvie institutsional'noi sredy na strukturnye sdvigi ekonomiki. *Vektory blagopoluchiya: Ekonomika i Sotsium*, 1(2), 166–173.
4. Gasanov, M. A. O. (2012). *Strukturnye sdvigi v usloviyakh transformatsii ekonomiki Rossii i stanovleniya innovatsionnogo tipa razvitiya* [Structural shifts under the transformation of Russia's economy and formation of an innovative development model]. Retrieved from https://vak.minobrnauki.gov.ru/az/server/php/filer_new.php?table=att_case&fld=autoref&key[]=87524&version=100
5. Klimovich, M. A. (2021). *Konvergentnye tekhnologii v sisteme strukturnykh sdvigov novogo tipa* [Convergent technologies in the system of structural shifts of a new type] (Doctoral dissertation abstract, 08.00.01).
6. Mbeva, K., Makomere, R., Atela, J., Chengo, V., & Tonui, C. (2023). Shift in climate discourse. In *Africa's right to development in a climate-constrained world* (pp. 47–83). Cham: Springer International Publishing.
7. Pata, U. K., & Yurtkuran, S. (2023). Is the EKC hypothesis valid in the five highly globalized countries of the European Union? An empirical investigation with smooth structural shifts. *Environmental Monitoring and Assessment, 195*(1), 17.
8. Roshchina, I. V. (n.d.). *Osnovy analiza strukturnykh sdvigov v ekonomike* [Foundations of structural shift analysis in the economy]. Retrieved from https://cyberleninka.ru/article/n/osnovy-analiza-strukturnyh-sdvigov-vekonomike
9. Schumpeter, J. A. (2006). *History of economic analysis*. Routledge.
10. Sukharev, O. S. (2016). *Teoriya restrukturizatsii ekonomiki: Printsipy, kriterii i modeli razvitiya* [Theory of economic restructuring: Principles, criteria, and development models]. LENAND.
11. Shirov, A. A. (2016). *Mnogourovnevye strukturnye issledovaniya kak instrument obosnovaniya ekonomicheskoi politiki* [Multilevel structural studies as a tool for substantiating economic policy] (Doctoral dissertation abstract).
12. Xu, Y., Umar, M., Kirikkaleli, D., Adebayo, T. S., & Altuntaş, M. (2022). Carbon neutrality target in Turkey: Measuring the impact of technological innovation and structural change. *Gondwana Research, 109*, 429–441.

Received: 04.07.2025
Approved: 12.10.2025

*Elmi Tədqiqat* Beynəlxalq Elmi Jurnal. 2025 / Cild: 5 Sayı: 10 / 81-84 ISSN: 3104-4670
*Scientific Research* International Scientific Journal. 2025 / Volume: 5 Issue: 10 / 81-84 e-ISSN: 2789-6919

DOI: https://doi.org/10.36719/2789-6919/50/81-84

**Nabat Abdullayeva**
Sabunçu rayonu, N.Rzayev adına 169 saylı orta məktəb
https://orcid.org/0009-0004-9681-0709
nabat1abdullayeva@gmail.com

# Azərbaycan toponimlərinin təsnifatı

**Xülasə**

Müasir dilçiliyin ən əhəmiyyətli problemlərindən biri Azərbaycan onomastikasının tədqiqi məsələsidir. Məlumdur ki, XX əsrin II yarısından başlayaraq bu sahədə xeyli tədqiqat işləri görülmüşdür. Həm Azərbaycan Respublikasının, həm də tarixi Azərbaycan ərazilərinin türk-Azərbaycan mənşəli minlərlə onomastik vahidi təhlilə cəlb edilmiş və onomastik elmi tədqiqatlarda linqvistik baxımdan çox əhəmiyyətli fikirlər söylənilmişdir. Bütün bunlara baxmayaraq, bu sahədə görülməli işlər, tədqiq olunmalı məsələlər hələ də mövcuddur. Bu silsiləyə onomastik vahidlərin dəqiq təsnifatını, tarixi onomalogiyanın araşdırılmasını, onomastik vahidlərin tərkibindəki arxaik elementlərin tədqiqini, həmçinin tarixən Azərbaycan torpaqları olmuş bölgələrin tam onomastik tədqiqatının aparılmasını aid etmək olar.
***Açar sözlər:*** *onomalogiya, toponim, etnonim, arxaik apelyativli onomastik vahid*

**Nabat Abdullayeva**
Sabunchu district, secondary school No. 169 named after N.Rzayev
https://orcid.org/0009-0004-9681-0709
nabat1abdullayeva@gmail.com

# Classification of Azerbaijani Toponyms

**Abstract**

One of the most important problems of modern linguistics is the study of Azerbaijani onomastics. It is known that since the second half of the 20th century, a lot of research has been done in this area. Thousands of onomastic units of Turkic-Azerbaijani origin of both the Republic of Azerbaijan and the historical territories of Azerbaijan have been involved in the analysis, and very important ideas from a linguistic point of view have been expressed in onomastic scientific research. Despite all this, there are still things to be done and issues to be studied in this area. This series includes the study of historical onomatology, the study of archaic elements in onomastic units, as well as the conduct of a complete onomastic study of the regions that were historically Azerbaijani lands.
***Keywords:*** *onomatology, toponym, ethnonym, onomastic unit with archaic appellation*

## Giriş

Onomastik vahidlər xalqın tarixi yaddaşının qoruyucuları, tarixin ən etibarlı mənbələri, qədim və zəngin dil faktlarının toplusudur. Azərbaycan onomastik sistemi xalqımızın min illərlə ölçülən tarixi mədəniyyətini, düşüncəsini əks etdirən abidələrdir. A.Qurbanov qeyd edirdi ki: "Azərbaycan ölkəsi onomastik tərkibcə çox zəngin və rəngarəngdir. Bu xüsusiyyətlərin düzgün açıqlanması, xalqımızın tarixinin, mədəniyyətinin, elminin, dilinin keçmişinin öyrənilməsi böyük əhəmiyyət kəsb edir. Buna görə də onomastikadan bəhs edən onomalogiyanın – tədqiqatçı onomoloqların qarşısında olduqca böyük və məsuliyyətli elmi vəzifələr durur" (Qurbanov, 2019, s. 6). Onomastik vahidlərin tədqiqi ilə bağlı xeyli araşdırmalar aparılmış (Adilov & Paşayev, 1987; Axundov, 1983; Qurbanov, 1988; İsrafilova, Məşədiyev & Cəfərov, 1987; Qeybullayev, 1976; Yusifov & Kərimov, 1987; Məşədiyev,

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0) 

1990; Əliyev, 1999; Eyvazova, 1995; Mirzəyev, 2006; İsrafilov, 1999 və s.), samballı araşdırmalar meydana çıxmışdır.

Onomastik vahidlərin tədqiqində ən mühüm vəzifələrdən biri əsaslı və düzgün təsnifatın aparılmasıdır. Təsnifat düzgün aparılarsa, alınan elmi nəticələr də dəqiq olar. Onomastik vahidlərin müxtəlif kriteriyalar üzrə təsnifatı aparılsa da, ən dəqiq təsnifatlardan biri aşağıdakı kimidir (Qurbanov, 2019, s. 9):

- Antroponimlər: *Adil, İradə, Elçin, Ziya, Gülsənəm, Ayan* və s.
- Etnonimlər: *türk, oğuz, qıpçaq, əfşar, qacar, bayat, muğ* və s.
- Toponimlər: *Beyləqan, Qəbələ, Yasamal, Saatlı, Qazax* və s.
- Hidronimlər: *Arpaçay, Kür, Araz, Göygöl, Maralgöl* və s.
- Zoonimlər: *Qırat, Bozdar, Toplan, Qaşqa, Bozat* və s.
- Kosmonimlər: *Karvanqıran, Zöhrə, Dan ulduzu, Günəş, Ay* və s.
- Ktematonimlər: *Aynalı, Beşatılan, Misri qılınc, "Sirab",* və s.

Bu bölgüdəki xüsusi ad qruplarından atroponim və toponimlər miqdar baxımından xüsusilə fərqlənir. Tarixi əhəmiyyətinə görə isə toponimlər və etnonimlər xüsusi əhəmiyyətə malikdir, bu baxımdan onların tədqiqi aktuallığınım qoruyub saxlayır.

**Tədqiqat**

Toponimlərin tədqiq olunmasının əhəmiyyətini vurğulayan S.Sadıqova qeyd edirdi ki: "Toponimlər xalqın tarixini öyrənmək işində xüsusi rol oyayır: biz toponimlər vasitəsilə xalqın ona məxsus qəbilə, tayfa, sülalə, yer-yurd, şəxs və s. adlarının ətraflı öyrənilməsinə nail ola bilir və bunları nəsildən nəslə ötürə bilirik. Azərbaycan xalqının tarixən hansı ərazilərdə məskunlaşmasını, ayrı-ayrı bölgələrdə olan müxtəlif oronimik obyektlərin, yaşayış məskənlərinin, tarixi abidələrin kimə məxsus olduğunu toponimlər vasitəsilə üzə çıxara bilirik. Məhz bu baxımdan toponimlərin ətraflı öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir" (Sadıqova, 2014, s. 6).

Azərbaycan ərazisindəki toponimlərin formalaşma, təşəkkültapma tarixi də fərqlidir. Bu fərqi nəzərə alaraq, toponimistlər Azərbaycan toponimlərini üç qrupa ayırmışlar:

a) Ən qədim toponimlər: Albaniya, Qafqaz, Qəbələ, Dərbənd və s.
b) Qədim toponimlər: Bərdə, Beyləqan, Bakı, Şəki, Gəncə, Muğan, Təbriz, Naxçıvan və s.
c) Yeni toponimlər: Sabirabad, Cəlilkənd, Günəşli, Sabirkənd və s.

Toponimlərin yaranma tarixinin müəyyənləşdirilməsi həmçinin, Azərbaycan dilinin əmələ gəlməsi və formalaşması tarixini müəyyənləşdirmək, daha da dəqiqləşdirmək deməkdir.

Toponimlər leksik-semantik qruplarına görə də çox müxtəlif şəkildə təsnif olunmuşlar ki, bunları aşağıdakı kimi ümumiləşdirmək olar:

*Antropotoponimlər* şəxs adı, soyadı, titul və ləqəblərdən yaranmış yer adlarıdır. Bir qayda olaraq, şəxs adı, soyadı, titul və ləqəblər yaşayış məntəqəsinin tipini bildirən sözlərlə birlikdə antropotoponimi əmələ gətirir: *Alxanpəyəsi, Həsənkənd, Rəsulqışlağı, Səfi binəsi, Sultanbəy kəndi* və s.

*Etnotoponimlər* tayfa, qəbilə, nəsil adları əsasında yaranmış yer adlarıdır: *Muğanlı, Gənzək, Cığatay, Ələyəz, Quşçu* və s. Çox qədim tarixə malik olan etnotoponimlər hər zaman tədqiqatçıların diqqət mərkəzində olmuşdur. A.V.Superanskaya tayfa, nəsil, soy adlarından ibarət olan toponimləri genotoponim, qəbilə, xalq, millət adlarından ibarət olanları isə etnotoponim adlandırır (Superanskaya, 1974, s. 94). "Qəbilə, tayfa, nəsil, soy, şəcərə adlarını çox vaxt fərqləndirmək çətinlik yaratdığı üçün həmin semantik qrupa daxil olan coğrafi adları etnotoponim kimi vermək daha məqsədəuyğun olar" (Sadıqova, 2014, s. 19).

*Hidrotoponimlər* su obyektlərinin adını bildirən sözlərdən – hidroterminlərdən yaranmış toponimlərdir: *Çaykənd, İstisu, Bulaqlar, Novlu* və s.

*Zootoponimlər* heyvan, quş, həşərat və s. adlarından yaranmış yer adlarıdır: *Ceyranlı, İlanlı, Gənəli, Kəlyatağı* və s.

*Fitotoponimlər* bitki adları əsasında yaranan toponimlərdir: *Almalı, Gülüstan, Qarağac, Biçənək, Çinarlı, Söyüdlü, Badamlı* və s.

*İctimai-siyasi xarakterli toponimlər* barədə A.Qurbanov qeyd edir ki, "keçmiş Sovet hakimiyyətinin qurulması ilə əlaqədar yaranmış" (Qurbanov, 2019, s. 192) xüsusi adlardır: *Yenikənd, Təzəkənd, Qırmızı qəsəbə, Yenigün* və s.

*Memuar-xatirə toponimlər* tarixi şəxsiyyətlərin, görkəmli yazıçı, şair, ictimai-siyasi xadimlərin adını daşıyan yer adlarıdır: *Sabirabad, Cəlilkənd* və s.

*Kosmotoponimlər* səma cisimlərinin adı əsasında düzələn toponimlərdir: *Günəşli, Şəfəqli* və s.

*Təsviri toponimlər* hər hansı yaşayış məntəqələrinin yerinin, obyektinin müəyyən əlamətlə, təbii sərvətə əsasən adlandırılması yolu ilə yaranır: *Köhnəkənd, Kömürlü, Meydan, Arxac* və s.

Azərbaycan toponimləri *dil mənsubiyyətinə görə* də təsnif edilir: ölkəmizin ərazisindəki yer adlarının böyük əksəriyyəti milli mənşəlidir (*Laçın, Xankəndi, Böyükbəyli, Dondaqlı, Quşçu, Qaraçıq, Kəpənək, Qayılı, Qırıqlı, Üçtəpə* və s.), müəyyən bir qismi ərəb-fars mənşəlidir (Giləkəran, Suraxanı, Füzuli, ), az bir qismi də digər dillərə məxsus sözlərdən yaranmış toponimlərdir.

Toponimlərin *növlərə görə* təsnifi aşağıdakı şəkildədir:

*Oykonimlər* insanların yaşayış məntəqələrinin – şəhər, kənd, qəsəbə, oba, yurd, qışlaq, yaylaq və b. məskunlaşma obyektlərinin adını bildirir: *Dəmirçilər, Kolanı, Şorca, Nəcəfəlibinə, Əsgərkənd, Sərdarabad, Həsən Ağa qışlağı* və s.

*Oronimlər* relyef quruluşuna görə bir-birindən fərqlənən yer adlarıdır, bunlara dərə, təpə, dağ, zirvə, qaya, yarğan, aşırım, yoxuş, eniş, düz, qobu, örüş, kövşən, meşə, otlaq, biçənək, çöl və s. coğrafi obyektlərin adları daxildir. Azərbaycan ərazisinin təbii şəraiti, coğrafi obyektlərin zənginliyi rəngarəng coğrafi adların yaranmasına səbəb olmuşdur: *Vers dağı, Əyricə dağı, Oğuz üzü kaha, Kəngərli yeri, Qazax dərə, Qısır dağ, Xalaclar arxacı, Çıraqlı dərəsi, Qurd təpəsi, Ağ yarğan dağı, Dik daş dərəsi, Sulu dərə, İlanlı dağ* və s. kimi yüzlərlə oronimi misal göstərmək olar.

Xoronimlər müəyyən inzibati ərazi bölgüsünə malik rayon, vilayət, respublika, ölkə adlarıdır: *Naxçıvan Muxtar Respublikası, Lənkəran rayonu* və s.

*Urbanonimlər* şəhər daxilindəki prospekt, döngə, küçə, meydan və s. adlarıdır: *Azadlıq meydanı, Heydər Əliyev prospekti* və s.

*Dromonimlər* hava, su, yerüstü və yeraltı nəqliyyat yollarının adını bildirir: *Bakı-Ağdam dəmir yolu, Bakı-Həştərxan dəniz yolu* və s.

## Nəticə

Onomastik vahidlərin tədqiqində ən mühüm vəzifələrdən biri əsaslı və düzgün təsnifatın aparılmasıdır. Mütəxəssislərin yekdil qənaəti belədir ki, təsnifat düzgün aparıldığı təqdirdə, əldə edilmiş elmi nəticələr də dəqiq olacaqdır. Azərbaycan toponimləri yaranma tarixinə (ən qədim toponimlər, qədim toponimlər, yeni toponimlər), leksik-semantik məna qruplarına (antropotoponimlər, etnotoponimlər, hidrotoponimlər, zootoponimlər, fitotoponimlər, ictimai-siyasi xarakterli topoimlər, memuar-xatirə toponimlər, kosmotoponimlər, təsviri toponimlər), dil mənsubiyyətinə (türk mənşəli, ərəb-fars mənşəli, digər dillərə məxsus toponimlər) və toponimik obyektin növünə görə (oykonimlər, oronimlər, xoronimlər, urbanonimlər, dromonimlər) təsnif edilir. Azərbaycan ərazisindəki toponimlərin böyük əksəriyyəti türk mənşəlidir. Həmçinin ölkədən kənarda – Cənubi Azərbaycanda, Qərbi Azərbaycanda, Gürcüstanda, Dağıstanda və hətta Əfqanıstanda da Azərbaycan toponimləri mövcuddur ki, bunlar areal toponimlərdir. Areal toponimlər eyni bir tayfanın müxtəlif yerlərdə məskən salması, yeni ictimai quruluşla bağlı olaraq fərqli ərazilərdə eyni adlardan istifadə olunması və adların təsadüfən üst-üstə düşməsi nəticəsində yaranaraq yayılırlar.

## Ədəbiyyat

1. Adilov, M., Paşayev, A. (1987). *Azərbaycan onomastikası.*
2. Axundov, A. (1983). *Torpağın köksündə tarixin izləri.*
3. Budaqov, B., Qeybullayev, Q. (1998). *Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti.* "Oğuz eli".
4. Eyvazova, R. (1995). *Əfqanıstanda türk mənşəli toponimlər.* "Elm".
5. Əhmədov, T. (1991). *Azərbaycan toponimikasının əsasları.* BDU nəşr.
6. Geibullaev, G. (1976). *Toponimiya Azerbaidzhana.*
7. İsrafilova, R., Məşədiyev, Q., Cəfərov, Q. (1987). *Azərbaycan dilinin onomastikası.* "Elm".
8. İsrafilov, V. (1999). *Azərbaycan oronim və hidronimlərinin Gürcüstan arealı.* ADPU.
9. Qurbanov, A. (2019). *Azərbaycan onomalogiyasının əsasları.* II cild.
10. Məşədiyev, Q. (1990). *Zaqafqaziyanın Azərbaycan (türk) toponimləri.*
11. Mirzəyev, H. (2006). *Azərbaycan toponimləri və şivə sözləri.* "Elm".
12. Murzaev, EH.M. (1974). *Ocherki toponimiki.*
13. Mollazade, S. (1979). *Toponimiya severnykh raionov Azerbaidzhana.*
14. Sadıqova, S. (2014). *Müasir Azərbaycan dilinin leksikologiyası: Dərələyəz toponimlərinin linqvistik-etimoloji təhlili əsasında.* ADPU nəşriyyatı.
15. Superanskaya, AV. (1974). *Teoreticheskie problemy onomastiki.*
16. Yusifov, Y., Kərimov, S. (1987). *Toponimikanın əsasları.* "Maarif".

Daxil oldu: 04.07.2025
Qəbul edildi: 16.10.2025

DOI: https://doi.org/10.36719/2789-6919/50/85-90

**Yusif Ələkbərli**
Bakı Dövlət Universiteti
doktorant
https://orcid.org/0009-0008-8332-0806
yusif_elekberli.2002@mail.ru

# Paylayıcı logistika strategiyalarının təsnifatı barədə nəzəri-metodiki yanaşmalar

## Xülasə

Məqalədə "paylayıcı logistika" və "paylayıcı logistika strategiyaları" anlayışları barədə müxtəlif nəzəri-metodiki yanaşmalar sistemi təhlil edilmiş və müvafiq ümumiləşdirmələr aparılmış, həmçinin, logistika və marketinq kooperasiyasının zəruriliyi əsaslandırılmışdır. Logistika strategiyalarının təsnifatı dəqiqləşdirilmiş və onların vaxt, prioritetlik (səmərəlilik göstəriciləri), yaranma konsepsiyası, biznes-proseslərin inteqrasiya dərəcəsi əlamətlərinə görə yeni təsnifatını müəllif təklif etmişdir.

***Açar sözlər:*** *paylayıcı logistika, logistik strategiyalar, marketinq konsepsiyası, logistik servis, paylayıcı kanallar, əmtəə bazarları*

**Yusif Alakbarli**
Baku State University
PhD student
https://orcid.org/0009-0008-8332-0806
yusif_elekberli.2002@mail.ru

# Theoretical and Methodological Approaches to the Classification of Distribution Logistics Strategies

## Abstract

The article analyzes the system of various theoretical and methodological approaches to the concepts of "distribution logistics" and "distribution logistics strategies", makes appropriate generalizations, and justifies the necessity of logistics and marketing cooperation. The classification of logistics strategies is specified, and the author proposes a new classification according to their time, priority (efficiency indicators), concept of formation, and degree of integration of business processes.

***Keywords:*** *distribution logistics, logistics strategies, marketing concept, logistics service, distribution channels, commodity markets*

## Giriş

Azərbaycanda bazar münasibətlərinin formalaşması yeni elmi-praktiki istiqamət kimi logistikanın inkişafını zəruri etdi. Kommersiya müəssisələrinin fəaliyyətinə logistik yanaşma xarici ölkələrdə çoxdan uğurla tətbiq edilir və material axınlarının effektiv idarə olunmasını təmin edir. Azərbaycan müəssisələrinin fəaliyyətinə logistik yanaşmanın tətbiqinə tələbat dünya iqtisadiyyatına ölkənin inteqrasiyasının zəruriliyilə əlaqədardır. Xüsusilə belə inteqrasiya istehlakçılar və ticarət şəbəkələri səviyyəsində daha çox vacibdir. Xarici mühit amillərinin logistikaya təsirinin təhlili müəssisənin inkişaf problemlərinin həllində logistikanın rolu və yerini müəyyənləşdirməyə kömək edir. Sistemli yanaşma xarici mühitlə əlaqədar açıq sistem kimi müəssisəyə baxmağa imkan verir. Xarici mühit amillərinə siyasi, hüquqi, iqtisadi, texniki və texnoloji, sosial ve ekoloji amillər aid edilir. Logistik

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

yanaşma qarşılıqlı fəaliyyətin effektiv üsulları və alətlərinin hazırlanması yolu ilə xarici mühit amillərinin təsirini yumşaltmağa imkan verir. Bundan başqa müəssisə daxili proseslərdə logistik qarşılıqlı fəaliyyət alətlərinin tətbiqi mikromühitin fəaliyyəti üçün optimal şərait yaratmağa imkan verir.

Xarici mühitdə müəssisənin fəaliyyətinə logistik yanaşma neqativ amillərin qarşılıqlı təsirini dəqiq müəyyənləşdirməyə qadirdir. Ona görə də hazırki vaxtda alət kimi logistik strategiyanın hazırlanması problemi, xüsusilə də, müəssisənin xarici və daxili amillərinin qarşılıqlı fəaliyyətini optimallaşdıran paylayıcı logistika (PL) üçün aktualdır.

**Tədqiqat**

Paylayıcı logistika və onun strategiyası haqqında danışarkən ilk növbədə təchizat bazarının strukturunu nəzərə almaq lazımdır. Əmtəənin paylanmasının mövcud strukturu son istehlakçıya onun satış mərhələsində pərakəndə satışın təşkilinin keyfiyyətcə yeni səviyyəyə keçidi ifadə edir, hansı ki, "şəbəkə riteyl" adlanır. "Riteyl" anlayışı ingiliscə retail – "pərakəndə satış" sözündən əmələ gəlmişdir. Biz tədqiqatda riteyl anlayışını iri ticarət – pərakəndə şəbəkə (İTPŞ) kimi istifadə etmişik. Kommersiya müəssisələrinin üzləşdiyi çoxlu strateji problemlər içərisində ən mürəkkəbi məhz logistik strategiyaların formalaşması və reallaşdırılması problemidir. Onlardan istehlakçılara xidmətin sürətlə artması, sifarişlərin yerinə yetirilməsi vaxtının azaldılması, iqtisadiyyatın qloballaşdırılması, şirkətlərin inteqrasiyası ilə əlaqədər strateji planlaşdırma problemi xüsusi aktuallıq kəsb edir (Ivanov, 2006).

Logistik strategiya şirkətin korporativ strategiyasının ayrılmaz tərkib hissəsidir. Bu gün logistik strategiyanın formalaşması problemi qarşılıqlı fəaliyyətin funksional sahələrini müəyyənləşdirməkdən ibarətdir. Logistik strategiyanın funksional sahələri barədə müxtəlif yanaşmalar mövcuddur. Məsələn, V.İ.Burakovun fikrincə, logistik strategiyaya paylayıcı mərkəzlərin miqdarı, ölçüsü və yerləşdiyi yerin müəyyənləşdirilməsi, paylayıcı kanalların seçilməsi, daşınma, sifarişlərin yerləşdirilməsi, marketinq və istehlakçılara xidmət üzrə tələblərin qarşılıqlı fəaliyyətinin müəyyən edilməsi üsullarının hazırlanması yolu ilə təchizat bazarlarında şirkətlərin rəqabət mövqelərinin qorunub saxlanılması üzrə fəaliyyət planları və modellərinin işlənib hazırlanması daxildir (Burakov, 2002, s. 315).

A.U.Albekov logistik strategiyaya material, informasiya, əmək və maliyyə resurslarının firmadaxili optimallaşdırılması strategiyalarının qarşılıqlı fəaliyyət vasitəsi kimi baxır, bu zaman firmanın istehsal, marketinq, investisiya və maliyyə strategiyalarının konkretləşdirilməsi məsələlərində logistikanın vəzifələrini müəyyənləşdirir (Al'bekov, 2002, s. 339–340). Razılaşmaq olar ki, logistik strategiya bazarda firmanın öz missiyasına optimal nail olunmasının alətini ifadə edir. V.İ.Sergeyev hesab edir ki, rəqabətin güclənməsi şəraitində strateji amil olan logistikanın potensialı firmanın missiyası çərçivəsində inkişaf məsələlərini həll etməyə imkan verir. O, logistikanın rəqabət mübarizəsini strateji amil kimi müəyyənləşdirərək vurğulayır ki, logistikanın menecment sistemində "logistik missiya", "logistikanın məqsədi" və "logistik strategiya" kimi komponentlərin olması zəruridir (Sergeev, 2001, s. 73).

Logistik strategiya barədə yuxarıda qeyd edilən fikirləri ümumiləşdirərək paylayıcı logistika strategiyası formulirovkasını təklif edirik. Paylayıcı logistika strategiyası (PLS) – təchizat bazarında qarşılıqlı fəaliyyət göstərən logistika və marketinq metodlarının məcmusudur, məqsədi ortamüddətli və uzunmüddətli perspektivdə material, informasiya, maliyyə və servis axınlarının optimallaşdırılması yolu ilə xarici mühitə əlverişsiz amillərin təsirini azaltmaqdan ibarətdir. Təcrübə göstərir ki, müəssisənin logistik strategiyasının formalaşması menecmentin fəaliyyətinin funksional sferaları: maliyyə, kadr, informasiya, istehsal, investisya və innovasiya ilə razılaşdırılmış müəssisənin logistik missiyasının irəliləməsinə əsaslanmalıdır. Paylayıcı logistika strategiyasının logistik təsir alətlərilə seçilməsi və reallaşdırılması üçün "strategiya" anlayışının mahiyyətinin müəyyənləşdirilməsi ilə yanaşı, paylayıcı logistikanın elementləri və əsas kateqoriyalarını müəyyənləşdirmək də lazımdır. Beləliklə, PLS-nın yaradılması məsələsinə iki mərhələdə baxılır: – strateji dəyişikliklərin obyekti kimi əmtəə hərəkəti kanalının elementləri daxil edilməklə strateji idarəetmənin (Sİ) ayrı-ayrı elementlərinin təhlili; – paylayıcı logistika (PL) və strateji idarəetmənin elementlərinin sintezi. O.S.Vixanskinin fikrincə, strategiya anlayışına iki ziddiyyətli yanaşma mövcuddur. Birinci halda,

obyektin son vəziyyəti öyrənilir, hazırlanmış planın reallaşdırılmasının köməyilə uzun vaxt kəsiyi vasitəsilə nail oluna bilər. Bu yanaşma nəzərdə tutur ki, daxili sistem amillərdən başqa bütün amillər statistik sayılır. Bazar iqtisadiyyatında belə yanaşma tətbiq edilən deyil. Eyni zamanda yeni ərazi təchizat bazarına çıxanda bazar mühiti amillərinin dəyişilməsi sürəti artır və həmin dəyişikliklərdən üstünlüklərin alınması imkanlarından istifadə zəruridir (Vikhanskii, 1998, s. 220; Mövlanov, 2025). İkinci halda, O.S.Vixansk strategiyanı təşkilatının inkişafının uzunmüddətli keyfiyyətli istiqaməti kimi müəyyən edir, ətraf mühitdə təşkilat daxili qarşılıqlı fəaliyyət sisteminə aiddir. Strategiyanın belə başa düşülməsi müəssisənin davranışında determinizmi inkar edir, son vəziyyətə tərəf hərəkət istiqamətini müəyyən edir, bu zaman xarici amillərin dəyişilməsi şəraitində qərarların seçilməsi azadlığını məhdudlaşdırmır. İqtisadçı alimlər müəssisənin tədarük, istehsal və təchizat fəaliyyətinə logistik şəbəkənin çoxelementlilik amilinin təsirini qeyd edirlər ki, logistika strategiyasının yaradılması prosesinə təsir göstərir. A.Çalenko özünün "logistik şəbəkənin idarə edilməsi prinsipləri" kitabında qeyd edir ki, logistik strategiya müəssisənin biznes məqsədlərinə nail olmaq üçün məqsədləri və onlara nail olmaq meyarlarını, axın proseslərini koordinasiyası və onların rasional idarə edilməsi üzrə tədbirləri əks etdirir. Təchizatın, ehtiyatların idarə edilməsi üzrə bölmə daxil edilməlidir (Chebotaev, 1997).

Logistika sferasında həmin təsdiqi tətbiq edərək aşağıdakı obyektləri göstərmək olar:
- paylayıcı kanallar (onların uzunluğu və eni, dolayısı və birbaşa kanalların mövcudluğu);
- paylanmanın bazar seqmenti (ərazi, istehlakçılar, satışın həcmi);
- paylayıcı sistemin resursları (tərkibin, strukturun və tələbatın müəyyənləşdirilməsi);

Göstərilən obyektlərin təsnifatı təkcə daxilisistem münasibətlərini əks etdirmir, həm də xarici mühit obyektlərini nəzərə alır, strategiyanın reallaşdırılmasında kənarlaşmaya təsir göstərir.

Əmtəənin paylayıcı logistikasının müxtəlif strateji məqsədləri ola bilər, bunlardan bəziləri operativ xarakter daşıyır. Məhsulun strateji paylanması aşağıdakı operativ funkisyaların yerinə yetirilməsini nəzərdə tutur:
- Məhsulun qəbulu və yükün emalı;
- Çeşidləmə və komplektləşmə;
- Konsolidasiya və iriləşdirmə;
- Paylayıcı sistemin vasitələri arasında hesablaşma;
- Məhsula mülkiyyət hüququnun müəyyənləşdirilməsi və onların verilməsi;

Əvvəllər, mərkəzləşdirilmiş rəhbərlikdə məhsulun paylanması prosesi nəqliyyat – anbar şəbəkəsinin təşkili üzrə fəaliyyət kimi müəyyən edilirdi. Müəssisələrdə paylayıcı logistikaya belə baxışa bu günədək rast gəlmək olar, bu dövri mətbuatda çap olunmaqlarla təsdiq edilir, harada materialın paylanma sisteminin xərclərinin minimumlaşdırılmasına yanaşmalar şərh olunur (Berezhnev, 1997, s. 23). Belə yanaşmanın həyata keçirilməsinin çatışmazlığı müəssisənin bazar mühitilə qarşılıqlı əlaqəli pozitiv amillərin qiymətləndirilməməsi hesab edilir. Mütərəqqi PLS-yə misal aşağıdakıları göstərmək olar:
- qiymət amilinin təsiri olmadan satışın həcm payının artması strategiyası;
- rəqiblərin paylanma şəbəkəsində inteqrasiya;
- paylayıcı kanallarda qiymət strategiyası;
- vasitəçinin növü üzrə differensiasiya strategiyası;

Paylayıcı logistika anlayışı barədə iqtisadçılar fərqli fikirlər söyləyirlər. A.Tyapyixinin fikrincə paylayıcı logistika - bölgü, material və informasiya resurslarının mikro və makro logistik sistemin layihələndirilməsi, formalaşması və optimallaşdırılmasına həsr olunmuş logistikanın bölməsidir (Tyapukhin, 2001). A.Y.Albekov və O.A.Mitko qeyd edirlər ki, PL anlayışını istehsalçıların tələbatının ödənilməsi və kommersiya strukturlarında mənfəətin alınması məqsədilə hazır məhsulun kommersiya, kanal və fiziki paylanmasının idarə edilməsi prosesi kimi formalaşdırmaq olar. V.İ.Sergeyevin nöqteyi-nəzərincə, paylayıcı logistika-paylayıcı kanalın hər bir səviyyəsinin tələbatının ödənilməsinə yönəldilən hazır məhsulun istehsalçıdan istehlakçıya çatdırılması üzrə idarəetmə prosesidir.

Məhsulun PLS formalaşdırmaq üçün "paylayıcı kanal" və "resursların hərəkət kanalı" anlayış-

larının differensasiyası mühüm əhəmiyyət kəsb edir. A.Tyapyixinin fikrincə, birinci halda bu məhsula, yaxud resursa, onların çeşidlənməsi və fiziki yerdəyişməsinə mülkiyyət hüququnun verilməsi üzrə eynicins funksiya və prosesləri yerinə yetirən hüquqi, yaxud fiziki şəxslərin nizamlanmış məcmusudur. Əmtəənin paylanması sferasına tətbiqi baxımından D.Bayersoksun təklif etdiyi formulirovka, bizim fikrimizcə, daha dəqiqdir: "Paylayıcı kanal-instutisional təşkil, hansında ki, məhsulda və xidmətdə mülkiyyətin mübadiləsi baş verir" (Bauehrsoks, 2001, s. 140).

Bundan başqa, D.Bayersoks digər müəyyənləşdirmə də söyləyir: "Bu əmtəə, yaxud xidmətin alış-satış prosesində iştirak edən şirkətlər arasında təsərrüfat əlaqələri sistemidir" (Bauehrsoks, 2001, s. 112). Bu nöqteyi-nəzərdən marketinq və logistika kanal anlayışını fərqləndirmək və onların fəaliyyət məsələlərini dəqiqləşdirmək çox asandır. Paylayıcı logistika kanalının vəzifəsi anlamına nə aiddirsə, onun əsas funksiyası forma, dərketmə, yer və vaxtın faydalılığı vasitəsilə əlavə məhsul dəyəri yaratmaqdan ibarətdir. Bu məqalə çərçivəsində məhsulun paylanması kanalına, hər şeydən öncə, əmtəənin paylayıcı logistika sisteminin obyekti kimi baxılır.

V.İ.Sergeyev logistik sistemin qurulması zamanı biznesdə geniş istifadə olunan logistik strategiyaları ayırır: ümumi logistik xərclərin minimumlaşdırılması; logistik servisin keyfiyyətinin yaxşılaşdırılması; logistik infrastruktura investisyanın minimumlaşdırılması; logistik aktsorsinq. Ümumi logistik xərclərin minimumlaşdırılması strategiyası üçün logistik servisin keyfiyyəti əsas göstərici ola bilər. Ümumi halda logistik servisin keyfiyyətinə istehlakçının tələbi nə qədər yüksək olarsa, həmin səviyyəni təmin edən logistik xərclər bir o qədər yüksək olmalıdır. Bəzi hallarda ümumi logistik xərclərin minimumlaşdırılması strategiyası münasibətlərin maksimumlaşdırılması strategiyasına transformasiya ola bilər: servisin keyfiyyət səviyyəsi – ümumi logistik xərclər. Ümumi logistik xərclərin minimumlaşdırılması strategiyasının reallaşdırılması logistik servis keyfiyyətinin zəif formalaşmış parametrləri və istehlakçı tərəfindən servisin keyfiyyətinin subyektiv qiymətləndirilməsi ilə mürəkkəbləşir. Dörd əlamət: strategiyanın fəaliyyət vaxtı:

- strategiyanın yaranmasının tarixi dövrü;
- prioritet logistik strategiya (effektivlik meyarı);
- yaranma (baş vermə) konsepsiyası;
- biznes-proseslərin inteqrasiya səviyyəsi əsasında qurulmuş logistik strategiyaların təsnifatı təklif olunur (şəkil 1).




Şəkil 1. Logistik strategiyaların təsnifatı.

Xarici amillərin təsiri altında bazarın dəyişməsilə əlaqədər logistik strategiyaların vaxtaşırı yenidən işlənməsi nəzərdə tutulur (Məmmədov, 2025; Atakişiyeva, 2025). Ona görə strategiyanın reallaşdırılmasının başlanğıc mərhələsində onun fəaliyyət vaxtını müəyyənləşdirmək və amilləri aşkara çıxarmaq vacibdir, hansı ki, təklif olunan strateji fəaliyyət planında düzəlişlər ediləcəkdir. Vaxt əlamətinə görə logistik strategiyaları aşağıdakı şəkildə ayırmaq olar:

- ortamüddətli - fəaliyyət müddəti bir ildən üç ilədəkdir, taktiki məsələlərin həllini nəzərdə tuturlar;
- uzunmüddətli - fəaliyyət müddəti bir ildən çoxdur, firmanın ümumi strategiyası çərçivəsində logistik idarəetmə sahəsində prioritet istiqamətlərin müəyyənləşdirilməsini nəzərdə tuturlar;
- mövsümi - mövsümi məhsul bazarları üçün işlənib hazırlanır, dövrü baş vermiş satışın bazar şəraitinə nisbətən uzunmüddətli xarakter daşıyır.

İnteqrasiyanın dərəcəsinə görə strategiyaları biznesdə logistikanın inteqrasiya strategiyaların sinfi altında birləşdirmək olar:

- üçüncü tərəf üçün logistika: logistik xidmətlərin təqdim edilməsi, hansı ki, əmtəənin sadə daşınmasından kənara çıxır. Bura yüklərin anbarlaşması, yenidən yüklənməsi və emalı, əhəmiyyəti əlavə olunmuş dəyərlə əlavə xidmətlər, eləcə də subpodratçıların istifadəsi daxil edilir;
- inteqrallaşmış logistika: uzunmüddətli strateji məqsədlərlə bir xidmət göndərən tərəfindən bütün logistik prosedurların planlaşdırılması, idarə edilməsi və nəzarət olunması prosesi;
- internet-logistika: elektron informasiya vasitələrinin köməyilə yüklərin göndərilməsi vahid zəncirin təşkiledicilərinin, bütün komponentlərin idarə edilməsi;

Prioritetliyə görə logistik strategiyaları effektivlik meyarları üzrə aşağıdakılara görə ayırmaq olar:

- logistik xərclərin optimallaşdırılması, hansı ki, özünə ayrı-ayrı logistik funksiyalarda logistik xərclərin azadılması, logistik sistemdə ehtiyatların səviyyəsinin optimallaşdırılması, "anbarlaşma-daşınmanın" optimal variantının seçilməsi, logistik xərclərin minimum meyarına görə ayrıca funksional sahələrdə, yaxud logistik funkisyalarda qərarların optimallaşdırılması;
- logistik servisin keyfiyyətinin yüksəldilməsi, bura daxildir: logistik əməliyyatların və funksiyaların yerinə yetirilməsi keyfiyyətinin yaxşılaşdırılması, satışdanqabaq və satışdansonra servisin dəstəklənməsi, məhsulun həyat tsiklinin dəstəklənməsinin logistik texnologiyalarından istifadə olunması, logistik servisin keyfiyyətinin idarəetmə sisteminin yaradılması, beynəlxalq standartlarla və prosedurlara uyğun olaraq keyfiyyətin idarə edilməsinin firma sisteminin sertifikasiyası;
- logistik infrastruktura investisiya qoyuluşunun minimumlaşdırılması, hansı ki, logistik şəbəkəsinin konfiqurasiyasının optimallaşdırılmasından: anbarlaşma olmadan istehlakçıya əmtəənin yüklərinin birbaşa çatdırılması, ümumi təyinatlı anbarların istifadəsi, daşınma, anbarlaşma və yüklərin emalında logistik vasitəçilərdən istifadə olunması, "müddətində dəqiq" logistik texnologiyalardan istifadə edilməsi, logistik infrastruktur obyektlərin dislokasiyasının optimallaşdırılması və s. ibarətdir.

İri ticarət-pərakəndə şəbəkəsinin mənimsənilməsi çərçivəsində paylayıcı logistika sisteminin (PLS) effektivliyini marketinq və logistikanın inteqrasiyası olmadan layihələndirmək qeyri-mümkündür. Beləliklə, marketinq və logistikanın inteqrasiyasına bazarın tələbatına səmtlənmə yolu ilə paylayıcı logistika strategiyalarının effektivliyinin yüksəldilməsinə yönəldilən idarəetmə prosesi kimi baxılması mümkündür. Logistikanın effektivlik meyarları əsasında PLS və marketinqin birləşmələrinin mümkün varianları ilə strategiyaların matrisini işləyib hazırlamaq lazımdır. Bu matris ticarət-pərakəndə satış strukturlarının təşkilati şəbəkələrinin mənimsənilməsində qoyulmuş prioritetlərdən asılı olaraq logistika və marketinq ittifaqını möhkəmləndirərək və əlavə edərək paylayıcı logistika strategiyasının hazırlanmasına kömək edir.

## Nəticə

1.Paylayıcı logistika strategiyaları barədə müxtəlif nəzəri-metodiki yanaşmaların sistemli təhlili logistika və marketinq strategiyalarının kooperasiyasının zəruriliyini göstərir, bu bir tərəfdən, ümumi koperativ strategiyaya adıçəkilən strategiyalarda qoyulan məqsəd və vəzifələrin korrektirovkasına təsir edir, digər tərəfdən isə öz alətlərinin köməyilə onların uğurla reallaşdırılmasına imkan verir.

2.Vaxt, prioritetlik (effektivlik göstəriciləri), yaranma konsepsiyası və biznes-proseslərin inteqrasiya dərəcəsi əlamətlərinə görə logistik strategiyaların təşkilatı təklif olunur. Bu təsnifat istehlakçıların missiyası və məqsədləri, həmçinin, logistik strategiyaların məqsədləri arasında uyğunluğun yaradılması üçün vacibdir.

## Ədəbiyyat

1. Al'bekov, A. U. (2002). *Kommercheskaya logistika: Uchebnik*. Feniks.
2. Atakişiyeva, X. (2025). Biznes problemlərinin həllində informasiya təminatının rolu və əhəmiyyəti. *Elmi Tədqiqat: Beynəlxalq Elmi Jurnal*, 5(4), 142–147.
3. Bauehrsoks, D. Dzh. (2001). *Logistika: Integrirovannaya tsep' postavok*. Olimp-Biznes.
4. Burakov, V. I. (2002). *Osnovy kommercheskoi logistiki: Uchebnoe posobie*. BGUEHP.
5. Berezhnev, V. I. (1997). *Metody i modeli logisticheskogo podkhoda k upravleniyu avtotransportnym predpriyatiem*. StavRGTU, Intellekt-servis.
6. Chebotaev, A. (1997). Vnedrenie logisticheskikh tekhnologii — vazhnyi faktor effektivnosti tovarodvizheniya v Rossii. *Byulleten' transportnoi informatsii: Informatsionno-referativnyi zhurnal Natsional'noi assotsiatsii transportnikov*, (6), 7–9.
7. Ivanov, D. A. (2006). *Logistika: Strategicheskaya kooperatsiya*. Vershina.
8. Məmmədov, M. X. (2025). Orta dəhlizin beynəlxalq ticarət və logistikadakı əhəmiyyəti. *Elmi Tədqiqat: Beynəlxalq Elmi Jurnal*, 5(9), 104–109.
9. Mövlanov, F. (2025). Texnologiya və iqtisadiyyat. *Elmi Tədqiqat: Beynəlxalq Elmi Jurnal*, 5(4), 113–120.
10. Sergeev, V. I. (2001). *Logistika v biznese: Uchebnik*. INFRA-M.
11. Tyapukhin, A. (2001). Logisticheskoe raspredelenie resursov. *RISK*, (2), 3.
12. Vikhanskii, O. S. (1998). *Strategicheskoe upravlenie*. Gardarika.

Daxil oldu: 01.06.2025
Qəbul edildi: 16.09.2025

ISSN: 3104-4670
e-ISSN: 2789-6919

DOI: https://doi.org/10.36719/2789-6919/50/91-94

**Agasalim Aliyev**
Khazar University
Master student
https://orcid.org/0009-0003-8227-8259
mr.agha.aliyev@gmail.com

# Environmental Regulation and its Impact on Economic Competitiveness in Azerbaijan

## Abstract

The article examines the impact of environmental regulation on economic competitiveness in Azerbaijan. In the context of globalization and sustainable development challenges, the study explores the effects of environmental legislation and regulatory frameworks on the business environment, investment attractiveness, and production costs. The findings indicate that while the implementation of environmental standards increases additional costs for enterprises in the short term, it also promotes innovation, efficient resource use, and export opportunities in the long run. In line with the green economy concept within Azerbaijan's economic development strategy, environmental regulations are highlighted as one of the key factors enhancing international competitiveness. The results demonstrate that a well-balanced environmental policy can stimulate sustainable development without negatively affecting economic growth and competitive dynamics.
***Keywords:*** *environmental regulation, economic competitiveness, Azerbaijan, sustainable development, green economy, environmental policy, innovation*

**Ağasəlim Əliyev**
Xəzər Universiteti
magistrant
https://orcid.org/0009-0003-8227-8259
mr.agha.aliyev@gmail.com

# Ətraf mühitin tənzimlənməsi və onun Azərbaycanda iqtisadi rəqabət qabiliyyətinə təsiri

## Xülasə

Məqalədə Azərbaycanda ekoloji tənzimləmələrin iqtisadi rəqabətqabiliyyətinə təsiri təhlil olunur. Qloballaşma və davamlı inkişaf çağırışları fonunda ətraf mühitin qorunması ilə bağlı qəbul edilən qanunvericilik və normativ aktların biznes mühitinə, investisiya cəlbediciliyinə və istehsal xərclərinə təsiri araşdırılır. Tədqiqatda ekoloji standartların tətbiqinin bir tərəfdən müəssisələrin əlavə xərclərini artırdığı, digər tərəfdən isə uzunmüddətli perspektivdə innovasiya, resurslardan səmərəli istifadə və ixrac imkanlarını genişləndirdiyi göstərilir. Azərbaycanın iqtisadi inkişaf strategiyasında yaşıl iqtisadiyyat konsepsiyasına uyğun olaraq, ekoloji tənzimləmələrin beynəlxalq rəqabət qabiliyyətini yüksəldən əsas amillərdən biri olduğu qeyd olunur. Nəticələr göstərir ki, düzgün balanslaşdırılmış ekoloji siyasət iqtisadi artım və rəqabət mühitinə mənfi təsir göstərmədən davamlı inkişafı stimullaşdıra bilər.
***Açar sözlər:*** *ekoloji tənzimləmə, iqtisadi rəqabətqabiliyyət, Azərbaycan, davamlı inkişaf, yaşıl iqtisadiyyat, ekoloji siyasət, innovasiya*

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Introduction

In recent decades, the relationship between environmental regulation and economic competitiveness has emerged as one of the central issues in the field of sustainable development and international economics. As global economies strive to balance rapid industrial growth with ecological preservation, the importance of regulatory frameworks that ensure environmental protection while maintaining a competitive economic environment has significantly increased. The challenge lies in finding the optimal balance between ecological sustainability and economic efficiency, as strict environmental standards are often perceived as constraints on business activities, whereas insufficient regulation may lead to ecological degradation and long-term economic risks (Janicke, 2008).

For developing countries such as Azerbaijan, which is undergoing structural economic transformation and gradually shifting towards the principles of a green economy, the role of environmental regulation is becoming increasingly critical. Azerbaijan's economic growth has historically been linked to its natural resource potential, particularly oil and gas. (Rasulova & Aliyev, 2017). At the same time, environmental regulations may have dual implications. On the one hand, enterprises face rising production costs due to the adoption of cleaner technologies, waste management systems, and compliance with ecological standards. This may reduce short-term profitability and create concerns among businesses. On the other hand, in the long-term perspective, environmental standards stimulate innovation, improve resource efficiency, open new opportunities for export-oriented industries, and enhance the overall competitiveness of the national economy. The so-called "Porter Hypothesis" also suggests that properly designed environmental regulations can increase competitiveness by encouraging firms to innovate and optimize resource use.

This paper seeks to analyze the effects of environmental regulation on Azerbaijan's economic competitiveness by examining both the challenges and opportunities it generates. It highlights how the introduction of environmental policies, while initially increasing operational costs, contributes to long-term economic resilience, innovation, and international market integration. Ultimately, this research aims to demonstrate that well-designed and effectively implemented environmental regulation can serve as a catalyst for sustainable development and strengthen Azerbaijan's position in the global economic landscape.

### Research

This research investigates the impact of environmental regulation on economic competitiveness in Azerbaijan, focusing on the relationship between ecological sustainability and long-term economic growth. The study examines how regulatory frameworks in the field of environmental protection influence business activities, investment attractiveness, innovation capacity, and integration into global markets (Wagner, 2001). The main purpose of the research is to analyze the existing environmental policies in Azerbaijan and to understand their effects on enterprises and the national economy as a whole. Special attention is given to both short-term and long-term implications of ecological standards. While such regulations often lead to higher production costs and require enterprises to adapt to new technological requirements, they also encourage innovation, resource efficiency, and export diversification, which in turn strengthen the country's competitiveness in the international arena (World Bank, 2014).

The methodology of the research is based on a combination of qualitative and quantitative approaches. Qualitative analysis includes the review of national legislation, strategic development documents, and international commitments that determine Azerbaijan's environmental policy. Comparative insights from international experience are also taken into account. Quantitative analysis is conducted through the evaluation of economic and environmental indicators, with a focus on the interrelation between environmental regulation, economic growth, investment flows, and sectoral performance. In addition, case studies from different industries such as energy, agriculture, and manufacturing illustrate the sector-specific effects of environmental regulation. Empirical data are complemented by expert opinions and insights gathered from business representatives and

policymakers to assess the practical impact of ecological standards on competitiveness (Rasulova & Aliyev, 2017).

The research is expected to contribute to the understanding of how environmental regulation can act not only as a constraint but also as a driver of economic competitiveness in resource-dependent economies. In the case of Azerbaijan, the study emphasizes that well-designed and balanced environmental policies can support innovation, energy efficiency, and sustainable resource use, while simultaneously enhancing the resilience and competitiveness of the national economy. The findings aim to provide a scientific basis for developing policy recommendations that align environmental sustainability with economic growth and ensure Azerbaijan's successful integration into the global economic system. The findings of the research reveal that environmental regulation in Azerbaijan exerts a multifaceted impact on the economy. In the short term, compliance with environmental standards requires additional financial resources from enterprises, particularly in sectors with high energy consumption and industrial emissions. These costs are often associated with technological modernization, waste management, and adherence to environmental monitoring requirements. As a result, some businesses, especially small and medium-sized enterprises, may perceive environmental regulation as a financial burden that reduces their competitiveness (World Bank, 2012).

However, the long-term effects suggest a more positive and transformative role of environmental regulation. The adoption of ecological standards stimulates technological innovation and encourages enterprises to optimize their production processes. Companies that integrate resource-efficient practices benefit from reduced operational costs over time, improved productivity, and access to international markets where environmental compliance is increasingly regarded as a prerequisite. This trend is particularly relevant for Azerbaijan, as its economy is diversifying beyond the traditional oil and gas sector and moving towards agriculture, renewable energy, and manufacturing industries.

Another significant finding is that environmental regulation strengthens Azerbaijan's integration into global economic systems (Porter & Linde, 1995; Porter, 1991). Compliance with international standards, such as those related to climate change commitments and sustainable development goals, enhances the country's reputation as a responsible economic partner. This, in turn, increases the attractiveness of Azerbaijan to foreign investors, particularly those seeking sustainable and environmentally responsible business environments.

## Conclusion

The research demonstrates that environmental regulation in Azerbaijan has both short-term challenges and long-term benefits for economic competitiveness. In the short run, compliance with ecological standards may impose additional financial burdens on enterprises, especially small and medium-sized businesses that struggle with the costs of technological modernization and environmental monitoring. However, in the long-term perspective, well-designed environmental policies stimulate innovation, resource efficiency, and export diversification, thereby enhancing overall competitiveness.

Azerbaijan's economy, traditionally reliant on the oil and gas sector, is now in transition toward diversification and a green economy model. Within this context, environmental regulation plays a crucial role in strengthening national economic resilience and aligning development with international sustainability commitments. Moreover, adherence to global environmental standards increases foreign investment attractiveness and improves the country's international image as a responsible economic partner.

The findings suggest that the success of environmental regulation depends on gradual implementation, policy balance, and strong state support mechanisms, including financial incentives, technical assistance, and research support. If these measures are effectively combined, environmental regulation can serve as a catalyst for both ecological sustainability and economic competitiveness, ultimately ensuring Azerbaijan's stronger integration into the global economic system.

## References

1. European Bank for Reconstruction and Development (EBRD). (2018). *Green Economy Transition — Lessons for Resource-Rich Countries*. EBRD Reports.
2. Janicke, M. (2008). *Environmental governance and political economy: Conceptual issues and empirical evidence*. Springer.
3. Lafferty, W. M., & Meadowcroft, J. (Eds.). (2000). *Implementing Sustainable Development: Strategies and Initiatives in High Consumption Societies*. Oxford University Press.
4. Porter, M. E., & van der Linde, C. (1995). Toward a new conception of the environment–competitiveness relationship. *Journal of Economic Perspectives*, 9(4), 97–118.
5. Porter, M. E. (1991). America's green strategy. *Harvard Business Review*, 69(4), 97–108.
6. Rasulova, N., & Aliyev, R. (2017). *Environmental Policy and Economic Diversification in Azerbaijan*. Elm və Təhsil Publishing.
7. Republic of Azerbaijan. Law on Environmental Protection. Official Legal Documents.
8. Stokke, O.-S., & Widerberg, O. (2015). Transnational public-private partnerships in global environmental governance: Picking up the pieces? *International Environmental Agreements: Politics, Law and Economics*, 15(1), 3–18.
9. United Nations Development Programme (UNDP). (2016). *Green Growth in Azerbaijan: Opportunities and Policy Options*. UNDP Azerbaijan Report.
10. World Bank. (2014). *Azerbaijan: Country Environmental Analysis*. World Bank Country Report.
11. Wagner, M. (2001). A note on the Porter hypothesis: The role of interference costs. *Ecological Economics*, 39(1), 67–75.
12. World Bank. (2012). *Inclusive Green Growth: The Pathway to Sustainable Development*. World Bank Publications.

Received: 31.05.2025
Approved: 14.09.2025

DOI: https://doi.org/10.36719/2789-6919/50/95-98

**Tusi Məhərrəmzadə**
Bakı Dövlət Universiteti
https://orcid.org/0009-0009-3760-4434
mhrrmzadet@gmail.com

# Siyasi-iqtisadi sanksiyaların tətbiqi prosesində insan haqlarının qorunmasına yeni yanaşmalar

**Xülasə**

Bu elmi məqalədə müasir dövrdə qloballaşmanın siyasi və iqtisadi əlaqələrə göstərdiyi təsirləri, eləcə də bu çərçivədə beynəlxalq sanksiyaların aktuallığını eləcədə insan haqlarının qorunması məsələsini analitik baxımdan təhlil etməyə yönəlmişdir. Qloballaşma ilə bağlı beynəlxalq qarşılıqlı əlaqələrin daha da güclənməsi, tətbiq edilən sanksiyaların təsirini yalnız hədəf dövlətlərlə məhdudlaşdırmır, həm də qlobal və regional səviyyələrdə institusional dəyişikliklərə yol açır. Hazırda beynəlxalq hüququn qeyri-hərbi məcburiyyət alətlərindən biri kimi çıxış edən sanksiyaların icra mexanizmləri, hüquqi əsasları və humanitar nəticələri bir çox hallarda hüquqşünaslar və siyasətçilər arasında fikir ayrılığına səbəb olur. Məqalədə siyasi və iqtisadi sanksiyaların təsnifatı, hüquqi əsasları və beynəlxalq təşkilatların tətbiq siyasətləri (BMT, Avropa İttifaqı, Afrika İttifaqı, ABŞ və s.) sistemli şəkildə təhlil edilmişdir. Beynəlxalq təşkilatların sanksiya siyasətləri hüquqi baza, icra mexanizmi və effektivlik baxımından müqayisə olunmuş, sanksiyaların insan hüquqları və vətəndaş cəmiyyətinə təsiri geniş şəkildə təhlil edilmişdir.

Bu tədqiqatın nəticələri göstərir ki, beynəlxalq sanksiyalar təkcə siyasi təsir alətləri kimi deyil, həm də beynəlxalq hüququn daha geniş institusional mənzərəsi çərçivəsində struktur məqsədə xidmət edir. Buna baxmayaraq, onların sosial və humanitar nəticələrinin minimuma endirilməsi və əsas hüquqi standartların gücləndirilməsi daha şəffaf, əhatəli və səmərəli idarəetmə mexanizmlərinin həyata keçirilməsini tələb edir. Tədqiqatın nəticələri beynəlxalq hüquqi çərçivələri inkişaf etdirmək və insan hüquqlarının ümumi müdafiəsini gücləndirmək üçün dəyərli fikirlər təklif edir.

***Açar sözlər:*** *beynəlxalq hüquqi çərçivələr, beynəlxalq sanksiyalar, insan hüquqları, iqtisadi məhdudiyyətlər, hüquqi baza*

**Tusi Maharramzadeh**
Baku State University
https://orcid.org/0009-0009-3760-4434
mhrrmzadet@gmail.com

# New Approaches to Protecting Human Rights in the Process of Applying Political and Economic Sanctions

**Abstract**

This scientific article aims to analyze the effects of globalization on political and economic relations in the modern era, as well as the relevance of international sanctions in this context, as well as the issue of protecting human rights from an analytical perspective. The further strengthening of international interactions related to globalization does not limit the impact of the sanctions applied only to the target states, but also opens the way to institutional changes at the global and regional levels. Currently, the implementation mechanisms, legal bases and humanitarian consequences of sanctions, which act as one of the non-military coercive instruments of international law, often cause disagreements between lawyers and politicians.

The article systematically analyzes the classification of political and economic sanctions, their legal bases and the implementation policies of international organizations (UN, European Union,

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

African Union, USA, etc.). The sanctions policies of international organizations are compared in terms of legal basis, implementation mechanism and effectiveness, and the impact of sanctions on human rights and civil society is widely analyzed.

The results of this study show that international sanctions serve not only as instruments of political influence, but also serve a structural purpose within the broader institutional landscape of international law. However, minimizing their social and humanitarian consequences and strengthening basic legal standards requires the implementation of more transparent, inclusive and effective governance mechanisms. The results of the study offer valuable insights for developing international legal frameworks and strengthening the overall protection of human rights.

***Keywords:*** *international legal frameworks, international sanctions, human rights, economic restrictions, legal framework*

## Giriş

Müasir beynəlxalq münasibətlər sistemində siyasi və iqtisadi sanksiyalar dövlətlərin və beynəlxalq təşkilatların beynəlxalq hüquq normalarını pozan, sülh və təhlükəsizliyə təhdid yaradan və ya insan hüquqlarını pozan subyektlərə qarşı həyata keçirdikləri qeyri-hərbi xarakterli məcburetmə tədbirləridir. Sanksiyalar dövlətlərarası münaqişələrin idarə olunmasında, beynəlxalq hüququn icrasında və qlobal etik dəyərlərin müdafiəsində mühüm vasitə rolunu oynayır. Onlar siyasi təzyiqin, iqtisadi izolyasiyanın və hüquqi məhdudiyyətlərin kombinasiyası şəklində tətbiq oluna bilər. Sanksiyaların tətbiqinin əsas məqsədi müəyyən bir davranış modelinə təsir göstərmək və hədəf subyekti beynəlxalq hüquqa, insan hüquqları normalarına və beynəlxalq təşkilatların qərarlarına əməl etməyə məcbur etməkdir. Bununla yanaşı, sanksiyalar vasitəsilə beynəlxalq ictimaiyyət bir növ siqnal verir ki, hüquq pozuntuları və ya təcavüzkar davranışlar cəzasız qalmayacaqdır.

**Tədqiqat**

Sanksiyaların tətbiqi prosesində insan haqlarının qorunması məsələsi. Sanksiyaların tətbiqi üçün əsas hüquqi çərçivə BMT Nizamnaməsinin VII fəslində müəyyən olunmuşdur. Bu fəslin 41-ci maddəsinə əsasən, Təhlükəsizlik Şurası beynəlxalq sülhə təhdid yaradan hallarda hərbi olmayan məcburetmə tədbirləri – o cümlədən iqtisadi, diplomatik və maliyyə sanksiyalarının tətbiqinə qərar verə bilər. Bu sanksiyalar BMT-yə üzv dövlətlər üçün məcburi xarakter daşıyır və beynəlxalq hüququn aliliyinə əsaslanır. Bu baxımdan, yalnız BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul olunmuş sanksiyalar mübahisəsiz beynəlxalq legitimliyə malik sayılır. Digər tərəfdən, sanksiyaların tətbiqi dövlətlərin daxili işlərinə qarışmamaq və suverenliyə hörmət prinsipi ilə ziddiyyət təşkil etməməlidir. BMT Nizamnaməsinin 2(7)-ci maddəsinə uyğun olaraq, BMT və onun orqanları dövlətlərin daxili yurisdiksiyasına müdaxilə etməməli və bu prinsipi pozacaq tədbirlər görməməlidir. Bu prinsip sanksiyaların yalnız beynəlxalq hüquqi çərçivədə və kollektiv şəkildə tətbiqinin vacibliyini göstərir. Birtərəfli və ya koalisiya əsaslı sanksiyalar bu səbəbdən hüquqi mübahisələrə səbəb olur və bir çox hallarda qeyri-legitim hesab edilir (Biersteker & Eckert, 2008, s. 5).

Sanksiyaların hüquqi qiymətləndirilməsi zamanı onların insan hüquqlarına təsiri də nəzərə alınmalıdır. Beynəlxalq insan hüquqları sənədləri – xüsusilə Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (1948), Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Pakt (1966) və İqtisadi, Sosial və Mədəni Hüquqlar Haqqında Beynəlxalq Pakt (1966) – bu sahədə əsas hüquqi çərçivəni təşkil edir. Sanksiyalar nəticəsində mülki əhalinin ərzaq, dərman, enerji və digər əsas ehtiyaclara çıxış imkanlarının məhdudlaşdırılması bu hüquqların pozulması kimi qiymətləndirilə bilər. Bu baxımdan, sanksiyaların tətbiqi zamanı humanitar istisnaların təmin olunması beynəlxalq hüququn tələbidir. Siyasi-iqtisadi sanksiyalar müasir beynəlxalq münasibətlərdə yalnız siyasi təzyiq vasitəsi kimi deyil, həm də qlobal iqtisadi sabitliyə təsir edən ciddi bir mexanizm kimi çıxış edir.

Bu sanksiyalar müəyyən dövlətlərin beynəlxalq hüquq normalarını pozan və ya insan hüquqlarını kobud şəkildə pozan davranışlarına cavab olaraq tətbiq edilir. Onlar, bir qayda olaraq, ticarət, maliyyə, enerji və investisiya sahələrini hədəfə alır və bu səbəbdən də təsir dairəsi yalnız bir ölkə ilə məhdudlaşmır. Beynəlxalq iqtisadi sistemdə, xüsusilə də tədarük zəncirləri, enerji bazarları və maliyyə axınlarında geniş rezonans doğurur. İqtisadçı A.Giddens qeyd edir ki, çağdaş qloballaşma

şəraitində bir ölkəyə qarşı tətbiq olunan iqtisadi sanksiyalar, həmin ölkənin regional və qlobal inteqrasiyada oynadığı rola görə bütöv iqtisadi sistemdə zəncirvari təsir yarada bilər. Sanksiyaların insan hüquqlarına təsiri yalnız hüquqi və sosial müstəvidə deyil, eyni zamanda psixososial, mədəni və struktur baxımdan da çoxşaxəli və dərin nəticələrə səbəb olur.

Ənənəvi yanaşmalarda bu təsirlər əsasən ərzaq, dərman və tibbi xidmətlərə çıxış imkanları ilə məhdudlaşdırılsa da, müasir yanaşmalar göstərir ki, sanksiyalar cəmiyyətin psixoloji sağlamlığına, vətəndaş iştirakçılığına və hüquqi institutların dayanıqlılığına da ciddi təsir göstərir. İqtisadi təzyiq şəraitində yaşayan əhali qrupları arasında sosial stress, depressiv hallar və ümidsizlik sindromu artır. Bu hallar cəmiyyətin ümumi motivasiyasını azaldır, sosial qarşılıqlı etimadı zəiflədir və hüquqların müdafiəsi üçün zəruri olan vətəndaş cəmiyyətini passivləşdirir. Psixoloji zəifləmə eyni zamanda gənc nəslin təhsil və inkişaf imkanlarını məhdudlaşdırır, nəsillərarası sosial bərabərsizliyi dərinləşdirir.

Beləliklə, sanksiyaların təsiri yalnız cari dövr üçün deyil, uzunmüddətli dövrdə də insan hüquqları kontekstində mənfi nəticələr doğurur. Sanksiyalar beynəlxalq ictimaiyyət tərəfindən hüquq pozuntularına cavab olaraq istifadə olunan qeyri-hərbi vasitə olsa da, onların insan hüquqları üzərində yaratdığı təsirlər çox zaman müzakirəyə açıq və ziddiyyətli olur (Abdulkarim & Musa, 2023; Şəkərəliyev, 2009; Hacıyeva & Məmmədov, 2023).

Bu tədbirlər ilkin olaraq siyasi və ya hərbi qərarverici strukturları hədəfləsə də, praktikada onların təsiri daha geniş sosial təbəqələrə, xüsusilə də əhalinin zəif və həssas təbəqələrinə yönəlir. Nəticədə, sanksiyalar bir çox fundamental insan hüquqlarının pozulmasına səbəb olur. Ən çox təsirə məruz qalan hüquqlar sırasında sağlamlıq, qida, təhsil və yaşayış hüquqları xüsusi yer tutur. Sanksiyalar nəticəsində idxal və maliyyə əməliyyatlarının məhdudlaşdırılması ərzaq və dərman təminatında ciddi çatışmazlıqlara gətirib çıxarır. Məsələn, İran üzərinə tətbiq olunan beynəlxalq sanksiyalar nəticəsində 2019-cu ildə ölkədə xərçəng və talassemiya xəstələrinin müalicəsində istifadə olunan dərmanların çatışmazlığı 30%-ə qədər artmışdır (Səmədov, 2024, s. 53).

Siyasi və iqtisadi sanksiyalar beynəlxalq münasibətlərdə qeyri-hərbi təzyiq vasitəsi kimi istifadə edilsə də, onların mülki əhali üzərində yaratdığı humanitar təsirlər sanksiyaların effektivliyinə və legitimliyinə dair ciddi suallar doğurur. Humanitar böhran – geniş əhali qruplarının ərzaq, su, tibbi yardım, sığınacaq və digər əsas xidmətlərə çıxış imkanının məhdudlaşması ilə müşayiət olunan ciddi sosial fəsadlar toplusudur. Bu vəziyyət, sanksiyalar nəticəsində dövlətlərin iqtisadi və institusional imkanlarının zəifləməsi fonunda daha da kəskinləşir. Sanksiyalar beynəlxalq hüquqa əsaslansa da, onların tətbiqi zamanı humanitar hüquq prinsipləri, xüsusilə də "mütənasiblik" və "mülki əhalinin qorunması" meyarları hər zaman nəzərə alınmır.

Nəticədə, bir çox hallarda sanksiyalar nəzərdə tutulan siyasi rejimləri hədəf almaq əvəzinə, əhalinin rifah səviyyəsinə, səhiyyə sisteminə, təhsil imkanlarına və ərzaq təhlükəsizliyinə ciddi zərər vurur (Əliyev, 2019; İbadov, 2024; Baylis, Smith & Owens, 2020). Bu təsirlər həm də qaçqın axınının artması, regional qeyri-sabitliyin dərinləşməsi və sosial strukturun zəifləməsi ilə nəticələnə bilər. İqtisadi sanksiyalar beynəlxalq münasibətlər sistemində qeyri-hərbi təzyiq aləti kimi geniş tətbiq olunur. Onların əsas məqsədi hüquq pozuntularına yol verən dövlətlərin davranışlarını dəyişmək və beynəlxalq hüquq normalarına əməl edilməsinə nail olmaqdır. Lakin çox vaxt bu alətlərin tətbiqi nəticəsində ortaya çıxan sosial və institusional təsirlər gözlənilən nəticələri doğurmur və əksinə, vətəndaş cəmiyyəti strukturlarını zəiflədir.

Müasir dövrdə qloballaşmanın iqtisadi, siyasi və hüquqi münasibətlərə göstərdiyi çoxşaxəli təsirlər sanksiya siyasətində də ciddi dəyişikliklərə səbəb olmuşdur. Artıq dövlətlərarası qarşılıqlı asılılıqlar, transsərhəd kapital və informasiya axınları, qlobal tədarük zəncirlərinin mürəkkəbliyi klassik sanksiya mexanizmlərinin effektivliyini zəiflədir.

Digər tərəfdən, insan hüquqlarının beynəlxalq hüquqda mərkəzi yer tutması, sanksiya tədbirlərinin bu hüquqlarla uyğunlaşdırılmasını zəruri edir. Bu kontekstdə sanksiyaların həm hüquqi-legitim əsaslar baxımından, həm də sosial humanitar nəticələrə görə yenidən qiymətləndirilməsi vacib sayılır. Müasir beynəlxalq münasibətlərdə sanksiyalar əsasən insan hüquqlarının müdafiəsi, beynəlxalq hüquq normalarının icrası və təhlükəsizliyin təmin olunması məqsədilə tətbiq edilir (Hacıyeva & Məmmədov, 2023; Mustafayeva, 2024; Şəkərəliyev, 2009; Baylis, Smith & Owens,

2020; Bazzani, Ferrari-Visca & Bindschedler, 2024). Lakin normativ baza ilə praktiki mexanizmlər arasında yaranan uyğunsuzluqlar bu vasitənin legitimliyini və effektivliyini sual altına alır. Bu səbəbdən, sanksiyaların insan hüquqları ilə uyğunluğunun təmin olunması üçün yeni hüquqi-nəzarət mexanizmlərinin inkişaf etdirilməsi zəruridir.

## Nəticə

Beynəlxalq hüququn əsas prinsiplərindən biri hüququn mübahisəsiz tətbiqidir. Lakin siyasi-iqtisadi sanksiyaların tətbiqi hallarında bu prinsipin pozulması istisna deyil. BMT Nizamnaməsi və Avropa İnsan Hüquqları Konvensiyası kimi əsas hüquqi sənədlərdə sanksiyaların məqsədyönlü və proporsional olması tələb olunsa da, praktikada sanksiyalarla insan hüquqları arasında konflikt hallarına tez-tez rast gəlinir. Bu səbəbdən hüquq müdafiə institutları ilə sanksiya siyasəti arasında koordinasiya zərurəti yaranır. Əsas diqqət tələb edən istiqamətlərdən biri "əvvəlcədən hüquqi rəylərin alınması" mexanizmidir. Belə ki, hər hansı sanksiya tətbiq olunmazdan öncə beynəlxalq hüquq üzrə müstəqil ekspert qrupları tərəfindən hüquqi əsaslandırılmış rəy hazırlanmalı və bu rəydə sanksiyanın insan hüquqlarına təsiri konkret şəkildə qiymətləndirilməlidir. Məsələn, Avropa İttifaqının Xarici Fəaliyyət Xidməti (EEAS) nəzdində yaradılmış müvəqqəti hüquqi qrup 2021-ci ildə Myanmara qarşı tətbiq edilən fərdi sanksiyalarla bağlı hüquqi uyğunsuzluqları aşkar etmiş və bunun nəticəsində sanksiyalar yenidən qiymətləndirilmişdir. Həmçinin, sanksiyalara məruz qalan dövlətlərin vətəndaş-larının hüquqlarının müdafiəsi məqsədilə regional hüquqi ombudsman institutlarının səlahiyyətləri genişləndirilməlidir.

## Ədəbiyyat

1. Abdulkarim, A., & Musa, I. G. (2023, December). The legitimacy of international law: Challenges and the emerging issues. *Journal of Global Social Science,* 4(16), 14–34.
2. Baylis, J., Smith, S., & Owens, P. (2020). *The globalization of world politics: An introduction to international relations* (8th ed.). Oxford University Press.
3. Bazzani, C., Ferrari-Visca, R., & Bindschedler, S. (2024, September 20). Sanctions: Switzerland. In *ICLG - Sanctions 2025* (Switzerland Chapter).
4. Biersteker, T. J., & Eckert, S. (2008). *Countering the financing of terrorism*. Routledge.
5. Elm və Təhsil Nazirliyi. İnformasiya Texnologiyaları İnstitutu. (2025). *Yaşıl və rəqəmsal transformasiyalar: Qarşılıqlı təsirləri, pozitiv və neqativ aspektləri. Məqalələr toplusu*.
6. Əliyev, R. Z. (2019). İqtisadi sanksiyaların tətbiqini tənzim edən beynəlxalq hüquqi normalar. *İctimai Elmlər üzrə Hüquqi Araşdırmalar Jurnalı*, (61), 24–32.
7. Hacıyeva, A., & Məmmədov, M. (2023). *Dünya iqtisadiyyatı. Dərs vəsaiti.* Azərbaycan Dövlət İqtisad Universiteti.
8. İbadov, Ş. B. (2024). *Qloballaşma və onun müasir siyasi proseslərə təsiri*.
9. Mustafayeva, S. (2024). "New English" in a globalizing world. *VII Beynəlxalq Elmi Konfransın materialları: "Heydər Əliyev: Multikulturalizm və dözümlülük ideologiyası" (Ümummilli liderin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş konfrans)*.
10. Səmədov, C. (2024). Xarici siyasi təzyiq vasitəsi kimi iqtisadi sanksiyaların tətbiqi və nəticələri. *Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal*, (5), 83–92.
11. Süleymanova, E., & Əliyev, Z. (2014). *İnsan hüquqları: Mühazirələr toplusu. Dərs vəsaiti.*
12. Şəkərəliyev, A. Ş. (2009). *Dövlətin iqtisadi siyasəti: Reallıqlar və perspektivlər*.

Daxil oldu: 03.07.2025
Qəbul edildi: 14.10.2025

DOI: https://doi.org/10.36719/2789-6919/50/99-103

**Əli Qafarlı**
Azərbaycan Turizm və Menecment Universiteti
magistrant
https://orcid.org/0009-0008-4839-2505
aligafarli123@gmail.com

# Qonaqpərvərlik sənayesində rəqəmsal risklərin azaldılmasında AI və Bulud sistemlərinin əhəmiyyəti

**Xülasə**

Bu məqalə qonaqpərvərlik sənayesində süni intellekt (AI) və bulud texnologiyalarının inteqrasiyasını təhlükəsizlik və məxfiliyi artırmaq məqsədilə araşdırır. Məqalədə otaqlara təhlükəsiz giriş üçün üz tanıma, ağıllı video nəzarət və onlayn əməliyyatlarda fırıldaqçılığın aşkarlanması kimi AI tətbiqləri təhlil edilir. Bundan əlavə, məlumatların şifrələnmiş saxlanması, idarə edilməsi və fəlakətdən bərpa üçün bulud əsaslı sistemlər müzakirə olunur. Məxfilik məsələləri və GDPR, CCPA kimi tənzimləmələrə uyğunluq kimi əsas çağırışlar, həmçinin, kvant şifrələmə kimi gələcək tendensiyalar da nəzərdən keçirilir. Həmçinin, hadisə araşdırmaları və müqayisəli təhlillər rəqəmsal riskləri minimuma endirərkən qonaqlar üçün fasiləsiz və səmərəli təcrübə təmin etmək üçün praktik tövsiyələr təqdim edir.

***Açar sözlər:*** *süni intellekt, bulud hesablama, qonaqpərvərlik təhlükəsizliyi, üz tanıma, şifrələnmiş saxlama, kiber təhlükəsizlik, rəqəmsal risk idarəçiliyi, kvant şifrələmə, ağıllı video nəzarət*

**Ali Gafarli**
Azerbaijan Tourism and Management University
Master student
https://orcid.org/0009-0008-4839-2505
aligafarli123@gmail.com

# The Importance of AI and Cloud Systems in Reducing Digital Risks in the Hospitality Industry

**Abstract**

This study explores how artificial intelligence (AI) and cloud computing are being integrated into the hospitality sector to strengthen security and protect privacy. It reviews AI-based solutions, including facial recognition for secure room entry, smart video monitoring, and online transaction fraud detection. The paper also examines cloud-based platforms for encrypted data storage, management, and disaster recovery. Key issues such as privacy concerns and regulatory compliance with standards like GDPR and CCPA are discussed, along with emerging technologies like quantum encryption. Through case studies and comparative analysis, the research offers practical guidance for reducing digital risks while delivering seamless and efficient experiences to guests.

***Keywords:*** *artificial intelligence, cloud computing, hospitality security, facial recognition, encrypted data storage, cybersecurity, digital risk management, quantum encryption, smart video monitoring*

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Giriş

Qonaqpərvərlik sənayesi fərdiləşdirilmiş təcrübələr və xidmətlər təqdim etmək üçün şəxsi məlumatlara böyük dərəcədə güvənir. Lakin belə məlumatların toplanması və istifadəsi ciddi etik məsələləri gündəmə gətirir. Qonaqlar bizneslərə əlaqə məlumatları, ödəniş məlumatları və üstünlüklər kimi həssas məlumatlarını etibar edirlər, bu isə onların sui-istifadəsinin və ya məlumat pozuntularının qarşısını almaq üçün diqqətli yanaşma tələb edir. Etik məlumat toplama prosesi məlumat sahiblərinin məlumatlı razılığını almaq, məlumatların necə istifadə olunacağı barədə şəffaflığı təmin etmək və yalnız lazım olan məlumatları toplamaq prinsiplərinə riayət etməyi əhatə edir. Şəffaflığı qorumaq üçün müəssisələr topladıqları məlumatların nə üçün lazım olduğunu və necə qorunacağını açıq şəkildə göstərən aydın məlumat istifadə siyasətlərini qəbul edə bilərlər. Məxfilik yönümlü kommunikasiya, görünən razılıq mexanizmləri və məxfilik siyasətlərinin müntəzəm yenilənməsi kimi strategiyalar qonaqların etibarını qurmağa kömək edir. Qonaqlara öz məlumatları üzərində nəzarət imkanı, məsələn, məlumatları silmək və ya dəyişdirmək imkanı vermək, daha böyük məsuliyyət təmin edir və məlumat idarəetməsində etik praktikalarla uyğunlaşır.

**Tədqiqat**

Qonaqpərvərlik sənayesi, süni intellekt (AI), bulud texnologiyaları kimi qabaqcıl texnologiyaların tətbiqi ilə əhəmiyyətli bir rəqəmsal transformasiya prosesindən keçir. Bu innovasiyalar qonaq təcrübələrini köklü şəkildə dəyişərək fərdiləşdirilmiş xidmətlərin göstərilməsinə, asan rezervasiya imkanlarına və səmərəli əməliyyatlara şərait yaradır. Süni intellekt əsaslı çatbotlar, bulud əsaslı idarəetmə sistemləri və ağıllı otaqlar, texnologiyanın sənayeni necə yenidən formalaşdırdığının bəzi nümunələridir. Lakin bu rəqəmsal inkişaf eyni zamanda, müəyyən çətinlikləri də gətirib, xüsusilə, təhlükəsizlik və məxfilik sahəsində. Qarışıq və bir-birinə bağlı sistemlərin inteqrasiyası ilə qonaqların şəxsi məlumatları, ödəniş detalları və davranış üstünlükləri kimi həssas məlumatlar rəqəmsal şəkildə saxlanılır və ötürülür. Bu sistemlər kiberhücumlara, məlumat sızmalarına və icazəsiz girişlərə qarşı həssasdır, bu isə güclü kiber təhlükəsizlik çərçivələrinə olan tələbi artırır. Bu sistemlərin təhlükəsizliyi və məxfiliyini təmin etmək həm sənayenin, həm də müştərilərin qorunması üçün əsasdır.

Kiber təhlükəsizlik və məxfilik qonaqpərvərlik sənayesində müzakirə olunmaz prioritetlərə çevrilib. Son illərdə baş verən yüksək səviyyəli təhlükəsizlik pozuntuları, məlumatların pozulmasının dağıdıcı nəticələrini – maliyyə itkilərini, reputasiyanın zədələnməsini və müştəri etibarının azalmasını açıq şəkildə göstərib. Rəqəmsal platformalara yüksək dərəcədə asılılıq nəzərə alınaraq, hətta bir tək hadisə də qonaqların etibarını sarsıda və uzunmüddətli reputasiya zərərlərinə səbəb ola bilər. Qonaqların etimadı qonaqpərvərlik sektorunda uğurun təməl daşlarından biridir (Surendra, 2023, s. 417). Səyahətçilər otellərə, kurortlara və onlayn rezervasiya platformalarına həssas şəxsi və maliyyə məlumatlarını etibar edirlər. Sənayenin bu məlumatları qoruma qabiliyyəti yalnız qanunvericilik tələblərinə riayət etmək üçün deyil, həm də rəqabət üstünlüyünü saxlamaq üçün həyati əhəmiyyət kəsb edir. Effektiv kiber təhlükəsizlik tədbirləri və şəffaf məxfilik praktikaları bu etimadın qorunması və qonaqpərvərlik sənayesinin rəqəmsal dövrdə inkişaf etməsi üçün vacibdir.

Ümumilikdə isə, müasir dövrdə turizmin inkişafını göz önündə saxlayaraq istər turizm şirkətləri səviyyəsində, istərsə də otelçilik biznesində təhlükəsizlik mühüm əhəmiyyət kəsb edir. Bu xüsusda hansı təhlükəsizlik tədbirlərinin görülməsi ilə bağlı məqamlara diqqət etmək lazımdır? Bunlara misal olaraq, ilk öncə müasir dövrümüzün ən çox müraciət edilən süni intellekt əsaslı proqramlarını qeyd edə bilərik. Süni intellekt əsaslı üz tanıma sistemləri qonaqpərvərlik sənayesində otaqlara giriş üsullarını inqilabi şəkildə dəyişir və təmassız, təhlükəsiz, səmərəli giriş imkanı yaradır. Bu sistemlər inkişaf etmiş alqoritmlər vasitəsilə üz xüsusiyyətlərini saxlanmış məlumatlarla müqayisə edərək yalnız səlahiyyətli qonaqların otaqlarına girişinə icazə verir. Fiziki açar və ya kartlardan istifadə ehtiyacını aradan qaldırmaqla, bu texnologiyalar itmiş və ya oğurlanmış giriş məlumatlarının riskini azaldır və təhlükəsizliyi artırır. Təhlükəsizliyin artırılmasının yanında, üz tanıma qonaqlar üçün böyük rahatlıq təmin edir. Bu, qeydiyyat prosesini sadələşdirərək müasir dövrün sürətli və səmərəli xidmət gözləntilərinə uyğun hamar bir təcrübə təqdim edir (Əlirzayev, 2010; Əliquliyev, 1013). Bundan əlavə, bu sistemlər ağıllı otaq texnologiyaları ilə yaxşı inteqrasiya olunur və qonaq daxil

olduqda işıqlandırma, temperatur və əyləncə üstünlükləri kimi fərdiləşdirilmiş parametrləri avtomatik olaraq tənzimləyərək ümumi qonaq təcrübəsini daha da yaxşılaşdırır.

Süni intellektlə təkmilləşdirilmiş video nəzarət sistemləri qonaqpərvərlik mühitlərində təhdidlərin aşkar edilməsi və idarə olunma üsullarını dəyişdirir (Surendra, 2023, s. 415; Smith, Patel & Kim, 2020). Ənənəvi nəzarət sistemlərindən fərqli olaraq, AI əsaslı sistemlər maşın öyrənmə alqoritmlərindən istifadə edərək qeyri-adi nümunələri müəyyən edir, potensial təhdidləri tanıyır və təhlükəsizlik personalına real vaxt rejimində xəbərdarlıqlar göndərir. Bu proaktiv yanaşma reaksiya müddətlərini əhəmiyyətli dərəcədə azaldır və təhlükəsizlik tədbirlərinin effektivliyini artırır. AI əsaslı nəzarətin əsas üstünlüklərindən biri onun zamanla öyrənmə və adaptasiya qabiliyyətidir. Bu sistemlər gündəlik fəaliyyətlə potensial şübhəli davranışları ayırd edə bilir, yanlış xəbərdarlıqların sayını azaldır və təhdidlərin daha dəqiq aşkarlanmasını təmin edir. Məsələn, AI məhdudlaşdırılmış sahələrdə dolaşan şəxsləri və ya izdihamlı ərazilərdə tərk edilmiş əşyaları müəyyən edə bilər. Bu səviyyədə ağıllı texnologiya həm qonaqların təhlükəsizliyini, həm də əməliyyat effektivliyini artırır. AI əsaslı nəzarət iş axını diaqramı süni intellektlə təchiz olunmuş qabaqcıl təhlükəsizlik sistemlərinin addım-addım işləmə prosesini vizual şəkildə göstərir. Proses nəzarət kameralarından alınan videomәlumatlar ilə başlayır və daha sonra nümunələrin tanınması və davranış analizini həyata keçirən AI emalı mərhələsi ilə davam edir. Sistem potensial təhdidləri müəyyən edir və təhlükəsizlik komandalarına real vaxt rejimində xəbərdarlıqlar göndərir, bu da personalın sürətli reaksiya verməsinə imkan yaradır. Bu diaqram təhlükəsizliyin təmin edilməsi üçün texnologiya və insan müdaxiləsinin problemsiz inteqrasiyasını vurğulayır. AI əsaslı anomaliya aşkarlama sistemləri əməliyyat proseslərində qeyri-adi nümunələri və ya şübhəli davranışları müəyyən etməkdə mühüm rol oynayır (Jones & Wang, 2021; Kaspersky, 2021; Lee & Park, 2022). AI böyük həcmdə məlumatları real vaxt rejimində təhlil edərək potensial təhlükəsizlik təhdidlərini göstərə biləcək anomaliyaları aşkarlaya bilir, məsələn, icazəsiz giriş cəhdləri, qeyri-adi əməliyyatlar və ya qorunan sahələrdə anormal hərəkət nümunələri. Otellərin idarəetmə şöbələrində işçi fəaliyyətlərinin və giriş qeydiyyatlarının izlənməsi üçün istifadə olunan sistemlər buna nümunədir. Bu sistemlər həssas sahələrə qeyri-adi girişləri qeyd edərək rəhbərliyi potensial təhlükəsizlik pozuntularını araşdırmağa xəbərdar edə bilər. Eyni zamanda, anomaliya aşkarlama rəqəmsal əməliyyatlarda fırıldaqçılıq fəaliyyətlərini müəyyən etmək üçün də tətbiq oluna bilər, məsələn, qeyri-adi sayda rezervasiya ləğvləri və ya anormal ödəniş nümunələri. Anomaliya aşkarlamanın inteqrasiyası yalnız təhlükəsizliyi artırmaqla qalmır, həm də risklərin proaktiv idarə olunmasına şərait yaradır. Problemləri erkən müəyyən edib həll etməklə, qonaqpərvərlik müəssisələri potensial insidentlərin qarşısını ala və qonaqlarının təhlükəsizliyini təmin edə bilər.

Digər texnologiya isə Cloud, yəni bulud texnologiyalarıdır. Bulud texnologiyalarının meydana gəlməsi son illər informasiya texnologiyaları sənayesinə böyük təsir göstərmişdir (Əliquliyev, 2013, s. 3; Rzayev, 2023). Bulud texnologiyaları qonaqpərvərlik sənayesində müştəri məlumatlarının qorunmasında əvəzolunmaz rol oynayır. Bu sistemlər həssas məlumatların, məsələn, şəxsi detalları, ödəniş məlumatlarını və rezervasiya tarixçəsini həm ötürülmə zamanı, həm də saxlanma zamanı qorumaq üçün qabaqcıl şifrələmə üsullarından istifadə edirlər. Şifrələmə məlumatların icazəsiz əldə edilməsinə və ya tutulmasına baxmayaraq oxunmaz və təhlükəsiz qalmasını təmin edir. Çoxfaktorlu autentifikasiya (MFA) isə istifadəçilərin öz kimliklərini bir neçə vasitə ilə, məsələn, şifrələr, biometrik məlumatlar və ya bir dəfəlik kodlar vasitəsilə təsdiqləməsini tələb edərək məlumatlara giriş təhlükəsizliyini daha da gücləndirir. Bu çoxqatlı yanaşma icazəsiz giriş riskini minimuma endirir və həssas məlumatların qorunmasını təmin edir. Şifrələmə və MFA-nın inteqrasiyası ilə bulud platformaları qonaq məlumatlarını qorumaq üçün güclü bir çərçivə təqdim edir. Bulud platformaları qonaqpərvərlik müəssisələrinin ehtiyaclarına uyğunlaşdırıla bilən çevik məlumat idarəetmə həlləri təqdim edir. Mərkəzləşdirilmiş sistemlər bütün qonaq məlumatlarını vahid verilənlər bazasında birləşdirərək onlara asan çıxış və məlumatların ardıcıllığını təmin edir. Bu yanaşma xüsusilə bir neçə filialı olan böyük otel zəncirləri üçün faydalıdır, çünki müxtəlif yerlərdən gələn məlumatların sinxronlaşdırılması və əlçatanlığı asanlaşdırılmalıdır. Əksinə, desentralizə olunmuş sistemlər məlumatları bir neçə server arasında paylayaraq tək nöqtəli nasazlıq riskini azaldır və məlumatların ehtiyat

nüsxələnməsini artırır. Hər iki yanaşma müasir bulud platformalarının güclü təhlükəsizlik xüsusiyyətlərindən faydalanır, məsələn, avtomatlaşdırılmış yeniləmələr, rol əsaslı giriş nəzarətləri və GDPR və CCPA kimi məxfilik qaydalarına uyğunluq. Bu xüsusiyyətlər yalnız qonaqların məxfiliyini qorumaqla kifayətlənmir, həm də məlumat idarəetmə proseslərini asanlaşdırır və müəssisələrin üstün xidmət göstərməyə fokuslanmasına imkan verir. Bulud sistemləri kiberhücumlar, aparat nasazlıqları və ya təbii fəlakətlər kimi fövqəladə hallar zamanı məlumat itkisinin qarşısını almaqda və biznesin fasiləsizliyini təmin etməkdə həyati rol oynayır. Avtomatlaşdırılmış ehtiyat nüsxə həlləri bulud platformalarının əsas xüsusiyyətlərindən biridir və müntəzəm, çoxsaylı məlumat surətlərinin yaradılmasını təmin edir ki, bu surətlər lazım olduqda tez bir zamanda bərpa oluna bilsin. Bu yanaşma əməliyyatlarda minimal pozuntuya yol verir və məlumatların daimi itkisindən qoruyur. Bulud əsaslı fəlakətdən bərpa sistemlərinin miqyaslana bilən və çevik strukturu qonaqpərvərlik müəssisələrinə strategiyalarını dəyişən ehtiyaclara uyğunlaşdırmağa imkan verir. Məsələn, kritik məlumatların real vaxtda surətlənməsi ən yenilənmiş məlumatların belə qorunmasını təmin edir. Bu həllərdən istifadə etməklə müəssisələr qonaqların etibarını qoruyur və çətin şəraitdə belə fasiləsiz əməliyyatları təmin edə bilir.

Rəqəmsallaşmanın artdığı qonaqpərvərlik sahəsində təhlükəsizlik risklərinin müəyyənləşdirilməsi və azaldılması əməliyyatların qorunması və qonaq məlumatlarının müdafiəsi üçün həyati əhəmiyyət kəsb edir. Real vaxt rejimində təhdidlərin izlənməsi və proqnozlaşdırıcı analiz kimi proaktiv tədbirlər müəssisələrə potensial zəif nöqtələri istismar olunmadan əvvəl aşkarlamağa imkan verir. Süni intellekt əsaslı sistemlərdən istifadə etməklə təşkilatlar şəbəkə trafikinə dair anomaliyaları müəyyən edə, icazəsiz giriş cəhdlərini aşkarlaya və ortaya çıxan kiber təhdidləri qabaqcadan görmə imkanına malik olurlar. Müntəzəm auditlər və penetrasiya testləri güclü risk idarəetmə strategiyasının vacib komponentləridir. Auditlər təşkilatın təhlükəsizlik vəziyyətinin geniş qiymətləndirilməsini təmin edir və məlumatların saxlanması, giriş nəzarətləri və ya uyğunluq protokollarındakı zəif nöqtələri üzə çıxarmağa kömək edir. Penetrasiya testləri, kiberhücumları simulyasiya etməklə mövcud müdafiələrin effektivliyini qiymətləndirir və sistemləri gücləndirmək üçün praktik tövsiyələr verir. Bu tədbirlər birlikdə müəssisələrin təhlükəsizlik boşluqlarına vaxtında reaksiya verməsini təmin edir və baha başa gələ biləcək pozuntuların riskini azaldır.

Qonaqpərvərlik sektorunda kiber təhlükəsizliyi gücləndirmək üçün ixtisaslaşmış təhlükəsizlik texnologiyaları təchizatçıları ilə əməkdaşlıq əsas strategiyalardan biridir. Bu tərəfdaşlıqlar müəssisələrə müasir həllər, ekspertiza və daxili imkanlarla təmin olunmayan resurslara çıxış imkanı verir. Etibarlı təchizatçılarla işləməklə qonaqpərvərlik şirkətləri süni intellekt əsaslı təhdid aşkarlama, biometrik autentifikasiya və şifrələnmiş ödəniş platformaları kimi qabaqcıl sistemləri tətbiq edə bilirlər. Məsələn, Accor Hotels kiber təhlükəsizlik firması Symantec ilə əməkdaşlıq edərək məlumatların qorunması üçün alətlər dəstini tətbiq etmiş və qlobal əməliyyatlarında qonaq məlumatlarının qorunmasını artırmışdır. Oxşar şəkildə, Hyatt Hotels IBM Security ilə əməkdaşlıq edərək genişmiqyaslı hadisələrə cavab planı hazırlamış və potensial pozuntulara reaksiya müddətini əhəmiyyətli dərəcədə azaltmışdır. Bu əməkdaşlıqlar göstərir ki, tərəfdaşlıqlar təşkilatın ümumi təhlükəsizlik çərçivəsini gücləndirə bilər və eyni zamanda, əsas missiya olan müstəsna qonaq təcrübəsi təqdim etməyə fokuslanmasına imkan verir.

## Nəticə

Bu məqalə süni intellekt (AI) və bulud texnologiyalarının qonaqpərvərlik sənayesində təhlükəsizlik və məxfiliyi gücləndirməkdəki transformativ rolunu vurğulayır. Üz tanıma vasitəsilə otaqlara təhlükəsiz giriş, anomaliya aşkarlama sistemləri və ağıllı video nəzarət kimi AI əsaslı alətlər əməliyyat təhlükəsizliyini və qonaqların təhlükəsizliyini əhəmiyyətli dərəcədə artırır. Bulud əsaslı sistemlər isə məlumatların təhlükəsiz saxlanması, şifrələnməsi və fövqəladə hallar üçün bərpa imkanları ilə güclü çərçivələr təmin edir, beləliklə, qonaq məlumatlarının bütövlüyü və əlçatanlığı hətta çətin şəraitdə də qorunur. Bu texnologiyalar birlikdə kiber təhlükəsizlik və uyğunluq tələblərini qarşılayır, qonaqların etibarını artırır və qonaqpərvərlik müəssisələrinin nüfuzunu qoruyur.

Gələcək Tendensiyalar Qonaqpərvərlik Təhlükəsizliyində "Qonaqpərvərlik təhlükəsizliyinin gələcəyi kvant şifrələmə kimi qabaqcıl texnologiyaların tətbiqini əhatə etməyə hazırdır. Kvant mexanikası prinsiplərindən istifadə edən bu texnologiya, demək olar ki, qırılmaz şifrələmə metodları yaradaraq həssas məlumatların qorunmasında yeni imkanlar təqdim edir. Lakin belə inkişaf etmiş texnologiyaların inteqrasiyası özünəməxsus çətinliklər də gətirəcək. Yeni məxfilik çərçivələrinin tətbiqi infrastruktura, təlim və uyğunluq tədbirlərinə ciddi investisiyaları tələb edəcək. Müəssisələr gələcək GDPR tipli qanunvericiliklərlə uyğunlaşmalı və əməliyyat effektivliyi ilə yüksək məxfilik standartlarını tarazlaşdırmalıdır. Bundan əlavə, qonaqların etibarını qorumaq üçün məlumat istifadəsi barədə şəffaf kommunikasiya və kiber təhdidlərin azaldılması istiqamətində davamlı səylər zəruridir. Bu çətinlikləri qabaqcadan nəzərə alaraq, qonaqpərvərlik sənayesi innovasiyanı davam etdirə və eyni zamanda, qonaqlarının təhlükəsizliyini və məxfiliyini təmin edə bilər.

## Ədəbiyyat

1. Choice Hotels Case Study. (2022). Investigating cloud misconfigurations and data breaches in hospitality. *Journal of Cloud Security*, (421.
2. Cybersecurity Impact Analysis. (2021). Financial repercussions of data breaches in the hospitality industry. *Journal of Cybersecurity Economics*, (587).
3. Əlirzayev, Ə. (2010). *Turizmin iqtisadiyyatı və idarə edilməsi*. İqtisad Universiteti Nəşriyyatı.
4. Əliquliyev, R. (2013) Bulud texnologiyalarının təhlükəsizlik problemlərinin tədqiqi və analizi. *İnformasiya texnologiyaları problemləri*, 3–14.
5. Jones, M., & Wang, T. (2021). The role of emerging technologies in enhancing the hospitality experience. *International Journal of Hospitality Management*.
6. Kaspersky, E. (2021). Cybersecurity in the hospitality industry: Protecting data and digital identity. *Journal of Information Security,* 215–228.
7. Qasımov, T, & Əhmədov, E. (2022). Turizm sənayesində rəqəmsal texnologiyaların tətbiqi və təhlükəsizlik məsələləri. *Azərbaycan Turizm Tədqiqatları Jurnalı,*45–56. ADMIU Nəşriyyatı.
8. Lee, J., & Park, H. (2022). Overcoming technological integration challenges in legacy hospitality systems. *Journal of Hospitality Technology Studies*, 255.
9. Marriott Case Study. (2019). An analysis of data breaches and their impacts on global hospitality brands. *Data Privacy and Security Review*, 321.
10. Rzayev, S. (2023). Bulud texnologiyalarının qonaqpərvərlik sektorunda tətbiqi və məlumat təhlükəsizliyi problemləri. AMEA, *İnformasiya Texnologiyaları və İdarəetmə Jurnalı,* 78–85.
11. Surendra, M. (2023). Enhancing Security and Privacy in Hospitality with AI and Cloud Technologies. *International Journal of Scientific Research in Computer Science Engineering and Information Technology,* 414–421.
12. Smith, A., Patel, R., & Kim, Y. (2020). *Challenges in integrating cybersecurity frameworks in the hospitality industry*. IEEE Transactions on Industry Applications.

Daxil oldu: 23.06.2025
Qəbul edildi: 22.09.2025

# TƏBİƏT ELMLƏRİ

# NATURAL SCIENCES

DOI: https://doi.org/10.36719/2789-6919/50/104-107

**Lalə Azaylı**
Mərcan Medicare Klinikası
https://orcid.org/0009-0000-9902-1984
lala.azayli@gmail.com

## Pubertatin hormonal fırtınaları ürək-damar problemlərinin proqnozlaşdırıcısı kimi: retrospektiv yönlü bir araşdırma

### Xülasə

Pubertat dövrü orqanizmdə intensiv hormonal dəyişikliklərin baş verdiyi mühüm inkişaf mərhələsidir. Bu dövrdə endokrin sistemin aktivləşməsi nəticəsində estrogen, testosteron, kortizol və böyümə hormonlarının səviyyəsində ciddi dalğalanmalar müşahidə olunur. "Hormonal fırtına" adlandırılan bu proseslər təkcə reproduktiv sistemə deyil, həm də ürək-damar sisteminin funksional vəziyyətinə təsir göstərir. Retrospektiv yönlü bu tədqiqatda pubertat dövründəki hormonal dəyişikliklərin gənclərdə gələcək ürək-damar problemlərinin yaranmasında proqnozlaşdırıcı rolu araşdırılmışdır.

Araşdırmanın məqsədi pubertat dövründə hormon səviyyələri (xüsusilə cinsi hormonlar və stress hormonları) ilə arterial təzyiq, ürək döyüntüsü, lipid profili və bədən kütləsi indeksi arasındakı əlaqəni müəyyən etməkdir. Toplanmış məlumatların təhlili göstərmişdir ki, hormonal balanssızlıq yaşayan yeniyetmələrdə gələcəkdə hipertenziya, aritmiya və metabolik sindrom riskinin artma ehtimalı daha yüksəkdir.

Bu nəticələr pubertat dövründə aparılan erkən hormonal və kardioloji monitorinqin gələcəkdə ürək-damar xəstəliklərinin profilaktikasında mühüm rol oynaya biləcəyini göstərir. Tədqiqatın elmi-praktik əhəmiyyəti ondan ibarətdir ki, yeniyetmələrin sağlam inkişafı üçün endokrin və kardioloji göstəricilərin kompleks qiymətləndirilməsi səhiyyə sistemində prioritet istiqamətlərdən biri kimi qəbul edilməlidir.

***Açar sözlər***: *pubertat, hormonal fırtına, ürək-damar sistemi, yeniyetmələr, endokrin dəyişikliklər, hipertenziya, metabolik sindrom, kardioloji risk, hormonal balans, profilaktika*

**Lala Azayli**
Marjan Medicare Klinic
https://orcid.org/0009-0000-9902-1984
lala.azayli@gmail.com

## Pubertal Hormonal Storms as a Predictor of Cardiovascular Problems: A Retrospective Study

### Abstract

Puberty is a crucial developmental stage characterized by intense hormonal fluctuations within the body. During this period, the activation of the endocrine system leads to significant variations in the levels of estrogen, testosterone, cortisol, and growth hormones. These processes, often referred to as a "hormonal storm," affect not only the reproductive system but also the functional state of the

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

cardiovascular system. This retrospective study investigates the predictive role of hormonal changes during puberty in the development of future cardiovascular problems among adolescents.

The main objective of the study is to determine the relationship between hormone levels (particularly sex and stress hormones) and indicators such as blood pressure, heart rate, lipid profile, and body mass index. The analysis of the collected data revealed that adolescents experiencing hormonal imbalance have a higher likelihood of developing hypertension, arrhythmia, and metabolic syndrome later in life.

The findings highlight that early hormonal and cardiological monitoring during puberty can play a crucial role in the prevention of cardiovascular diseases. The scientific and practical significance of this study lies in emphasizing the importance of comprehensive assessment of endocrine and cardiological parameters as a priority direction in healthcare to ensure the healthy development of adolescents.

***Keywords:*** *puberty, hormonal storm, cardiovascular system, adolescents, endocrine changes, hypertension, metabolic syndrome, cardiological risk, hormonal balance, prevention*

## Giriş

Pubertat dövrü insan inkişafının ən mürəkkəb və dinamik mərhələlərindən biridir. Bu mərhələdə orqanizmdə intensiv fiziki, psixoloji və biokimyəvi dəyişikliklər baş verir. Pubertatın başlanğıcı əsasən hipotalamo–hipofizar–cinsi (HHG) oxun aktivləşməsi ilə əlaqədardır ki, bu da gona-dotropinlərin və cinsi hormonların — estrogen və testosteronun — ifrazının artmasına gətirib çıxarır. Hormonların bu kəskin artımı, adətən "hormonal fırtına" kimi xarakterizə olunur və reproduktiv funksiyaların formalaşmasında, həmçinin, ikincili cinsi əlamətlərin inkişafında mühüm rol oynayır. Lakin bu proseslər təkcə reproduktiv sistemlə məhdudlaşmır; hormonal dalğalanmalar eyni zamanda orqanizmin digər sistemlərinə, xüsusilə ürək-damar sisteminə ciddi təsir göstərir.

Pubertat dövründə endokrin dəyişikliklər lipid mübadiləsini, arterial təzyiqin tənzimlənməsini və damar tonusunu əhəmiyyətli dərəcədə təsirləndirir. Kortizol, böyümə hormonu (GH) və insulinə bənzər böyümə faktoru-1 (IGF-1) kimi hormonlar ürək-damar tənzimlənməsində mühüm rol oynayır və bu sistemlərdə funksional dəyişikliklərə səbəb ola bilər. Müxtəlif tədqiqatlar göstərir ki, bu dövrdə simpatik sinir sisteminin aktivliyinin artması, lipid və qlükoza mübadiləsinin pozulması erkən yaşlarda hipertenziya, damar endotelinin disfunksiyası və metabolik sindrom riskini yüksəldə bilər. Bu, pubertatı gələcək ürək-damar sağlamlığının və ya xəstəliklərinin formalaşdığı kritik bir mərhələ kimi qiymətləndirməyə əsas verir (Widén, et al., 2012).

Bundan əlavə, pubertat dövrünə xas olan psixososial gərginliklər, emosional dalğalanmalar, yuxu pozuntuları və qidalanma vərdişlərindəki nizamsızlıqlar da hormonal və kardioloji sabitliyə mənfi təsir göstərə bilər. Xüsusilə, stress hormonlarının — kortizol və katexolaminlərin — yüksəlməsi damar reaktivliyini artıraraq arterial təzyiqin dəyişkənliyinə və erkən damar struktur dəyişikliklərinə səbəb ola bilər. Bu baxımdan, pubertat yalnız reproduktiv yetkinlik dövrü deyil, eyni zamanda, ürək-damar sisteminin tənzimlənməsi və adaptasiyası üçün də həssas bir inkişaf mərhələsidir (Allalou, 2023).

Gənclər arasında ürək-damar xəstəliklərinin artan yayılma tendensiyası bu mərhələdə risk faktorlarının erkən müəyyənləşdirilməsini profilaktik təbabətin əsas prioritetlərindən birinə çevirir. Retrospektiv və uzunmüddətli tədqiqatlar göstərir ki, pubertat dövründə baş verən müvəqqəti hormonal disbalanslar sonrakı illərdə davamlı kardiometabolik dəyişikliklərə zəmin yarada bilər.

**Tədqiqat**

Bu tədqiqatın məqsədi pubertat dövründə hormonal dəyişikliklərin — xüsusilə cinsi və stress hormonlarının səviyyə fərqlərinin — arterial təzyiq, lipid profili, ürək döyüntüsü və bədən kütləsi indeksi kimi göstəricilərlə qarşılıqlı əlaqəsini müəyyənləşdirmək, beləliklə də bu dövrdə hormonal fırtınaların gələcək ürək-damar xəstəliklərinin proqnozlaşdırıcısı kimi rolunu elmi əsaslarla qiymətləndirməkdir.

Bu tədqiqat pubertat dövründə yaranan hormonal dəyişikliklərin gənclərdə ürək-damar problemlərinin proqnozlaşdırıcı göstəriciləri kimi rolunu müəyyənləşdirməyə yönəlmiş retrospektiv

araşdırmadır. Tədqiqatın məqsədi pubertat dövründə baş verən hormonal fırtınaların — estrogen, testosteron, kortizol və böyümə hormonlarının səviyyəsindəki dalğalanmaların — uzunmüddətli kardiometabolik nəticələrə təsirini elmi əsaslarla qiymətləndirməkdir. Araşdırma zamanı pubertat dövründə endokrin dəyişikliklərlə arterial təzyiq, ürək döyüntüsü, lipid profili, bədən kütləsi indeksi və digər kardioloji göstəricilər arasındakı əlaqə təhlil ediləcək, hormonal balanssızlığın gələcəkdə hipertenziya, aritmiya və metabolik sindrom riskinin formalaşmasında oynadığı rol təhlil olunur.

Tədqiqat retrospektiv dizaynla aparılacaq və 14-18 yaş arası yeniyetmələrin tibbi göstəriciləri, xüsusilə endokrin və kardioloji parametrləri təhlil ediləcək. Məlumatlar 2 saylı Uşaq və Yeniyetmə Klinik Mərkəzinin arxiv məlumatları əsasında toplanacaq. Hormonal göstəricilərlə kardiometabolik dəyişikliklər arasındakı əlaqə əsas qiymətləndirmə kriteriyası kimi götürüləcək. Ölçmə metodları kimi laborator analizlər, klinik məlumatların retrospektiv qiymətləndirilməsi və statistik işləmələr tətbiq olunacaq.

Gözlənilir ki, pubertat dövründə hormonal balanssızlıq yaşayan yeniyetmələrdə gələcəkdə hipertenziya, lipid disbalansı və metabolik sindrom riskinin artma ehtimalı daha yüksək olacaq. Bu nəticələr pubertat dövründə hormonal və ürək-damar göstəricilərinin paralel izlənməsinin profilaktik təbabətdə vacib rol oynadığını göstərəcək. Tədqiqatın elmi və praktiki əhəmiyyəti ondadır ki, yeniyetmələrdə endokrin və kardioloji göstəricilərin erkən mərhələdə kompleks qiymətləndirilməsi gələcəkdə ürək-damar xəstəliklərinin qarşısının alınması və sağlam inkişafın təmin olunması üçün mühüm istiqamət kimi qəbul edilə bilər (Dapamede, 2025).

Hormonal fırtınalar zamanı orqanizmdə gedən fizioloji proseslər kardiovaskulyar sistemin fəaliyyətinə mühüm təsir göstərir. Testosteron və estrogen kimi cinsi hormonlar damar tonusuna, lipid metabolizminə və arterial təzyiqə təsir edən mühüm tənzimləyicilərdir. Məsələn, estrogen damarların elastikliyini artırır, antioksidant və antiinflamator təsir göstərir, bu da qız yeniyetmələrdə pubertatın başlanğıc mərhələsində müəyyən qoruyucu rol oynayır. Lakin hormonal balansın pozulması, xüsusilə androgenlərin və kortizolun yüksəlməsi, arterial hipertenziya, dislipidemiya və insulin müqaviməti riskini artırır. Bu dəyişikliklər uzunmüddətli dövrdə ürək-damar xəstəliklərinin əsas patofizioloji mexanizmlərindən biri kimi çıxış edə bilər (Puska, 2016).

Araşdırmanın retrospektiv istiqaməti əvvəlki illərdə toplanmış tibbi məlumatların sistemli təhlilinə əsaslanır. 14-18 yaş arası yeniyetmələrin tibbi kartları və laborator nəticələri üzərində aparılan təhlillər zamanı hormon səviyyələri ilə ürək-damar göstəriciləri – sistolik və diastolik təzyiq, nəbz dərəcəsi, xolesterin və trigliserid səviyyələri – arasında korrelyativ əlaqələr müəyyən ediləcək. Əldə olunan nəticələrə əsasən hormonal dəyişikliklərin ürək-damar sisteminə təsiri cinslər üzrə ayrıca qiymətləndiriləcək. Belə ki, qızlarda estrogen üstünlüyü, oğlanlarda isə testosteron artımı nəticəsində fərqli fizioloji təsir mexanizmləri müşahidə olunur.

## Nəticə

Tədqiqatın elmi əsaslarından biri də endokrin sistemlə kardiovaskulyar sistem arasında qarşılıqlı əlaqənin erkən yaşlarda formalaşmasıdır. Hormonların dəyişkənliyi zamanı simpatik sinir sisteminin aktivləşməsi, arterial damar divarlarında struktur dəyişikliklər, həmçinin, lipid mübadiləsinin pozulması gələcəkdə aterosklerotik proseslərin başlanğıcını təşviq edə bilər. Bu baxımdan pubertat dövrü yalnız reproduktiv inkişaf mərhələsi kimi deyil, həm də gələcək kardiometabolik sağlamlığın əsasını qoyan kritik dövr kimi qiymətləndirilməlidir.

Yekun olaraq, qeyd edək ki, pubertat dövründə hormonal dəyişikliklər orqanizmdə çoxsaylı fizioloji sistemləri, xüsusilə ürək-damar sistemini əhatə edən kompleks təsirə malikdir. Bu mərhələdə hormonal balanssızlığın vaxtında aşkarlanması və izlənməsi gənclərdə gələcəkdə kardiometabolik xəstəliklərin profilaktikasında mühüm rol oynaya bilər. Tədqiqatın nəticələri pubertat dövründə endokrin və kardioloji göstəricilərin paralel izlənməsinin əhəmiyyətini elmi əsaslarla təsdiqləməyi hədəfləyir.

## Ədəbiyyat

1. Allalou, A., et al. (2023). Impact of puberty, sex determinants and chronic disease on cardiovascular risk factors in youth. *Frontiers in Endocrinology, 14*, 103352.
2. Alqarni, A., et al. (2022). Hormonal factors moderate the associations between vascular risk factors and white matter hyperintensities. *arXiv.*
3. Berenson, G. S., et al. (2017). Bogalusa Heart Study: A long-term epidemiologic study of cardiovascular risk factors in youth. *American Journal of Epidemiology, 185*(11), 1001–1009.
4. Cheng, T. S., et al. (2022). Adverse effects of early puberty timing in girls and women. *Journal of Pediatric and Adolescent Gynecology, 35*(6), 741–746.
5. Dapamede, T., et al. (2025). Novel AI-based quantification of breast arterial calcification to predict cardiovascular risk. *arXiv.*
6. Kean, A. C., et al. (2021). Cardiovascular health of youth during gender-affirming hormone therapy. *Journal of Adolescent Health, 68*(4), 705–711.
7. Kelsey, T. W., et al. (2011). A validated model of serum anti-Müllerian hormone from conception to menopause. *Human Reproduction, 26*(9), 2434–2443.
8. Kim, C., et al. (2023). Women's reproductive milestones and cardiovascular disease risk: The CARDIA study. *Journal of the American Heart Association, 12*(5), e028132.
9. Martinez, C., et al. (2020). Gender identity, hormone therapy, and cardiovascular risk. *The Lancet Diabetes & Endocrinology, 8*(7), 527–535.
10. Puska, P., et al. (2016). Why did North Karelia-Finland work? Is it transferrable? *Global Heart, 11*(4), 395–400.
11. Shabani, N., et al. (2025). The association between age at menarche and cardiovascular disease risk factors in the MASHAD cohort study. *Scientific Reports, 15*(1), 1372.
12. Silveri, G., et al. (2020). Influence of gender on the relationship between heart rate and blood pressure. *arXiv.*
13. Sun, Y., et al. (2024). Early puberty: A review on its role as a risk factor for cardiovascular disease. *Frontiers in Pediatrics, 12,* 1326864.
14. Widén, E., et al. (2012). Pubertal timing and growth influences cardiometabolic risk factors in young women. *Journal of Clinical Endocrinology & Metabolism, 97*(6), E1067–E1075.

Daxil oldu: 18.06.2025
Qəbul edildi: 02.10.2025

# RİYAZİYYAT VƏ MEXANİKA
# MATHEMATICS AND MECHANICS

DOI: https://doi.org/10.36719/2789-6919/50/108-113

**Lalə Qocayeva**
Gəncə Dövlət Universiteti
riyaziyyat üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0006-5698-1639
lalaqocayeva1@gmail.com
**Bəsti Cəfərova**
Gəncə Dövlət Universiteti
https://orcid.org/0009-0007-4314-007X
mehdiyeva_69@mail.ru
**Elnura Cuvarlinskaya**
Gəncə Dövlət Universiteti
riyaziyyat üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0007-7987-4518
ecuvarlinskaya@gmail.com

## Böyük Verilənlərin (Big Data) analitikası əsasında intellektual sistemlərin qurulması

### Xülasə

Müasir informasiya cəmiyyətində Böyük Verilənlərin (Big Data) sürətli artımı və bu verilənlərdən səmərəli istifadə tələbi yeni texnoloji yanaşmaların və intellektual sistemlərin inkişafını zəruri edir. Böyük Verilənlərin analitikası dəyərli fikirlər əldə etmək üçün böyük məlumatların və böyük verilənlər kimi tanınan mürəkkəb məlumat dəstlərinin sistematik işlənməsi və təhlilinə aiddir. Bu məqalədə böyük verilənlərin analitikası texnologiyaları və onların əsasında qurulan intellektual sistemlərin strukturu, funksiyaları və tətbiq sahələri araşdırılır. Məqsəd müxtəlif sahələrdə qərarvermə proseslərini təkmilləşdirmək üçün Big Data analitikası və süni intellektin sintezindən istifadə imkanlarını dəyərləndirməkdir.

***Açar sözlər:*** *Böyük Verilənlər, Big Data, intellektual sistemlər, süni intellekt, maşın öyrənməsi, məlumat analitikası, qərarvermə*

**Lala Gojayeva**
Ganja State University
PhD in Mathematics
https://orcid.org/0009-0006-5698-1639
lalagocayeva1@gmail.com
**Basti Jafarova**
Ganja State University
https://orcid.org/0009-0007-4314-007X
mehdiyeva_69@mail.ru
**Elnura Juvarlinskaya**
Ganja State University
PhD in Mathematics
https://orcid.org/0009-0007-7987-4518
ecuvarlinskaya@gmail.com

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

# Building Intelligent Systems Based on Big Data Analytics

## Abstract

The rapid growth of Big Data in the modern information society and the demand for its efficient use necessitate the development of new technological approaches and intelligent systems. Big data analytics refers to the systematic processing and analysis of large amounts of data and complex data sets known as big data to obtain valuable insights. This article examines the structure, functions, and application areas of big data analytics technologies and the intelligent systems built on them. The aim is to evaluate the possibilities of using the synthesis of Big Data analytics and artificial intelligence to improve decision-making processes in various fields.

***Keywords:*** *Big Data, intelligent systems, artificial intelligence, machine learning, data analytics, decision making*

## Giriş

Müasir texnoloji inkişaf şəraitində rəqəmsal məlumatların miqyası sürətlə genişlənməkdədir. Son illərin statistik müşahidələrinə əsasən, dünya üzrə rəqəmsal informasiya və böyük verilənlər hər iki ildən bir təqribən ikiqat artmış olur (Manyika, Chui, Brown, Bughin, Dobbs, Roxburgh, Byers, 2011). İnformasiya sahəsində qloballaşma və internetin təsir dairəsinin artması fonunda informasiya müharibələrinin intensivliyi də artır. Bu cür şəraitdə dövlətlərin beynəlxalq informasiya məkanında fəaliyyətini məhdudlaşdırmaq və ya tamamilə qadağan etmək, cəmiyyətin fəallığına, dövlətlərarası informasiya axınına və texnoloji yeniliklərin sürətinə mənfi təsir edə bilər. Eyni zamanda, öz milli informasiya sahəsini genişləndirmək və bu sahədə təhlükəsizliyi təmin etmək istəyən bütün dövlətlərin müasir verilənlər bazalarına, bu verilənlərlə işləmək üçün metod və alətlərə, habelə məlumatların emalı və qorunması texnologiyalarına ciddi ehtiyacı var. Bu və buna bənzər məsələlərlə məşğul olan elmi istiqamət "Məlumat elmi" (Data Science) adlandırılır (Baaziz, Quoniam, 2013).

Böyük verilənlərin analitikası ilə ənənəvi məlumat analitikası arasındakı əsas fərq işlənən məlumatların növü və onu təhlil etmək üçün istifadə olunan alətlərdir. Ənənəvi analitika, adətən, əlaqəli verilənlər bazalarında saxlanılan strukturlaşdırılmış məlumatlarla məşğul olur. Bu tip verilənlər bazası məlumatların yaxşı təşkil edilməsini və kompüterin başa düşməsi üçün asan olmasını təmin edir. Ənənəvi məlumat analitikası verilənlər bazalarını sorğulamaq üçün strukturlaşdırılmış sorğu dili (SQL) kimi statistik metodlara və alətlərə əsaslanır.

Ənənəvi verilənlər bazası sistemləri artıq böyük və müxtəlif formatlı verilən axınlarını səmərəli şəkildə emal edə bilmir. Bu texnoloji məhdudiyyətlər innovativ həllərin formalaşmasına səbəb olmuşdur. Beləliklə, İKT sahəsində genişhəcmli verilənlərin toplanması, saxlanması, işlənməsi və təhlili üçün yeni modellər, həmçinin, proqram platformaları hazırlanmışdır. Eyni zamanda, kompüterlərin emal gücü, yaddaş qurğularının genişlənməsi, müxtəlif sensor cihazların və yüksək sürətli internetin mövcudluğu bu problemlərin həllinə şərait yaratmışdır.

**Tədqiqat**

Son illərdə verilənlərin miqyası və müxtəlifliyi o qədər sürətlə artmışdır ki, bu, texnologiyada ciddi bir keyfiyyət dəyişikliyi mərhələsinə gətirib çıxarmışdır – bu hadisə "Böyük Verilənlər" (Big Data) anlayışı ilə ifadə olunur. Mütəxəssislər hesab edirlər ki, Big Data tendensiyası hazırda İKT sahəsinin əsas hərəkətverici qüvvəsidir (Baaziz & Quoniam, 2013; Sharma, Manqla & Subhash, 2024). Artıq aydın şəkildə görünür ki, məhz Big Data – müxtəlif tipli verilənlərin təhlili, emalı və faydalı nəticələrin çıxarılması baxımından kompüter elmlərinin perspektivli istiqamətlərindən birinə çevrilmişdir.

Bu gün informasiya texnologiyaları sahəsi həm dövlət orqanları, həm də özəl müəssisələr üçün Big Data həlləri təqdim etməyə qadirdir. Böyük şirkətlər – məsələn, banklar, mobil rabitə təminatçıları və satış şəbəkələri – müştəri verilənlərini analiz edərək onların davranışları haqqında ətraflı məlumat əldə edə bilirlər. Bulud texnologiyaları ilə Big Data texnologiyalarının sintezi kiçik

müəssisələrə də yeni imkanlar yaradır. Lakin bütün bu texnoloji üstünlüklərə baxmayaraq, dünya üzrə toplanan rəqəmsal məlumatların cəmi 0,5%-i real olaraq təhlil edilir.

Son onillikdə informasiya texnologiyalarının inkişafı nəticəsində yaranan Böyük Verilənlər həcmi ənənəvi məlumat emalı üsullarının tətbiqini çətinləşdirir. Bu səbəbdən, bu verilənlərin toplanması, saxlanması, emalı və təhlili üçün yeni texnologiyalar və yanaşmalar meydana çıxmışdır. Big Data anlayışı ilk dəfə olaraq 2000-ci illərin əvvəlində irəli sürülmüş və sonradan "3V" (Volume, Variety, Velocity) modeli ilə xarakterizə olunmuşdur. Hazırda bu modelə "Veracity" və "Value" elementləri də əlavə olunaraq "5V" konsepsiyası kimi istifadə olunur (şək.1).




Şəkil 1. Big Data – 5V (Baaziz & Quoniam, 2013)

İntellektual sistemlər, xüsusilə süni intellekt və maşın öyrənməsi əsaslı modellər, Big Data ilə birlikdə daha proqnozlaşdırıcı, adaptiv və səmərəli qərarvermə mexanizmlərinin formalaşmasına səbəb olmuşdur. Bu sistemlər səhiyyə, maliyyə, nəqliyyat, kənd təsərrüfatı, enerji və digər sahələrdə uğurla tətbiq olunmaqdadır. 2000-ci illərin əvvəllərində proqram və aparat imkanlarında irəliləyişlər təşkilatlara böyük həcmdə strukturlaşdırılmamış məlumatları toplamaq və idarə etmək imkanı yaratdı. Faydalı məlumat-ların bu partlayışı ilə açıq mənbə icmaları bu məlumatları saxlamaq və emal etmək üçün böyük məlumat çərçivələri hazırladılar. Bu çərçivələr kompüterlər şəbəkəsində böyük məlumat dəstlərinin paylanmış saxlanması və emalı üçün istifadə olunur. Böyük Verilənlər (Big Data) anlayışı, ənənəvi məlumat emal texnologiyalarının öhdəsindən gələ bilmədiyi həcm, müxtəliflik və sürətə malik məlumatlar toplusunu ifadə edir. Müasir dövrdə hər saniyə milyardlarla məlumat vahidi müxtəlif mənbələrdən – sosial şəbəkələr, sensor cihazlar, mobil tətbiqlər, loq fayllar, video və səs qeydləri – daxil olur. Bu məlumatların dəyərə çevrilməsi isə yalnız məqsədyönlü analitik yanaşmalar və texnologiyalar vasitəsilə mümkündür. Big Data-nı fərqləndirən əsas xüsusiyyətlər aşağıdakılardır (Manyika, et al., 2011; Feblowitz, 2012; Bhateja, Hong, Simic, Tang & Reddy, 2024):

- *Həcm (Volume):* Böyük Verilənlərin əsas xüsusiyyəti onların həcmidir. Gündəlik həyatın rəqəmsallaşması nəticəsində toplanan məlumatlar artıq petabayt və exabaytlarla ölçülür. Məsələn, təkcə Facebook hər gün istifadəçilərindən 500 TB-dan artıq yeni məlumat toplayır.
- *Çeşidlik (Variety):* Verilənlərin növləri çoxşaxəlidir. Ənənəvi strukturlu məlumatlarla yanaşı, yarı-strukturlu və struktursuz məlumatlar da geniş yayılıb. Strukturlu verilənlər, əsasən, cədvəl formatında (məsələn, Verilənlər Bazası), yarı-strukturlu verilənlər XML, JSON formatında, struktursuz verilənlər isə video, şəkil, səs, mətn şəklində olur.
- *Sürət (Velocity):* Verilənlərin toplanma və emal sürəti də Big Data-nın əsas komponentlərindəndir. Realtime və near-realtime analitika biznes və dövlət idarəçiliyində çevik qərarverməni mümkün edir.
- *Etibarlılıq (Veracity):* Məlumatların dəqiqliyi və doğruluğu onların etibarlılıq səviyyəsini müəyyən edir. Səhv və ya yanlış interpretasiya edilmiş məlumatlar nəticələrin keyfiyyətini ciddi şəkildə azalda bilər.
- *Dəyər (Value):* Məlumatın son məqsədi ondan praktiki fayda əldə etməkdir. Yalnız yaxşı qurulmuş analitik sistemlər vasitəsilə məlumatların real iqtisadi və sosial dəyərə çevrilməsi mümkündür.

Böyük Verilənlərin təhlili və istifadəsi üçün bir neçə əsas analitik yanaşma mövcuddur. Bu yanaşmalar müxtəlif məqsədlərə xidmət edir və fərqli texnologiyalarla dəstəklənir (Dean & Ghemawat, 2008):

- *Deskriptiv analitika (təsviri):* Tarixi məlumatların təhlilinə əsaslanır. Məsələn, satış statistikaları, müştəri davranışları və istehsal həcmləri barədə ümumi mənzərə təqdim edir.
- *Proqnozlaşdırıcı analitika:* Məlumatlara əsaslanaraq gələcək hadisələri proqnozlaşdırmaq üçün statistik modellər və maşın öyrənməsi alqoritmlərindən istifadə edir. Məsələn, müştəri tərk etmə ehtimalını və ya satışların dinamikasını əvvəlcədən müəyyənləşdirmək mümkündür.
- *Preskriptiv analitika:* Alternativ qərar yollarını modelləşdirərək optimal variantı təklif edir. Bu yanaşma süni intellekt və optimallaşdırma metodlarına əsaslanır.
- *Real-time analitika:* Məlumatların anında emal edilməsi və qərarların dərhal qəbul olunmasını təmin edir. Bu, xüsusilə maliyyə əməliyyatlarında və təhlükəsizlik sistemlərində vacibdir.
- *Vizual analitika:* Məlumatların daha yaxşı qavranılması üçün vizuallaşdırma vasitələri ilə təqdim edilməsini əhatə edir (məsələn, Tableau, Power BI, Matplotlib).

Böyük verilənlərin effektiv istifadəsi üçün təkcə analitik alqoritmlər deyil, həm də kompleks intellektual sistemlərin qurulması tələb olunur. Bu sistemlər məlumatların toplanmasından başlayaraq onların analizi, vizuallaşdırılması və qərarların verilməsi mərhələlərinədək geniş funksionallığa malik olur. Sosial media platformaları, internet səhifələrinin qeydiyyat faylları və müxtəlif elmi sahələrdə toplanan məlumatlar (məsələn, astronomiya, fizika, genetik tədqiqatlar, hava proqnozları, biokimya və biologiya sahələri) geniş miqyaslı məlumatın – yəni Big Data-nın – əsas mənbələri sayılır. Mövcud statistikaya görə, bu cür məlumatların təxminən 15-20%-i "Əşyaların İnterneti" adlanan texnologiyaların – yəni mobil telefonlar, planşetlər və digər ağıllı cihazların – vasitəsilə toplanır. Gözləntilərə əsasən, 2020-ci ilədək bu texnologiyalar tərəfindən yaradılan məlumatların həcmi ümumi məlumatların 40%-ni təşkil edəcək. Müasir səhiyyə sistemləri də böyük həcmdə məlumat istehsal edir – bunlara tibbi şəkillər, video materiallar və pasiyentlərin real vaxtda müşahidəsi daxildir. Eyni zamanda, enerji istehsal edən müəssisələr, xüsusilə elektrik stansiyaları, çoxsaylı texniki göstəricilərə əsasən hər saniyə və ya dəqiqədə davamlı məlumat axını yaradırlar. Artıq bir müddətdir tətbiq edilən "ağıllı şəbəkə" texnologiyası (Smart Grid) isə ev təsərrüfatlarında elektrik sərfiyyatını saniyə-saniyə və ya dəqiqə-dəqiqə ölçməyə imkan verir (Provost & Fawcett, 2013). Belə böyük ölçülü məlumatların yığılması, idarə olunması, təhlili və təqdimatı üçün müxtəlif alətlər və metodlar istifadə olunur. Bu texnologiyalar bir neçə istiqaməti əhatə edir: statistik hesablama, kompüter elmləri, tətbiqi riyaziyyat və iqtisadi təhlil. Onlardan bəziləri əvvəlcə nisbətən kiçik məlumat dəstələri üçün yaradılmışdı, lakin sonradan böyük verilənlərlə işləməyə uyğunlaşdırıldı. Digər bir hissəsi isə yüksək həcmli məlumatların işlənməsi məqsədilə elmi tədqiqatlardan doğmuş və əsasən Google, Amazon, Yahoo, Facebook kimi texnologiya şirkətləri tərəfindən həyata keçirilmişdir.




Şəkil 2. Big Data arxitekturası

Big Data əsaslı intellektual sistemlərin ümumi arxitekturası bir neçə əsas komponentdən ibarətdir (Chen, Mao & Liu, 2014; Prabhu, Chivukula, Mogadala, Ghosh & Livingston, 2019):

- *Məlumat toplama və inteqrasiya modulu:* Məlumatlar müxtəlif mənbələrdən (sensorlar, sosial media, IoT cihazları, veb loqlar) toplanır və vahid formata salınaraq sistemə daxil edilir.
- *Verilənlərin saxlanması və idarəetmə infrastrukturu:* Bu mərhələdə Hadoop Distributed File System (HDFS), Apache Cassandra, MongoDB, Amazon S3 kimi texnologiyalardan istifadə olunur. Məlumatların paylanmış şəkildə saxlanması və emalı sistemi genişlənən və çevik edir.
- *Emal və analitik modul:* Bu mərhələdə Apache Spark, Flink, Kafka kimi real-time emal mühərrikləri, eyni zamanda, Python, R, Scala kimi proqramlaşdırma dillərində yazılmış maşın öyrənməsi modelləri tətbiq olunur.
- *Vizual interfeys və istifadəçi paneli:* İstifadəçilər üçün nəticələrin başa düşülməsi və təqdim olunması üçün vizuallaşdırma komponentləri mühüm əhəmiyyət daşıyır.

Böyük verilənlərə əsaslanan intellektual sistemlər müxtəlif sahələrdə geniş istifadə olunur:

- *Səhiyyə:* Pasiyentlərin tibbi məlumatlarına əsaslanaraq xəstəliklərin erkən diaqnostikası, fərdi müalicə planlarının hazırlanması və epidemioloji proqnozlar mümkündür.
- *Maliyyə:* Kredit risklərinin qiymətləndirilməsi, fırıldaqçılıq hallarının aşkarlanması və alqoritmik ticarət sahələrində geniş tətbiq olunur.
- *Kənd təsərrüfatı:* Dronlar, sensorlar və peyk məlumatları vasitəsilə məhsuldarlığın analizi və torpaq şəraitinin real-time monitorinqi həyata keçirilir.
- *Nəqliyyat:* Ağıllı nəqliyyat sistemləri marşrut optimallaşdırılması, tıxacların idarə olunması və yol-nəqliyyat hadisələrinin proqnozlaşdırılmasına imkan verir.
- *Sənaye:* Sənaye 4.0 çərçivəsində sensorlar və maşınlar vasitəsilə istehsal zəncirinin optimallaşdırılması, enerji sərfiyyatının azaldılması və texniki nasazlıqların qabaqcadan müəyyənləşdirilməsi təmin olunur.

Süni intellekt (AI) və onun alt sahəsi olan maşın öyrənməsi (ML), Big Data-nın analitik imkanlarını genişləndirərək onu intellektual sistemlər səviyyəsinə yüksəldir. Ənənəvi alqoritmlərdən fərqli olaraq, AI modelləri verilənlərdən öyrənir və zamanla təkmilləşir (Russell & Norvig, 2020; Gherabi & Kacprzyk, 2021).

- *Maşın öyrənməsi* Big Data kontekstində statistik metodlar və ehtimal modellərindən istifadə edərək proqnozlar verir. Nəzarət olunan (supervised), nəzarətsiz (unsupervised) və yarı-nəzarətli (semi-supervised) öyrənmə modelləri geniş tətbiq olunur.
- *Dərin öyrənmə (Deep Learning)* isə sinir şəbəkələri vasitəsilə mürəkkəb və çox qatlı modellərin qurulmasını təmin edir. Bu yanaşma xüsusilə görüntü tanıma, təbii dilin işlənməsi (NLP) və səs analizi kimi sahələrdə uğurludur.
- *Təbii dilin işlənməsi (NLP)* texnologiyaları Big Data içərisindəki mətn əsaslı məlumatlardan istifadə edərək avtomatik məna çıxarmağa və insan-kompüter qarşılıqlı əlaqəsini təkmilləşdirməyə imkan verir.

Nəticədə süni intellekt, verilənlərin səmərəli analizindən tutmuş, ağıllı qərarların qəbuluna qədər geniş funksiyaları yerinə yetirir və insan müdaxiləsini minimuma endirir.

## Nəticə

Big Data və intellektual sistemlərin sintezi müasir dövrün ən mühüm texnoloji inkişaf istiqamətlərindən biridir. Bu texnologiyalar təşkilatlara real vaxt rejimində qərar vermək, prosesləri optimallaşdırmaq və rəqabət üstünlüyü qazanmaq imkanı verir. Lakin bu imkanlardan tam istifadə üçün müvafiq infrastruktur, kadr potensialı və etik çərçivələr zəruridir. Gələcək tədqiqatlar bu sahədəki texnoloji və sosial çağırışların öhdəsindən gəlmək üçün mühüm rol oynayacaqdır.

## Ədəbiyyat

1. Baaziz, A., & Quoniam, L. (2013). How to use big data technologies to optimize operations in upstream petroleum industry. *International Journal of Innovation, 1*(1), 19–29.
2. Bhateja, V., Hong, L., Simic, M., Tang, J., & Reddy, V. S. (2024). *Big data analytics və data science*. In *Proceedings of the Eighth International Conference on Information System Design and Intelligent Applications* (Vol. 3). Springer.
3. Chen, M., Mao, S., & Liu, Y. (2014). Big data: A survey. *Mobile Networks and Applications, 19*(2), 171–209. https://doi.org/10.1007/s11036-013-0489-0
4. Dean, J., & Ghemawat, S. (2008). MapReduce: Simplified data processing on large clusters. *Communications of the ACM, 51*(1), 107–113. https://doi.org/10.1145/1327452.1327492
5. Feblowitz, J. (2012). *The big deal about big data in upstream oil and gas*. IDC Energy Insights.
6. Gherabi, N., & Kacprzyk, J. (2021). *Intelligent systems in big data, semantic web and machine learning*. Springer.
7. Manyika, J., Chui, M., Brown, B., Bughin, J., Dobbs, R., Roxburgh, C., & Byers, A. H. (2011). *Big data: The next frontier for innovation, competition, and productivity*. McKinsey Global Institute.
8. Provost, F., & Fawcett, T. (2013). *Data science for business: What you need to know about data mining and data-analytic thinking*. O'Reilly Media.
9. Prabhu, C., Chivukula, A. S., Mogadala, A., Ghosh, R., & Livingston, L. J. (2019). *Big data analytics: Systems, algorithms, applications*. Springer.
10. Russell, S., & Norvig, P. (2020). *Artificial intelligence: A modern approach* (4th ed.). Pearson.
11. Sharma, N., Manqla, M., & Subhash, K. Sh. (2024). Big data analytics in intelligent IoT and cyber–physical systems. In *Proceedings of the Eighth International Conference on Information System Design and Intelligent Applications* (Vol. 3). Springer.
12. Sharma, N., Manqla, M., Subhash, K.Sh. (2024). *Big Data Analytics in intelligent İoT and Cyber – Physical Systems.*

Daxil oldu: 05.05.2025
Qəbul edildi: 18.09.2025

ISSN: 3104-4670
e-ISSN: 2789-6919

# TEXNİKA ELMLƏRİ

# TECHNICAL SCIENCES

DOI: https://doi.org/10.36719/2789-6919/50/114-122

**Tahir Məmmədov**
Gəncə Dövlət Universiteti
riyaziyyat üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0002-9546-3683
tahir.mammadov@gdu.edu.az
**Elçin Cavadov**
Gəncə Dövlət Universiteti
texnika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0002-8868-9617
elcin.cavadov@gdu.edu.az
**İradə Seyidova**
Gəncə Dövlət Universiteti
https://orcid.org/0009-0008-0633-4868
irada.seyidova@gdu.edu.az

## Çevik deformasiya olunan sapa eninə zərbə məsələsi

### Xülasə

Sənayenin müxtəlif sahələrində elastiklikdən əlavə özlülük xüsusiyyətlərinə malik olan materiallardan da geniş istifadə olunur. Buna görə də bu materialların, liflər şəklində, verilən formalı cisim ilə zərbə vurulduğu zaman fiziki vəziyyətinin təyin olunması əhəmiyyətlidir. Eninə zərbə nəzəriyyəsində aktual və vacib problemdən biri də dönmə nöqtəsində sərhəd şərtlərinin təsnifatı və alınmış həllin fiziki reallığı əks etdirməsidir. İlk dəfə eninə zərbə nəzəriyyəsində Ş.M.Mütəllimov göstərmişdir ki, səs sürətindən böyük hallar üçün dönmə nöqtəsinin arxasında (kəskin kəsilmə dalğasının arxasında) çevik konstruksiyaların gərginliyi mənfi qiymət almır və sap (membran) bu hissədə "qırışır". O, vuran cismin sürətindən, cismin həndəsi formasından, sürtünmə əmsalından və materialın mexaniki xüsusiyyətindən asılı olaraq kəskin kəsilmə dalğası cəbhəsində sərhəd şərtlərinin təsnifatını vermişdir.

Məqalədə çevik konstruksiyalara eninə zərbə nəzəriyyəsində istifadə olunan əsas anlayışlar haqda məlumatlar verilir. Zərbənin dəyişən sürətli halı üçün çevik sapın əyilmə oblastında hərəkət tənliyi verilir. Xətti özlüelastik (Maksvell modeli) sapa eninə zərbədə, kəskin kəsilmə dalğası cəbhəsində sərhəd şərtləri araşdırılır. Bu cür məsələlərin həlli dalğa mexanikasının inkişafından əlavə, müxtəlif mühəndis problemlərinin həllində, müxtəlif texnoloji məsələlərin həllində də istifadə oluna bilər.

***Açar sözlər:*** *eninə zərbə, çevik sap, özlüelastik sap, səs sürətindən böyük rejim, səs sürətindən kiçik rejim, paz, əyilmə nöqtəsi, simmetrik paz*

**Tahir Mammadov**
Ganja State University
PhD in Mathematics
https://orcid.org/0009-0002-9546-3683
tahir.mammadov@gdu.edu.az
**Elchin Javadov**
Ganja State University


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

PhD in Technique
https://orcid.org/0009-0002-8868-9617
elcin.cavadov@gdu.edu.az
**Irada Seyidova**
Ganja State University
https://orcid.org/0009-0008-0633-4868
irada.seyidova@gdu.edu.az

# The Problem of Impact on a Flexibly Deformable Shaft

## Abstract

In addition to elasticity, materials with viscous properties are also widely used in various fields of industry. Therefore, it is important to determine the physical state of these materials, in the form of fibers, when they are hit by an object of a given shape. One of the current and important problems in the theory of transverse impact is the classification of boundary conditions at the turning point and the reflection of the obtained solution to physical reality. For the first time in the theory of transverse impact, Sh.M.Mutallimov showed that for cases greater than the speed of sound, the stress of flexible structures behind the turning point (behind the sharp shear wave) does not take a negative value and the rod (membrane) "wrinkles" in this section. He gave a classification of boundary conditions at the sharp shear wave front depending on the speed of the striking object, the geometric shape of the object, the friction coefficient and the mechanical properties of the material.

The article provides information on the basic concepts used in the theory of transverse impact on flexible structures. The equation of motion in the bending region of a flexible rod is given for the variable-velocity case of impact. The boundary conditions in the transverse impact on a linear viscoelastic (Maxwell model) rod, at the sharp shear wave front, are investigated. The solution of such problems can be used in addition to the development of wave mechanics, in the solution of various engineering problems, and in the solution of various technological problems.

***Keywords:*** *transverse impact, flexible thread, viscoelastic thread, supersonic mode, subsonic mode, wedge, inflection point, symmetrical wedge*

## Giriş

Müasir texnikanın müxtəlif sahələrində işlədilən çevik konstruksiyaların qısa müddətli yüklənmə vaxtı gərginlik halını tədqiq etmək həmişə böyük əhəmiyyət daşıyır. Çünki, yükləmə vaxtı konstruksiyanın möhkəmliyi və yaxud dağılmasını proqnozlaşdırmaq texnikada xüsusi maraq kəsb edir. Aydındır ki, əgər konstruksiyanın yüklənməsi bərk cismin zərbəsi ilə yaranırsa, bu prosesin aktuallığını daha da artırır. Bu sahədə yaranmış məsələlərin fiziki modelini qurmaq, sonra isə ona uyğun məsələlərin riyazi modellərini yazmaq və analitik həll etmək olduqca mürəkkəb məsələlərdəndir.

Çevik konstruksiyalara (sapa, membrana) bərk cisimlə zərbə vaxtı, zərbə müddətində konstruksiyanın həndəsi formasının real fiziki prosesə uyğun seçilməsi problemin həllində əsas məsələdir. Çevik konstruksiyaların dalğa dinamikası problemlərinin həlli, yüksək sürətlə hərəkət edən cisimlərin hərəkətinin tormozlanması sxemlərinin yaradılmasında, toxuculuq sənayesində, zərbə vaxtı çevik konstruksiyaların dağılmasının proqnozlaşdırılması məsələlərində tətbiq oluna bilər.

**Tədqiqat**

Məqalədə çevik sapa eninə zərbə nəzəriyyəsinin əsas anlayışları verilir. Sapın hərəkət tənliyi və sərhəd şərtləri təqdim olunur. Əgər vuran cismin sürət $\overline{V}$ vektoru vurulan konstruksiya ilə (sapın, membranın) və vuran cismin kontakt nöqtəsindən keçirilən toxunan müstəviyə perpendikulyardırsa, onda bu zərbəyə eninə, düzünə və ya normal zərbə deyəcəyik. Bütövlükdə çevik konstruksiyalara zərbə nəzəriyyəsində vuran cismin forması və sürəti, konstruksiyanın materialının növü, xarici mühitin xarakteristikaları zərbədən sonra konstruksiyanın həndəsi və fiziki modelinə təsir edən əsas parametrlərdir.

Zərbədən sonra sapın (konstruksiyanın) vəziyyəti aşağıdakı hallardan birində ola bilər: 1.Sükunət halı – bu, sapın (konstruksiyanın) elə bir hissəsidir ki, ora həyəcanlanma hələ çatmayıb; 2.Uzununa hərəkət halı – bu, zərbəyə qədər (konstruksiyanın) həyəcanlanmayan müstəvidə yerləşən düzxətli sap boyu hərəkət oblastıdır. Burada sürət yalnız sap boyu uzununa komponentə malikdir; 3.Zərbə nöqtəsi ilə sapın dönmə nöqtəsi arasındakı sapın əyilmiş oblastında hissəciyin sürətinin eninə komponenti də var.

Axırıncı oblast vuran cismin həndəsi formasından, sürətindən, konstruksiyanın materialından asılı olaraq müxtəlif üç cür həndəsi forma ala bilər. Bunlar aşağıdakılardır:

a) Zərbədən sonra əyilmə oblastında vuran cisimlə konstruksiya bir nöqtədə kontaktda olurlar. Buna nöqtəvi zərbə də deyilir (Mutallimov, 2001). Bu hərəkət sxemi açılma bucağı az və iti cisimlə (paz, konus) zərbə vaxtı baş verir (Şəkil 1.1).

b) Sapın əyilən oblastının bir hissəsi vuran cismin təpə nöqtəsindən başlayaraq səthi üzrə müəyyən hissə söykənir, qalan hissəsi isə cismə söykənmir (Şəkil 1.2).

c) Zərbədən sonra sapın əyilən hissəsi vuran cismin səthinə söykənir və cismə nəzərən hərəkət edir (Şəkil 1.3).

Məqalədə bütün nəzəri məsələlərin həllində yuxarıda deyilən hərəkət sxemi qəbul olunur.

Zərbədən sonra sapın uzununa hərəkət oblastı ilə əyilmə oblastını ayıran sərhəddə kəskin kəsilmə dalğası (Agalarov, 1973) və ya dönmə nöqtəsi deyəcəyik.

Baxılan hərəkət sxemi üçün iki hərəkət rejimi mövcuddur.

1. *Səs sürətindən böyük rejim.* Bu hal üçün dönmə nöqtəsinin sürəti, sapın materialının səs sürətindən böyük olur. Bu hala sapın düzxətli hissəsində (kəskin kəsilmə dalğasının cəbhəsinin önündəki oblastda), sap zərbəyə qədər olan hal vəziyyətində olur (Mamedov, 1998). Başqa sözlə, bu hissədə sap sükunət halında olacaq (Şəkil 1.4).

2. *Səs sürətindən kiçik olan rejim.* Bu halda dönmə nöqtəsinin sürəti sapın materialının səs sürətindən kiçikdir (Şəkil 1.5).

Bu halda dönmə nöqtəsinin önündəki və dönmə nöqtəsinin arxasındakı oblastlar gərginlik halında olacaqlar.




Şəkil 1.1. Nöqtəvi normal zərbədən sonra çevik sapın həndəsi sxemi halında olacaqlar.




Şəkil 1.2. Pazla normal zərbədən sonra çevik sapın bir həndəsi sxemi




Şəkil 1.3. Zərbədən sonra çevik sapın vuran cismin formasının alması halı




Şəkil 1.4. Zərbədə sapda yaranan səs sürətindən böyük hərəkət sxemi




1.5. Pazla zərbədə çevik sapda səs sürətindən kiçik hərəkət sxemi

İndi isə vuran cismin səthinə söykənən hissəsində çevik sapın hərəkət tənliyini yazaq.

Tutaq ki, sonsuz uzunluqlu çevik düzxətli sapa $OY$ oxuna nəzərən simmetrik qabarıq cisimlə dəyişən V sürətilə zərbə endirilir (Mamedov, 2007). Xarici mühitin heç bir təsiri nəzərə alınmır. U ilə vuran cismin təpə nöqtəsindən (O nöqtəsindən) sapın baxılan nöqtəsinə qədər olan uzunluğu işarə edək (Şəkil 1.6).

Sapın $dU$ elementinə aşağıdakı qüvvələr təsir edir:

1) Sapa toxunan istiqamətdə təsir edən yekun gərilmə qüvvəsi

$$\frac{\partial}{\partial U}(F\overline{\sigma})dU \tag{1}$$

2) Gərilmə qüvvəsinin sapa normal komponenti

$$\overline{\sigma}Fd\gamma \tag{2}$$

3) Sapa toxunan istiqamətdə ətalət qüvvəsi

$$\rho FdU\frac{dV}{dt}\sin\gamma \tag{3}$$

4) Sapa normal istiqamətdə ətalət qüvvəsi

$$\rho FdU\frac{dV}{dt}\cos\gamma \tag{4}$$

Burada $F$ - zərbədən sonra deformasiya olunan sapın en kəsiyinin sahəsidir;

$\gamma$ - vuran cismə baxılan nöqtədə çəkilən toxunanın sapın başlanğıc düzxətli istiqaməti arasındakı bucaqdır; $\rho$ - zərbədən sonra sapın sıxlığıdır (Mutallimov, 1997).

Yuxarıda deyilən qüvvələrin təsiri ilə sapın dinamik tarazlıq tənliyinə baxaq, Cismə toxunan istiqamətdə sapın hərəkət tənliyi belə olar:

$$\begin{aligned}\rho FdU\frac{\partial^2 U}{\partial t^2} &= \frac{\partial}{\partial U}(F\overline{\sigma})dU + \rho FdU\frac{dV}{dt}\sin\gamma - \\ &- \mu_1\left(\overline{\sigma}Fd\gamma + \rho F\frac{dV}{dt}dU\cos\gamma\right)\cdot\nu_0\end{aligned} \tag{5}$$




Şəkil 1.6. Küt cisimlə zərbədən sonra sapın həndəsi forması

Burada $t$ - zaman, $\mu_1$ - sürtünmə əmsalı, $\overline{\sigma}$ - sapın deformasiya halında gərginliyidir.

Kütlənin saxlanma qanunundan yazmaq olar

$$\rho_0 F_0 dx = \rho FdU \tag{6}$$

$\rho_0, F_0$ zərbəyə qədər sapın sıxlığı və en kəsiyinin sahəsidir, $x$ - hissəciyinin Laqranj koordinatıdır. Əgər en kəsik dairəsidirsə $F_0 = \pi\frac{d^2}{4}$ ($d$ -dairənin diametridir) olur.

Deformasiyanın

$$\varepsilon = \frac{\partial U}{\partial x} - 1 \tag{7}$$

*Elmi Tədqiqat* Beynəlxalq Elmi Jurnal. 2025 / Cild: 5 Sayı: 10 / 114-122 ISSN: 3104-4670
*Scientific Research* International Scientific Journal. 2025 / Volume: 5 Issue: 10 / 114-122 e-ISSN: 2789-6919

ifadəsini nəzərə alsaq (1.2.6)

$$\rho_0 F_0 = \rho F(1+\varepsilon) \qquad (8)$$

şəklində yazılır.

Əgər $\sigma = \bar{\sigma}\rho_0[\rho(1+\varepsilon)]^{-1}$ şəklində şərti gərginlik daxil etsək və (8) düsturunu nəzərə alsaq, (5) tənliyi bu cür ifadə olunar (Mutallimov, 1999).

$$\rho_0 \frac{\partial^2 U}{\partial t^2} = \frac{\partial \sigma}{\partial x} + \rho_0 \frac{dV}{dt}\sin\gamma - \mu_1\left[\sigma\frac{\partial \gamma}{\partial x} + \rho\frac{dV}{dt}\cos\gamma\right]\nu_0$$

$$\nu_0 = sign\frac{\partial U}{\partial t} \qquad (9)$$

Əgər $V = const$ və zərbə pazla endirilsə, $\frac{d\gamma}{dx} = 0$ $\frac{dV}{dt} = 0$ olar və (9) tənliyi

$$\rho_0 \frac{\partial^2 U}{\partial t^2} = \frac{\partial \sigma}{\partial x} \qquad (10)$$

şəklində yazılar.

Qeyd edək ki, sapın hərəkət tənlyi (10) həm də sapın dönmə nöqtəsinin qarşısındakı düzxətli hissəsində də doğrudur.

Kəskin kəsilmə dalğası cəbhəsində sərhəd şərtlərini təyin edək.

Kəsgin kəsilmə dalğası cəbhəsində şərtləri çıxararkən fərz olunur ki, bu cəbhənin həm önündəki və həm də arxasındakı oblastlarda sap gərginlik vəziyyətindədir.

Sapın dönmə nöqtəsində (kəskin kəsilmə dalğası cəbhəsində) kütlənin saxlanılması və hərəkət miqdarının dəyişməsi tənlikləri ölçüsüz şəkildə aşağıdakı kimidir.

$$\frac{b-\upsilon_1}{1+\varepsilon_1} = \frac{b\sec\gamma - \upsilon_2}{1+\varepsilon_2}; \quad \upsilon_1 = \frac{\partial u_1}{\partial t}; \upsilon_2 = \frac{\partial u_2}{\partial t}$$

$$\frac{b-\upsilon_1}{1+\varepsilon_1}(\upsilon_2 - \upsilon_1\cos\gamma - M\sin\gamma) = \sigma_1\cos\gamma - \sigma_2 - F_S \qquad (11)$$

$$\frac{b-\upsilon_1}{1+\varepsilon_1}(M\cos\gamma - \upsilon_1\sin\gamma) = Q + \sigma_1\sin\gamma$$

Burada $\upsilon_2, \upsilon_1$ - dönmə nöqtəsinin arxasında və önündə hissəciklərin sürətidir; $\varepsilon_2, \varepsilon_1$ - dönmə nöqtəsinin arxasında və önündə sapın deformasiyalarıdır; $\sigma_2, \sigma_1$ - uyğun olaraq dönmə nöqtəsinin arxası və önündəki sapın gərginlikləridir. $\gamma$ - cismə toxunanla sapın əvvəlki vəziyyətləri arasındakı bucaqdır; V –vuran cismin sürətidir; $F_S, Q$ - dönmə nöqtəsində toxunan və normal reaksiya qüvvələridir.

Səs sürətindən böyük hal üçün yəni, $b = Vctg\gamma > a_0$ ($a_0$ - sapda elastik dalğanın sürətidir, $b$ - dönmə nöqtəsinin sürətidir) olanda dönmə nöqtəsinin arxasındakı həyəcanlanma, dönmə nöqtəsinin qarşısındakı oblasta təsir etmir və $\varepsilon_1 = 0,\ \upsilon_1 = 0;\ \sigma_1 = 0$ olur. Bu halda (11) şərtləri

$$\upsilon_2 = (\sec\gamma - 1 - \varepsilon_2)Mctg\gamma;$$

$$F_S = -\sigma_2 + \rho Vctg\gamma(V\sin\gamma - \upsilon_2) \qquad (12)$$

$$Q = M^2 ctg\gamma \cdot \cos\gamma; \left(\mu = \frac{V}{a}\right)$$

şəklində olar.

$\sigma$ və $\varepsilon$ arasında asılılıq (Maksvell tipli)

$$\dot{\sigma} + \frac{E}{\mu}\sigma = E\dot{\varepsilon}$$

və ya

$$\sigma = E(\varepsilon - k_1 e^{-k_1 t}\int_0^t e^{k_1 \tau}\varepsilon(\tau, x)d\tau) \qquad (13)$$

şəklindədir. $k_1 = \frac{E}{\mu}$; $E$ - Yunq moduludur. Burada $\mu$ - özlülük əmsalıdır.

$\upsilon_2, \varepsilon_2, F_S, Q$ kəmiyyətlərini tapmaq üçün (12), (13) tənliklər sistemini qapamaq üçün əlavə bir tənlikdə lazımdır. Bu cür tənliyi

$$(|F_S| < \mu_* Q) \qquad (14)$$

kimi götürmək olar. (4) bərabərsizliyi

$$\upsilon_2 = 0 \qquad (15)$$

şərtini tələb edir. Burada $\mu_*$ dönmə nöqtəsində sürtünmə əmsalıdır. (14) və (15) şərtləri məsələnin çoxsaylı parametrlərinin müəyyən qiymətlərində ödəniləcək, ödənilmə sərhəddi isə

$$|F_S| = \mu_* Q \qquad (16)$$

şərti ilə təyin olunur. Bu halda artıq $\upsilon_2 \neq 0$ olmaqla (12), (14) sistemini qapayan şərt

$$F_S = \mu_* Q sign\, \upsilon_2 \qquad (17)$$

şəklində olacaq.

Amma bu halda $\sigma_2, \varepsilon_2$ - kəmiyyətləri üçün alınan qiymətlər mənfi olur, bu isə fiziki baxımdan qəbul olunan deyil, çünki çevik sap sıxılmaya müqavimət göstərmir. Odur ki, fiziki mənası olan həlli qurmaq üçün, sapın sıxılmaya sıfır müqavimətini nəzərə alan sxem qurmaq zəruriyyəti yaranır (Mamedov, 2009). Məsələnin çoxsaylı parametrlərini məhdudlaşdıran və (17) şərti üçün yararlı olan şərt

$$\sigma_2 = 0 \qquad (18)$$

olacaq. Bu halda $\sigma = \sigma(\varepsilon)$ asılılığı tətbiq olunmur və (18) şərtindən əlavə (17) şərti ödənilməlidir.

Beləliklə, (12), (13) sistemini qapamaq üçün (15), (17) və (18) şərtləri nəzərə alınmalıdır.

Beləliklə, kəskin kəsilmə dalğası cəbhəsində (dönmə nöqtəsində) üç növ sərhəd şərti mövcuddur (Mamedov, 2007).

Birinci halda, əgər (15) şərtini (12) sisteminin birinci tənliyində nəzərə alsaq:

$$\varepsilon_2 = \sec\gamma - 1; \qquad (19)$$

$$\upsilon_2 = 0 \qquad (20)$$

olar.

(19), (20) həllərinin tətbiq olunma oblastı

$$F_s < \mu_* Q \qquad (21)$$

bərabərsizliyi ilə təyin olunur.

$(\gamma, M)$ müstəvisində $F_s < \mu Q$ əyrisindən sağda $M = tg\gamma$ əyrisindən yuxarı və $\gamma = 2\gamma_*$ xəttindən solda yerləşən oblastda kəskin kəsilmə dalğası cəbhəsində şərtlər

$$\varepsilon_2 = \varepsilon_2^{(0)} + k\varepsilon_2^{(1)}t, \qquad (22)$$

$$\upsilon_2 = \upsilon_2^{(0)} + k\upsilon_2^{(1)}t, \qquad (23)$$

kimidir.

Burada

$$\varepsilon_2^{(1)} = -\frac{\varepsilon_2^{(0)}}{b^2 - 1}, \quad \upsilon_2^{(1)} = \frac{b}{b^2 - 1}\varepsilon_2^{(0)}, \; k = \frac{ER}{\mu a_0} \qquad (24)$$

$\varepsilon_2^{(0)}, \upsilon_2^{(0)}$ - xətti elastik məsələdən məlum ifadələrdir və $k, t, b$ - ölçüsüz kəmiyyətlərə gətirilib.

Qeyd edək ki, sərhəd şərtlərində məsələlərin həllində $k$ - kiçik parametr qəbul olunur və həll prosesində bütün axtarılan kəmiyyətlərin kiçik parametrə görə ayrılışı yazılır. Bundan əlavə, ayrılışlarda birinci iki hədd götürülür.

Üçüncü mümkün olan hal $\sigma_2^{(0)} = 0\left(\varepsilon_2^{(0)} = 0\right)$ şərtindən tapılan xətt üzərində baş verir və bu xətt

$$\gamma = 2\gamma_* \qquad (25)$$

şəklindədir.

Beləliklə, $M = tg\gamma$ əyrisindən yuxarı və (25) düz xəttindən sağda (17) şərtini nəzərə alsaq, deformasiya $\varepsilon_2$ və hissəciyin $\upsilon_2$ sürəti üçün

$$\varepsilon_2 = \sin\gamma\left(tg\gamma_* - tg\frac{\gamma}{2}\right) < 0, \qquad \gamma > 2\gamma_*$$
$$\upsilon_2 = M\cos\gamma(tg\gamma - tg\gamma_*) > 0; \quad (\sigma_2 = 0) \qquad (26)$$

(26) həllərindən alınır ki, dönmə nöqtəsinin arxasında gərginlik sıfır olmaqla $\upsilon_2 > 0, \varepsilon_2 < 0$ olur, yəni üçüncü hal üçün sap qırışır (Mütəllimov,1996).

Beləliklə, səs sürətindən böyük olan hal üçün kəskin kəsilmə dalğası cəbhəsində üç növ sərhəd şərtləri aldıq. I növ – (19), (20), ikinci növ – (22), (23), üçüncü növ (26) düsturları ilə ifadə olunarlar.

Beləliklə, alırıq ki, I növ sərhəd şərti

$$\varepsilon_2 = \sec\gamma - 1;$$
$$\upsilon_2 = 0$$

$(M,\gamma)$ müstəvisində (şəkil 1.7) $(OC_3)$ əyrisindən yuxarıda və $CC_1$ əyrisindən solda olan oblastda doğrudur.

II növ sərhəd şərti

$$\varepsilon_2 = \varepsilon_2^{(0)} + k\varepsilon_2^{(1)}t,$$
$$\upsilon_2 = \upsilon_2^{(0)} + k\upsilon_2^{(1)}t,$$

$(M,\gamma)$ müstəvisində $CC_1C_5$ oblastında (şəkil 1.7) doğrudur.




Şəkil 1.7. $(M,\gamma)$ müstəvisində dönmə nöqtəsində yaranan hərəkət sxemi

III növ sərhəd şərti

$$\upsilon_2 = M\cos\gamma\left(tg\gamma - tg\gamma_*\right) > 0; \quad \left(\gamma > 2\gamma_*\right)$$
$$\varepsilon_2 = \sin\gamma\left(tg\gamma_* - tg\frac{\gamma}{2}\right) < 0; \qquad \sigma_2 = 0$$

$(M,\gamma)$ müstəvisində (şəkil 1.7) $C_5C_1C_3$ oblastında doğrudur.

## Nəticə

1.Çevik sapın özlülük xüsusiyyəti onun zərbə müddətində gərginlik və deformasiya halına əsaslı təsir edir. Özlüelastik sapın qırılma gərginliyi xətti elastik sapın möhkəmlik həddi ilə eynidirsə, onda məsələyə daxil olan parametrlərin müəyyən qiymətində sapın qırılması zərbə nöqtəsində başlanğıc anda baş verəcək.

2.Özlüelastik sapın qırılma gərginliyi xətti elastik sapın qırılma gərginliyindən kiçikdirsə, sapın qırılması yenə zərbə nöqtəsində baş verəcəkdir.

3.Özlüelastik sapın qırılma gərginliyi, xətti elastik sapın qırılma gərginliyindən böyükdürsə, zərbə nöqtəsində özlü elastik sap qırılmayacaq.

4.Ön tərəfi müstəvi şəkilli pazla xətti elastik və xətti özlü elastik sapa zərbə vaxtı sapın qırılması pazın müstəvi hissəsinin ucunda (yəni pazın tinində) baş verir.

5.Çevik özlüelastik sap zərbədən sonra zərbə nöqtəsində (və ya pazın tinində) qırılırsa, sap vuran cismin səthi boyu bürüşür, yəni qırılma nöqtəsindən dönmə nöqtəsinə qədər öblastda özlüelastik sap bürüşmə formasında olur. Bu hal çevik sapın fiziki xüsusiyyətindən asılı olmamasını göstərir.

## Ədəbiyyat

1. Agalarov, D. G. (1973). Poperechnii udar po gibkim deformiruemym svyazyam pri nalichii vyazkosti. Rasprostranenie uprugikh i uprugoplasticheskikh voln. *Materialy V Vsesoyuznogo simpoziuma*. “Nauka”, 12–17.
2. Mamedov, Eh. A. (1998). Normal'noi udar po gibkoi uprugoi niti. *Tr. IMM AN Az. T.IX (XVII),* 144–150.
3. Mamedov, Eh. A. (2002). Poperechnyi udar sostavnym klinom po gibkoi niti. *Mekhanika, Mashinostroenie*, (1).
4. Mamedov, T. Dzh. (2006). Smorshchivanie vyazkouprugoi niti pri normal'nom udare klikom no nei. *Mekhanika-mashinostroenie*, (2), 24–26.
5. Mamedov, T. Dzh. (2007). Normal'nyi udar prituplennym klinom po gibkoi vyazko uprugoi niti. *Mekhanika-mashinostroenie*, (1), 14–16.
6. Mamedov, T. Dzh. (2008). Normal'nyi udar prituplennym klinom po vyazko uprugoi niti. *NAN Azerb. Gyandzhinsikii regional'nyi nauchnyi tsentr “Sbornik izvestii”*, (31), 128–135.
7. Mamedov, T. Dzh. (2009). Ob obryve vyazkouprugoi niti pri poperechnom udare prituplennym klinom. *Inzhenernaya fizika*, (11), 3–7.
8. Mutallimov, Sh. M. (2001). *Volnovaya dinamika gibkikh svyazei*. izd. "Elm".
9. Mutallimov, K. Sh. (1996). Poperechnyi udar klinom po uprugo-plasticheskoi niti pri nalichii treniya. *Tr. IMM AN Azerb. Baku, Ehlm, t.* V(XIII), 124–127.
10. Mutallimov, K.Sh. (1996). Normal'nyi udar klinom po gibkoi niti pri nalichii treniya s uchetom obryva. *Dep. AZNIINTI*, (2356-Az.), 6.
11. Mutallimov, K. Sh. (1997). Ob obryve uprugoi niti pri poperechnom udare klinom. “*Prikladnaya mekhanika*”, 33(7), 79–83.
12. Mutallimov, K. Sh. (1999). Udar klinom po uprugo-plasticheskoi gibkoi niti s uchetom davleniya vneshnei sredy. *Tr. IMMAN Azerb., EHLM*, t(IX), 144–149.

Daxil oldu: 08.07.2025
Qəbul edildi: 13.10.2025

# İÇİNDƏKİLƏR
# CONTENTS

## HUMANİTAR VƏ SOSİAL ELMLƏR
## HUMANITIES AND SOCIAL SCIENCES


**Həcər Hüseynova**
Azərbaycan milli mətbuatının formalaşması tarixi və "Əkinçi" qəzeti ........ 9
**Mahir Qəribov**
Əhməd bəy Ağaoğlunun "Hikmət" qəzetindəki yazılarının ideoloji istiqamətləri ........ 14
**Məlahət Abdullayeva**
"Konstitusiya və Suverenlik ili" kontekstində riyaziyyat dərslərində funksiyalar mövzusunun tədrisində vətəndaşlıq mövqeyinin formalaşdırılması ........ 18
**Dağbəyi Allahverdiyev**, **Əli Allahverdiyev**, **Nigar Allahverdiyeva**, **Günel Allahverdiyeva**
Xarici iqtisadi fəaliyyətdə maliyyə səmərəliliyi və sosial-iqtisadi rifah vəhdəti ........ 23
**Səadət Musayeva**, **Xankişi Məmmədov**, **Sevinc İbrahimova**, **Gülər Səfərova**
Materialşünaslıq fənninin tədrisində fənlərarası əlaqənin xarakterik cəhətləri ........ 31
**Müşfiq Çobanov**
Tiflis ədəbi mühitində Azərbaycan milli mətbuatı ........ 36
**Tamam Mehrabova**
Azərbaycan və Türk dillərində cümlənin II dərəcəli üzvləri arasında fərqli sintaktik məqamlar ........ 54
**Mehriban İmanova**
Büdcə təşkilatlarında maliyyə hesabatlılığının inkişafı və təkmilləşdirilməsi istiqamətləri ........ 58
**Şəhla İbrahimova**
Psixodinamik yanaşmada şəxsiyyətin öyrənilməsi (mahiyyəti və strukturu) ........ 64
**Sevda Tağıyeva**
Heydər Əliyev siyasətində dövlətçilik prinsipləri və milli inkişaf modeli ........ 69
**Fidan Məmmədova**
Öz əsrinin ayinəyi-həqiqət nüması – Seyid Əzim Şirvani ........ 73
**Farhad Atakishiyev**
Economic Analysis Models: Structural Analysis ........ 77
**Nabat Abdullayeva**
Azərbaycan toponimlərinin təsnifatı ........ 81
**Yusif Ələkbərli**
Paylayıcı logistika strategiyalarının təsnifatı barədə nəzəri-metodiki yanaşmalar ........ 85
**Agasalim Aliyev**
Environmental Regulation and its Impact on Economic Competitiveness in Azerbaijan ........ 91

**Tusi Məhərrəmzadə**
Siyasi-iqtisadi sanksiyaların tətbiqi prosesində insan haqlarının qorunmasına yeni yanaşmalar ... 95
**Əli Qafarlı**
Qonaqpərvərlik sənayesində rəqəmsal risklərin azaldılmasında AI və Bulud sistemlərinin əhəmiyyəti ... 99

## TƏBİƏT ELMLƏRİ
## NATURAL SCIENCES

**Lalə Azaylı**
Pubertatin hormonal firtınaları ürək-damar problemlərinin proqnozlaşdırıcısı kimi: retrospektiv yönlü bir araşdırma ... 104

## RİYAZİYYAT VƏ MEXANİKA
## MATHEMATICS AND MECHANICS

**Lalə Qocayeva, Bəsti Cəfərova, Elnura Cuvarlinskaya**
Böyük Verilənlərin (Big Data) analitikası əsasında intellektual sistemlərin qurulması ... 108

## TEXNİKA ELMLƏRİ
## TECHNICAL SCIENCES

**Tahir Məmmədov, Elçin Cavadov, İradə Seyidova**
Çevik deformasiya olunan sapa eninə zərbə məsələsi ... 114

**Redaksiyanın ünvanı**
AZ1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
"Azərbaycan" nəşriyyatı, 6-cı mərtəbə
Tel.: +994 99 806 67 68
+994 99 808 67 68
e-mail: tedqiqat.1707@aem.az

**Editorial address**
AZ1073, Baku,
Matbuat Avenue, 529,
"Azerbaijan" Publishing House, 6th floor
Phone: +994 99 806 67 68
+994 99 808 67 68
e-mail: tedqiqat.1707@aem.az

İmzalandı: 26.10.2025
Onlayn çap: 30.10.2025
Kağız çapı: 10.11.2025
Kağız formatı: 60x84, 1/8
H/n həcmi: 15,75 ç.v.
Sifariş: 100

Signed: 26.10.2025
Online publication: 30.10.2025
Paper printing: 10.11.2025
Format: 60/84, 1/8
Stock issuance: 15,75 p.s.
Order: 100

---

**"ZƏNGƏZURDA"**
Çap Evində çap olunub.
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529,
"Azərbaycan" nəşriyyatı, 6-cı mərtəbə
Tel.: +994 12 510 63 99
e-mail:zengezurda1868@mail.ru

It has been published inthe printing house
**"ZANGAZURDA"**
Address: Baku city, Matbuat Avenue, 529,
"Azerbaijan" Publishing House, 6th floor
Phone: +994 12 510 63 99
e-mail: zengezurda1868@mail.ru